www.achiq.info

# شهریورین اون ایکیسی

۱۳۲۴ — ۱۳۲۵

آذربایجان دموکرات فرقه سینین بیرینجی ایل دونومی مناسبتیله

مرکزی تبلیغات شعبه سینین نشریه سی

تبریز — ۱۳۲۵

قیمتی بیر ل.هم

Azərbaycan Milli Hökümətinin İldönümü Münnasibətilə

**Səhifə Dizin**


5 Oniki Şəhrivər Necə Təşkil Oldu

9 «Budur Bizim Axır Sözümüz!»

11 Bizim Şüarlarımız

14 Tşkilat Necə Vücuda Gəldi?

16 Birinci Konqrə

16 Tehran Mürtəceləri Nehzətimizə Zəmiynə Hazırladılar

17 Tehran Barmağı

17 Dövlət məmurlarının kəndlərdə yaratdığı fəcayei ifşa etmək

20 Birinci Konqrənin Təsiri

21 Tehran titrədi, Sədr yıxıldı

21 Milli Hökümət Təşkili Yolunda

23 Fizuli Mövquf

24 İkinci Dövrənin Şüarları

25 Qərarlar

26 Böyük Xəlq Yığıncaqları

31 Azərbaycan Məclis- Müəssisan - Millisinin Qərarları

33 Heyət- Milli

39 Məclis- Millimiz

44 21 Azər

47 Azərbaycan Milli Höküməti

48 Azərbaycan Milli Hökümətinin Proqramı

51 Milli Hökumət

52 Azərbaycan Milli Hökumətinin Elamiyəsi

54 Böyük Məsüliyət Qarşısında

56 Tariyxi Bir Sənəd

57 Azərbaycanın Daxili Dövlət Rəisi İlə Təbriz Padiqani Fəmandehi Arasındaki Qərardaın Mətni

59 Təbriz Padiqanı Öz Əsləhəsini Yerə Qoydu
59 Üçüncü Ləşgər Sərbazlarının Qaçmağı Və Mütəvari Olmağıı
60 Dünən Gecəki Atışmalar
60 Milli Hökumətin Müvəfəqqiyyətlərinin Təəsiri
61 Tariyxi Müvəfəqqiyyət!
62 Milli Dövlətin Qərarları
62 Təbrizdə Azərbaycan Dövlət Darülfünuni Milli Hökumətin Qərari
63 Dil Həqqində Azərbaycan Milli Hökumətinin Qərari
64 Yetim Və Sahabsız Uşaqların Tərbiyəsi Həqqində
66 Azadlığın Müdafiəsi Uğrunda (Fədai Təşkilati)
68 Xəlq Qoşunları
69 Misli Görünməmiş Bir Gün
73 Fəqət Topların Ağzından Çıxan Söz Həqiqətdir!
78 Maarif Sahəsində
80 Ölmək var, Dönmək yoxdur
84 Nehzətimiz Və Dünya Siyasəti
87 Topraq Məsələsi
87 İran Azərbaycanı Milli Hökümətinin Kənd Təsərrüfatı Siyasəti Və Tədbirləri
93 Məclis Millinin Fəaliyyəti
95 Firqənin Təşkilat İşləri
97 Firqəmiz Və Kargər Təbəqəsi
99 Milli Hökümət Xəlqə Hesab Verirkən
99 Milli Məclisin 2 ci Ümumi İclası - Ağayi Piyşəvərinin Verdiyi Guzarış
114 Məşrutə Qəhrəmanlarının Mücəssəmələri
115 Unudulmaz Tarixi Bir Gün
116 Möhtərəm Həmvətənlər!
118 Söz Yox, Əməl Göstərmək Lazimdir
119 Müvafiqətnamə Və Nehzətimizin Yeni Dövri

120 Azərbaycanda Parlayan Azadlıq Günəşi Bütün İrani Işıqlandıracaqdır
123 Azərbaycan Nümayəndələrinin Tehran Höküməti İlə Apardıqları
124 Müzakirələr Barəsində E`lamiyyə
124 Dövlətin Azərbaycan Barəsində İblağiyyəsi
129 Sesəşnbə günü 1325 / 2 / 10 saat 8- də
131 Azərbaycan Nümayəndələri Heyətinin Pişnahadi
132 Layihənin Mətni
136 Ağayi Piyşəvərinin Azərbaycan Xəlqinin Səlahiyyətdar Şəxsiyyətlərinin Konfransında Etdiyi Bəyanat
143 Qət'namə
144 Dövlət və Azərbaycan Nümayəndələri Arasında Müvafiqət Olunmuş Qərardadın Mətni
148 Ağayi Piyşəvərinin Radio Müqabilinə Söylədiyi Tarixi Nitqi
153 Ağayi Piyşəvərinin Azərbaycan Məclis Miillisinin Axirinci İclasındakı Nitqin Xülasəsi
158 Bir Qədər Də İranın Ümumi Vəziyətindən Danışmaq Lazimdir
162 Bir Neçə Kəlimə Də Müvafiqətnamə Həqqində Demək Lazimdir
163 Yeni Dövr, Yeni Şüarlar

# On İki Şəhrivər Necə Təşkil Olundu

Ağayi Pişəvəri və ağayi Şəbistəri arasında aparılan uzun müzakirə və mükatibədən sonra nəhayət ağayi Pişəvəri Ajir ruznaməsini müvəqqətən yoldaşlarının ixtiyarına qoyub, Şəhrivərin əvəllərində Təbrizə gəlməklə Firqəmizin təşkili üçün birinci qədəm götürülmüş oldu.

Bu gün Firqənin ərkanını təşkil edən bu iki sima məmləkətin vəziyətini ciddi surətdə müzakirə etdikdən sonra bu qərara gəldilər ki, o vəqt Hizb Tudə təşkilatının Sədri olan ağayi Badəkanı da cəlb etsinlər.

Ağayi Badəkan uzun müddət apardığı siyası mübarizələrdə aldığı təcrübələri nəzərdə tutub ağayi Pişəvəri və ağayi Şəbistərinin milli şüarlarını təsdiq, onlar ilə bu şüarlar üzərində fədakarlıq göstərməyə hazır olduğunu göstərdi.

O vəqt azərbaycanda Hizb Tudə və Cibəhyi Azadidən başqa siyası bir təşkilat yox idi. Kargərlər ittihadiyəsi isə kamilən Hizb Tudənin təht təsirində idi.

Cibəhyi Azadi isə ağayi Pişəvəri və ağayi Şəbistəri vasitəsilə təşkil olduğuna görə onların nəzərinə şərik olacağı ehtimalı çox qüvətli idi. O vəqtə dək Hizb Tudə təşkilatı ətrafında toplanan üzvlərin böyük fədakarlıqlarına və irticai ünsürlər ilə apardıqları şədid mübarizəyə baxmayaraq əməli bir qədəm götürə bilənməmişlərdi. Bundan əlavə Hizb təbəqatı şüarlar altında çalışdığı üçün ümum əhalini ətrafına toplamağa qadir olmamışdı.

Halbuki Firqəmizin Müəssisləri milli nehzətimizi vicuda gətirmək üçün ümum təbəqatın müəyyən milli şüarlar vasitəsilə cəlb etmək lüzumunu ciddi bir surətdə dərk etmişdilər, ona görə üçlər yə'ni ağayi Pişəvəri, ağayi Şəbistəri və ağayi Badəkan uç günlük müzakirədən sonra bu qərara gəldilər ki, ağayi Pişəvəri və ağayi Şəbistəri əvəl Demokrat Firqəsi namilə milli bir təşkilat vicuda gətirsinlər. Ağayi Badəkan isə Tudə təşkilatlarının başçıları ilə müzakirə edib iki Firqənin birləşməsinin vəsailini fərahəm etsin. Bu təsmimdən sonra ağayi Pişəvəri ilə, ağayi Şəbistəri Demokrat Firqəsinin təşkilinə başladılar. Əvəlcə azadixah şəxslərdən müəssislər tapmaq lazim idi.

Bu isə müşgül bir məsələ hesab olunurdu, çünki xəlq siyasi təşkilatlardan nətiycə almayıb sözdən və təzahürdən başqa əməl görənmə dikələrinə görə çox çətinlik ilə işləməyə hazır olurdular, məxsusən Firqə rəhbərlərinin tə'qib etdiyi üçün milli şüarlar daha böyük fədakarlıq tələb edirdi. O vəqtə dək Fars mütə'siblərinin apardıqları təbliğat sayəsində, Azərbaycanlı özünün milli xüsusiatını

izhar etməyə cürət nişan verə bilənmədiyi üçün məsələ fövqül'adə ciddi bir məsələ idi, xəlq ümumitlə istədiyini aşkar surətdə dilə gətirə bilmişərdi. Ona görə sadə bir surətdə xəlqə yanaşıb, Firqə təşkilinə də'vət etmək nəticə verə bilmirdi. Bunu nəzərə aldıqdan sonra ağayi Pişəvəri Firqəmizin birinci kətbi mədrəki, fəaliyətimizin bunövrə daşı olan mə'ruf 12- maddəli «On iki Şəhrivər müraciətnamə»- sini Azərbaycan və Fars dillərində qələmə aldı ki, bu müraciətnamə bir iddə azadixahlarin imzasına yetişdikdən sonra Şəhrivərin 12- sində müntəşir olsun.

İmza toplamaq özü müşgül bir iş idi. Bununla belə Firqə yaratmaq istəyən rəhbərlər məyus olmayıb, tanıyıb- bildikləri azadixahlara müraciət edərək müraciətənaməni onlar üçün oxuyub, öz məqsədlərini bəyan etdilər.

İş əvəldə dediyimiz təkin ağır və qədəm xətərnak idi, ona görə hənuz e`lamiyyə müntəşir olmadan əvəl bə'ziləri mütəvəhış olub, öz imzalarını gerı götürmək istədilər, başçıların təsmimi isə qəti idi, ona görə qırx səkkiz nəfərin imzasilə 12- şəhrivərdə müraciətnaməmiz intişar tapdı.

Müraciətnamənin intişarı Azərbaycanda böyük hadisə idi, şəhrivərdən əvəl onun üzü ətrafa göndərildiyi üçün Azərbaycanın hər tərəfindən teleqraflar sel kimi axmağa başladı. İllər boyu azadlıq eşqində yanib yaxılan xəlq kütlələri teleqraflar vasitəsilə özlərinin Demokrat Firqəsinə ilhaqlarını e`lam etdilər. Bu teleqraflar fövqül'adə maraqlı sənədlərdir. Onların bə'zisində, yüzdən ziyadə imza vardır. Bütün şəhər, qəsəbə hətta kəndlərimizədə belə həman şəhrivər günlərində böyük hərəkət vicuda gəldi. Müraciətnamənin intişarından iki gün sonra müntəşir olan Azərbaycan ruznaməsinin səhifhələri təbrik teleqrafları ilə dolmağa başladı, məsələn bu ruznamənin birinci şumarəsində Əhər, Culfa, Mərənddən gələn teleqraflarda 87- imza var idi. Haman ruznamənin ikinci şumarəsində gələn teleqrafların imzası 201 – danaya, ruznamənin üçüncü şumarəsində isə bu imzalar 750 - yə çıxdı. Bu nəhv ilə teleqrafların günlük imzaları minlərə balığ oldu.

Bildiyimiz kimin iki gün müraciətnamədən sonra Azərbaycan ruznaməsi intişar tapdı, bu ruznamə sabiq, Azərbaycan cəmiyətinin orqanı olub ağayi Şəbistərinin müdürlüyü ilə müntəşir ediləmişdi, ona görə haman ad, haman müdiriyyət ilə işə başlandı. Azərbaycan ruznaməsini bu dövrədə ağayi Pişəvəri şəxsən yazıb ona müstəqimən rəhbərlik etdiyi üçün Firqənin gündəlik işlərinin aynası ola bilmişdi. Xəlq hamı bu vasitə ilə Firqənin işlərindən iltila tapır, Firqə üzvləri isə onun məqalələrini özlərinin təbliğat işlərində mövzu qərar verirdilər.

Məxsusən məqalələrdə elamıyənin məvaddı təşərih edilir, onlardan mahıranə bir surətdə siyası və təbliğatı nəticələr alınır, bu vasitə ilə xəlqin əfkarında böyük inqilab yaradılırdı. Məsələn birinci nümrənin baş məqaləsində ağayi Pişəvəri **«Firqəmiz işə başladı»** sərlövhəsi altında belə yazır:

«Düşnəbə gonu Firqəmizin müraciətnaməsi intişar tapdı. Bu müraciətnamə xəlqimiz tərəfindən geniş təvəceh və böyük rəğbətlə qarşılandı. Minlərcə Azərbaycanlyı Azərbaycan şəhərlərində, müraciətnamə yapışdırılmış divarların qabağında toplanıb ürək döyüntüsü ilə onu oxudu, düşündü, alqışladı, bu vasitə ilə səadət və azadlığı üçün yol açıldığını his etdı.

Müraciətnaməmizin dili olduqca aydın və sərih idi. Burada xəlqin istəkləri- arzuları, ehtiyacları çox aydın bir surətdə göstərilmişdi.

Biz İranın istiqlalına əlaqədar olduğumuz ilə bərabər Azərbaycan xəlqinin fərhəngi ixtiyaratı və öz müqəddəratının öz gücü ilə təyin etməsini arzu edirik.

Biz öz dilimizədə fərhəng, behdaşt və dövlət, idarəsi tələb edirik. Öz dilimizədə kitabımız və ədəbiyatımız azad bir surətdə vicuda gəlməsinə xəlqimizin mütərəqqi bir xəlq olmasına imkan verilməlidir.

Biz birinci növbədə öz evimiz olan Azərbaycandan başlayıb buranın tərəqqisini təmin etməyə çalışırıq. Bunun üçün çox sadə və təbi'i bir təşkilatı vicuda gətirəməyi ciddən tələb edirik, bu təşkilat İran qanun əsası payəsini təşkil edən Əyalət və Vilayət Əncümənləri dir. Əyalət və Vilayət əncümənləri taza bir təşkilat dəyildir, onun böyük və tarixi geçmişi vardır, İran xəlqləri məşrutə və azadlıq almaq işındə Azərbaycan xəlqinin Əyalət Əncüməninin fəaliyətinə və fədakarlığına borcludur, ona görə də müstəbiddlər və azadlıq düşmənləri birinci növbədə bu təşkilatı ortadan çıxarmağa müvəffəq olmuşdur.

Firqəmiz milli bir Firqə olduğu üçün sinif və təbəqə nəzərdə tutmayıb ümum cəmaəti öz baydağı altına çağırır, bu vasitə ilə mərkəzi hökümət və yerli məmurların ləyaqətsizliyi nəticəsində meydana çıxan nifaq və bə'zi yaramaz ünsürlərin narəva hərəkətləri sayəsində törənən hərcü- mərc və şuluqluğa xatimə verəcəkdir.

Yenə haman şumarədə ağayi Pişəvəri «İki yol ayricinda, bizim axır sözümüz» ünvanı altında iranın ümumi vəziyətini təşərih edərkən Firqənin yolunu təyin edərək yazır:

Biz demokrası və azadlığı var qüvvəmiz ilə saxlamağa and içmişik, taza bir Hitlər meydana çıxsa da onun azərbaicəna yolu olabılməz. Taza Rizaxanlıq fikirərinə düşən xainlərin azərbaycana hakimiyyət sürmək arzusu ürəklrində qalacaq.»

Azərbaycan özü öz işlərini idarə etməyə qadirdir. Əgər Tehran hoqqabazları Ləndəndən aldıqları ilham üzrə azadlığı məhv etməkde dəvam edərsə, biz bir qədəm irəli qoyub təmamilə oradan qət'- rabitə etməyə məcbur olacayız.

Tehran höküməti gərək bilsin ki, o iki yol ayricinda dayanmışdır, Azərbaycan öz yolunu intixab etmişdir, o azadlıq və demokrası üsuluna doğru gedəcəkdir, əgər Tehran irtica yolunu intixab edərsə xudahafızlıq buyurub Azərbaycansız yoluna dəvam etsin.

# «Budur Bizim Axır Sözümüz!»

Beləliklə Azərbaycan ruznaməsi Firqənin kəsgin dili və qüdrətli təbliğat vasitəsi olub xəlqi və Firqəni hədəfə doğru sövq etməyə başlayır.

Azərbaycan ruznaməsinin məqalələri  xəlq içərisində böyük təsir buraxır və onun qəvi məntiqi oxucuları düşünməyə vadar edir. Eyn halda ruznamə 12- Şəhrivər e`lamiyyəsini bir an belə nəzərdən uzaq salmır. Məsələn ikinci nümrəsində Əyalət Əncüməni barəində yazılan qısa, mə’nalı məqalələrdə aşağıdakı sərih cumlələrə təsadüf ediərik:

«Komitəmiz. çox tez bir surətdə böyüməyə başlamışdır. Bu bizim azadlığımızın zamini ola bilər. Lakin bu kafi dəyildir. Firqə siyası və ictimaı bir təşkilatdır, o xəlqi hidayət və təşkil  edə bilir, lakin ona hökümət edə bilənməz, xəlqə hökümət edə bilən təşkilat Əyalət Əncümni olacaqdır. Bu əncümən gərək demokratik üsul ilə ümum xəlq tərəfindən intixab edilsin, bütün dövlət idarələri və onların başında duranlar öz işlərində bu milli təşkilata tabe olub onun dəsturlarını icra etməyə məcburdular. Azərbaycan Əyalət Əncüməninin böyük siyası mə’nası vardır. Bu əncümən Tehran və iranın ayrı şəhərlərində baş qalldırmış irtica və zid- demokrası cərəyanına möhkəm bir yumuruq və diş sındıran bir cəvab olacaqdır.»

«Tehran irticai bizim əncümən adını eşitdikdə titərəyib əl ayağını itirməyə məcbur olacaqdır.»

Haman bu məqalədə Firqə Sədrinin bu günkü şüarlarımızı pişbinlik etəməsi aydın surətdə meydana çıxır. Ağayi Pişəvərinin yazdığı o məqalədə aşağıdakı cumləni məxsusən oxucularımızın rəhbərləri bugünkü müvəffəqiyyətləri çox aydın surətdə görürmüşlər: «Azərbaycan Əyalət Əncüməni tək Azərbaycan məsələsinin həlli dəyil bəlkə bütün azadlıq məsələsinin həlli deməkdir.»

12- Şəhrivər müraciətnaməsi çox hərarətli bir qələm ilə yazılıb orada Azərbaycanın vəziyəti açıq bir surətdə təşərih edilmişdir. Müraciətnamədə Azərbaycan xəlqinin düçar olduğu əsarət və fəlakətlərin səbəblrini təşərih edərkən onların ortadan qaldırılması əməli yollar da göstərilmişdi.

Müraciətnamədə Azərbaycan muxtariyətinin lüzumu mətin və möhkəm dəlillər ilə isbat edilmiş, bu muxtariyət Əncümən- Əyaləti vasitəsilə təmin edilməsi ortalığa sürülmüşdür.

Bu müraciətnaməni diqqətlə oxuduqda aşkar surətdə görürük ki, Firqə işə başladığı vəqt vəziyəti ciddi bir surətdə mütaliə etmiş, öz şüarlarını onun üzərində qərar vermişdir. Bugünkü müvəffəqiyyətlərimizin əldə edilməsində haman müraciətnamənin böyük təsiri olmuşdur. Keçən 12- Şəhrivərdə qəbul etdiyimiz hədəfə təmamilə yetişdigmizi isbat üçün müraciətnamənin 12- bənd dən ibarət olan şüarını burda təkərar edirik:

## Bizim Şüarlarımız Bunlardır

1- İranın istiqlal və təmamiyyətini saxlamaqla bərabər Azərbaycan xəlqinə daxili azadlıq və mədəni muxtariyət verilməlidir ki, edə bilsin özünün fərhəngi yolunda və Azərbaycanın abadlaşması və tərəqqisi üçün ümum məmləkətin adilanə qanunlarını gözləməklə bərabər öz sərniviştını təyin etsin.

2- Bu mənzuru həyata keçirmək üçün çox tezliklə Əyalət və Vilayət Əncümənlərini intixab edib işə başlamalıdır. Bu əncümənlər fərhəngi, behdaştı və iqtisad sahəsində fəaliyət göstərməklə bərabər qanun əsası mucibincə təmam dövlət işçilərinin əməliyatını təftiş edib onların təğyir və təbdilində izhar nəzər edəcəkdir.

3- Azərbaycanın ibtidayi məktəblərində üç kilasa qədər dərslər fəqət Azərbaycan dilində aparılmalıdır və üç kilasdan yuxarı dövlət dili olmaq üzrə Fars dili də Azərbaycan dili ilə yanaşı tədris edilməlidir. Azərbaycanda milli darulfununun təşkili Demokrat Firqəsinin əsas məqsədlərindən biridir.

4- Azərbaycan Demokrat Firqəsi sənaye və fabrikaların genişlənməsinə ciddi çalışacaq və səy edəcək ki, mövcud fabrikaları təkmil etməklə bərabər işsizliyi rəf etmək üçün, əl və maşın sənaye’ini genişləndirmək üçün vəsilələr yaradıb taza fabrikalar vicuda gətirsin.

5- Ticarətin genişlnməsini, Azərbaycan Demokrat Firqəsi çox lazim və ciddi məsələlərdən hesab edir. Bu günə qədər ticarət yollarının bağlı qallması çoxlu kəndlilərin, məxsusən bağdarların və xırda maliklərin sərvətlərinin əllərindən çıxmasına və onların dilənçi halına düşməsinə səbəb olmuşdur.

Bunun qabağını almaq məqsədi ilə Demokrat Firqəsi bazar tapmaq və Azərbaycan əmti'ələrinin xaricə çıxarılması üçün tranzit yolları axtarmaq işinə ciddi iqdam etməyi və bu vəsilə ilə ümumi sərvətin nüqsanının qabağını almasını nəzərdə tutmuşdur.

6 - Demokrat Firqəsinin əsas məqsədlərindən biri də Azərbaycan şəhərlərinin abadlaşmasıdır. Bu məqsuda çatmaq üçün Firqə səy edəcək ki, çox tezliklə şəhər əncümənlərinin qanunu təğyir tapıb şəhər əhalisinə müstəqil bir surətdə şəhərin abadlığına çalışıb onları abırumənd və müasir hala salmağa imkan verilsin. Məxsusən Təbriz şəhərinin su ilə təmin edilməsi Azərbaycan Demokrat Firqəsinin çox fövri- cari məsələlərindəndir.

7 - Azərbaycan Demokrat Firqəsinin müəssisləri gözəl bilirlər ki, məmləkətin sərvət tovlid edəni və iqtisadi qüvvəsi kəndlilərin qüvətli qoludur. Ona görə bu Firqə edə bilənməz ki, kəndçilər arasında vicuda gələn hərəkəti nəzərə almasın. Buna görə də Firqə səy edəcəkdir ki, kəndlilərin ehtiyaclarını təmin etmək üçün əsaslı qədəmlər götürülsün. Məxsusən kəndli ilə ərbabların arasında müəyyən bir hüdud təyin etmək və bə’zi ərbablar tərəfindən ixtira edilmiş qeyri- qanuni vergilərin qabağın almaq Demokrat Firqəsinin fövrı vəzifələrindəndir.

Firqə səy edəcək bu məsələ elə bir surətdə həll edilsin ki, həm kəndlilər razı qalsın və həmdə maliklər özlərinin gələcəyindən itminan hasıl edib, rəğbətlə kəndlərinin və öz məmləkətlərinin abadlığına çalışsınlar.

Xalisə yerləri və azərbaycanı tərk edib qaçan və Azərbaycan xəlqinin zəhmətlərinin məhsulunu Tehranda və sayir şəhərlərdə məsrəf edən ərbabların yerləri, əgər tezlik ilə azərbaycana müraciət

etməsələr, Demokrat Firqəsinin əsasnaməsinə müvafiq olaraq kəndlilərin ixtiyarına verilməlidir. Biz özlərinin eyş və nuşundan ötəri azərbaycanın sərvətini xaricə aparanları azərbaycanlı hesab etmirik. Əgər onlar azərbaycana qayıtmaqdan imtina etsələr, onlar üçün azərbaycanda bir haq qail dəyilik. Bundan əlavə Firqə çalışacaq ki, çox səhl və sadə bir surətdə Azərbaycan kəndlilərinin əksəriyətini torpaq və əkin aletleri cəhətdən təmin etsin.

8 - Demokrat Firqəsinin mühüm vəzifələrindən biri də işsizliklə mübarizə etməkdir. İndidən bu xətər çox ciddi bir surətdə özünü göstərməkde dir.

Gələcəkdə bu sel gündən - günə qüvətlənəcəkdir. Mərkəzi dövlət və məhəlli məmurlar tərəfindən bu xüsusda heç bir iş görülməmişdir. Əgər iş bu minval ilə davam edərsə, Azərbaycan xəlqinin əksəriyəti fəna bir hala düşməyə məhkumdur. Firqə çalışır bu xətərin qabağını almaq üçün ciddi tədbirlər görülsün. Hələlik fabrikaların təsisi, ticarətin genişlənməsi, əkinçi təşkilatlarının təsis edilməsi, dəmir və şosa yolların çəkilməsi kimi tədbirlər, mümkündür bir qədər faydalı olsun.

9- İntixabat qanununda azərbaycanın həqqində böyük zülm edilmişdir. Dəqiq iltilaata görə bu ölkədə dörd miliondan yuxarı azərbaycanlı yaşamaqdadır. Bu qeyri adilanə qanun mucibincə azərbaycana məclis- şovrai millidə, 20- vəkil yeri verilmişdir. Bu qətiyyən mütənasib bir bölgü dəyildir. Azərbaycan Demokrat Firqəsi səy edəcək Azərbaycan nüfusuna nisbət vəkil intixab etmə həqqi olsun. Bu təqəribən məclis nümayəndələrinin üçdə birini təşkil edə bilər.

Azərbaycan Demokrat Firqəsi məclis intixabatının mütləqən azad olması tərəfdarıdır. O, dövlət işçilərinin daxili və xarici, həmçinin pulluların qorxutmaq və aldatmaq yolu ilə intixabat işinə qarışmalarına ciddən müxalifət edəcəkdir. İntixabat gərək təmam- iranda ani- vahiddə başlanıb, çox səri' bir surətdə qurtarsın.

10- Azərbaycan Demokrat Firqəsi fasıd, müxtəlis və rüşvə alan şəxslər ilə ki dövlət idarələrinə soxulmuşlar, ciddi mübarizə edəcək və dövlət məmurları arasında saleh və dürüstkar şəxslərdən qədirdanlıq edəcək. Məxsusən Firqə çalışacaq onların maaşları və zindəganlıq şəraitləri elə islah olsun ki, onlar üçün oğurluq və xəyanət etməyə bahana qalmasın, onlar eliyə bilsinlər ki, özləri üçün abırlı həyat vicuda gətirsinlər.

11- Demokrat Firqəsi səy edəcək azərbaycanda alınan vergilərin yarısından yuxarısı azərbaycanın öz ehtiyaclarına sərf edilsin və qeyri- müstəqim vergilər ciddi surətdə azalsın.

12- Azərbaycan Demokrat Firqəsi bütün demokratik dövlətlər, məxsusən müttəfiqlərlə dostluq saxlamaq tərəfdarıdır və bu dostluğu davam etdirmək üçün çalışacaq mərkəzdə və şəhərlərdə İran ilə

müttəfiq demokratik dövlətlər arasında dostluğu pozmaq istəyən xain ünsürlərin əllərini ictimai, siyasi və dövləti işlərdən kənar etsin.

Budur Demokrat Firqəsini yaradanların əsl məqsədləri.

Biz ümidvaruq ki, hər bir vətənpərəst azərbaycanlı istər azərbaycanın daxilində və ya azərbaycandan xaricdə bu müqəddəs məqsədə çatmaq üçün bizimlə həmmsəda və əl bir olacaqdır. Təbii dir ki, insan əvvəl əgər öz evini islah etməsə məhəllə, şəhər və ya məmləkət üçün işləyə bilənməz.

Biz əvəl öz evimiz olan azərbaycandan başlayırıq və inanırıq ki, azərbaycanın islah və tərəqqisi iranın tərəqqisinə səbəb olacaqdır və vətənimiz bu vasitə ilə quldurların və mürtəce'lərin çəngalından nicat tapacaqdır.

Yaşasın Demokrat Azərbaycan!

Yaşasın Müstəqil və Azad İran!

Yaşasın İran və Azərbaycan azadlığının həqiqi məşəldarı olan Azərbaycan Demokrat Firqəsi!

# Təşkilat Necə Vücuda Gəldi?

Müraciətnamədən sonra azərbaycanda böyük təşkilatı fəaliyət başlandı. Şəhərlər və kəndlərdə cəmaət dəstə- dəstə yığılıb Firqənin şö'bəsini təşkil verdilər. Müəssislər sırasına daxil olan üzvlər bu təşkilata səru- surət vermək üçün Müvəqqəti Müəssislər Heyəti tərəfindən ətrafa göndəridi. Bütün ölkəmizi şədid fəaliyət bürüdü. Hər yerdə müəssislər komitələri təşkil olunmaqla təşkilatın payasi qurulmağa başladı.

Böyük hərarət və yorulmaqsızın ciddiyətlə işə başlayan Firqə rəhbərləri tənha təbliğat ilə iktifa etməyib təşkilatı mərkəziləşdirməklə qazanılan geniş təbliğat nəticələrindən əməli istifadə etməyə başladılar.

Bu məqsəd ilə müraciətnamə intişarından sonra 22- şəhrivərdə Müəssislərin ümumi iclası də'vət olunub on bir nəfərdən ibarət bir Müəssislər komitəsi təşkil verməyə müvəffəq oldular.Bu komitəyə əksəriyət ara ilə ağayi Pişəvəri Sədr, ağayi Şəbistəri müavin intixab olundular. Haman gün ağayi Biriya Şovrəyi Müttəhidii Kargəranın Sədri, kargərlər ittihadiyəsinin Demokrat Firqəsinin

rəhbərliyini rəsmən qəbul etdiyini kətbən komitəyə xəbər verdi. Yenə haman gonun axşamı ağayi Badəkan və ağayi Qiyamı Tudə təşkilatının ümumi geniş konfransının təsmimini xəbər verdilər. Bu təsmim vasitəsilə Hizbe Tudənin, Azərbaycan Demokrat Firqəsinə mülhəqq olması qərara alınmışdı. Şovrəyi Müttəhidə və Tüdə təşkilatının birlik təmayülü Demokrat Firqəsini heyrətavər bir tərzədə qüvətləndirdi və qərar oldu ki, Tudə, təşkilatının komitə üzvlərindən bir neçə nəfər Firqənin Müəssislər komitəsinə daxil olsunlar, bu tədbirin nəticəsində sıralarımız inanılmış və mücərrəb kadrlarla möhkəmlənməyə başladı.

Müraciətnaməmiz müntəşir olan kimi Tehran ruznamələri əleyhimizə şədid bir surətdə həmləyə geçib töhmət və iftira qallmadı ki, bizim üstüümüzə atmasınlar. Dərin iman və qəti təsmim üzrə fəaliyətə başlayan Firqə rəhbərlərimiz onlara cəvab vermək əvəzində öz işlərinə idamə verdilər.

Müəyyən nəqşə üzrə olduğu üçün iş çox səri' surətdə pişrəft etməkde idi.

Firqə gizlətmə və ört basdır siyasətinə müxalif olduğu üçün öz məqsədlərini sadə surətdə açıb xəlqə bəyan etdi, işimizin başlanğıcı Qızıl Ordunun ölkəmizədə olduğuna təsadüf etdiyi üçün düşmənlərimiz xəlq arasında sui- təfahüm etmək üçün nehzətimizi təcziyə və ya ayri bir ölkəyə ilhaq ünvanilə ləkələndirmək istirdilər.

Bu sui-təfahümü rəf etmək üçün şəhərimizin ümum təbəqatının baş bilənənlərindən geniş bir iclas də'vət edildi. Bu iclasa ağayi Pişəvəri bir saat yarım sürən nitqində Firqənin şüarlarını şərh verərkən əlilə havada İran nəqşəsini tərsim etdi. Bu cümlə isə bütün nehzət dövrəsi fəaliyətimizin məşəli oldu: Sol və Sağ cərəyanların hər ikisi ilə mübarizə edərkən ağayi Pişəvərinin, 19- şəhrivərdə söylədiyi bu tarixi cümlə nəzərdə tutulmaqla Firqə içərisindən çıxabılən ümum səhv cərəyanların qarşısını məsdud etdi. Təbriz şəhər təşkilatının əsası isə çox tez bir zamanda yəəni mehr ayının beşində vicuda gəldi. İyirmi üç günlük fəaliyət nəticəsində Demokrat Firqəsinə yazılanların sayı (Hizb-Tudə təşkilatından əlavə) minləri təcavüz etmişdi. Mehr ayinin 9- da təşkil tapan konfransda birinci Firqə konqrəsinə 59 nəfər nümayəndə intixab edidi. Böyləlik ilə şəhər təşkilatimizin əsası qoyulub, münəzzəm surətdə işə başlandı.

Bu dövrədə Azərbaycan ruznaməsi böyük rol oynamaqda idi. Xəlq onu sevinc ilə oxur və Firqənin siyasətini dərk edirdi. Ağayi Pişəvəri uzun müddət sürən yazıçılıq təcrübəsini və siyasi mə'lumatını təmamilə ona münhəsir etmiş idi. Məqalələr çox qısa, atəşin vəhərartli idilər. İstər ruznamə istər isə şifahı təbliğat əsərində xəlq içərisində böyük fikri nehzət başlayıb gündən günə yüksəlməkde idi. Şairlərimiz milli nehzətdən ilham alıb çox dərin mə'nali və odlu şerlər yazmağa başladılar.

«Azərbaycan» ruznaməsinin Şəhrivər və mehr aylarında çıxan nümrələrinə diqqət edilirsə təqəribən bütün şa’irlərimizin qiymətli şe’rlərin o dövrədə yazılmış olduğu çox aydın görünər. Ağayi E'timad, ağayi Əli Fətərt, ağayi Azəroğlı, Mədinə xanım Əliəkbərzadə, Müzəffər Dirəfşi və Aşiq Hüsen Cəvan o günlərdə vətəni şerlər yazmaqda böyük şövq və həvəs göstərirdilər.

Fədailərimizin zövq və şövq ilə qulaqlarımızı, nəvaziş edən: «Həmişəlik yaşa Azərbaycan» surudunu da ağayi Nəcəm- Təbriyzi haman şəhrivər ayinda yazıb, Azərbaycan ruznaməsi idarəsinə göndərmiş və mehrdə çap edilmişdi.

Demək xəlqdə dərin ehsasat vicuda gətirilmiş idi . Firqənin səhih rəhbərliyi bu ehsasatı istənilən məqsədə doğru surub ondan təşkilat və siyasi nəticə almağı təmin etdi.

Firqəmizin fəaliyəti bizə bu cəhətdən yaxşı nəticə vermişdir ki, başçılar öz işlərini təsadüfə vaguzar etməyib, müəyyən nəqşə üzrə hərəkət etməyə çalişmişlar.

# Birinci Konqrə

Qabaqdan müəyyən edilmiş proqram üzrə, mehr ayinin 10- da Firqəmizin birinci konqrəsi təşkil tapdı. Bu konqrədə Azərbaycanın bütün şəhər, qəsəbə, və kəndlərindən nümayəndələr intixab olunmuş idilər. Konqrə Firqənin təşkilinə rəsmiyət verməklə (Hizbe Tudeye İran) təşkilatı ilə Demokrat təşkilatının birlşməsini əmələn icra etdi. Bu üç gün dəvam edən konqrə çox böyük və əsaslı məsələlərin həllinə müvəffəq oldu. Bunlardan ən mühümmü Firqənin məram və nizamənaməsinin təsvibi idi.

Şəhrivər ayinin 13- də intişar tapan məramnamə düz bir aydan sonra yə’ni mehr ayinin 12- sində qəbul edilən Firqə məramnaməsi şəkilində daha mükəmməl bir surətdə rəsmiyətə keçdi. Konqrə muxtariyət, yer bölgüsü və milli dilimizin rəsmiyəti kimi böyük şüarlarımızı əsas olaraq mərkəzi komitəyə tapşırıb qət’i ümid və ciddi təsmim ilə xatimə tapdı.

Bu konqrədə qırx bir nəfərlik bir «Mərkəzi Komitə» seçilib, ağayi Pişəvəri Firqə Sədrliyinə, ağayi Şəbistəri ilə ağayi Badəkan Sədr müavinliyinə intixab olundular.

# Tehran Mürtəceləri Nehzətimizə Zəminə Hazırladılar

Bizim milli nehzətimiz yuxarıda yazdığımız sürətlə genişləndikcə Tehran özünün irticai rəftarında ciddileşməyə başlayır.

İran məşrutəsində cəlladlıq vəzifəsilə məşğul olan «Sədr Uləşraf» nehzətimizi boğmaq üçün «Seyid Mehdi Fərrox»- u fövqəla'də ixtiyarat ilə Azərbaycana valı təyin edərkən Firqə də buna cəvab olaraq böyük yığıncaq çağırır və orada Fərroxu qəbul etmək üçün qətnamə sadır olunur.

Məclis- Şovrai Milli isə təmamilə öz masqasını yırtıb, irticai siyasətini biruza verir. Məlik Mədənilər və Əmir Teymur Kəlalilər kimi müstəbidd və faşist ünsürləri riyasət heyətına intixab edir. Bu vasitə ilə Azərbaycan nehzətinin daha da vüs’ətlənməsi üçün müsa'id zəminə vicuda gəlir.

Həmin bu dövrədə Tehranda azadixahların tə'qib və toqifinə iqdam olunur. Məxsusən kargərlər ittihadiəsi başçılarından «Rusta, və Şəmidə» toqif olunur. Tehranda tə'qibdə vaqe’ olan əfsərlər isə Tehranı tərk edib Xorasana və oradan da Səhrəya qaçmaqla canlarını xilas etməyə çalışırlar.

Tehran radiosu Azərbaycan surudunu çalmaqla ümum İran xəlqini əleyhimizə təhrik etməyə çalışır. Bunlar isə irticai siyasətmədarlara əks nəticələr verir və onları öz başlarını itirməyə vadar edir.

# Tehran Barmaqğı

Azərbaycan ruznaməsinin 20- mehr tarixi şumarəsində «Tehran barmaqğı» ünvanlı məqalə Azərbaycanda olan Tehran məmurlarının o günkü xainanə siyasətlərinin üstünü açır, məqalənin bu cumlələri şayan diqqətdir:

«Tehran irticainin qara barmağı Azərbaycan kəndlərində görsənməyə başlanır, bu isə kəndlərdə saysız- hesabsız jandarmlardan ibarətdir.

Kəndliləri güc ilə çəkib fitnə və fisada sövq edirlər. Ərbabların əmlakını hifz etmək və bəhrə almaq bahanası ilə kəndliləri döyür, əzir, incidir və narahat edirlər. Biz çox gözəl bilirik ki,

Azərbaycan maliklərinin böyük bir qisməti sülh və aramiş tərəfdarıdırlar. Vəli müftinlər onların adından xəlqi narahat edir və cür bə cür bahanalar ilə kəndlərdə hüquqı işlərə qarışırlar.

Firqəmiz var quvvəsilə sükutu saxlamağa çalışır vəli fitnəkarlar öz mənhus siyasətlərindən əl götürmək istəmirlər.

Görürsünüz ki, millət və məmləkətin müqəddəratı kimlərin əlində dir? O deyir: biz hüquqı işlərə qarışa bilmərik, kim güclü isə öz işini  qabaqdan aparmalıdır.

Jandarm və əmniyə təşkilatının başında duranların Liqvan hadisəsində böyük cinayətkarlıqları olmuşdur.

Əgər ogun bunlar məsuliyətə cəlb edilsə idi, bu kimi hərəkətlər olunmazdı və bu gün ədliyə rəisi və müddə'i- ülümüm kəndlərdə baş verən cinayətləri öz boyunlarından atmaqla taza bir şurişin meydana çıxmağına yol verməzdilər.

Biz bunilə xəlqimizi təhəmmülə, səbirə və mətanətə də’vət edirik və eyn zamanda fitnə və fisad tovlid edənlərin simaların göstərmək üçün onların nə kimi işlər gördüklərini mədarık və əsnad üzrə yazıb təşkilatımıza verilməsi tövsiyə olunur. »  «P.»

Bu günlərdən sonra jandarmların vəhşilikləri artır. Nəhayət iş o yerə gətirir ki, Firqə bu xüsusda bu cinayətləri ifşa edən bir müraciətnamə nəşri ilə iranın səlahiyətdar idarələrinə və ha belə xarici konsulxanalarına cinayətlərin təfsilatını onların necə bilatə'qib qalmasını göstərir.

Biz aban ayinin 25- də yazılan o sənədi burada ikinci dəfə təkərar edirik:

# Dövlət  Məmurlarının  Kəndlərdə Yaratdıqları  Fəcayei İfşa Etmək Üçün

# Azərbaycan Demokrat Firqəsinin Azərbaycanda Demokrat Dövlətlərinin Dilploması Məmurlarına Və İran Səlahiyətdar Məqamlarına Göndərdiyi Açıq Məktub

Dövlət məmurlarının Azərbaycanda gündən- günə artmaqda olan vəhşiyana faciələrə və beçaraların şikayətlərinə səlahiyətli məqamatın təvəcceh etəməməsi, Azərbaycan Demokrat Firqəsinin mərkəzi komitəsini, azərbaycanda olan Demokrat dövlətlərinin siyasi nümayəndələrini xəlqimizin fəci' və ürək yandırıcı vəziyətindən müttəle etməyə, bu vəsilə ilə xəlqin dilsuz fəryad və naləsini mütəməddin dünyanın qulağına, hansı ki, zülm və vəhşiliyi kökündən qazmaq üçün fədakarlıq və canbazlıqlar etmişlər, yetirməyə vadar etdi.

Böyük dövlətlərin baş konsul və vis konsullarını məmləkətimizdə yandirilan od və alovdan müstəhzər etmək üçün Demokrat Firqəsi əlində olan bir çox əsnad və mədarik üzündən bir neçəsini göstərmək istir.

Azərbaycan Demokrat Firqəsi çarəsiz olaraq bu təəsüfavər iqdamı edir, ondan ötrü ki, hökumət heç öz mütəcaviz məmurlarının ehcafatından cilovgirlik etməyə hazır olmur, bərəks hər gün onun şiddətini artırır. İndi baş verən fəcaye göstərir ki, onlar bu vəsilə ilə Azərbaycan xəlqini aradan aparmaq ya onu orta əsirlərdə olan qullar kimi saxlamaq istirlər. Dodaq kəsmək, dağ qoymaq, qarın yırtmaq və bu fəcaye ilə qətl və qarət etməyin orta əsirlərdə belə az sabiqəsi vardır.

Ağalar! Siz mütəməddin dünyanın nümayəndələri və Demokrat xəlqlərinin göndərmələri bu qəzayanın şahidi olun və intizarımız budur ki, azərbaycanın məzlum millətinin səsini demokrasi dünyasının azad mətbuatında intişar verəsiz.

Əgər bir nəfər bu məzlum və sitəmdidələrin bir neçə nəfərilə söhbət edib və bunların həqqində əmələglən faciələrin yüzdə birindən müttəle olursa hətəmən mütəssir olub şəksiz öz Demokrat millətinə yetirəcəkdir ki, hələ də dünyada elə bir dövlət vardır ki, onun məmurları məmləkətin qanunlarını ayaq altına alıb və öz millətinə dünyada olan bütün insaniyyət qanunlarının xılafına olaraq rəftar edir və orada qanun, məhkəmə- müdəi- ülümumu bir ovuc müstəbidd xudsər və istifadəçi əşxasın əlində alətdır. İranın indiki vəziyəti dünya demokrasısına ardır. Qoy dünya bilsin ki, bir iddə məzlumlar ki, çarəsizlikdən onlara öz məzlumiyətlərin izhar edirlər cəvab versin.

Budur bir qismət dövlət məmurlarının kəndlərdə yaratdığı fəcaye və onların qanunsuzluqları və zulumləri həqqində ədliyə və sayir səlahiyətdar idarələrə yazılan şikayətlərdən ki, həqiqətdə xarvardan bir ovucdur və indiyə qədər də bunlara tərtib- əsər verilməyibdir.

«1- 9, 7, 24 –də «Həştərud» mahalının «Əcəmi» kəndində malik Məhəmməd Sadıqxan Müctehidi və mübaşır Əbdülhüsen Sasani bir iddə müsəlləh jandarmla kəndlilərə həmlə edir, jandarmlardan biri Zülfəli adında bir kəndlini qolundan yaralır və Həsən ağa, Qulam, Fəthəli və Məşhədi İbadullah adlı dörd kəndlini günahsız yerə güllə ilə vurur və beş nəfər kəndlini ağır surətdə yaralayırlar, belə ki, indi də yataqda dırlar. Bununla bərabər qatillər hələ də tə'qib olunmamışlardır. Lakin günahsız kəndlilərdən bir neçə nəfər tutulub və həbs edilmişlərdi.»

2- «Kağəz Künan» mahalında «Qoşa Bulaq» və «Yam Bulaq» kəndlərində 7, 7, 24-də Məhərrəm və Qənbər adlı iki nəfər kəndli Əslan Hümmayun və ustvar İbrahiminin əlilə azadixahlıq cürmi ilə qətlə yetişiblər və jandarmların müsəlləhanə həmləsi nəticəsində kəndlilər öz aılələri ilə çöllərə qaçırlar.

3- «Sarab»- ın «Şərəbiyan» kəndində bir iddə jandarm guruhban Müqəddsin başçılığına kəndlilərin evini və əmvalını qarət və özlərini döyüb həbs edirlər, bir kəndli ölür və neçə arvat, uşaq siqt edir.

4- «Tikmə Daş»- da jandarmlar azadixahların evlərini qarət edirlər və iki nəfərə qədər kəndlilər öz arvat və uşaqları ilə çöllərə qaçırlar.

5- «Əmmənd» kəndində iyirmi nəfər jandarm sərvan Dibanın başçılığı ilə kənlilərin mal və canlarına təcavüz edirlər ki, yüz əlli nəfər kəndli onların zülmündən dəli kimi qaçaraq öz canənları üçün Təbrizə Azərbaycan Demokrat Firqəsinə pənahəndə olurlar.

6- «Susltanabad» kəndində Həsən jandarm və Əli adlı birisi bir nəfər arvadı tüfəng qundağı ilə o qədər döyürlər ki, onu ölüm halına salırlar və haman arvatın iki yaşlı uşağı tüfəng qundağı zərbəsi altında ölür.

7- «Güllü Təpə» kəndində sərvan Abdini bir böyük iddə jandarmlarla azadixahları ağaca bağlayıb və onların qabağa gələnlərini həbs edib və «Mərdanqım» kəndində mürtəce' xanlar jandarmlarla birlikdə bütün azadixahların evlərinə həmlə edirlər. Onların mallarını və əsasiyələrini qarət etdikdən sonra onların başına o qədər işkəncələr gətirirlər ki, bir iddə böyük kəndlilərdən çöl və meşələrə qaçmağa məcbur olurlar. Jandarmların və

bə'zi məhəlli mürtəce'lərin yaratdıqları fəcayedən ədliyə və sayirə qanuni mərcələrə olunan şikayət və e`lam- cürəmlərin sayı bu günə qədər yüzü keçmişdir.

Bütün o kimi mövqelərdə xəlqin məsül məqamlardan mürtəkibləri qanun- əsası hududunda və cəzayı məhkəmələrin üsuluyla tə'qib etmək, jandarm məmurlarının qeyri-qanuni olaraq hüquqı işlərə müdaxilə etməkdən cilovgırlıq olunması təqaza olunmuşdur. (Qəzayı qüvvənin icrəyı qüvvədən ayri olduğunu ədliyənin 3536- nümrə və 11, 5, 24- tarixli jandarm idarəsinə yazdığı bəxşnamə mucibincə, jandarm idarəsinin hüquqı işlərə müdaxilə etməməsi təqaza olunmuşdur. Çünki o idarənin məmurları xəlqin asayişini təmin əvəzində xəlqin qətl və qarət edilməsinin və asayişinin pozulmasının səbəbi olmüşlar.)

(Azərbaycan Demokrat Firqəsinin mərkəzi komitəsinin ictimai işlər şöbəsi) («Azərbaycan» şumarə 56, aban 25, noyabr 16)

Bu cinayətləri yaradan Tehran barmağı isə xəlqi, məxsusən kəndlini təngə gətirir və onu qanlı və şədid mübarizəyə vadar edir. Yeri gəlmişkən bunu da qeyd etmək lazimdir ki, Firqə 30- mehrdən 20- azərə qədər həmişə kənliləri sükuta də'vət edərək azadlığın sülh yolu ilə əldə edilməsini lazim görmüşdür. Tehran barmağı öz cinayətində o qədər israr və səmacət göstərmiş ki, biləxrə Firqə kəndlilərə özünüzü dilfa edin fərmanını verməyə məcbur olmuş, bu fərmanın nəticəsində fədai dəstələri meydana çıxmışdır.

# Birinci Konqrənin Təsiri

Birinci konqrənin təsiri xəlqin içərisində çox böyük oldu. Bu vasitə ilə millətmiz özünə bir mərkəz- siql, bir məlcə, daha doğrusu həqiqi rəhbərlik edici qüvvə tapdığını dərk etməyə başladı. Ona görə bu münasibət ilə yenə də Firqəmizin ilk təşkili günlərində olduğu kimi azərbaycanın hər tərəfindən yüzlərcə təbərik teleqrafları axıb gəlməyə başladı.

Konqrənin qərarlarını və orada təsvib olan məramnaməmizi nəzərə alsaq görərik ki, bu sadə bir yığıncaq dəyil imiş. Bu gün dost və düşmənlərimizin təsdiqi ilə bütün dünyada səs salan böyük nehzətimizin nəqşə və tədbirlərini təhiyə etmək, vaqiən hərbi və inqilabı bir ərkan- hərb işini görmüş oldu.

Bu cəhətdə deyə bilərik ki, konqrənin xatiməsilə milli nehzətimiz başlanıb, münəzzəm bir surətdə xəlqi təşkilat altına almağa müvəffəq oldu.

# Tehran Titərədi, Sədr Yıxıldı

«Fərrux»- un Təbrizə gəlməkdən məyus olması Firqəmizin gündəlik işlərində pişrəft etməsi, Tehran mühitində şədid bir surətdə qorxu tovlid etdi. Nəticədə əl- ayağını itirmiş məclis mürtəceləri «Sədr»-i iş başından kənar etdilər. İrticai heyət- hakimə arasında iki şədid mübarizə başladı. Bir dəstə istəyirdi nehzətimizi silah və polis təşkilatını təqviyət edərək, bu vasitə ilə bir tərəfdən xəlqi mər'ub etmək, o biri tərəfdən fürsət ələ gətirib Firqə başçılarını ortadan aparmağa çalışırdılar. İkinci dəstə isə hiylə və neyrəngə mütəvəssil olub , xəlqimizi iğfal etməyi lazim gördükləri üçün bizə yaxşı bir valı göndərmək və dadlı və'dələr verməyi irəli sürmüşdülər. İttifaqən hər iki güruh dövlət təşkilatında dərin nüfuza malik olduqları üçün öz fikirərlərini müəyyən məmurlar vasitəsilə əncam verməyə müvəffəq olurdular. Bu isə azərbaycanda Farslar demişkən «küsə və rişe pəhn» şəkilində zahir olurdu. Məsələn bir tərəfdən sərhəng «Vərəhram»- lar, «Pərvizı»- lər və «Zəngənə»- lər vasitəsilə kənd və şəhər əhalisini əzir, döyür, ayaqdan salırdlar, o biri tərəfdən mülayimətlilik ilə mə'ruf olan «Hesam- ulsultan Bayat»- ı valı təyin edib ona tapşırırdılar ki, nehzət başçıları ilə saziş etsin. Xəlqin gözünün qabağından pərdə asmaq üçün böyük islahat və'dələri ilə işə başlasın. Bu «kusə və rişe pəhn» siyasət isə xəlqə gizli qalmadığı üçün firqəmizin təbliğatı və təşkilatı fəaliyətini daha da qüvətləndirməyə bais olub və mühitimizdə şədid bir təşənnüc vicuda gətirdi.

# Milli Hökümət Təşkili Yolunda

İş sadə bir çərçuvada dayana bilməzdi. Milli və demokratik şüarlar ilə xəlqi ayağa qaldıran Firqə sözə qənaət edib dura bilməzdi. Tehran isə əməldə güzəşt etmək istəmirdi. «Sədr- üləşraf» kabinəsinin yerini «Həkimi» kabınəsi təbrizdən qaçan mürtəce’lər ilə əlbir olan Tehran irticai qüvvələrinin təht- təsirində qalan, bu sözlərimizi eşitmək belə istəmirdi. Hətta qanun əsasidə sərih bir surətdə qeyd edilmiş sadə əncüməni- əyaləti qanununu belə səfsətə ilə aradan aparmağa çalşırdı.

Bu vəziyəti nəzərdə tutub Tehran heyət- hakiməsinin işlərini dəqiq surətdə tə'qib edən mərkəzi komitə, Firqə məramının icrası üçün sözdən əmələ geçdi.

Bir tərəfdən jandarmların fişar və təziiqindən cana doymuş kəndlilərin arasında fədai dəstələri təşkil etmək, o biri tərəfdən xəlqin arzularını yerinə yetirmək üçün milli dövlət təşkilatı yaratmaq lüzumu meydana çıxdı və bu fikirərin təxir edilmədən icrası ağayi Pişəvərinin müstəqim məsuliyəti ilə ağaz olundu və bütün Firqə başçıları bu hədəfə yetişmək üçün şədid bir surətdə fəaliyətə başladılar. Bu fəaliyətin nəticəsində azərbaycanda olan dövlət təşkilatı mütəzəlzil olub gündən günə zəiflənməyə başladı. Nəhayət əməldə iki hökümət meydana çıxdı ki, onlardan biri gündən günə nüfuz və qüdrət kəsb edən Demokrat təşkilatı, o birisi öz səngərlərini bir- birinin dalısınca tərk etmək məcburiyətində qalan çürümüş dövlət təşkilatı idi.

Axırda iş o yerə gəldi ki, Firqə üzvlərini səbirə, mətanətə və aqilanə rəftara adət vermək üçün Firqə Sədri aşağıdakı məqaləni yazıb, azərbaycan ruznaməsində intişar verdi:

# Fizuli Mövquf

Eşitdiyimizə görə çağrılmamış qonaqlardan şəhridarı rəisi böyük qanunsuzluqlara başlamış. Qanuni surətdə xəlq tərəfindən seçilmiş şəhər əncüməni əvəzində səkkiz ay bundan əvvəl vəqti qurtarmış köhnə əncümən ə'zasının əlilə bə’zi işlər görməyə iqdam etmişdir.

Bu kimi fizulluqların vəqti geçmişdir. Rəisi- şəhərdarı olmasın ondan daha yekəsi olsun, diktatorluq və qanunusuzluğa Azərbaycan xəlqi yol verə bilməz.

Ağayi şəhərdar bir dəfə anlasın ki, bura Azərbaycan dır, diktatorluğu buradan yə’ni azərbaycanın mərkəzindən başlamaq olmaz. Vəqti geçmiş əncümənlərin və ya Məclis- Şovranın vasitəsilə millət malından bir dinar xərc etmək qanun- əsasımızı ayaqlamaq deməkdir.

Bu işi görənlər kim olursa olsun xain və müucrüm tanınmaqla məhkəməyə cəlb olmalıdırlar. Biz dadsitan və qanun mucibincə səlahiyətdar məqamların nəzərini bu ciddi və böyük oğurluq və xəyanətə cəlb edirik. Vizarət- kişvərin babası da şəhər əncümənlərinin istiqlalını poza bilməz. Əgər səlahiyətdar məqamat bu quldur müstəbidd ünsürü məhkəməyə cəlb etməyə fövriyətlə təşəbbüs etməzsə ondan daha səlahiyətli olan xəlq öz hüququndan müdafiə edər. Fizulbaşılar anlasınlar ki, bu asanlıq ilə böyük bir şəhərin hüququnu payimal etmək ucuz başa gəlməz. «Fərrux»-un nəqşəsini icra etmək bu sadəlik ilə baş tutmaz. Şəhərimiz öz işlərini idarə etmək üçün əncümən intixab etmiş,

nəzakət mayillığı əldən verməyib bu günədək onun işə başlamasına müntəzir olmuşdur. Müstəbiddlər, mürtəce’lər və xainlər və xainlər əlində olan vizarət-kişvər isə kəcdar- məriz vasitələr ilə itlafi- vəqt edib, axırda göndərdiyi töhfə, qanununu pozmaq və xəlqin həqqini payimal etməkdən ibarət olmuşdur. Bunu nəzərə alıb mərkəzi komitəmizin fəaliyətdə dəvam edən ümumi iclasından ciddi surətdə qanuni Şəhər Əncüməninin təşkilini təqaza edirik. Qoy Tehran bir dəfə öz təklifini düşünüb bu kimi fizülluqların azərbaycanda baş tutmayacağını yəqin etsin « p.»

Bu məqalə aban ayının on səkkizində iazılmışdır. Məqalənin ləhni isbat edir ki, Firqə son dərəcə qüdrət və iqtidara malik olduğu halda hökümət məmurları fövqüladə bir durətdə zəyif və beçara olmuşlardır. On səkkiz aban ailə ayirmi bir Azər arasında böyük bir fasilə olmadığını nəzərə alsaq aydın surətdə ehsas edirik ki, firqəmiz nə miqyasda özünü daha böyük qədəmlər götürməgə amade edib o gıtürmək istədiyi qədəmlərin müvəffəqqiyətini də iüzdə yüz təmin etmiş imiş. Bu məqalədən iki gün sonra iəni aban ayının 20- dh haman ruznamədə belə bir məqaləyə yenə hə təsadüf edilir.

# İkinci Dövrənin Şüarları

Bu ünvan altında qələmə alınan məqalənin nəhayətində belə yazılır:

((«Bu günkü şüarlarımız əncümənlərin təşkili və on beşinci məclis seçgilərinin səri' bir surətdə başlanmasıdır. Bu iş böyük siyasi bir işdir. O, Firqəni xəlq ilə yaxınlaşdırıb, onun həqiqi rəhbəri məqamına yetirəbilən bir işdir. Heç bir siyasi firqə tək öz üzvlərinin əli ilə istədiyinə nail ola bilməz. Daha artıq xəlq işlərinə qarışıb, Xəlqin arzularını daha da geniş dayirədə anlayıb onların əməli olmasına çalışarsa, o Firqə xəlqə daha artıq yaxınlaşıb, onun bitməz- tükənməz qüdrətindən dahada artıq istifadə edəbilər.»

«İkinci dövrədə Firqə işçilərimizdən bunu tələb edirik.»

« Böyük mitinqlər və geniş konfranslar vasitəsilə əncümənlər və məclis intixabatının mə’nasını anladıb və onları bu yolda mübarizəyə hazırlamaqdan ibarətdir.»

«Bir sözlə quruluş dövrəsi xatimə tapıb və təbliğat və əməl dövrəsi başlanmışdır. Bu gündən e’tibarən Firqə siyasi qüdrət kəsb etmək yolunda mübarizə edir. Siyasi qüdrət əncümənlər və məclis

nümayəndələrinin azadixah və Demokrat şəxslərdən intixab olunması sayəsində kəsb ediləbilər. Bunu heç bir Firqə üzvü unuda bilməz. « p.»))

Beləliklə Firqə hazırlıqları həmləyə geçir, Firqə dili olan azərbaycan ruznaməsi öz ləhnini təmamilə dəiyşdirib xəlqi qiyama və əməli mübarizəyə çağırır:

«Azərbaycan sərvəti azərbaycanda qallmalıdır» və «Karlar eşitsin, korlar da görsün» ünvanlı məqalələrdən təmam mə'nası ilə böyük nehzətin əmələn başlandığı aşkara çıxır. Məxsusən axırıncı məqalədə ağayi Pişəvəri yazır ki, iş təbliğat və məqalədə dəyildir, məqalələr fəqət Firqə fəaliyətinin mətbuatda olan inikası hesab oluna bilər.

Bu dövrə  yə'ni abanın axır günlərində Firqə artıq müəyyən nəqşəuzrə hərəkət etməyə başlır.

Aban ayının 17- də təşkil tapan komitəmizin ümumi iclası ərtıq sözdən əmələ geçməyi qərara alır. Bir tərəfdən fədai dəstələrinin həmləsi o biri tərəfdən dövlət təşkilatı yaratmaq vəsilələri təmin olunur. Nəhayət 21- Azər qiyamı qət'i olaraq təyin edilir. Ümumi iclasın qətnaməsində isə sərih bir surətdə tehrana müntəzir olmadan Əncümən- Əyaləti və məhəlli intixabatının başlanması qərara alınır.

# Qərarlar

1- Firqənin məşhur bəyannaməsi və birinci konqrəsinin e'lan etdiyi şüarları ümumiyətlə iranda, xususilə azərbaycanda dərin təsir bağışlayıb və demokratlıq cərəyanını qüvətləndirmişdir. Bunu ümumi iclas çox şadlıqla qeyd edib, şüarların əməli surətdə başlanmasını qərara alır. Bu şüarlar Azərbaycan xəlqinin milli muxtariyəti təmin etmək üçün Əyalət və Vilayət Əncümənlərinin təşkil və Məclis Şovra intixabatını təxirsiz surətdə başlanılması vasitəsilə ola bilər.

2- Firqə quruluş dövrəsinə xatimə verdiyi üçün indi geniş təbliğati işlərə başlayıb xəlqi firqənin ətrafına toplamaq üçün böyük yığıncaqlar və mitinqlər təşkil verəbilir və bu mitinqləri idarə etmək üçün hazırlanan Firqə fə`allarının fəaliyətə girişmələrini təmin edəbilir

3- Əyalət və Vilayət Əncümənlərinin intixabatını xəlqin öz gücilə başlaması lüzumunu qeyd edib, komitə yaxın bir zamanda bütün Azərbaycan xəlqi arasında intixab olunan xəlq nümayəndələrindən böyük bir konfrans təşkil etəməlidir.

4- Firqəyə yazılanları təmamilə təşkilata bağalamaq üçün üzviyət vərəqələri çox tez bir surətdə paylanəmalı və Mərkəzi Komitə tərəfindən təhiyə edilən təmbr vasitəsilə həq- üzviyətləri yığmağa iqdam etəməlidir.

5- Cəvanlar arasında işləri möhkəmləndirmək üçün bə’zi məsül şəxslər təyin etmək ta cəvanlar arasında ciddi iş aparıb onları gələcək işlər üçün hazır etsinlər.

6- Kəndlərdə qanunsuz olaraq kəndlilərə hücum edən jandarmların, ümum cəmaətinin qüvvəsilə qabağı alınsın.

Həmin bu tarixdə Azərbaycan ruznaməsində bu məqaləyə də təsadüf edirik:

# Böyük Xəlq Yığıncaqları

Şəhərlərimizədə İyalət və Vilayət Əncümənləri təşkili və məclis seçgilərinin başlanması xususunda bəhs etmək üçün böyük xəlq yığıncaqları də’vət edilmişdir. Bu yiğincaqlarda xəlqimizin doğma rəhbəri olan Firqə təşkilatı nəzarət edir. Aldığımız mə’lumata görə qəsəbə və kəndistanlarda bu yığıncaqlar nəzərə çarpmaqdadır.

Bununla Azərbaycan xəlqi özünün diri bir millət olduğunu subut etməkde dir. Tehran hökümətinin cahil və nadan məmurları Firqə təşkilindən sonra onun kəndlərdə qol- budağını kəsmək üçün insanlığı təhqir edən vəhşiyana tədbirlərə əl atdılar. Xoşbəxtana onların təşəbbusu firqəmizin xeyrinə təmam olub, kənd cəmaatını bizə yaxınlaşdırır və bu vasitə ilə Firqəmiz daha səri' bir surətdə kəndlərdə kök salmağa dəvam edir.

Doğrudur ki, yüzlər ilə kənd zəhmətkeşləri jandarm zülmündən dağlarda yaşamağa məcbur olmüşlar. Yenə də doğrudur ki, əhl və əyalını götürüb Firqəmizin qapılarına pənah gətirən kəndlilərə böyük köməkliklər edə bilməmişik. Lakin kəndli düşünüb anlamış ki,onun fəlakət və bədbəxtliyi müvəqqətidir. Əyalət və Vilayət Əncümni vicuda gəlirsə bu kimi cinayətlərə çox tez bir zəmanda

xatimə veriləbilər. Ona görə də kəndli də var qüvvəsilə bu işın çox tez bir zəmanda başlanmasını tələb edir.

Biz bilirik ki, xəlqimizi əsarətdə saxlayan mürtəce' qüvvələr var gücləri ilə onun bir milli təşkilat ətrafına toplanmasının qarşısını almağa çalışmaqdan sərfinəzər etməyə cəklər. Lakin Firqəmizin götürdüyü düzgün və mətin xət- hərəkəti sayəsində onların arzuları ürəklərində qalıb ümidləri yə'sə mübəddəl olacaqdır.

İndi bütün azərbaycanda iki cərəyan vicuda gəlmişdir: Biri xəlqi üzüb, boğub, mal- meknət kəsb etmək istəyən dövlət məmurları, digəri isə azadlıq, demokrasi üsulunu əməli surətdə diriltməyə çalışan milli qüvvələr, birinci cərəyan zülm və biydadgərliyə dayandığı üçün gündən günə zəifleşib meydandan çıxır, ikinci isə insanların səadət və xoşbəxtliyini təmin etmək yolunda apardığı qəhrəmanənə mübarizə nəticəsində qüvət və qüdrət kəsb edib, irəli gedir və xəlqi özünün ətrafında toplamaqla gələcək milli qüdrətin binasını möhkəmləndirir.

Böyük milli hərəkət artıq başlanmış, azadlığı təmin etmək yolunda meydana qoyolan şüarların icrası vəqti gəlib çatmışdır. İndi artıq töhmət və iftiralara qulaq asan yoxdur, iki ay yarımlıq ciddi fəaliyət böhtan deyənlərin siymasını aşıkara çəxarıb firqəmizin götürdüyü yolun doğru bir yol olduğunu isbat etmişdir.

İndi hamı bilir ki, Demokrat Firqəsi düşmənlərin dediklərinin xilafına olaraq İran istiqlal və təmamiyətinin nəf'inə çalışan bir Firqə dir. İndi dost və düşmən anlamışdır ki, milli muxtariyət təcziyə dəyildir. Kimsə azərbaycanı irandan ayırmaq istəməz. Onu bu, ya başqa biganəyə satan yoxdur. Bu sözlərin hamısı azadlığı boğmaq üçün mürtəce'lər tərəfindən meydana atılan xainanə töhmətlərdir.

Azərbaycan xəlqi çox sadə və təbii surətdə özünün siyasi, iqtisadi və ictimai işlərini idarə etmək istəyir. Öz qolunun gücilə öz millətinin özünə tərəqqi və təkamül yollarını açmağa çalışır.

Bütün azərbaycanı bürümüş mitinqlər, yığıncaqlar və ictimaların hədəfi isə budur. Bu vəqtə qədər azadlıq, birlik və demokratlıq barəsində dadlı söz çox danışılıb və şirin və'dələr çox verilmişdir. Xəlq indi sözə inana bilmir. O, çox həqli olaraq əməl istəyir. Bu günə qədər cür bəcür adlar ilə ortaya çıxan firqələr isə xəlqə əməl nişan verə bilməmişlər. Firqəmiz isə böyük şüarları əməli etmək istəyir, mitinqlərdən məqsəd budur.

Xəlq çox açıq bir surətdə Əyalət və Vilayət Əncümənlərinin təşkilini tələb edir. Qanun-əsasımızın pozulmasına yol verməmək üçün 15-ci məclis seçgilərinin başlanmasını təqaza edir. Bu işə rəhbərlik etməyi firqəmizdən gözləyir.

İndi azərbaycanda dəvam edən mitinq və nümayişlərin mə'nası budur.**«P.»**

Beləliklə bütün azərbaycan xəlqi ayağa qalxır, kəndlər, qəsəbələr və şəhərlərdə 10- min, 20- min və 50- min nəfərlik mitinqlər təşkil olunub kətbi surətdə qərarlar çıxarılır və bu qərarlarda Demokrat Firqəsindən fövri surətdə Əyalət Əncüməninin təşkili və milli muxtariyətimizin təmini tələb edilir. Xəlqin əksəriyətini təşkil edən bu yığıncaqlar öz işlərini qətnamə ilə məhdud etməyib əmələ geçirir və həqlərini almaq və dediklərini həyata geçirmək üçün nümayəndələr intixab edib təbrizdə təşkil olunan konqrəyə göndərirlər.

Bu vasitə ilə azərbaycanda böyük Xəlq Konqrəsi təşkil tapır. Konqrə aban ayinin 29- da səhər saat 10- da Təbriz şəhərinin Şir Xurşid səhnəsində sərdar milli Xəttarxan qardaşının sinni riyasəti ilə iftitah olunur.

Ən qədim mücahıdlərdən ağayi «Səyid Divan» Azərbaycan azadixahları namindən konqrəni təbərik edir.

Sonra azərbaycanın ayri şəhərlərindən axıb gələn nümayəndələr hərarətli və atəşin sözlərlə konqrəni səlamladıqdan sonra birinci cəlsə təbəriklərə və e'tibarnamə komisionunun guzarişinə həsr edilir. Gün ortadan sonra ağayi Pişəvəri ümumi vəziyətimiz və konqrənin vəzifəsi həqqində müfəssəl bir nitq edir. Onun nitqi səkkiz yüz nəfərdən təşkil tapmış xəlq nümayəndələri tərəfindən dəfələr ilə alqışlanır, beləliklə nümayəndələr firqəmizin siyasətinə inandıqlarını isbat edirlər.

Ağayi Pişəvərinin nitqi isə bu cumlələrlə qurtarır:

«Biz artıq özümüzü idarə etmək istəyirik. Biz azərbaycanı irandan ayırmayıb fəqət azərbaycanın daxili muxtariyətini istəyirik.

Azərbaycan Hindustan dəyil, bura azərbaycandır. Onun müşə`şə' tarixi vardır, bu millət diridir. Azərbaycan milləti tarixə Səttarxan, Baqir xan və Şeyx Məhəmməd Xiyabanılar vermişdir. Onun iftixarlı tarixi vardır. Biz milli muxtariyət söhbəti edirik, ticarətimizi, behdaştimizi, ma'arifimizi, post və təleqrafımızı və bütün işlərimizi xəlqimiz idarə etməlidir. Azadlığı alarlar, onu verməzlər. Əgər

bizim xəlqimizin qabağına silah ilə çıxsalar, qoy bu Milli Konqrə öz milli heyətini difa' etmək üçün cəvanlarımızın silahlı milli qüvvələrini yaratsınlar.»

(Bütün salon ayağa qalxır, arası kəsilməyən gurultulu şurəngiz urra səsləri neçə dəqiqə dəvam edir.)

***

Bu urra səsləri, bu ayağa qalxmaq isə, qiyam və nehzətimizədə xəlqin həqiqi surətdə iştirakı və həqiqət halda bu nehzətin başlanması demək idi. Milli qiyamın mə'nası da elə budur.

***

Bu konqrə özünün tarixi müraciətnaməsilə iranın səlahiyətdar məqamatına və azərbaycanda olan xarici dövlətlərin nümayəndələrinə müraciət edir. Əgər bu müraciətnaməyə diqqət olunarsa bizim bugünkü siyasətimizin əsasını təşkil etdiyi aşıkara çıxar.

***

Müraciətnamənin eyni budur: ünvanlar.........

Bu ill aban ayynın 29- 30-cu günlərində təbriz şəhərinin Şir Xurşid salonunda 150- min nəfərin imzasilə ümum Azərbaycan şəhər və hovmələrindən toplanan ümumi mitinqlər tərəfindən seçilmiş yeddi yüz nümayəndələrin şirkəti ilə təşkil tapan böyük xəlq konqrəsi özünün dördüncü iclasında ittifaq ara ilə öz tələbatının əsası məsələlərini aşağıdakı maddələrdə qeyd olunan e`lamiyə vasitəsilə İran mərkəzi hökümətinə bildirəməyi qərara aldı:

«1- Azərbaycan xəlqi burda yazılmasına yer olmayan saysız tarixi səbəblərə və hadisələrə görə özünə məxsus milliyyət, dil, adab- rüsum və sayir xüsusiyata malikdir. Bu xüsusiat ona həq verir ki, iranın istiqlal və təmamiyətini müraat etməklə bərabər bütün dünya millətləri kimi Atlantık e`lamiyəsi mucibincə öz müqəddəratını təyin etmək üçün azad və muxtar olsun.

2- Konqrə Azərbaycan xəlqinin iranın başqa əyalət və vilayətlərilə olan mədəni, iqtisadi və siyası rabitəsini nəzərə almaqla bərabər, bu xəlqin indiki İran dövlətinin təsisi həqqində göstərdiyi fədakarlıqları (vaqiən indiki İran dövləti azərbaycanlılar vasitəsilə tesıs olunmuşdur) nəzərə alıb heçvəch ilə razı dəyil onun məşəru' və qanuni təqazalarını ki, milli muxtariyətdən ibarətdir, iranın sərhədlərinə xələl gətirib, onun təcziyəsi üzərində qərar versin.

3- Azərbaycan xəlqi var qüvvəsilə iranda məşrutə şəkli almış demokrası üsulunun tərəfdarı dır. Azərbaycan milləti iranın təmam əyalət və vilayətləri kimi iranın məclis- şovrəyi milisinə nümayəndə göndərəcək və adilanə maliyat verməkde şirkət edəcəkdir.

4- Azərbaycan xəlqi rəsmən və ələnən e'lan edir ki, bütün dünyanın diri millətləri kimi (iranın təmamiyət və istiqlalını gözləməklə bərabər) özünün daxili işlərini idarə etməkdən ötrü milli hökümət yaratmağa həqlidir. Və o bacardığı qədər iranın təmamiyət və istiqlalını muraat etməklə bərabər azərbaycanı demokrası və hakimiyyət- milli üsulu ilə idarə edəbilər.

5- Azərbaycan xəlqi azadlıq və demokratlıq yolunda böyük zəhmətlər çəkib çoxlu qurbanlar verdiyinə görə istir özünün muxtar hökümətini həqiqi demokratlıq əsası üstündə qursun. Buna görə də konqrə tərəfindən təsvib olunmuş daxili nizamnamə üstündə özünün məclis millisini intixab edib və lazim görür ki, azərbaycanın milli və daxili höküməti bu məclisin nümayəndələrinin arasından intixab olunub onun qabağında məsül olsun.

6- Azərbaycan xəlqinin öz milli və ana dilinə məxsus əlaqəsi vardır. Özgə dilin təhəmili, onu tərəqqi və təməddün kərvanından dalı salmış və onun milli fərhəng və maarıfinin yolunu bağlamışdır. Bu narəva təhmilin qabağını almaq və Azərbaycan tərəqqisinə lazim gələn bütün vəsilələri vicuda gətirmək üçün Azərbaycan xəlqinin milli konqrəsi Heyət Milli-yə dəstur verir: Çox tez bir zəmanda Azərbaycan dilinin bütün dövlət idarələrində mərsüəm və onun tədrisini təmam mədrəsələrdə (istər dövləti istərsə milli) əməli etsin.

7- Yüz əlli min nəfərin imzası və yeddi yüz nəfər nümayəndənin iştirakilə təşkil tapan milli konqrə Azərbaycan millətinin iradəsilə özünü Müəssislər Məclisi e'lan edib, azərbaycanın daxili işlərini idarə etmək üçün 39- nəfərdən ibarət bir Milli Heyət intixab edərək onlara ixtiyar verir ki, millətin milli istəklrini əməli etmək üçün lazimi tədbirlər görüb, səlahiyətdar məqamat ilə müzakirəyə girişsinlər, eyn zəmanda Azərbaycan Məclis Millisinin və habelə Məclis- Şovrəyi Milli intixabatını icra eləsinlər.

Axırda konqrə İran dövlətinin və dünyanın böyük demokratik dövlətlərinin nəzərini yuxarıda yazılanlara cəlb edib izhar edir ki, bu mətalibin icrası üçün fəqət təbliğ və təşkil vasitəsilə iqdam edib nizai- daxili və qardaş qanı tökməyə icazə verəməiəcək, vəli əgər mərkəzi dövlət istərsə onun qanunu və təbiyi həqqini silah gücü və qəhər- qələbə ilə ortadan aparsın o vəqt naçar hər qimətə olursa olsun, öz hüququndan müdafiə edəcək və ta bir nəfər azərbaycanlı qalanadək öz milli muxtariyəti uğrunda mübarizə aparancaqdır.

Məclis- Müsisan (Milli Konqrə) Milli Heyətə ixtiyar verir ki, azərbaycanın muxtariyətini təmin etmək üçün səlahiyətdar məqamat ilə əlaqəyə girişsin. Məsələni sülh və müsalimət yolilə həll etsin, vəli Milli Heyət heçvəch ilə azərbaycanın muxtariyəti və Milli Höküməti həqqində sərfinzər etmək və iranın təmamiyət və istiqlalını pozmaq ixtiyarına malik dəyildir.

Biz arzu edirik ki, bütün demokrası aləm bilənsin ki, dünyada bir millət vardır ki, hazır olub özünün var qüvvəsilə öz hüququndan müdafiə edib, asiyanın bir güşəsində azadlıq və demokratlıq baydağını qalxızıb istir fəqət öz köməgilə özünün azadlığını təmin etsin.

Ümid edirik iranın səlahiyətdar məqamati və böyük demokratik dövlətlər bizim milli mənzurumuzun icrası üçün növ'pərvəranə köməkliklərdən ki, Mənşüri Atlantık onun əsası üzərində qoyulmuşdur, müzayiqə etmiyəcəkdir. Ehtiramat faiqə ilə.

«(Milli Konqrə) Məclis Müəsisanın riyasət heyəti»

***

Müraciətnamədən daha calib- təvəcceh, konqrənin qərarlarıdır ki, biz təbliğatçılarımızın istifadəsi üçün burada dərc edirik:

# Azərbaycan Məclis - Müəssisan Millisinin Qərarları

Seşənbə günü, aban ayının 29- da Azərbaycan xəlqinin böyük Milli Konqrəsi, ağayi Pişəvərinin ümumi övza' həqqində verdiyi mə'lumatı müzakirə etdikdən sonra aşağıdakı qərarları ittifaq ara ilə qəbul edir.

1- Böyük demokratik millətlərin fədakarlığı nəticəsində diktatorluq, zurguluq və nəjad üstünlüüü təbliğ edən qüvvələrin əbədi olaraq yıxıldığı və bütün millətlərə özünü idarə etmək, öz müqəddəratına hakim olmaq imkanı vicuda gəldiyi halda, Azərbaycan xəlqi təmam mə'nası ilə bir millət kimi ayağa qalxıb öz təbiyi və qanuni həqinə, öz gücü ilə malik olmaq istəyir.

2- Xəlqimiz sui- təfahum və töhmətlərə yol verməmək üçün öz müqəddəratını ələ aldığı halda, ölkəmizin irandan ayrilmamağını e'lan edir və bütün İran xəlqləri ilə qardaşlığını hifz etməyi özünə vəzifə bilir.

3- Milli Konqrə azadlıq dünşmənlərinin iftira və töhmətlərinin indidən qabağını almaq üçün açıq və aydın surətdə azərbaycanın irandan ayrilması və ya onun ayri məmləkətə ilhaq intışaratını ciddi surətdə təkzib edir.

4- Azərbaycan xəlqi məşrutə üsuluna sadiq qalıb, qanun- əsasının demokratik əsllərini icra etməyə çalışacaqdır.

5- Ümumi məşrutə qanunlarını muraat etməklə bərabər Azərbaycan xəlqi özünün daxili işlərini idarə və milli muxtariyətı təmin etmək üçün qanun əsasıdan istifadə edib, Əncümən- Əyaləti təşkilatını bir qədər genişləndirib, ona Məclis Milli adı verir. İran daxilində iranın təmamiyət və istiqlalını heçvəchlə xələldar etmədən, özünün Milli Hökümətini vicuda gətirir.

6- Böyük xəlq mitinqlərinin qərarına görə Xəlq Konqrəsi Azərbaycan Demokrat Firqəsinin rəhbərliyi ilə, Məclis Milli və Vilayət Əncümənləri və Məclis- Şovrəyi Milli intxabatının fövriyətlə başlanmasını qərara alır.

7- Hər bir millət öz müqəddəratına hakim olması o vəqt imkanpəzir ola bilər ki, o millət yaşadığı ölkəni idarəetmək üçün əsası qanunlara malik olabılsın. Biz çox yaxşı bilirik ki, tehranda təmərküz tapmış mürtəce'lər xəlqimizə bu ixtiyarı verməyəcəklər. Bəlkə özlərinin xain iradələrini xəlqə və məmləkətə təhəmil etmək üçün bizim qabağımıza əngəllər də çıxartmaqdan göz yummaq istəməyəcəklər. Ona görə böyük Konqrə xəlqimiməzin arzu və tələbatını əməli etmək üçün ciddi qədəm götürüb, özünü Müəssislər Məclısı e'lan edir. Milli muxtariyətmizi möhkəm payə üstündə qurmaq üçün Məclis Milli vicuda gətirir.

8- Təbii dir ki siyasi, milli, iqtisadi və mədəni muxtariyətə malik olmadan milli muxtariyət boş sözdən ibarət olub, qalar. Bu nüqteyi nəzərdən Məclis- Müəsisan, Milli bir hökümət yaranmasını və müstəqimən daxili işlərimizin bu hökümət vasitəsi ilə idarə edilməsini təxirsiz bir surətdə lazim görür.

9- Məclis- Milli intixabatı qurtarıb, Milli Hökümət rəsmiyət tapan günədək, Konqrə öz nümayəndələrindən 39 nəfərlik Heyəti- Milli nami ilə bir heyət intixab edir və qəbul etdiyi qərarların icrasını bu müvəqqəti heyətə tapşırır.

10- Bu heyət, Məclis Milli təşkil tapan günə qədər Azərbaycan xəlqinin milli işlərini idarə edəcək, Məclis Milli təşkil olan kimi onun vəzifəsi xatimə tapmış olacaqdır.

11- Mərkəzdə və şəhristanlarda başlanan intixabatı təmin etmək və Heyət- Millinin əmniyətini hifz etmək üçün Konqrəye- Milli hər növ' tədbir görməyə geniş ixtiyar verilir.

12- Milli Konqrə, dövlət idarələrinin başında duran məmurlardan Heyəte- Milliyə tabe` olub, onun göstərişlərinə və nəzarətinə itaət etməyi tələb edir və bunun xılafına rəftar edib, özünü hakim-mütləq göstərmək istəyənlərin tezliklə dövlət idarələrindən ixracını lazim görür.

13- Milli Konqrə bütün dövləti mədrəsələrdə Azərbaycan dilinin, məcburi surətdə tədris edilməsini Milli Heyətə tapşırır və bu milli vəzifəni əncam verməyə mane' olanları Azərbaycan xəlqinin düşməni hesab edib, onların irticai fikirər və xainanə hərəkətlərinə mane' olmaq üçün, ciddi tədbirlər görənsün.

14- Konqrə polis, jandarm və arteş təşkilatının tərkibbini pozmaq fikirində dəyildir. Onlar öz rəsmi libas və dərəcələrini hifz və vəzifələrini əncam verməkde davam edirlər. Lakin əgər onları idarə edənlərdən, bizim milli muxtariyətimizin əleyhinə bir iş baş versə, Milli Heyətə ixtiyar verilir ki, onların xəyanətlərinin qabağını almaq üçün ciddi tədbirlər görsün.

# Heyət - Milli

Bütün xəlq tərəfindən geniş ixtiyarat ilə intixab olunan 8- yüz nəfərlik böyük konqrə, fövqüladə münəzzəm vəli gurultulu geçdi, dərdləri deşilmiş xəlq nümayəndələri şədid ehsasat ilə istədiklərini deməkdə bir- birinə sibqət edirdilər.

Konqrədə meydana atılan şüaralar xəlq hakimiyətini yaratmaq üzərində idi. Cuvşa gələn ehsasat bə'zən konqrəni əsası şüarlarımızın çarçavasından kənara çəkmək təmayülü icad edirdisə, Firqə rəhbərləri Firqənin taktiki üzrə yanlış əfkar və ehsasatın qabağını alıb işi düzgün məcrəya çəkməyə müvəffəq olurdular.

Məsələn qırmizi inqilabdan danışan bir nümayəndənin yanlış fikirinə ağayi Pişəvəri belə cəvab verdi ki:

«Mən geçən günkü şüarları və istədikələrimizi təkərar edirəm. Biz özümüzü irandan mücəzza bilmirik. Biz məşrutəni diriltmək istəyirik. Bizim danışan yoldaşlarımızın bu mövzui muraat etməyi

lazimdir. Bizə düşmənlərimiz cür- bəcür töhmətlər atırlar. Məsələn Türkiyə radiosu deyir ki: Təbrizdə üsyançılar idarələri işğal ediblər.»

«Bizim radio istiqahımız yoxdur ki, dünyaya bildirək ki, bunlar hamısı müzəxrəf və iftiradır. Biz İran istiqlalına əlaqməndik, biz fəqət Azərbaycan Milli Muxtariyətini almaqdan ötrü iqdam edirik və bu barə də bir nəfərimiz qalıncaya qədər mübarizədən yorulmaiacağıq, indi danışanlarımız bu mövzui kamilən muraat etəməlidirlər.»

Konqrənin fəaliyətindən bir nümunə olmaq üzrə onun üçüncü cəlsəsinin müzakıratından bir qisməti burada dərc edilir:

«Ağayi İlhami- məşrutə məmləkəti məclis və əncümənlərdən təşkil tapar və bunları əsaslandıran Müsisan Məclisi dir.

((Bizim bu konqrəmizin intixab olub və təşkil tapəması ki, ümum Azərbaycan millətinin tərəfindəndir Mclis- Müəsisanın vəzifəsini daşımaq demək olur. Bizim burada hazırolan möhtərəm nümayəndələrimiz öz mühüm və ağır vəzifələrinə vaqif olmalıdır. Necə ki, bizim möhtərəm rəhbərimiz ağayi Pişəvəri öz nitqində dedilər: Hər bir fərd- azərbaycanlı ayrı bir iranlıdan artıq İran istiqlalına və bayrağına əlaqmənd dir. Mən sözümü xülasə edib deyirəm ki, bu konqrədə biz elə təsmimlər tutmalıyıq ki, gələcək nəsilimiz bizə nifrət etməsinlər və bizə rəhmət oxusunlar. Yaşasın iranın istiqlalı! Yaşasın azərbaycanın həq mütalıbati! (alqışlar)

«Sonra Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsinin üzvü və qocaman rəhbərlərimizdən ağayi Şəbistəriyə söz verildi.»

((Ağayi Şəbistəri- İran kimi sahəsi və yeri böyük olan bir məmləkətdə 200- miliona qədər nüfus yaşaya bilər. İranda ədalətsizliyin nəticəsində 10 və ya 15 miliondan artıq nüfus yoxdur, qırx ill qabaq iranda Azərbaycan milləti qiyam edib və İran milləti üçün azadlıq aldı. O mövqe'də azadlıq mərkəzi Azərbaycan idi, onda alınan azadlıq və məşərutiyət bir əndazə diri olub, xəlqimiz ondan bir əndazə istifadə etməyi bilirdilər. Ondan sonra ki, məşrutə və azadlığın əlbəttə rəngi dəyişildi ki, istibdad dövrəsindən daha artıq xəlqə zülm və fışar varid oldi. Şəhrivərə qədər millətimiz Pəhləvi kimilərin və onun dövrəsində yığılan cücə diktatorların nəhayət fişarı altında yaşayırdılar. Şəhrivərdən bu tərəfə Pəhləvi tərəfdarları məmləkəti veran və milləti əsarətə çevirib əmniyətimizi görürsüz ki, nə fəlakət halına saldılar.»

«Demokrat və azadixah xəlqimiz dörd il şəhrivərdən sonra intizar halında yaşayıb və bir nəticə almadıqlarına görə əvvəl birinci Demokrat Firqəsinin bəyaniyəsini verdilər, bugünkü gün də öz həqlərini tələb etməkdən ötrü Xəlq Konqrəsi təşkil olub və xəlqimizin arzularını əməli edəcəkdir.» (alqışlar)

«Ağayi İftxari – Sərdərud nümayəndəsi: Möhtərəm ağaalar, 48- kəndin 36- min tərəfindən sizə səlam yetirib və Xəlq Konqrəsin təbərik edirəm. İran intixabatının əvvəli qələt olmüşdü. Millət məclisində qənd, şəkər, yumurta, yeralma, lastınq alveri olmaz. Məclisdə millət qayğusu çəkən əşxas lazimdir. Bunlar özləri də bilirlər ki, ğəlt işləyənlər həman nümayəndələrin də əməliyatı nəticəsində dir ki, jandarmların tüfəng qundaqları bizim başlarımızdan yağır. Biz irticain bu zülümkar hökümətinin cinayətlərinə son qoyub öz Əyalət və Vilayət Əncümənlərimizi vicuda gətirəcəyik.»

«Xəlil Azər- Məlik Kəndi tərəfindən: Məlik Kəndi və onun hövməsi tərəfindən bu konqrəyə atəşin səlam ərz edirəm. Biz qanun- əsasının icra olunmasını istəyirik. İrticai dövlət Azərbaycan millətinin yəxəsindən əlini çəksin. Bu fəcaye və zülümlərin rəfini bu Xəlq Konqrəsinin çıxardığı qərarlarından gözləyirik. Məlik Kəndində neçə gün qabaq öldürülən 20- yaşında bir cəvanın intiqamın və onun qatillərinın milli məhkəməyə verilməsini biz bu konqrədən istəyirik.»

«Yaşasın İran istiqlali!  Yaşasın Azərbaycan millətinin gələcək səadət və xoşbəxtliyi!»

«Ağayi Yəzdani- Xoy nümayəndəsi, qoca arvadın ağayi Pişəvəriyə göndərdiyi bir cüt corab barəsində söhbət edib o qoca arvadın tapşırıqlarını izhar etdi.»

«O qoca arvat dedi ki, sizin rəhbərizdən xahiş edirik o jandarmlain zülmündən bizi və bizim balalarımızı xilas etsin. Xatimədə əlavə etdi: Yaşasın Azərbaycan xəlqinin milli muxtariyəti.»

«Ağayi Pişəvəri, qoca arvadın corab göndərəməsini təzəkkür verib dedi: Mən iftixar edirəm bu corabi Azərbaycanın gələcək muzəsinə göndərib və Azərbaycan ana- bacılarımızın ehsasatını dirildək, qoy gələcək qızlarımız, mühəndis və doktor qadınlarımız savadsız xoy bacılarımızın töhfəsini görüb və onun ehsasatından sərmşq alsınlar.»

Ərdəbil nümayəndələrindən ağayi Codət söhbət etdilər.

«Səfəvilərin əmangahı barəsindəki, Kədük də 300- ildən qabaq duzəlibdir və iranın bədbəxt və veran halda qalmasına işarə edərək uç gün Kədükdə qalmalarını dedilər. Azərbaycan milləti təmam öz dərdlrini bilirlər və bu konqrədən fəqət əməl gözləyirlər. Mən axırda deyirəm yaşasın İran və Azərbaycan!»

«Ağayi Fəttahi- Meşgin nümayəndəsi dedilər, səmim qəlblə bu konqrəni təbərik edirəm. Bizim azərbaycanın namuslu oğlu mərhum Doktor Ərani deyir: Bir millət yaşarmağına görə öz ictimai mühitini itla' etməyə məcburdur. Bizə maarif, behdaşt lazimdir, bizə Firqə lazimdir ki, millətimizin ehtiyacatını təmin etsin. Mən belə xəyal edirəm ki, Azərbaycan millətinə indi Məclis Milli, Əncümən Əyaləti və Vilayətilərdən əfzəl və lazimraqdır.

Mən deyirəm yaşasın azərbaycanın iyit cəvanları ki, öz millətini istəyir fəlakətdən nicat versin.» (alqışlar)

«Ağayi İshaq- Makı nümayəndəsi: Səlam yoldaşlar (alqışlar) xoşvəqtəm Azərbaycan azadixahlar ilə bir cəlsədə şirkət edirəm. Bəqovli Sə'di:

Sər ke nə dər rahe əzizan bovəd
Bare geranist keşidən beduş

Baş gərək millət yolunda getsin. Milli Hökümət barəsində danışdılar, həzrəti Əlinin kəlamlarından deyib və nəticə aldılar ki, adam öz pəncəsi sayəsində ucala bilər. Vəqt qurtarmasına görə ağayi İshaqın sözünə xatimə verildi.

Ağayi Xurrəmdil- kibritsazi nümayəndəsi: Əncümən Əyaləti Vilayəti mərkəzdən ayrilmaq dəyil. Biz Məclis Şovrəya da nümayəndə göndərəcəyik və qət'- rabitə də məclisdən etmirik. Vəli mənim nəzərimə Əncümən Əyaləti və Vilayəti bizim dərdlərimizə çarə edə bilməz. Axırda deyirəm: yaşasın Azərbaycanın Milli Məclisi! Biz öz Milli Məclisimizi açmalıyıq.

Ağayi Xurşidi- Mənim sözüm düşmənlərimizə xitabdır. Biz irandan ayrilmayacayıq. İran bizimdir və biz də iranın. Vəli əncümənlər qanun- əsasıdə yazılan maddələrdəndir. Dövlətin millətə təkiyəsi olması lazimdir, bizim dövlətimizin əbədən millətə təkiəsi yoxdur. Yaşasın İran istiqlalı və Azərbaycanın Demokrat Firqəsi!

Ağayi Pişəvəri: Bu cəlsə Millət Konqrəsidir. Bu Konqrə də fəqət qərar və təsmim alınmalıdır. Bu Konqrə də jandarm sərneyzəsindən məzlum olanlar iştirak edirlər. Türkiyə radiolarının töhmətlərinə baxmayıb bu Konqrə Azərbaycan Millətinin azadlığını almaq istəyir. Biz görək bizim şüarlarımız düzdür ya yox, görək bizə muxtariyət lazimdir ya yox, burada kargər və kəndli öz sözlrini deyə bilirlər vəli məclisdə bizim vəkillərimiz qoyun kimidirlər, bizim kadrımız var və bu cəlsə onu isbat edir, günun cərəyanı rəhbərini yaradar.

Ağayi Zəmani: Həştərud mahalı tərəfindən təbrik ərz edirəm. Əncümən- Əyaləti və Vilayəti əvəzinə Məclis Milli lazimdir. Yaşasın İran və Azərbaycan. (alqışlar)

Ağayi Pənbəi: Həsən Əli Xeyrullahi Şəms Təbrizinin şerini oxudu və pişnahad elədi ki, bu istibdad mücəssəməsini Gülüustan Bağından götürsünlər. Bizə muxtariyət lazimdir. Biz onu ala bilərik və bizə mane' törətmək olmaz.

Ağayi Səidi Urumiyə nümayəndəsi təbərik və səlam ərz elədi, muxtariyətə race danışdılar və dedilər: Biz evimizi  özgədən yaxşı idarə edə bilərik. Bizə töhmət və iftəra deyənlərin nəzəri fəqət Azərbaycan millətini boğmaqdır. Mən özüm Avşar tayfasındanam, Azərbaycan dilinə race söhbət elədilər, mən bu əqidədəyəm ki, Azərbaycan özünü islah edəndən sonra iranı da islah eləsin və iranı bir abirumənd məmləkət eləsin. Azərbaycan iranın başıdır, yaşasın Azərbaycan və muxtariyətimiz!

Ağayi Biriya: möhtərəm nümayəndələr və kargərlər Ərsbaran tərəfindən mənə sifariş ediblər ki, bu konqrəni təbərik edəm. Səfəvi kimi fərmandarlar və Doktor Qasım xan kimi kəsif ünsürlərin zaliim pəncələri altında aradan gedən Ərsbaran zəhmətkeşləri tərəfindən bu əzəmətli konqrəni təbərik edirəm. Sonra ağayi Biriya Pənbeinin pişnahadına görə də  qədim bir şe'ri olan (Şahə qaçır ha) şerini oxudu: «Düzdür ölü dalınca danışmazlar amma o mərhum başımıza elə bir oyun gətirib ki, qiyamətə tək yadımızdan çıxmaiacaq.»

Hilal Nasiri: Məclis Müəssisan bizim əsas- məşrutəmiz dir. Siz ona əhəmmit verin. Bu da Məclis Müəsisan kimi cəlsə dir və siz 5- milion nüfusun nümayəndəsisiniz, sizə mən pişnahad edirəm bu Məclis Müəsisan, Əncümən- Əyaləti Vilayəti əvəzinə Məclis Millini təşkil versin, bizə azadlıq verməyiblər, ona görə [ki,] onda muxtariyət də var. Biz burada gərək qəti təsmim alaq və kəndlilə bəzzazın məsələsini dedikdə cəmaat güldülər. Yaşasın konqrəmiz!  Müsəlləh qonşularımız Kürdlərdən bizə nümayəndə varid olub vəli mütəssıfanə qarda – soyuqda məriz olub mərizxanada yatıblar və o nümayəndə ağayi Davudi dir ki, Novbərinin vəsiləsilə təbrik deyirlər.

Ağayi Novbri: Ağayi Hacı Mustafa Davudi Kürdlər tərəfindən bizə nümayəndə gəlib və bizə söz verirlər ki, təmam qovl və şəraftlə hər dəqiqə azərbaycana hər pişaməd üz verirsə bizlərdə ona kömək etməyə hazırıq. (uzun alqışlar)

Çəşmazər:  39 il əvvəl Əncümən Əyaləti Vilayəti iranda təşkil olubdur. Biz bu məclisi, Milli Məclis adlandıraq, azərbaycanın muxtariyətini təmin etmək üçün azərbaycanın milli silahli qüvvəsi olsun. (alqışlar)

Ağayi Davudi öz milli dilində yə'ni Kürd dilində danışmaq istərkən ağayi Pişəvəri dedilər: Çox xoşhalıq buyurun danışın. Ağayi Davudi danışmağa başladılar. (uzun alqışlar)

Ağayi Novbri: Ağayi Davudinin fərmayişatını tərcumə edirəm- deyərək tərcuməyə başladılar: Özünü və yoldaşı mirza Mənaf Kərimxanı mü'ərriflik etdilər.« Biz iranlıyıq və İran təcziyəsinə də razı dəyilik. Biz dövlət məmurlarının zülmündən və fışarından məcbur olub millətimizi azad etmək üçün, Kürdustan Demokrat Firqəsi Azərbaycan Demokrat Firqəsi ilə bərabər təşrik məsa'i etmək üçün həmişə həmfikir olacaqdır.»

Ağayi Pişəvəri: Tehran hökuməti işi bir vəziyətə salıb ki, konqrəmiz gərək ciddi qədəmlər götürsün. Tehran hökuməti əvəz-inki Azərbaycan millətinə rücu' eləsin xarici məqamlara mütəvəssil olur. Azərbaycan məsələsi təbirzədə həll olunmalıdır, bir millət öz həqqini diriltməyə gərək qadir olsun.

Ləndndə, Türkiyədə Azərbaycan müqəddərati həll olmaz. Fəqət bizim işimiz Azərbaycanda və bu konqrədə həll ola bilər. Biz müttəfiq dövlətlər ilə dostuq, vəli necə ki onlar öz işlərinə dayir heçksə dəxalət ixtiyarı verməzlər biz də heçksə ixtiyar vermirik ki, bizim işlərimizə dəxalət eləsinlər. Bizim ehtiyacımız tək dil dəyil. Biz iqtisadiyyat, maarif və sənaye və başqa cəhətlərdən də ehtiyacatımız vardır. Biz Azərbaycan adi daşıyan millətin muxtariyəti ki, Zəncan və Həmədan ətrafı da ona şamildir, istəyirik. Biz Qaşqayı və Məşhəddə yaşayan Azərbaycan dili danışanlara aid söhbət etmirik. Mənim öz evimə əlaqəm var və bu evin də idarə olunması, qızdırılması, ağarılması və pəncərəsinin düzəlməsi öz öhdəmə dir. Biz istəmirik bizim atalarımızın qəbirləri üstündə xaricilər gəzib və bizə hakimiyət etsinlər. Siz hər ad qoyursuz qoyun, biz elə məclis düzəltməliyik ki, azərbaycanlıdan olsun. Mürtəcelərin tank- topları gərək bizim cənazələrimizin üstündən geçib və bizim azadlığımizi ondan sonra pozsun.

İndi pişnahad var ki, 5- nəfərlik bir komision intixab olub qərar çıxartsın və gün ortadan sonra qərarları konqrəyə versinlər. Mənim fikrimcə 3- qərar olmalıdır:

1- Məclis intixabatına müraqibət etmək,

2- Dünya dövlətlərinə və İran xəlqinə məxsusən Azərbaycan xəlqinə istəyimizi xəbər verək,

3- Gələcək məclisin ya əncümnin nizamnaməsi və necə intixab olacağı və vəkillərin hesabı və məhəlli gərək burada təyin olsun. Müstəqimən bir milion yarım xəlq bu konqrədə şirkət ediblər. Bu konqrə Azərbaycan millətinin iradəsidir. Buranın çıxardığı qərarlar Azərbaycan millətinin qərarlarıdır. Gərək nəhayət diqqət olunsun ki, bizim gərək bir milli komitə ya heyət olsun, hər birindən müdafiə etməyə və işkalati rəf etmək lazimdir. Sonra məclislərə gedən nümayəndələrimiz xəlqimizə xəbər versin, biz dediklrimizi mövqeyi əmələ qoymalıyıq. Ayrı iş lazim dəyil. Bir də intixabat məsələsidir.

Qərarları yazmaq üçün beş nəfərlik bir komision intixab edidi. Sonra Kürd nümayəndələrinin təbərik cəvabını ağayi Pişəvəri verib dedilər ki, Kürdlər azərbaycanımızın bir aıləsidir. Bizilə onların arasına nifaq salmasınlar. Ağayi Qazi Məhəmmədə və Kürd millətinə bizim səlamımızı yetirin.

***

Beləliklə Xəlq Konqrəsi Məclis Müəssisana çevrilib gələcək nehzətimizin payasını qoymuş olduq.

# Məclis Millimiz

Böyük Xəlq Konqrəsi xatimə tapan kimi, bilafasılə Azərbaycan Məclis Millisi intixabatına hazırlıq başlandi. Heyət Milli tərəfindən intixab olunan nüzzar heyəti, ağayi Qiyamının riyasəti altında müəyyən proqram üzrə işi ələ aldı.

Azərbaycanın hər bir yerində beş günün müddətində iş başlanıb xatimə tapəmali idi.

Firqə sadə bir surətdə bu intixabat mübarizəsini təşkil etdi. Hər yerdə komitələr və əşxas tərəfindən nümayəndəliyə kandidlər göstərildi. Firqənin təbliğat və təşkilat qüdrəti o əndazə idi ki, kimi istəsə idi intixab edə bilərdi.

Bununla belə intixabat azadlığını nəzərdə tutaraq Firqə üzvü olmayan əşxasa da icazə verdi ki, özlərini kandid göstərsinlər. Hətta Firqə üzvlərinə də dəstur verənidi ki, inandıqları bitərəf kandidlərə də rəy versinlər.

Məclis Millimizin intixabati böyük siyası bir iqdam idi. Biz illər boyu aparılan çürümüş üsulu bir dəfəlik kənara atıb yeni nizamnamə üzrə demokratik bir seçgi icra etdik.

Bu seçgidə ümum xəlqin istər qadın, istər kişi olsun şirkət etəməsini həman nizamnamə mucıbıncə təmin etdik.

Xəlqi həq və ixtiyardan məhrum etmək üçün o vəqtə qədər mərsüəm olan pul, təhdid və tətəmi' imkanını ortadan qaldırdıq.

Dövlət məmurlarının əlini intixabata qatmağa imkan verməmişdik. Bu seçgilərin azad, müstəqim, müsavi və mütənasib oləması üçün bütün intixabat hövzələrində təcdid nəzər etdik.

Hər bir şəhər, hər bölük, hər qəsəbə hətta hər məhəllədə yaşayan əhaliyə imkan verdik ki, müstəqim və azad surətdə öz rəylərini versinlər.

Xəlq firqəmizin çağırışını böyük şövq- şəəf ilə istiqbal etdi. O günə qədər heç bir intixabatda şirkət ətməyən adamlar da dəstə- dəstə gəlib rəy verməklə, özlərinin milli fikirərimizə şərik olmaqla, necə milli şüura malik olduqlarını isbat etdilər. Məxsusən xanımların həvəsi daha da artıq idi. Cəvan, qoca, fəqir və dövlətli hamı öz səadətini düzgün yol ilə aparılmasında görüb rəy vermək üçün bir-birinə sibqət edirdilər. Elimiz rəy hövzələrinə sel kimi axıb gəlməkde idi.

O şanlı günlərdən bir nümunə olmaq üçün, ağayi Pişəvərinin Azərbaycan ruznaməsində 12-azərdə yazdığı bir məqaləsini burada dərc edirik:

***

Firqəmizin təzəlzülnapəzir əzəm və iradəsi sayəsində el tərpndi. Xəlqin hər bir işə tərdid və suizzən ilə baxan təbəqəsi, yə'ny bazar və idarə xidmətçiləri də Milli Məclisimizin seçgilərində şirkət üçün nizamnamə mucibincə və Milli Heyətimizin rəsmi e’lani ilə təyin olunan müddətin axır günlərində intixabat sandıqlarına hücum edib rəylərini verməyə başladı.

Əgər bu müddəti iki gün təmdid etmək mümkün olsaydi, fəqət Təbriz şəhərində yüz mindən ziyadə rəy veriləcək idi.

Zərafat dəyil fəqət şənbə günü xəlq səkkiz minə balığ rəy salmişdi. Bu iranın məşrutə tarixində görülməmiş bir işdir.

Şənbə günü sandıqların qabağına toplananları gördükdə islamın fəth və zəfər günləri xatirə gəlir (iza caə nəsrullah) ayei şərifəsinin həqiqy mə’nası nəzərdə mücəssəm olurdu. Xəlq qələbəmizə inandığı üçün axın- axın, dəstə- dəstə gəlib rəy salır və aldığı tə’rifəni birinci məclisimizdən yadigar olmaq üzrə böyük xoşhallıq ilə müraciət edirdi.

Bu müvəfəqiyyətə iki böik səbəb göstərə bilərik. Əvvələn Firqə üzvlərində vicuda gələn dərin iman  və onun nəticəsində ibraz edilən qəhrəmanlıq, ikincisi xəlqin içərisində tovlid olan e’timad və inamdan ibarətdir. Bu iş hənuz təşkil tapıb gündən günə möhkəmlənməkde olan cəvan Firqə təşkilatı üçün böyük bir imtahan idi.Firqə bu imtahandan fəxr və mubahat ilə çıxmağa müvəffəq oldu.

Tehranda böyük işimizi uzaqdan tamaşa edib müxalif ruznamələrin hay- küy salmasilə mütəssir olan azadixah dostlarımız bə'zən bizə kömək yetirmək fikirinə düşüb bu ya bir ayrı azadixahı təşviq edib Təbrizə yola salıb və elə fikir edirlər ki onların rəhbərliyinə firqəmizin ehtiyacı vardır. Bunilə şəhərimizə varid olan azadixahlar işimizi yaxından gördükdə özlərinin zə'flərinə e’tiraf edirlər. Bu üç ay müddətində firqənin mübariz və atəş içində yaradıb tərbiyət etdiyi fə`al qüvvəni (kadri) alqışlamaq, onlardan iş öyrənəmyə özlərini möhtac görürlər.

Firqəmizin vicuda gətirdiyi fə`al (kadr) seçgi işındə öz qüdrət və istedadını büruza verdi. Dünən mərkəzi sandıq məhəllində yaşlı bir demokratın 48- saat təmam öz postunda dəvam etdiyi aşıkara çıxdı. Bu adam posti təhvil verdikdə gülümsünüb, öz vəzifəmi əncam verdiyim üçün xoşbəxtəm, deyib istirahət üçün evinə getdi.

Bizdə indi hamımız çalışır, hamı fəaliyət göstərir, hamı özünün ürzə, ləyaqət və qeyrətini büruza verməyə çalışır. Qoca, cəvan, oğlan, qız, yaşlı xanım, beli bükülüb qocalmış köhnə mücahıd, biləxrə hərks öz varlığı ilə ümum xəlq işini axıra yetirmək istir.

Firqəmizin içində əzim bir qüdrət- insani, heyrətə salan bir intizam vicuda gəlmişdir. Üzvlər artıq tərdid və təzəlzülə imkan verməyib firqənin rəhbərliyini canu dil ilə bənmsəyib, iman və əqiydə üzrə mərkəzi komitənin təsmimlərini icra edir. İslamiyətin əvvəl günlərində görülmüş təəssüb üzrə vəzifələrini əncam verirlər. Firqə dən fəqət sadə bir təbəssüm aldıqlarına iftixar edirlər.

İndi bizdə ölümə getmək əmri almağa iftixar edən cəvanlar tapılmağa başlamışdır. Həqiqi fədailər, ictimai həyatimizin hər bir qismətində öz ləyaqət və fədakarlıqlarını isbat edirlər.

Firqə artır, vüs’ətlənir, möhkəmleşir, bütün xəlqi öz rəhbərliyi altına almağa qüdrət tapır.

Bu qüdrəti, bu ləyaqət və bu istə'dadı görən məğrur başlar da əyilib xəlqin əzəm və iradəsinə təslim olur. Millət yolunda ölməyə hazır olan fədailərin əllərini sıxır. Gecə gündüz Firqə üçün çalışmaq və onun böyük hədəf və məqsədlərini əldə etməyə hazırlaşırlar.

İşimiz xəlq işi olduğu üçün xəlqin göstərdiyi hüsn- təvəcceh bizim üçün böyük fəth və müzəffəriyət hesab olmalıdır.

Ahənin qəl'ələr və yıxılmaz səngərlərin hamısından möhkəm, xəlqin urəgidir. Ürəkləri fəth edən qüvvənin müqabilində heç bir qəl'ə müqavimət edə bilməz. Firqəmiz xəlqin urəgini fəth etmişdir.

Bunu Məclis Milli itxibatımız isbat etdi onu, yə'ni o cəlb edilmiş urəyi, saxlamaq onun istədikələrini vermək zəmani gəlib çatmışdır.

Bu cəhətdən firqəmizin yolu müşgül və vəzifəsi ağırdır, eşqi qazanmaq asan, onu saxlamaq müşgüldür. Biz indi xəlqin eşqini qazanmışıq, onu saxlamaq üçün daha böyük zəhmətlərə təhəmmül etəməliyik. « P.»

***

İntixabat Təbriz şəhərində daxi böyük müvəffəqiyyətlə xatimə tapdı. Keçən dövrə burada on gonun ərzində fəqət zoraki onbir min rəy ancaq toplanmişdi. Halbuki, 6- azərdən 10- azərə qədər fəqət 5- günün ərzində bizim milli seçgimizədə rəy verənlərin sayı 23951- nəfərə yetişdi.

Deməkkeçən dövrədə, gündə mindən daha az rəy verildiyi halda bizim milli intixabat cərəyanında isə həman xəlq bə'zi günlərdə səkkiz min  rəy verməklə öz milli əlaqəsini göstərib, dərin bir məfkurə ilə təkan yediyini büruza verdi. O göstərdi ki, pul, tamah və qorxu vasitəsilə görünməsi imkanpəzir olmayan bir işi, xəlqin iman və e’tiqadını cəlb etmək sayəsində asanlıqla vicuda gətirmək olarmış.

Firqəmizin xəlq içərisində kök salmış hörmət, əlaqə və ehtiramını isbat etmək üçün Təbriz nümayəndələrinin aldıqları rəylərin sayı şayan- diqqətdir. Təbriz şəhərinin verdiyi 23951- rəydən 23550- si ağayi Pişəvərinin adına çıxmişdi. Bu isə naziri görünməmiş bir e’timaddır. Ən axırıncı rəy alan Təbriz vəkillərindən ağayi Məhəmməd Əzimanın adına isə 21273- oxunmuşdu.

Danışıqlardan sonra çıxarılan qərarı yuxarıda qeyd etmək, bu qərar ilə Hökümət Millimizin payası qurulmuş oldu.

Firqəmiz ölkəmizi idarə etmək üçün qanuni bir müəssisə vicuda gətirdi. Bu müəssisə isə ağayi Şəbistərinin təhti- rəyasətində təşkil tapan Heyət Millidən ibarət idi.

Firqə bu Heyət vasitəsilə Konqrənin qərarlarını həyata geçirməyə başladı, Heyət Milli vaqe’də Hökümət Milli işini görməyə müvəzzəf idi.

Aban ayynın 30- da Konqrə tərəfindən intixab olunan 39- nəfərlik Heyət Milli həman gün işə başladı. Onun qabağında duran mühüm  vəzifə Azərbaycan Məclis Millisinin intixabati idi.

Heyət Milli həman gün işə başlayıb nəzarət heyəti intixab edərək Məclis Milli intixabatın fərmanını sadır etdi. Milli Konqrənin tapşırığı, Heyət Millinin ciddiyəti və Firqənin müdəbbiranə rəhbərliyi nəticəsində çox səri' bir surətdə icra edildi. Konqrə Heyətınə Məclis Milli təşkili üçün bir ay vəqt verildiyi halda intixabat 21- gündə xatimə tapıb, Milli quruluşumuzun başlanğıcı olan böyük

tarixi gündə, yə'ni 21- Azərdə, Məclis Millimiz tarixi iftixar və şərəfə malik olmaqla xəlqin dərin sevincİ və ehsasati ilə təşkil tapdı.

Bu Müəssislər Məclisinin tənzim etdiyi tarixi sənədlərdən birisİ də Azərbaycan Məclis Millisinin intixabat qanunudur. Həmin bu intixabat qanunu vasitəsilə dir ki, xəlqimiz bütün iranda demokratik nehzətinin eləmdarı olmağa müvəffəq oldu. Həmin qanun vasitəsilə dir ki, bütün İran xəlqi bizi həqiqi demokrat tanıyıb başladığımız böyük işə e'timad gözü ilə baxmağa başladı.

İntixabat qanunu, firqəmizin məramənaməsinin əsası üzrə qələmə alınmışdır. Bu qanunun üç sətirdən ibarət olan 8-ci maddəsi vasitəsilə Firqə mütəhəvviranə və qəhrəmanlara yaraşan böyük bir qədəm götürmüş oldu.

8-ci maddə bu idi:

«8- İyirmi yaşına çatmış bütün azərbaycanlı arvat və kişilərin intixab etmə həqqi vardır.»

Bu maddə qadınlara və cəvanlara intixab həqqi verməklə xəlqin bu günə qədər fələc halda yaşayan geniş kütləsini siyası həyata cəlb edir və demokrası əsasının möhkəmlənməsinə imkan yaradır.

Məclis Milli intixabatlarından əlavə Heyət Millinin gördüyü tarixi işlərdən birisi də mə'ruf «Deklarasion»-nun İran səlahiyətdar məqamlarına və xarici nümayəndələrə göndərilməsi və ikincisi isə Azərbaycan valisi Hesam Ülsultan ilə aparılan müzakirələrdir. Bu müzakirə ağayi Pişəvəri, ağayi Şəbistəri və ağayi Biriya təvəsütilə əmələ gəldi. Ağayi Bayat, Tehran hökümətinin ona fəqət danışmaq ixtiyarını verdiyini qeyd edərək dedi ki: Mən fəqət cari müqərrərat üzərində edə bilərəm azərbaycanlılarla danışam. Bu danışıqdan mə'lum oldu ki, o fəqət bizə əndərz vermək və nəsihət etməklə işə xatimə vermək istəyir, bu isə gülünc bir iş olduğundan bir nəticəyə müncər ola bilzədi. Ona görə zahirdə böyük ixtiyarat ilə gələn vali Məclis Millimizin təşkilinə bir neçə gün qalmış azərbaycanı tərk edib təyyarə ilə tehrana müraciət etdi. Orda verdiyi guzarışdən bizim elə dəqiq mə'lumatımız yoxdur. Lakin şayi'ata görə nehzətimizin vicudunu inkar etməyə müvəffəq olmamışdır.

Heyət Milli dövrəsi firqənin ən şədid fəaliyət dövrəsi olmuşdur. Heyət Milli intixabati digər tərəfdən də Fədai təşkilatı yaratmağa məşğul idi.

# 21 Azər

21- Azər Firqə və nehzətimizin tarixində böyük bir yer tutur, bu gündə Firqənin təşkil etdiyi iki böyük sütün bir- birinə yetişməklə nehzət qəti bir şəkil aldı.

Bu sütünlərdən birisi Fədai təşkilatı idi. Firqəmiz kəndlərdə təbii surətdə başlanan Fədai nehzətını təşkil etməyi bir ay əvvəldən qərara almışdı. Bu təşkilata müstəqim surətdə Firqənin Sədri ağayi Pişəvəri özü şəxsən rəhbərlik edirdi. Bə'zi yerlərdə Firqənin ən fə`al, ən ciddi və ən şəhamətli kadrları bu işi təşkil etməyə müvəzzəf olmuşdular. İş fövqəladə səri' olduğuna baxmayaraq, səri' bir surətdə irəli getməkde idi. Mərkəzi komitənin bu işdə fədakarlığı çox böyükdür. Bu komitə sadə rəhbərliyə qənaət etməyib özünün ən görkəmli üzvlərini Fədai dəstələri başçılığına təyin etəmişdi. Məsələn Təbriz fədailrini ağayi jənəral Kaviyan, Mərağa fədailərini ağayi jənəral Kəbiri, Miyana və Sarab fədailrini ağayi jənəral Qulam Danişyan, Miandab fədailərini ağayi sərəng Quli Sübhi, Üsku fədailərini ağayi sərgurd Kəlantəri və Urmiyə fədailərini ağayi Azad Vətən təşkil etməyə məmur olmuşlardi ki, bunların hamısı firqəmizin Mərkəzi Komitəsinin üzvləridirlər.

Belə liklə demək olar ki, Mərkəzi Komitəmiz Fədai nehzətinin Ərkan- Hərbi vəzifəsini əncam vermişdir.

Bunlardan əlavə Firqə aktivlərindən sərhəng Aram, sərəng Qulamriza Cavidan, Fərzi Dehqan, mir Kazım, mir Xəlil, Pişnamazi, mir Əbülfəzl Haşimi, Tizfəhm və Xəlil Azər və başqalarının Fədai rəhbərliyində büruza verdikləri şəhamət və fədakarlıq şayan- diqqətdir. Bu inkar edilməyən həqiqət isbat edir ki, firqəmiz Fədai təşkili və onun rəhbərliyində müstəqim surətdə çalışıb və heyrətavər bir surətdə ləyaqət büruza vermışdır. Əgərçi əldə səhih bir surət yoxdur vəli birinci görünüşə istinadən deyə bilirik ki, əlinə silah alıb ölüm- dirim mübarizəsinə hazır olan qəhrəman fədailərin yüzdə doxsandan yuxarısı Firqə üzvləri olmuşdur.

İran xəlqini illər boyu əzib əsarət altında saxlayan Tehran irticaının bağrına qorxu salan bu böyük təşkilat 21- Azərdə bir aydan yuxarı sabiqəsi yox idi. Onun əməliyati isə məclis intixabati başladıqdan sonra zahirə çıxmışdı, Sarab, Miyana və Mərağa fədailərinə məxsusən əmr verilmişdi ki, intixabat qurtarandan sonra əməliYata girişsinlər.

Bununla belə Məclis Millimizin açılış günü, onun əmniyətini təmin etmək və təsmimatını mövqei- icraya qoymaq üçün ətrafda olan Fədai dəstələri münəzzəm surətdə hərəkət edərək şəhəri mühasirəyə almış və şəhər fədailəri isə öz vəzifələrini əncam vermək üçün hazırbaş halına gəlmişlərdi.

İkinci sütün isə yenə mərkəzi komitənin ikinci dəstəsi vasitəsilə işə başlayıb müvəffəqiyyətlə ictimaı və siyası səngərləri bir- birinin dalınca işğal edib irəli gələmişlərdi.

Bu sütündə Firqə Sədri və onun müavinləri ağayi Şəbistəri və ağayi Badəkan başda olmaq üzrə, yenə də Mərkəzi Komitə üzvləri birinci səfdə mübarizə edib, böyük və heyrətavər işlər görməkde idilər.

Bu siyası və ictimaı mübarizə səfində daha artıq fəaliyət göstərən Mərkəzi Komitə üzvləri ağayi Biriya, ağayi Qiyami, ağayi Vilayi, ağayi Xəlil Azərbadəkan, ağayi Covdət, ağayi Şahin, ağayi Şəşm Azər, ağayi Rəfii, ağayi Zəfiri, ağayi Pişnamazi və ağayi Haşmniya və sayirlərini göstərmək olar ki, gecə- gündüz yatmayıb xəlqi təşkil və əfkar ümumunu hazırlamaqla məqsəd və hədəfi yaxınlaşdırmağa müvəffəq olmüşlar.

Nəhayət hər iki sütün 21- Azərdə Təbriz şəhərində, Məclis Milli təşkili günü təyin edilən hədəf və məhəldə bir- birinə yetişmiş, bu vasitə ilə dünyaya səs salan Milli Hökümətimiz vicuda gəlmiş və nehzətimizin iki ərkanının birləşməsilə böyük bir tarixi hadisə meydana çıxmışdır.

Məclis milli təşkili, 21- Azər şəraitində ağır və böyük bir iş idi. O gün hənuz sərtib Dirxəşaninin nizami qüvvəsi xəl-silah edilməmiş, polis və jandarm təşkilatı təmamilə bizim əlimizə keçməmişdi. Şəhərin özündə hər saat təsadüm gözlənilir və bə'zi Fədai başçılarının naşılığı cəhətindən tüfəng və müsəlsəl atışmaları da bə'zən ittifaq düşürdü.

Bununla belə Firqə rəhbərləri qəblən təhiyə edilən nəqşə üzərilə işlərinə dəvam edib, gecə- gündüz çalışaraq Məclisin nizamnamə və təşkilatını vicuda gətirməkdən çəkinməyirdilər.

Məclisimizi, 21- Azərdə nümayəndələrin ən yaşlısı hesab olunan ağayi Rəfii, sinni rəis simətilə iftitah etdi. Sonra isə təşkilatı istənilən kimi qurub nizamənaməni keçirmək üçün ağayi Pişəvəri rəyasətə intixab oldu.

Ogun Məclis fövqəl’adə əzəmətli idi. Bə'zi xarici dövlətlər nümayəndələri və şəhər əhalısının müxtəlif təbəqələrinin görkəmli başçılarının bir çoxu tamaşaçı sifətilə hazır olmuşlardi.

Ağayi Pişəvəri tarixi cəlsəni idarə edərək nizamənaməni məşəruh bir surətdə tövzih edərək Məclisin təsvibinə yetirdi. Müsəlsəl və tüfəng səslərinin şədid bir surətdə dəvamına baxmayaraq Məclis kəmal sükut və aramış ilə fəaliyətinə idamə verib, özünün riyasət heyətini intixab etdi.

Heyət rəyasət intixab olunduqdan sonra ağayi Pişəvəri rəyasət kürsüsündən aşıağı enib ağayi Şəbistərini intixab olduğu rəyasət vəzifəsini əncam verməyə də’vət etdi. İş barık bir yerə çatdığı üçün

ciddi bir qədəm daha götürmək lazim idi. Ağayi Şəbistərinin rəyasət vəzifəsinə intixabı Milli Hökümət təşkili pişnahadi ilə başlandi. Müxtəsər müzakirədən sonra bütün demokratik ölkələrdə olduğu kimin məclisdə əksəriyət qazanan Firqə liderinin hökümət təşkil etəməsi qərara alındi. Bu təıq ilə ağayi Pişəvəri baş vəzir intixab olundular.

İşi bir an təxirə salmamaq məqsədi ilə ağayi Pişəvəri mərkəzi Komitənin təsmimi üzərinə gün ortadan sonra məclisdə hazır olub aşağıdaki təfsil və tərtib ilə Milli Hökümət ə'zasını və onun proqramını məclisə təqdim elədi.

# Azərbaycan Milli Höküməti

Azərbaycan Məclis Millisinin dünən gün ortadan qabaqki cəlsəsində Azərbaycan Demokrat Firqəsinin rəısı ağayi pişəvrini Azərbaycan Milli Dövlətini təşkil verməyə namzəd və məmur etdi.

Ağayi Pişəvəri gün ortadan sonraki cəlsədə öz kabınəsin aşağıda qeyd olunan tərtib üzrə Məclis Milliyə müərriflik etdilər:

| | |
|---|---|
| 1- Baş vəzir | ağayi Seyid Cəfər Pişəvəri |
| 2- Daxilə vəziri | aqay Doktor Səlamullah Cavid |
| 3- Xəlq Qoşunları vəziri | ağayi Cəfər Kaviyan |
| 4- Fəlahət vəziri | ağayi Doktor Məhtaş |
| 5- Maarif vəziri | ağayi Məhəmməd Biriya |
| 6- Səhiyyə vəziri | ağayi Doktor Orəngi |
| 7- Maliə vəziri | ağayi Qulamriza İlhami |
| 8- Ədliə vəziri | ağayi Yusif Əzima |
| 9- Yol, Post, Teleqraf və Telefon vəziri | ağayi Kəbiri |
| 10- Ticarət və İqtisad vəziri | ağayi rza rəsuli |

11 - İş və Zəhmət vəziri təyin olunana kimi o vizarətxanaya mərbut olan işlərə Baş vəzirlik nəzarət edəcəkdir.

Kabınə müərriflik olduqdan sonra ittifaq ara ilə təsvib olub, sonra məclis tərəfindən ağayi Zəynəlabdin Qiyami Divani- Təmiz rəyasətinə və ağayi Firidun İbrahimi Azərbaycan Müdəiyül-Ümumluğuna intixab oldular.

Ağayi Pişəvəri öz dövlətinin bərnaməsini geniş surətdə təşərih edib və Azərbaycan Milli Hökümətinin proqramını (bərənaməsini) aşağıda qeyd olan təfsil üzrə qəraet etdilər.

# Azərbaycan Milli Hökumətinin Proqrami

# (Bərənaməsi)

Azərbaycan Milli Kabınəsi, Azərbaycan xəlqinin illər boyu arzu etdiyi Milli Muxtariyətİ əmələn vicuda gətirmək və bu vasitə ilə azərbaycan xəlqinin milli ehtiyaclarını rəf edib, onu tərəqqi və təkamülə söVq etmək üçün aşağıdakı vəzayifi özünün yaxın hədəfi və bərnaməsi qərar verir;

1- Milli Muxtariyətimizi dünyaya tanıtmaq, onun davam və bəqasını təmin etmək üçün ciddi tədbirlər görüb, səlahiyətdar məqamat ilə müzakirəyə girişmək, iranın istiqlal və təmamiyətini xələldar etmədən Milli Dövlətimizi demokratik əsaslar üzrə qurmaq və bu yolda qabağa çıxabilən müşgülatı rəf etmək.

2- Milli Muxtariyətimizi möhkəm əsaslar üzrə qurub, onu xəlqə yaxınlaşdırmaq məqsədi ilə çox tez bir surətdə Vilayət əncümənlərinin intixabatına başlamaq və yerli idarələrin nəzarətini onların ixtiyarına qoymaq.

3- Şəhərlərimizin ümran və abadlığı üçün bilatəxir şəhər əncümənlərini, demokratik əsaslar üzrə intixab edib, onların işlərini düzgün və səhih bir surətdə cərəyana salmaq.

4- Yerlərdə mö'təmid azadixah adamlardan, fərmandar və bəxşdarlar intixab edib, onların vasitəsi ilə keçmiş zalimanə hərəkətlər və xəlqi təhqir edici əməllərin qabağını alıb, bütün ölkədə əmniyət və asayişi təmin etmək.

5- Jandarm və polis idarələrini xain və xəlqi əzib fəlakətə sövq edən əşxasın əlindən çıxarıb, azadixah və mihənpərəst əşxasa tapşırmaq və onların işlərini xəlqin arzu və ehtiyacatına mütənasib bir hala salmaq.

6- Maliyat qanunlarını nəzərdən keçirmək və maliyə idarəsinin dəxl və xərcini təftiş etdikdən sonra, çox tez bir surətdə milli büdcə layıhəsini Məclis Milliyə təqdim etmək. Ümumiyətlə mali siyasətin gəlir və məxaric əsasını məmləkətin tərəqqi və təkamüli üzərində qərarlaşdırmaq.

7- Muxtariyətimizi, Məclis Millimizi və Milli Dövlətimizi qurmaq və onun gələcəyini təmin etmək üçün kəndlərdə və şəhərlərdə vicuda gələn fədai dəstələrini bir mərkəz ətrafında təmərküz vermək, milli xəlq qoşunu vicuda gətirmək və bu qoşunun təslihat və tənzimatını müasir hala salmaq məqsədi ilə ciddi tədbirlər görmək.

8- Fərhəng və Maarif sahəsində  dövlətimizin qabağında iki böyük məsələ durur. Birincisi öz Milli Dilimizi bütün mədrəsələrdə rəsmi olaraq qəbul və icra etmək, ikincisi isə ümumiyətlə savadsızlığa qarşı mübarizə aparmaq, məccanı və icbari təhsili əməli yoluna qoymaq. Bunların hamısından ziyadə, Milli Hökümətimiz ali təhsil məsələsinə əhəmmiyət verib, Milli Darülfünunumuzun əsasını qoymağa çalışmalıdır.

9- Ticarət və ilqtisad sahəsində Milli Hökümətimiz birinci növbədə milli sənayeimizə əhəmmit verib, mövcud karxanaları düzgün yoluna qoyacaq. İkinci növbədə yeni karxanalar açmaqla, məmləkətin sənayeinə olan ehtiyacatını tmin edəcəkdir. Ticarət sahəsində dövlətimiz azərbaycanın ticarət mərkəzi olabilməsi üçün tədbirlər görəcək və yollar arayacaqdır.

10- Yolların tə'mir və ehdası, post, təleqraf və telefon kimi irtibat vəsaitinin genişləndirib, müasir hala salınması hökümətimizin əsası vəzifələrindən dir.

11- Kəndli ilə ərbablar arasında tovlid olan ixtilafatı rəf etmək üçün mütəqabil rizayət şərti ilə, ciddi qanun layihəsi tənzim edib, bu yol ilə kəndli və ərbab məsələsini həll və təsvib eləmək.

12- Kəndlərdə və şəhərlərdə gündən - günə artmaqda olan işsizliyin qarşısını almaq üçün xalisə torpaqlarını fövriyətlə zare'lər arasında təqsim etmək. Həmçinin azərbaycanı tərk edib onun xaricində Milli Muxtariyətimiz əleyhinə təbliğat aparanların da yerlərini zəbt edib kəndlilərin ixtiyarına qoymaq ilə yersiz kəndlilər ayaqlandırılmalıdır. Bundan əlavə xəlqimizin əksəriyətini təşkil edən kəndlilər olduğu üçün gələcəkdə banke- kəşavərzini elə bir surətdə qüvətləndirmək lazimdir ki, eliyə bilsin kəndliyə e’tibar verməklə yer məsələsini həll etsin və ərbablar öz meyl və rəğbətləri ilə yerləri kəndlilərə adilanə qiymətə sata bilsinlər.

13- Bekarlıqla ciddi mübarizə etmək üçün ciddi tədbirlər görmək, əl sənayei, yol işləri, karxanalar təsisi, fəlahət və ticarətin artması vəsilələrindən ciddi surətdə istifadə etməyi lazim görür.

14- Kargər və zəhmətkeşlərin məişətini düzgün yola qoymaq üçün iş və zəhmət qanunun layihəsini təhiyə edib məclisə təqdim etəməli və eyn zamanda işçilərin biymə edilməsini icbari etmək üçün tədbirlər görməlidir.

15- Səhiyə işinə təvəcceh edib birinci növbədə ümumi və müsri xəstəliklərin qabağının alınması və məxsusən kəndlərdə və aşağı təbəqəyə həkim və dava yetirməklə xəlqin behaştını təmin etəməlidir.

16- Məclis Şovrayi Milli tərəfindən bu ana qədər vəz' olunmuş qanunları, Azərbaycan xəlqinin həyatina və Milli Muxtariyətə münasib bir surətdə islah edib taza müfid layihələr pişnahad etmək.

17- Xüsusi maləkiyət haqqında Azərbaycan Milli Höküməti, məmləkətin bütün sahələri üçün xususy maləkiti qəbul edib, məmləkətin və xəlq iqtisadiyyatının tərəqqisinə və xəlqin rifah halına səbəb olan hər cür xüsusi iqdamata kömək edəcəkdir.

18- Azərbaycan Milli Hökuməti, ölkə də yaşayan ümum əhalinin vicdan və əqiydə azadlığına ehtiram edəcəkdir.

19- Azərbaycan Milli Hökuməti, azərbaycanlılarla birlikdə azərbaycanda yaşayan bütün həmvətənləri xüsusilə Kürdləri, Ermniləri, Asoruları və başqalarını hüquq və qanun müqabilində musavi hesab edir.

20- Azərbaycan Milli Hökuməti, mərkəzi İran hökümətini tanımaqla bərabər bu hökümətin azərbaycanın muxtariyətə müxalif gəlməyən, Azərbaycan xəlqinin Məclis Müəssisan və Azərbaycan Məclisinin müraciətnamə və qərarlarında qeyd olunan Milli Hüquq və tələblərinə zidd olmayan tədbirlərin həyata keçirəcəkdir.

Bərnamənin ətrafında müfəssəl surətdə bəhs etdikdən sonra rəy alınıb, Azərbaycan Mmilli Hökümətinin bərnaməsi ittifaq ara ilə təsvib oldu.

***

İrmibir Azər, demək olar firqəmizin şədid fəaliyət günlərinin ən birincısı hesab olunmalıdır. Bu bir günün ərzində görülən işləri əgər şərh versək özü bir tarix kitabı ola bilər. Fədailərin şəhərə vürudu, Məclisin yeni açılışı, onun Heyəti- Rəyasətinın intixabı, nizamənaməsinin təsvibi, Milli Dövlətin təşkili və onun yuxarıdaki təfsil üzərilə təqdim etdiyi bərnamə nəhayət Təbrizdə olan Dövlət Müsəlləh Qüvvələrinin başçıları ilə və onların təslimi həqqində aparılan 8- saatlıq danışıq, elə işlərdir ki, adi bir zəmanda onların icrası üçün günlər bəlkə aylar sərf etmək lazim gəlirdi.

Məxsusən Milli Hökümətin vəziyətə hakim olub bu böyük təhəvvülat nəticəsində meydana çıxa bilən bütün hadisələrdən bərqasa hərəkət ilə cilovgirlik etəməsi, birinci dərəcədə qeyd edilməlidir.

O gün Təbriz şəhəri müsəlləh Fədai qüvvələri ilə xinca- xinc dolmuşdu. İstər şəhərdə olan, istərsə ətrafdan gələn bə'zi macəracu ünsürlər sadə bir sui- hadisəyə müntəzir idilər ki, tökülüb xəlqin evlərini və bazarı qarət etsinlər. Firqəmizin ciddi göstərişi və yeni qurulmuş Milli Hökümətimizin şədid tədbirləri sayəsində bu qorxulu işin qabağı alındı.

Nəhayət Təbriz azad bir surətdə nəfəs çəkib, öz doğma dövlət təşkilatını məhəbbətlə bağrına basmağa müvəffəq oldu. Firqəmizin dövlət quruluşunda göstərdiyi ləyaqət və əmniyəti bərqərar etmək yolunda büruza verdiyi qüdrət, ümum tərəfindən sevinc ilə qarşılanıb xəlqin gələcəyi ümid və itminanı artmağa başladı.

Azər ayının son günlərində doğrudan doğruya bütün Azərbaycan xəlqi böyük cəşən və bayram günləri geçirməkde idi. Bu nehzətin müvəffəqiyyətlə qurtarması xəlqi məsərrətə gətirdi. İllər boyu əsarət boyunduruğu altında sürüklənən cəmaətin, nehzətimizin icad etdiyi ümid nuru əsərində üzləri gülməyə və onların 25- illik diktatorluq dövrəsində sıxılıb, əzilib, yes və beçaralığa məhkum olan ürəkləri açılıb fərəh və şadlıqla dolmağa başladı. 21- Azər müstəqiymən xəlq günü, xəlq bayramı yerini tutdu, bütün kəndlər və şəhərlərimiz bu bayramda ürəkdən şirkət etdi.

# Milli Hökumət

Firqəmizin göstərişi və Firqə sədrinin müstəqim rəhbərliyi ilə təşkil tapan Milli Hökumət həman gün işə başladı. Əyərçi hökuməti təşkil edən vəzirlərin hamısı dövləti işlərdə naşı və sabiqəsiz adamlar idilər, bunola belə onlarda olan səmimiyyət və fədakarlıq nəticəsində qarşıda duran müşgülata baxmadan, dövlət rəisi siyasi mə’lumatı və uzun müddət apardığı siyasi və ictimai mübarizələrdən aldığı təcrübələrinə istinadən öhdələrinə mühəvvəl edilən vəzifəni ləyaqət və şərafətlə əncam verməyə başladılar.

Milli dövlət birinci qədəmdən özünü Firqə, Məclis və bəlkə ümum xəlq qarşısında məsul hesab etdiyi üçün Məclisə təqdim etdiyi proqramı özünə sərməşq qərar verib onun maddələrinin icrasına himmət sərf etməyə başladı.

Birinci növbədə dövlət təşkilatını müzürr və fasıd ünsürlərdən təmizləmək və bu təşkilatı xəlqin arzularını yerinə yetirmək vəzifəsinə uyğun bir hala salmaq lazim gəlirdi. Bu müşgül vəzifəni bir ya neçə gündə icra etmək olmazdı. Ona görə itmam-höccət olmaq şərtilə onlara xitabən aşağıdakı e`lamiyyənin intişarına lüzüm göründü:

# Azərbaycan Milli Hökumətinin Elamiyyəsi

Azərbaycan Məclis-Millisinin intixab etdiyi Azərbaycan Milli Dövləti iranın istiqlal və təmamiyyətini hifz etməklə bərabər işə şüru etdiyini bu vasitə ilə bütün xəlqə  e`lam edir.

Bu e`lamiyyə müntəşir olan gündən e’tibarən malikiyyət-xüsusi məhfuz olmaq şərtilə bütün Azərbaycanda olan dövlət idarələri taza hökumətin təhti-ixtiyarına geçdiyindən ümum dövlət məmurlarına öz vəzifələrini düzgünlük və sədaqət ilə əncam verməlgri tapşırılır, və taza dövlətin əmrlərinə itaət edib onun dəsturu ilə rəftar edən karməndlər üçün münasib iş şəraiti vicuda gətiriləcək. İşləməkdən imtina edənlər isə kəmal-ehtiram ilə istədikləri yerə göndəriləcəklər.

Azərbaycan Milli Hökuməti xəlqin səadət və xoşbəxtliyindən ötrü qurulduğu üçün ümum xəlqi fəaliyyətə, düzlüyə, asayiş və əmniyyəti hifz etməyə bir-birilə qardaşvari yaşamağa də’vət edir.

Əmniyyəti ixlal edən və xəlqin mal və canın, namus və həyatina təcavüz eləyənlər, həmçinin dövlət malına xəyanət əli uzadıb dövlət idarələrindən sui-istifadə edənlər və ya dövlət idarələrində xərabkarlıq, müsamihə və öz vəzifəsində kütahlıq etmək kimi xainanə təşəbbüslər büruza verənlər isə xəlqin düşməni hesab olunub və millət və dövlət yannında nifrət və inzicar qazanmaqdan əlavə qanuni məhkəmə vasitəsilə mücazat ediləcəklər.

Hamıdan xəlqə və ölkəyə və Azərbaycanın gələcəyi yolunda ciddiyyət gözlənir, dövlət isə onun şəraitini vicuda gətirməyə çalışacaqdır.

Azərbaycan Milli Vəzirlər Heyəti eyn zəmanda Azərbaycanda məmuriyyətləri olan xarici dövlətlərin diplomasi nümayəndələrinə itila' verir ki, kəma-fissabiq onların beynəlmiləl qanunlar şəraitində olan həq və ixtiyarları kəmal-diqqət və ehtiram olunacaqdır. Həmçinin demokratik dövlətlərin ətba'inin asayiş və əmniyyətini hifz etmək yolunda Milli Dövlət heç bir fədakarlıqdan xuddarlıq etəmiyəcəkdir.

Bugundən e'tibarən dövlətə mütəalliq olan mənqul və qeyri-mənqül əmval və həmçinin nəğd və cins və e'tibar Milli Dövlət ixtiyarına geçdikdən onların saxlamağına müvəzzəf olan dövlət məmurları geçmişdə verdikləri təəhhüd və qəbul etdikləri məsuliyyət üzrə onları hifz və hərasət etməyə məcburdurlar. Bu əmvalı heiyfu-meyl edənlər ağır cəzalar ilə mücazat görcəklər.

Artıq Azərbaycan Milli Hökuməti təhəqqüq tapmış, xəlqin iradəsilə Daxili Milli Dövlətimiz vicuda gəlib rəsmi surətdə xəlqimizin arzu və amalını icra etməyə başlamışdır. Xəlq isə öz Milli Hökumətinə var qüvvəsilə müsa'idət göstərib onun fəaliyyəti üçün münasib şərait vicuda gətirəməlidir.

Yuxarıda qeyd edidiyi kimi dövlət var qüvvəsilə əmniyyəti hifz etməyə çalışır. Ona görə xəlq üçün nigaran olmağa heç bir dəlil yoxdur. Hər kəs öz işınə məşğul olmalı, öz istədiyi kimi yaşamalıdır. Bazarı bağlamaq, mədrəsələri tə`til edib vəhşət və iztirab yaratmağın mə'nası yoxdur, hökumət öz bərənaməsini xəlqin ehtiyacatı üzərində qurmuşdur. Ona görə xəlqi narahat edən hadisələrə yol verilməyəcəkdir.

Təsadüfi hadisələrə isə çox tez bir zamanda xatimə veriləcək. Macəracular, asayişı ixtilal edənlər saleh məhkəmələr tərəfindən mühakimə və şədid bir surətdə mücazat olunacaqlar.

Heç bir pis ittifaq düşməyəcək, heç kəsin hüququna təərrüz olmayacaqdır. Milli Hökumət nəzmiyyə idarəsini taza qüvvələr, vəsi' ixtiyarat ilə gücləndirmişdir. Hərci-mərc və naəmnliyə artıq meydan verilməyəcəkdir. Məxsusən mədrəsələrimiz həman sabiq proqramlarını tə'qib etməli, mühəssillərimiz var qüvvəlɘrilə imtahanlara hazırlaşmalıdırlar.

Kəndlərdə və şəhəristanlarda isə ciddi surətdə işə başlanıb adi hal vicuda gələcək və dövlət məmurları Fədailərin ğeyri-məsul əşxasın dəxalti olmadan öz vəzifələrini əncam verməyə qadir olacaqlar. Fədai dəstələri intizam altına alınıb müəyyən mərkəzə tabə' olacaq və bu vasitə ilə hər bir sui-hadisə ehtimalının qabağı alınacaqdır.

Gedin çalışın asudə olun, millətimizin gələcəyi və səadətini təəmin etmək üçün qəbul etdiyiniz vəzifəni sədaqət və iyman ilə əncam verin. Dövlət ümum həmvətənlərdən bunu tələb edər.

O günlərdə Azərbaycan xəlqinin gələcəyi barəsində hər kəs bir cür düşünürdü. Hetta Firqəmizin rəhbərliyi sayəsində vicuda gələn Milli Hökumətə iki ürəkliliklə də baxanlar var idi. Aşağıdakı məqalə o vəqt Firqə sıralarında çalışan bə'zi mürəddəd rövşənfikirlərin nəzərindən bir nümunə olmaq üçün burada dərc edilir. Bu məqalə Azərbaycanın 79-cu nümrəsində «Novruz» isim-müstə'arı altında yazılmışdır.

# Böyük Məsuliyyət Qarşisında

Dünənə kimi millətimizin zəlalətinə dövlət işlərini məsul tanırdıq. Dünən geçdi, daha dünənəki iş başında olan ünsürlərin əməliyyatını təqbih etməkdən xuddarlıq edilməlidir, onların nacəvanəmrdana zülmləri, ehcafları xəlqimizin kasasını ləbəriz edib nəticəsində Fədailərimiz dəstəsini vicuda gətirdi və az müddət zərfində hökuməti ələ alıb millətin dönəmz iradəsini isbat etdilər.

Buna görə də dünənəki şəxsiyyətləri təhqir, intiqad etməklə məmləkətimizin ümuratı həll olmayacaqdır.

Bugundən e'tibarən Azərbaycan öz Heyət Dövlətini və xəlqimizə rəhbərlik edən Firqə işçilərini millətin səadətinə və onu düzgün yola aparmağa məsul tanırlar.

Azərbaycan dövlətinin qarşısında möhtərəm sədrimiz ağayi Pişəvərinin dediyi kimi böyük məsuliyyət durur!

Azərbaycanı bir mövqə' dövlətə tapşırırlar ki, onda əbədən asari-təməddün və təkamül yoxdur!

Şəhərlərimiz xəraba, kəndlərimiz verana, xəlqimizin yüzdə yüzu əsrimizədə olan ülum və sənaye'dən biybəhrə dirlər!

Belə bir mövqə'də Azərbaycan Millətinin həyatını Heyət-Dövlətə tapşırırlar. Buna görə dövlət çox böyük məsuliyyət altına gedir, aydındır ki, xəlqimizin ümid və arzusu taza dövlətə bağlıdır.

Azərbaycan xəlqini illər boyu Tehranın yaramaz ünsürləri soyub, çapıb, namusuna, malına təcavüz edib. Nəticədə beş milionənluq bir milləti biyxbər əz həmmə çiz saxlamışdırlar.

Onlar öz nəqşələrində Napeleon Vaterloda yağışı unutmuş kimi millətin iste`mar idarəsini unudub nəticədə bu günkü şikəstə mə'ruz qaldılar.

Azərbaycan bir yaralı adam kimi müstəbidd cəlladların əlindən qurtulub sədiq, müşfiq bir təbibə möhtacdır. Onun yaralarının sağalmasına çox böyük fədakarlıq istəyir. Bu işə öhdədar olan fədakar şəxslər gecə-gündüz yorulmadan işləməlidirlər.

Millət böyük vəzifəni Azərbaycan Demokrat Firqəsinin möhtərəm sədri ağayi Pişəvərinin öhdəsinə qoyubdur.

Ağayi Pişəvəridə olan fəaliyyət, ciddiyyət, fədakarlıq bizi bu böyük əmrin əncamına ümidvar etməklə bərabər xəlqimizə səadətli bir gələcək indidən pişbinlik olur.

Ağayi Pişəvəri, sinnin çoxluğuna və vicudun zəif olmasına baxmayaraq zavvali millətini müdhiş uçurumdan nicat vermək vəzifəsini boynuna almışdır.

Biz bu fədakarlığı səmim qəlbdən ağayi Pişəvəriyə və xəlqimizə ki, belə bir iyid oğul cami'əyə təqdim edibdir təbərik etməklə bərabər onun müvəffəqiyyətini arzu edirik.

Bundan sonra ağayi Pişəvəri Azərbaycan Məclis-Millisinin qarşısında Azərbaycan Dövlətində vicuda gələn ğələt işlər barəsində məsul olacaqdır.

Məclis xəlqimizin səadətini ağayi Pişəvəridən gözləməklə bərabər onun hər cür iştibahata , millətimizin əleyhinə əncam tapan işlərdə məsul tanıyacaqdır.

Buna görə rəis dövlət iki böyük məsuliyyət qarşısında vaqe' olub ki, hər ikisi də haizi-əhəmiyyətdir, birnci dəfə dövlət və vətən xainləri ilə ciddi mübarizə aparmaqdır. Bu parazitləri gərək təmam idaratdan tutub məhkəməyi Millinin əlinə tapşırsınlar. İkinci isə millət qarşısında xəlqimizin səadətinə məsul vaqe' olub illər boyu əsarət altında qalan millətimizi düzgün yola sövq etəməlidir. Fe'lən bu iki böyük vəzifə Heyət Dövlətin qabağındadır, leykən himmət və iradə hər böyük məsuliyyətdən yüksək dir, kimsədə iradə və vətən məhəbbəti olsa böyük müşgülatı həll edə bilir. Heyət Dövlətdə olan iradə və ciddiyyət və sədaqət bizi müvəffəqiyyətə ümidvar edir. Bundan sonra biz qabaqdakı olan xainlərin əməliyyatını unudub, hal hazırda olan dövlətimizin əməliatını qədəm bəqdəm tə'qib edəcəyik. **«Novruz»**

# Tarixi Bir Sənəd

21-Azərdə təşkil tapan Milli Hökumət iyirmi iki azərdə şəhərdə olan nizami, Polis və jandarm qüvvələrinin təklifini müəyyən etmək və bu işi sülh yolu ilə əncam vermək üçün, 21-Azərdə başlanan müzakirəyə idamə verdi.

Əvvəl polis onun dalınca jandarm qüvvələri qeyd-şərtsiz təslim oldular. Şəhrərbani məmurları Milli Dövlət tərəfindən tə’yin olunmuş yeni məmurların köməyi ilə şəhərin əmniyyət və intizamını hifz etməyə məmur oldular. Jandarmlar isə təmamilə xəl'-silah olunub idarəlrini təhvil verməyə məcbur idilər.

Qoşun fərmandehi isə Tehrandan aldığı xainanə əmr üzərinə uzun müddət müqavimət göstərib məsələnin qansız bir surətdə həll olunmasına rizayət vermirdi. Bu isə həm özünün  həm də nizami əfradının məhv və izmehlalı demək idi. Çünki əyər iş atışma və cəngə müncər olsaydi nizamiyyədə məhsür halda qalan min iki yüz nəfər sərbazdan bir nəfər də olsun diri qallmayacaq idi. O zəman üçüncü ləşgərin fərmandehlıq vəzifəsini daşıyan sərtib Dirəxşani hər saat Tehrandan cəvab gözləyirdi. Nəhayət onun gözlədiyi cəvab pənşənbə günü axşam saat səkkizədə visül oldu. Bu cəvabda deyilirdi ki, əfsərlər ilə məşvərət edib padganın təklifini onların nəzəri ilə müəyyən etmək lazimdir.

Bu cəvabın visulu ilə artıq sərtib Dirəxşani ağır nizami məsuliyyətdən xilas olundu. Bundan sonra əyər qan tökülmüş olsaydı günahı onun öz boynuna olacaq idi, bu təleqrafın visulundan biyxəbər olmayan Firqə və Hökumət rəisi işın tez bir surətdə əncam tapmasını ciddi və qət'i bir ləhn ilə tələb edirdi.

Doğrudanda əyər iş təxirə düşsəydi nagəvar hadisələr üz verə bilərdi. Azadlıq düşmənləri məxsusən «Ərfə'»-in barmaqğı ilə oynayıb, azərbaycanı qan dəryasına döndərmək istəyən sərhəng «Vərəhram» kimi xain ünsürlər böyük vətəndaş müharibəsi yaratmağa imkan tapa bilərdi.

Ona görə ağayi Pişəvəri ağayi Şəbistərinin iştirakı ilə məsələni bir an əvvəl qurtarmağa çalışırdılar, bununla belə danışıq 15-saat dəvam etdi. Qət'i təsmim tutmağa cəsarət edəbilməyən sərtib Dirxşani biləxərə öz təhti fərmanında olan əfsərlərdən bir neçəsini istəyib məsələni Onlar ilə ortalığa qoydu.

Sonra ağayi Pişəvəri əfsərlərin əksəriyyətini də’vət edib onlara qəziyyənin həqiqətini anlatdi.

Nəhayət saat səkkizyarım gün-ortadan sonra mə'ruf «Alaqapu » binasında tərəfeynin rizayəti ilə aşağıdakı qərardad tənzim və imza edidi.

# Azərbaycanın Daxili Dövlət Rəisi İlə Təbriz Padigani Fərmandehi Arasındakı Qərardadın Mətni

Çün Azərbaycan daxili dövləti Azərbaycan Milli Məclisi tərəfindən azərbaycanda əmniyyəti hifz etməyə məmur olmuşdur, aramişi hifz etmək nüqtyi-nəzərindən heçgünə suitəfahüm tövlid etməmək və qardaş qani tökməmək üçün üçüncü ləşgər fərmandehi ilə dəfəat ilə müzakirat və müşavirələr olmuşdu.

Bir neçə gün təbadül-əfkardan sonra biləxərə tarix 22-azər-mah səneyi 1324-də pənşənbə günü saat səkkiz-yarım gün ortadan sonra timsar sərtib Dirəxşani əsləhəni yerə qoymaq üçün müvafiqət və Təbriz padigani ilə həmkarlıq etməyə dayir və Azərbaycan Dövlət Heyəti ilə hövmə də e`lam edib aşağıdakı qərarın əqdinə müvafiq olduğunu izhar etdilər:

1-Təbriz padigani tərəfindən ağayi timsar sərtib Dirəxşani və Heyət Dövlət Daxili canibindən ağayi Seyid Cə'fər Pişəvəri tə'yin olub və şürut məşəruhəni imza etdilər.

2-Təbriz padigani əfradından heçəks dəsturi-sanəvi sadır olmayınca sərbazxana mühəvvətəsindən xaric olmayıb və Daxili Dövlət onların vəsail-zindəganisini və onların maaşını fərahəm gətirsin.

3-Silahların külliyəsi anbarlarda cəm'avərlik olunub Azərbaycan Daxili Dövlət tərəfindən tə'yin olunmuş əşxasın mühafizəsində olmalıdır.

4-Ağayian əfsərandan hər hankısı öz məsqətülrə'slərinə və ya digər nüqtələrə getmək meylləri olsa müsafirət edəbilərlər və Dövlət-Milli hazırdır ki, imkan və vəsil hüdudunda onların müsafirətini fərahəm gətirsin.

5-Həmkarlığa mayil olan və azərbaycanın Arteş-Millisində xidmət etmək istəyən əfsərlər, təhlif və mərasim-sövgənd əncamından sonra dövlət Onları xidmətə qəbul edib və onların zindganlıq vəsiləlrini təamin edəcəkdir.

6-Üstvarlar və güruhbanlar və sayir əfrad-padigan mərasim-təhlif və sövgənd-vəfadarlıq əncamından sonra, əsləhələr onlara qaytarılacaq və öz sərbazlıq xidmətlərini idaməyə məşğul olacaqlar.

7-Bu qərardad iki nüsxədə təhiyyə olunub ağayi timsar sərtib Dirəxşani Fərmandeh-Ləşkər 3-Azərbaycan və digər tərəfdən ağayi Seyid Cə'fər Pişəvəri Rəis Dövlət Daxili Azərbaycan tərəfindən imza edilib, mübadilə olunmuşdur.

**Üçüncü Azərbaycan ləşgərinin fərmandehi -Sərtib Dirəxşani (imza)**

**Azərbaycan Daxili Dövlət Heyətinin rəisi -Seyid Cə'fər Pişəvəri (imza)**

***

Həman saat aşağıdakı e'lanı ağayi sərtib Dirəxşani Təbriz padiganına xitabən imza edib onun intişarini Milli Hökumətdən xahiş etdi. E'lan sübh saat 10-da intişar tapdi.

# Təbriz Padigani Öz Əsləhəsini Yerə Qoydu

Təbriz padigani əfsər ərşədlərindən mütəşəkkil komisionda əxz olunmuş təsmimlər nəzərən qan tökmək və qardaş qırqını olmamaq üçün, itlafi nüfus-dövlət, tüccar və sayir şəxslərin əmvali dağılmamaq məqsədinə müvafiq dəstur verirəm ki, külliyi Təbriz padigani öz əsləhəsini yerə qoysun və sadır olmuş e`lamiyyəyə müvafiq rəftar etsinlər.

**Üçüncü Azərbaycan ləşgərinin fərmandehi -Sərtib  Dirəxşani (imza)**

***

Buna baxmayaraq başda sərhəng Vərəhram olmaq üzrə əfsərlərdən bir neçəsi şəhərdə intizamsızlıq törətmək məqsədilə böyük bir xəyanətə mürtkib olub qərardadi icra etmək əvəzində Milli Hökumət nümayəndələrinin başlarını qatıb nizmiyyənin qapılarını açaraq sərbazlara evlərinə getmək fərmanı verdilər. Bu vasitə ilə gecə saat 12-də min iki yüz nəfər sərbaz və iki yüzdən ziyadə əfsər sərbazxananı qarət edib şəhərə dağıldılar. Əyər Fədai başçıları və Firqə üzvləri də qəflət etmiş olsaydılar şəhərdə böyük hərci-mərc əmələ gələbiləcək idi, xoşbəxtanə Firqə və Hökumət vəziyyətə kamilən hakim olduqlarına görə bu hərci-mərcin qabağı alındi. Lakin sərbazxanada olan bütün

məlzumat bu vasitə ilə ortadan getdi. Bu cinayətkarlar hətta sərbazxananın qarətinə kifayət etməyib böyük əsləhə və nizami ləvazimatı məsələn müsəlsəl və radio və sayir şeyləri sındırıb xərab etəmişlərdi. Bu hadisəni nişan verən xəbəri nümunə üçün buraya dərc edirik.

# 3-Cü Ləşgər Sərbazlarının Qaçmağı və Mütəvari Olmağı

Azərbaycan Milli Dövlət rəisi və 3-cü ləşgər fərmandhi mabeynində olan qərardadın ikinci maddəsində səriyhən qeyd ediləmişdi ki:

«Təbriz padigani əfradından heçəks dəstur sanəvi sadir olmayınca sərbazxana mühəvvətəsindən xaric olmayıb....»

Qərardad imza olandan sonra bilafasilə ağayani əfsəran sərbazxananı tərk edib, öz mənzillərinə getdilər və sərbazlar da sərpərstsiz qalıb, bilatəklif sərbazxanadan qaçmağa şüru etdilər. Bədiyhi dir ki, bu xilaf əməl sərbazlıq məqamına tövhin olmaqdan əlavə mümkündür ki, şəhərin əmniyyətinə də əsaslı lətmə vırsın. Binaən-əleyh Heyət-Dövlət-Milli Azərbaycan bu əmrin aqibtindən cilovgirlik etmək üçün əmr verilmişdir ki, fövri surətdə müəssir iqdamat olunsun və şəhərin əmniyyəti təəmin və hifz olunsun.

Elə təsəvvür vardır ki, bu pişaməd Mərkəzi Hökumətin dəsturundakı axirinci cümlənin nəticəsidir.

# Dünən Gecəki Atışmalar

Dünən gecə şəhərin hər yerində kamil əmniyyət bərqərar idi və intizamat məmurları tərəfindən çox ciddi iqdamat olunub şəhərin əmniyyəti vicuda gəlmişdir. Dünən gecə bə'zi nüqtələrdə baş verən atışmalar fəqət şadəmanlıq nəticəsi idi ki, 3-cü ləşgərin müqaviməti qurtardığına görə edilirdi.

# Milli Hökumətin Müvəffəqiyyətlərinin Təsiri

Azərbaycan ruznaməsinin 23-azər nümrəsində bir qədər tərdid və mülahizə ilə (Unudulmaz Ləhzələr) məqaləsini yazanın Növruz ismi ilə hökumətin götürdüyü ciddi qədəmlər nəticəsində vicuda gələn əfkar-ümuminin təsirində iki gün sonra aşağıdakı məqaləni yazıb intişar vermişdir ki, rövşənfikirlərin və əfkari ammənin təğyir və təhəvvülünü göstərmək üçün şayan diqqətdir.

# Tariyxi Müvəffəqiyyət!

Azadixahlıq cibəhsi dörd gün ävväl Firqəmizin müdəbbir, ciddi, fə`al rəhbərlərinin hüsn siyasəti nəticəsində fateh çıxdığı həqqi həq sahibinə yetirdi. Xəlqimizin nehzətinə, azadixahlıq hərəkətlərinə gülän adamlar dörd gün bundan əvvəl Firqəmizin sınmaz qüdrətinə müsadif olmaqala bərabər həqiqətə kamilən iman gətirdilər ki, «Zülm ilə abad olan ev ədlilə bərbad olar.»

Əyər iş başında olanlar riyasət, sədarət mizlərini işğal edənlər bir az aqil, durəndiş olsalar, gərək bu tarixi hadisədən ibrət alıb bir daha zülm və ehcaf dövrəsinə dolanmasınlar. Firqəmizin əleyhinə aparılan zəhərli təbliğat büsbütün puça çıxdi. Bizləri məchul-əlhöviyə, şarlatan, əşərar adlandıran alçaqlar isə xəcalətliyindən xəlqin üzunə baxa bilməyirlər.

Fədailər dəstəsi münəzzəm surətdə şəhərə gəlib, aşubtələb adamların aldadıcı sözlərinə aldanmadan münəzzəm surətdə öz yerlərinə qayıtdılar.

Ev talamaq, bazar qarət etmək, xəlqin namusuna təcavüz etmək kimi Fədailərə nisbət verilən işlərdən abədən şəhərimizdə bir kiçik asar gorülməmişdir. Bundan ma'idən biz Firqəmizin ciddi, müdəbbir rəhbərlərinə və Fədailər dəstəsinin iman və əqidəsinə ümidvar olmaqla bərabər möhtərəm sədrimiz ağayi Pişəvərinin bu sözünü heç vəqt unutmamışıq. O demişdir: «Bazar talalayanlar, xəlqin mal və namusuna təcavüz edənlər gərək Azərbaycan Demokrat Firqəsinin rəhbərlərinin və ə'zasının nə'şləri üstündən geçsinlər», yəəni madam Demokrat Firqəsində qüdrət var, kimsə xəlqin canina və malına təcavüz edəbilməz.

Ağayi Pişəvərinin fəaliyyəti və bu dərin dəsturatı nəticəsində dir ki, dünyanı məbhut edən Azərbaycan nehzəti bu qədər məharətlə əncam tapıb, nəticədə bir nəfərin belə burunu qanamadi.

İki gün ərzində ruznamə dəftərinə vasil olan təqdirnamələrin sayı iki yüzdən artıqdır. Xəlq səmim qəlbdən Fədailərin Azərbaycan Demokrat Firqəsinin ə'zasının qanuni və mehriban əməliyyatından izhari təşəkkür edir.

Qışın bu musimində ayağında corabı olmayan bir Fədai 4550 tümən pula əl vurmadan xüddarlıq edib onu sağlam surətdə öz mafövquna təslim etəməyi, hələ dünyanın ən böyük inqilablarında da görünməmişdir. Biz öz Firqə üzvlərindən  bu fədakarlığı soraq aldıqdan sonra böyük nehzətimizə iqdam etmişik. Biz xəlqimizi nicat verməkdən ötrü var qüvvəmizlə canimizi fəda etməyə hazırlaşmışıq. Buna görə bizə aşubtələb adamların təbliğatı biəsər qalmaqla bərabər, müqəddəs məqsədimizi tə'qib etməyə daha da təşviq edir.

**«Növruz»**

# Milli Dövlətin Qərarları

21-Azərdən sonra Firqə hökumətə rəhbərlik etməyə başalayır və özünün tədbirlərini bu vasitə ilə həyata geçirir. Hamı bilirik ki, jandarmların zülm və cinayəti nəticəsində yüzlərcə kənd və şəhər zəhmətkeşləri zindanlara dolub orada taqətfərsa bir həyat geçirməkde idilər. Hökuməti alan Firqə başçıları isə bu işə bir an xatimə verməli idilər. Hələ hökumt təşkil olmadan əvvəl Milli Heyət zəmanı belə çoxlu zindanılar Firqə köməyi ilə azad ediləmişlərdi. Bununla belə yenə də zindanlar biygünah zindanılər ilə dolu idi.

Bu əsəfavər hala xatimə vermək üçün, Milli Hökumət əffi-ümumi layıhəsini tənzim edərək Məclis Millinin təsvibindən sonra bilafasilə onu həyata geçirdi. Bu vasitə ilə xain jandarm və polis cəlladlarının qurbanlıqları xilas olaraq həyata qədəm qoydular.

Milli Hökumətin altı ay müddətində gördüyü işlər  barəsində ağayi Pişəvərinin Məclis Milliyə verdiyi güzarişləri dərc etmədən əvvəl, nümunə olmaq üçün Milli Hökumətin bir gündə e'lan etdiyi uç qərari buraya dərc edirik:

# Təbrizdə Azərbaycan Dövlət Darülfununi Təşkili Həqqində Azərbaycan Milli Hökumətinin Qərari

Millətimizin arzulzrını və Azərbaycan Milli Konqrəsinin qərarlarını nəzərə alıb Milli və mədəni tərəqqimizi təəmin etmək üçün Azərbaycan Milli Hökuməti üzümuzə gələn dərs ilindən vətənimizin mərkəzi Təbriz şəhərində Azərbaycan dövlət darərülfununun təşkilini zəruri saydığı üçün aşağıdakı qərari qəbul edir.

1-Azərbaycanın Maarif Vizarəti, darülfununun təşkili üçün lazim olan büdcəni tənzim edib bir aya qədər Heyət Dövlətə təqdim etsin.

2-Azərbaycan Dövlət Darülfununi hələlik uç fakültədən ibarət olmalıdır. 1)-Tibb fakültəsi, 2)-Fəlahət fakültəsi. 3)-Pədaqoji fakültəsi, ki, buda Tarix və Dil, Ədəbyat, Fəlsəfə, Hüquq, Riyaziat şö'bələrindən təşkil tapmalıdır.

3-Maarif Vizarəti on güün müddətində Azərbaycan Darülfununu üçün lazim olan binani seçib Heyət Dövlətə iltila' verməlidir.

4-Azərbaycan Maarif Vizarəti indidən darülfununun ustadlar heyətini seçməyə və darülfunun üçün Azərbaycan dilində elmi vəsait hazırlamağa başlamalıdır.

Azərbaycan Milli Hökumətinin Baş Vəziri **«Pişəvəri»**

# Dil Həqqində Azərbaycan Milli Hökumətinin Qərari

Xəlqimizi dövlət dəstgahına yaxınlaşdırmaq və ümumun ehtiyacatını sadə bir surətdə anlamaq və həmçinin Milli Dili və Milli Mədəniyyətimizin tərəqqi və təkamül yollarını təmizləmək üçün Azərbaycan Milli Hökuməti özünün 16-dei tarixi cəlsəsində aşağıdakı qərari qəbul etmişdir.

1-Bu gündən e’tibarən Azərbaycanda, Azərbaycan Dili Rəsmi Dövlət Dili hesab olunur. Dövlətin qərarları və rəsmi e’lanlar, həmçinin Xəlq Qoşunları hissələrinə verilən fərmanlar və qanun layıyhələri mütləqən Azərbaycan Dilində yazıləmalıdır.

2-Bütün idarələr (dövləti, Milli, ticarəti və ictimai) öz işlərini Azərbaycan Dilində yazmağa məcburdurlar. Bu dildə yazılmayan dəftər və mədarik rəsmi hesab olunmaiacaqdır.

3-Məhkəmələrdə işlərin cərəyanı təmami ilə Azərbaycan Dilində aparılmalı və bu dili bilməyənlər üçün mütərcim tə’yin olunmalıdır.

4-Azərbaycanın bütün idarə, müəsissə və ticarətxanalarının tabloları mütləqən Azərbaycan Dilində yazılmalıdır.

5-Rəsmi iclaslar və yığıncaqlarda, süxənranlıq və müzakirə Azərbaycan Dilində olmalıdır.

6-Azərbaycanlı olmayıb başqa dil ilə danışanlar və ümumi dövləti idarələrdə xidmət edənlər Azərbaycan Dili ilə yazıb -oxumağı və danışmağı öyrənəməlidirlər.

7-Maarif vizarəti idarə məmurlarını Azərbaycan Dili ilə aşina etmək məqsədi ilə ayri dillərdən sivayı, onlar üçün idarələrin cənbində böyüklər üçün məxsus kilaslar açmalıdır. Bu kilaslarda hazir olanların iş müddəti bir saat azalmalıdır.

8-Azərbaycanda yaşayan başqa millətlər öz işlərini öz ana dillərində aparmağa həqlidirlər. Leikən onlar öz rəsmi e’lanları və yazılarında öz Milli dilləri ilə bərabər Azərbaycan Dilini, rəsmi dövləti dil olaraq, işlətəmilidirlər.

9-Azərbaycanda yaşayan xırda millətlərin xüsusi Milli məktəblərindəki tə’lim öz ana dilllərində olduğu halda, Azərbaycan dilinin də tədrisi məcburidır.

10-Azərbaycan Milli Hökuməti maarif vəzirinin məktəblərdə dərslərin Azərbaycan Dilində olması həqqindəki qərarını təsvib və təyiyd edib, mədrəsələrin Milli Dilə keçməsini bütün müəllim və müəllimələrə bir Milli vəzifə kimi tapşırır.

**Azərbaycan Milli dövlətinin baş vəziri « Pişəvəri»**

# Yetim və Sahabsız Uşaqların Tərbiyəsi Həqqində Azərbaycan Milli Hökumətinin Qərari

Qərnlər boyu dəvam edən istibdad rejimi və çürümüş irticai vəziyətin yaratdığı şərait mucibincə millətimizin istiqlalını və gələcək nəsilimizin əsasını təşkil edən uşaqlarımızın mühüm bir hissəsi yetim və sərpərstsiz qalıb insanlığı təhqir edən fəlakət və dilənçilik halında küçə və xiyavanlarda aclıq və libassızlıq və cür-bəcür naxoşluqlar vasitəsilə xəzəl kimi saralıb və məhv olub getməkdedirlər.

Azərbaycan Milli Hökuməti xəlqin istifadə və səadətini və həmçinin gələcək nəsilin təməddün və səhhət cəhetindən tərqqisini təəmin etmək üçün bu acı hala bir an əvvəl xatimə verməyə iqdam edib, yetim və biykəs cəvanları küçələrdən yığıb tərbiyət etmək üçün aşağıdakı qərari qəbul etmiş və onun tezlik ilə icra edilməsini lazim görmüşdür.

1-Məclis Milli rəisinin iftixari sədarəti altında maarif və səhiyyə vizarətinın nümayəndələrindən Azərbaycanın xeyirxah və millət sevən şəxslərindən ibarət bir heyət intixab edilməli, yetim və bisərpərəst uşaqların tərbiyəsi yolunda ciddi və əməli tədbirlər görmək, onun öhdəsinə qoyulmalıdır.

2-Üçdən 14 yaşına balığ olan və bisərpərəst qız və oğlan uşaqlarını tərbiyət emək üçün birinci növbədə Təbriz şəhərində iki qız və iki oğlan tərbiyətxanası təsis olunmalı və ayrı şəhərlərdə də bu müəssisələrin misli vicuda gətiriləməsi üçün müqəddimə vəsaili təhiyə etəməlidir.

3-Üç yaşından aşağı olan səğirləri saxlamaq və onların həyatini təəmin etmək üçün Səhiyyə vizarəti vasitəsi ilə pərvəriş evi daha təsis olunmalıdır.

Qeyd-Maarif vizarətinin təsis etdigi yetimlər məktəbində 400 fəqirin təhsil və tərbiyəsinə imkan verilməli, Səhiyyə vizarətinin səğirlər pərvərişgahında 100 nəfərə baliğ körpə qəbul edilməlidir.

4-Səhiyyə və Maarif vizarətxanaları bu müəssisələrin büdcəsini on günə qədər tənzim edib və Dövlət Heyətinə təqdim etəməlidir.

5-Məclis Milli rəisinin iftixari riyasəti altında təşkil edilən Heyət (xeyriyə əncüməni) xeyirxah, insaniyətpərvər və maarif sevən insanların kköməyy ilə əanə toplayıb bütün yetim, beçara və sahabsız uşaqları, həmçinin ayəry mədrəsələrdə təhsil edən yoxsul uşaqların təhsil və tərbiyət vəsaylını hiə etəməlidir.

6-Azərbaycan Maarif vizarəti nəzdində təşkil olunan Azərbaycan əncümən-xeyriyəsi Azərbaycanın bütün şəhər və qəsəbələrində öz şö'bəlrini təşkil etməyə çalışmalı, xeyirxah insanların köməyi ilə fəqirlik və beçaralığa xatimə verilməlidir.

7-Azərbaycan əncümən xeyrihsi cəvan nəsili fəlakətdən xilas etmək və onun tə'lim və tərbiyəti yolunda böyük əanələr verən və digər köməklər göstərən əşxasın adların ruznamələr vasitəsilə müntəşir edib, millət namina onlardan qədirdanlıq etəməlidir.

8-Azərbaycan Milli Hökuməti bütün həmvətənləri, millət üçün nəng və ləkə olan dilənçilik ilə ciddi mübarizə aparmağa də'vət edir və azəraicanın böyük adi və şərəfli şöhrətini xələldar edən bəlanın çox tez bir zəmanda rəf' edilməsi yolunda Milli Hökumət hamıdan himmət tələb edir.

**Azərbaycan Milli Hökumətinin Baş Vəziri «Pişəvəri»**

# Azadlığın Müdafiəsi Uğrunda « Fədai Təşkilatı »

Firqəmizin düzgün siyasəti nəticəsində, cüzi məhəlli təsadümlərdən başqa, demək olar ki, hökumət qan tökülmədən irtica'i qüvvələrin əlindən çıxıb millət əlinə geçdi. Bu, özü-özəlüyündə böyük bir müvəffəqiyyət idi ki, Firqə öz təşkilatı altına almaqla onu hədəfə doğru sövq etməklə əncam verdi. Vəli bu kifayət etməzdi. Alınan azadlığı saxlamaq, ondan xəlqin səadəti yolunda istifadə etmək lazim idi.

Firqə başçıları çox yaxşı bilirdilər ki, Fədailərin zərbşəsti nəticəsində susmağa məcbur olan mürtəce'lər rahat durmayıb, xəlqi öz halına qoymayacaqlar. Bundan əlavə nehzət sadə dövləti bir təbəddülatdan ibarət olub qalmayacaqdı. Ondan xəlq iqtisadi tədbirlər gözləyir və öz səadətini təəmin etmək üçün ondan ümidlər gözləyirdi. Bu isə mütəməkkin adamların, məxsusən o günə qədər irtica'i rejimin sayəsində xəlqin qanını sorub sərvət və saman sahibi olan müftəxorların xoşlarına gələn bir iş dəgil idi.

Bundan əlavə hökumət xəlqin əlinə geçməklə, bu vəqtədək Azərbaycan naminə daxilədə və xaricədə müvəffəqiyyət qazanıb böyük siyasi və iqtisadi istifadə edən tüfeyli ünsürlərin tukanları bu vasitə ilə bağlanmış olurdu. Onlar bir daha Azərbaycan adından istifadə edərk özlərini dövlət idarələrinə və ya Məclis Şurayi Milliyə təhmil edə bilməyəcəklridi. Nəhayət dərəbəyliyin ən qaba və

ən vəhşiyana tərzi ilə rəftar edən boynu yoğun ərbablar-Zülfqari, Yəmin-Ləşgər və ğeyrləri kimi xəlq cəlladları nehzət nəticəsində təsəllüt və iqtidarlarının əldən getəməsini hiss etməklə rahat dormayacaqlaridi. Bundan başqa Azərbaycan nehzətinin bütün irana sirayət etməsindən vəhşətə düşən Tehran mürtəce'ləri və onların ərbabları isə rahat oturmayıb, azərbaycanın daxil və xaricində olan qara irtica' vəsilələrinin bizim əleyhimizə təhrik etməkdən müzayiqə etməyəcəkləridi. Bunların hamısını Firqə rəhbərliyində çalışanlar və Milli Hökumət nəzərdən uzaq tuta bilməzdi. Ona görə Milli Hökumət təşkil olunan gündən Fədai dəstələrini intizama salıb onlardan münəzzəm və mütəşəkkil bir qüvvə vicuda gətiriləməsi məsələsi meydana çıxdi.

Nehzətin başlanğıcında Fədailər gönüllü olaraq öz libas və öz xərci ilə silah götürüb meydani mübarizəyə qədəm qoymuşdular. Əyər bina olsaydi onlar öz yerlərində müsəlləh halda yaşayıb istənilən vəqt yardımdan ötrü hazır olsunlar, iş o qədər çətin olmazdi. Leikən alınan azadlığı saxlamaq üçün sərhədlərimizi möhkəmləndirmək və şəhərlərdə münəzzəm vahidlər saxlamaq lazim idi. Buna görə Milli Hökumət Fədailəri iki qismətə təqsim edərək, bir qismətə icazə verdi ki, öz yerlərində müsəlləhh halda işlərinə məşğul olsunlar. O birisi qismətini də münəzzəm vahidlərə təqsim edərək yuxarıda deyilən məqsud üçün öz ixtiyarında saxladi. Bu isə o günkü şəraitdə çox müşgül bir iş idi. Yeni təşkil tapmış dövlətin sandığında da Tehran Hökuməti bir şey qoymamışdi. Get-gedə şiddətlənməkde olan qış paltarsız, başmaqsız və azuqəsiz Fədaiə qarlı səngərlərdə mübarizə imkanı verməyəcək idi. Milli Hökumət Firqəyə dayanaraq bu müşgülü də rəf' etmək üçün ciddi qədəmlər götürdü. O günə dək tə`til olan karxanaları işə saldi. Qəhrəman kargərlərin himməti sayəsində xarüqüla'də bir surətdə Fədaiə lazim olan paltar, başmaq və azuqə təhiyə edilib cibəhələrə göndəridi. Bu təriq ilə çox az bir zəmanda çətə və partizan halında olan Fədailər müsəlləh qoşun halına gəlib, azadlığı müdafiə etməyə başladi.

Nehzətin başaşladığı vəqt Mərağa, Sarab, Ərdəbil, Mərənd, Xoy, Təbrizdə fədakarlıq edən Fədailər, bu gündən sonra təəcübli münəzzəm surətdə təşkil olunub azadlığımızı təhdid edən irtica'i dövlət qüvvələrinin qarşısına göndəridilər.

Bu vasitə ilə Zəncan və Sayın-qala cibhələri vicuda gəldi.

Bu iki cibhədə hənuz yaxşı paltar, silah və yaxşı azuqəyə malik olmayan Fədai qəhrəmanlar, dişdən dırnağa qədər müsəlləh olan dövlət qüvvələrilə vuruşmaya hazırlandılar. Onların ruhiyələri fövqəladə qüvətli və yüksək idi. Hər saat Tehran və Həmədanı işğal etmək üçün icazə istəyirdilər. Əyər o günlərdə ümumi və siyasi vəz'iyət icazə vermiş olsaydi, həmin ayaqyalın, yari ac və yari çiplaq Fədailərimiz Tehranı asan vəchilə işğal edəbilərdilər. Fədailərimizin Zəncana vürudu nəticəsində idi ki, Tehran mürtəce'ləri çəmdanlarını bağlayıb amerikaya doğru qaçmağa başlamışlar.

Fədailərimiz Zəncan və Sayın-qala cibhəsində iki tərəfli mübarizəyə məcbur olmuşdurlar. Zəncanda böyük qüdrət və nüfuza malik olan Zülfqari, ərkan-hərb rəisi «Ərfə'»-dən aldığı əsləhə və mühümmat vasitəsilə əleyhimizə böyük bir cibhə təşkil etmişdir. Rizaxan rejimi sayəsində sərvət və samana yetişən «Əsləhədarbaşı» və sayir parazitlər də ona kömək edirdilər. Sayın-qalada isə oranın rişəli feodali hesab olunan «Yəmin Ləşgər»-i təchiz edib əleyhimizə qalldırmışdılar. Bulardan əlavə qərədağda illər boyu qaçaqçılıq ilə ömür sürən xanlar da silah götürüb nehzətimizi boğmağa təşəbbüs etməkde idilər. Milli Hökumət isə özünə müxalifət edən qüvvələrin qarşısında fəqət Fədailərin əsləhəsinə dayanırdi. Bu isə iştibah dəyidi, dərin azadixahlıq hissi ilə müccəhhəz olan Fədai dəstələri qabağa çıxan çətinliklərə baxmayaraq e`cazkaranə bir surətdə bütün qüvvələri əzib meydandan çıxartdi, bu vəsilə ilə azadlığımız təəmin olundu.

Fədailərin göstərdiyi qəhrəmanlıq, xəlq arasında onlara nisbət böyük məhəbbət tövlid etməklə bərabər onların silahının səsi nə tək daxili mürtəce'ləri, bəlkə iranda olan bütün irticai ünsürlərin ümidini məhv edib onları susmağa vadar etdi. Fədai təşkilatını vicuda gətirən başçıların ümumiyyəti Firqə üzvləri olduqlarını yazmışdıq. Bu qəhrəman demokratların öz işlərində göstərdikləri fədakarlıq həqiqətən qabil təqdirdir. Məxsusən onların Milli Hökumətin əmrini ciddiyyətlə yerinə yetirib şədid bir surətdə intizama tabe olmaları qeyd edilməlidir. Fədai başçıları indi Azərbaycan xəlqinin ən sevməli evladları hesab olunurlar. Xəlqin Fədailərə olan məhəbbəti onların maddi vəziyətlərini yaxşılaşdırmaq məqsədilə onlara verilən hədiyələrdən qiyas etmək olur. Bu böyük hədiyələrə iftixarən iştirak edənlərin sayı altı mindən ziyadədir. 7-yaşındakı uşaqdan, 70-yaşındakı qocalara kimi istər arvat, istər kişi müsabiqə edərcəsinə yağış kimi hədiyə yağdırmaqda idilər. Bu isə Azərbaycanın iftixarlı tarixinin ən həssas fəsillərindəndir.

# Xəlq Qoşunları

Biz irandan ayrilmaq fikirində olmadığımız üçün rəsmi qoşun və vizarət cəng təşkil etmək istəmirdik. Ona görə də qoşun işi ilə məşğul olan vizarətxananın adını vizarət cəng qoymadıq, xaricə vizarəti kimi hərbi vizarətimiz də yox idi. Lakin azadlığı müdafiə və mühafizə etmək üçün Milli bir Qoşun vicuda gətirməmək də olmazdi. Ona görə Milli Hökumət təşkil tapan kimi Xəlq Qoşunları təşkili məsələsi də meydana çıxdi. Əvvəl belə bir fikir var idi ki, Milli Qoşun davtələbanə təşkil olunsun, sonra xəlqin azadlığa olan əlaqəsi və cəvanlarımızın nizama olan həvəsini nəzərə alıb Milli vəzifə üsulunu qəbul etdik.

Boş əlilə qoşunu təşkil etmək şayəd asan nəzərə gəlsin və bununla belə biz bu işi görməyə müvəffəq olduq. Hər bir işdə sür'ətə mö’təqid olan Firqəmiz qoşun təşkilində də ıldırım surətilə hərəkət etdi.

Qoşunumuzun şərəfli tarixi 18-Bəhmən 1324-dən başlanır. Bu tarixdə ağayi Pişəvəri özünün «Hamıya, hamıya, hamıya» ünvanlı müraciətənaməsilə cəvanlarımızi milli vəzifədə şirkət etməyə də’vət etdi, həman Xəlq Qoşunları həqqində Milli Hökumətin qərari sadır oldu. Bu qərar üzərə Məclis Millimizin sabıqən təsvib etdiyi qanun icrayə qoyulmağa başladi. Məclis Milli isə 30-Azər yəəni Milli Hökumət təşkilindən 9-gün sonra bu qərari qəbul etəmişdi. Qərarın icrasynın təəxiri bir para siyasi mülahizələrdən idi. Firqə və Milli Hökumət istəmirdi ki, qoşun təşkili ilə iftiraçı düşmənlərin əllərinə bahana versin. Get-gedə mübarizənin dayirəsi genişlənib Tehəran Hökumətinin fişari əleyhimizə artdığı üçün, özümüzün daha ağır mübarizəyə hazırlamalı olduğumuzdan, böyük qədəmi fəqət 18-Bəhməndə götürməyə məcbur olduq. Xəlq Milli vəzifə çağırışını çox sevinc ilə istiqbal etdi.

Maarif sahəsində çalışan cəvanlarımızın ehsasatından bir nümunə olmaq üzrə Milli Vəzifə e’lanı münasibəti ilə verilən mitinqin xəbərini buraya dərc edirik:

# Misli Görünməmiş Bir Gün!

# Xəlqin Milli Nizam Xidmətindən İstiqbalı Necə Oldu?

Dünən Azərbaycan Xəlq Qoşunlarının bir gün əvvəl nəşr etdiyi Milli Nizam fərmanı Təbriz tarixində Səttarxan və Bağırxan nehzətindən sonra misli görünməmiş bir tərz ilə Təbriz xəlqi tərəfindən qarşılandi.

Milli Hökumət tərəfindən nəşr edilmiş olan qanun və qərari bütün xəlq kütləları böyük səmimiyyət və ehsasat ilə istiqbal etdilər.

Havanın namüsaidliyinə, qar yağmağa və soyuğa baxmayıb əvvəldən hazırılıq görülmədən Xəlq Qoşunları çağırışına görə bir böyük mitinq təşkil edidi.

Sübh saat 9-da bütün mütəvəssitə mədrəsələrinin mühəssilləri Milli Hökumətin qərarını istiqbal etmək üzrə öz məxsus bayraqları ilə nizam vəzifə idarəsinə getdilər. Orada Xəlq Qoşunlar Vəziri ağayi Kaviyan, ağayi Biriya və nizam vəzifə idarəsi işçiləri tərəfindən qarşılandılar.

Maarif vəzirimiz ağayi Biriya çox həyəcanlı və müəssir olan nitqində maarif işçiləri, mühəssil və müəllimlərin göstərdikləri bu səmimanə ehsasatdan təşəkkür edərək yekşənbə günündən e’tibarən davtələbləri nizam vəzifə idarəsində ad yazdırmağa də’vət etdilər.

Ağayi Biriyanın nitqindən sonra mühəssillər tərtib ilə öz mədrəsələrinə qayıtdılar. Bu heində kargərlər, əkinçilər və başqa siniflər tərəfindən təşkil edilmiş mü'əzzəm bir mitinq xəbəri nizam vəzifə idarəsinə çatdi.

Bu mitinq oğlanlar danışsərasi qabağındakı vəsi' meydanda təşkil tapmışdı.

On minlərcə nümayişçi meydanı işğal etmişdilər. Ağ parçalar üzərinə qızıl və qara xətlər ilə qeyd edilmiş:

Azərbaycan Milli Hökumətini hifz etmək üçün hami Milli Orduya!

Vətənimizin difası üçün hər zəman hazırıq!

Yaşasın Azərbaycan Xəlq Qoşunları!

Yaşasın Milli Dövlətimiz və onun Milli Ordusu!

Azərbaycan cəvanları silah altına girəməyi özlərinə iftixar bilirlər!

Şüarlar meydanın hər səmtində gözə çarpmaqda idi. Mitinqdə Azərbaycanın qəhrəman anaları olan qadınlar da şirkət etmişdilər.

Saat 11-də ağayi mir Rəhim Vilai şəhər komitəsi məsulu və Milli Məclis katibi tərəfindən mitinqin açılışı e`lam edidi və sonra maarif vəziri ağayi Biriya coşğun və hərarətli bir səslə aşağıda göstərdiyimiz nitqi irad etdilər:

Azərbaycan odlar, alovlar ölkəsi illər boyu əsarət zənciri altında yaşayıb, onun anaları və bacılarının namusu ayaqlar altında tapdalanamdan sonra 21-Azərdə yaratdığı qiyam nəticəsində əsarət zəncirlərini qırdı.

21-Azərdə Azərbaycan qızları və qadınları da canu- dil ilə şirkət edib Milli Hökuməti yaratdılar. Necəki hər yerdə Milli Hökumət qurulub o hakimiyyəti gərək xəlq hifz etsin və öz Milli Hökumətini, məmləkətini də xainlərdən və düşmənlərdən müdafiə eləsin.

Əziz qardşlar Azərbaycan xəlqi də öz hakimiyyətini hifz etmək üçün Azərbaycan Xəlq Qoşunları vəzirliyinin fərmanına görə davtələbanə Xəlq Qoşununa varid olacaqdır.

Qoy biz düşmənlərimizə sabit edək ki, biz Azərbaycan xəlqi öz poladdan möhkəm sinələrimiz ilə Milli ölkəmizin sərhədlərini hifz edəcəyik.

Qoy bütün domokrasi millətlər bizim bu Milli və böyük fədakarlığımızdan xəbərdar olsun.

Qoy bizim azadlıq həsrəti ilə çırpınan sinəmizdən çıxan alovlar düşmənlrimizi və Tehran mürtəce hökumətini zəlzələyə gətirsin.

Əziz qardaşlar, bacılar, maarif işçiləri, müəllim və mühəssillər! Mən necəki Azərbaycanın namuslu və fədakar bir oğlu kimi öz Milli Bayrağımızın önündə and içirəm ki, vətənimə xidmət edəm. Mən sözümü qurtarırkən deyirəm:

Yaşasın Milli Hökumətimizdən püştibanlıq eləyən Azərbaycan Demokrat Firqəsi və onun rəhbərləri!

Yaşasın Azərbaycan xəlqinin qurduğu hakimiyyət!

Yaşasın xəlqimizin iradəsini təmsil edən Məclis Millimiz!

Yaşasın öz vətənini düşmənlərdən hifz eləyən və tarix boyu öz şücaət və şərəfini dünyaya göstərən qəhrəman Azərbaycan xəlqi!

Ağayi Birianın söylədiyi atəşin nitq mütəvali alqışlar və hurra səsləri ilə qət' edilirdi.

Nitqi gurultulu alqış və hürra səsləri tə'qib edəndən sonra ağayi Vilai, Azərbaycan Demokrat Firqəsi sədr müavini, ağayi Badəkanın nitq edəcəyini e`lam etdi və ağayi Badəkan xəlqin həlhələsi arasında belə bir nitq söylədilər:

Azərbaycanın əziz kargər, əkinçi, müəllim və başqa cəvanları:

Hamımızın yadımızdadır ki, həmişə nizam xidməti eləməyə çağırırdılar. Bu gün Milli Hökumətin verdiyi çağırışı sayəsində bura yığışanlar nişan verirlər ki, millətimizin nə qədər öz istiqlal

və müxtariyyətindən difa' etməyə əlaqəsi vardır. Odur ki, mən Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsi adına sizlərin göstərdiyiniz bu ali ehsasatdan ötrü təbərik edirəm.

Əziz və möhtərəm cəvanlarımız bütün demokrat millətlər azad, şərafət və iftixar ilə yaşamaq üçün fədakarlıq edib və qurbanlıqlar vermişlər. Biz əminik ki, bizim cəvanlarımız vətən xidmətinə əlaqə ilə hazır olurlar, onlar da gələcəkdə başqa diri millətlər kimi başi uca və iftixar ilə yaşayacaqlar.

Bu səmimi ehsasat ilə ki, Milli Hökumətimizi, Milli Məclisimizi və Milli Firqəmizi istiqbal edirsiz, Milli Hökumətimiz, Milli Məclisimiz və Milli Firqəmiz sizə qövl verir ki, sizi gələcək mütəməddin və müasir millətlər səviyyəsinə yüksəltmək yolunda baş və can ilə fədakarlıq etsin.

Yaşasın azad vətininmiz və Milli Hökumətimiz!

Yaşasın Azərbaycan cəvanları!

Ağayi Badəkandan sonra ağayi Dibaiyan Milli Məclisin Heyət Rəisə tərəfindən Milli Məclisin rəisi ağayi Şəbistəri naminə mitinqdə iştirak və ibraz ehsasat edənlərdən təşəkkür etdilər. Ondan sonra Milli Qoşunlar  Vəziri ağayi Kaviyan iştirak edənlərin həlhələ və alqışları arasainda Milli Hökumət və Milli Qoşunlar Vizarəti naminə hökumətin təsmimindən bu cür səmimiyyətlə istiqbal edən xəlqimizdən təşəkkür edib və onları sabah nizam vəzifə idarəsində Milli Qoşun sıralarına girmək üçün ad yazdırmağa də’vət etdilər.

Mitinq saat 12 təmamda sona yetişdi.

**Müxbir**

***

Həmin milli vəzifə çağrışı munasbtılə də’vət olunan ziyafətdə aparılan cərəyanı da o gün xəlqimizin və Firqə rəhbərlərimizin ehsasatından bir nümunə olmaq üçün şayan- təvəcceh olduğundan buraya dərc edilir:

# Ağayi Pişəvərinin Milli Nizam İdarəsində Milli Nizam Xidməti Həqqində Söylədiyi Nitqin Xulasəsi

## « Fəqət Topların Ağzından Çıxan Söz Həqiqətdir!»

Dünən Milli Qoşunlar Vəzirliyi tərəfindən Milli Vəzifə idarəsində, Azərbaycanda milli vəzifə çağrışı münasibəti ilə bir cəşn məclisi tərtib edilmişdi. Bu məclisdə, Məclisin Rəisi, Milli Hökumətinmizin baş Vəziri, vəzirlər və şəhərin müxtəlif təbəqələrinin nümayəndələri şirkət etmişdilər. Bundan başqa Yuquslav mətbuat nümayəndəsi də məclisdə şirkət etmişdi. Sehər saat 9-yarımda Milli Məclisin rəisi ağayi Şəbistəri məclisi açaraq Milli Hökumətimizin Baş Vəziri ağayi Pişəvəriyə söz verdilər. Ağayi Pişəvəri aşağıda xülasəsini nəşr etdiyimiz nitqi söylədilər:

Mən elə fikir elirəm ki, bu böyük qədəm ki, bizim Milli Hökumətimiz götürüb bizim azadlığımızi və gələcək səadətimizi təmin eləmək üçün böyük bir təzmin dir. Biz öz milli azadlığımızi mühafizə etmək üçün böyük mütaliələr və mübahisələrdən sonra bu nəticəyə gəlib çıxmışıq ki, azadlığı xəlq gərək öz qüvvəsilə saxlasın. Xəlqin əyər öz qüvvəsi olmazsa azadlıq muft və zəhmətsiz də verilsə onu saxlamaq olmaz.

İndi bizim nehzətimizin iranda böyük təsiri olmuşdur, lakin mümkündür ki, bu anı bir təsir olsun. Biz bu kimi təsirlərə özümüzü dilxüş edəbilmərik. Hər halda xəlqə bir böyük ittika layzimdir. Bu da, Milli Qoşundan ibarətdir. Xəlqimiz öz azadlığini hər şəkildə olur olsun fəqət öz qüvvəsi olan Milli Qoşun gücü ilə hifz etməlidir. Qoy bütün dünya bilsin ki, Azərbaycan Milləti yaşamaq üçün ölməyə hazırlanmışdır. Xəlqimizi idbar, fəlakət və bədbinlikdə saxlamaq istəyən Tehran mürtəce' hökuməti bunu hiss etmişdir ki, azərbaycanda bir milli qüvvə var, o bu qüvvəni ortadan aparmaq üçün müxtəlif vəsilələrə əl vurmuşdur. İndiyə qədər o müntəzir idi ki, bu nehzəti nizami qüvvə ilə aradan aparsın. O yoldan məyus olandan sonra diplomasi çarələrə təşəbbüs edib xəlqin başı üstündən öz fikrini icra etməyə çalışır. Bizim cəvabımız sadə dir, biz o Milli Qoşunumuza dayanıb məsələni öz gücümüz ilə həll edəcəyik.

Biz Milli Qoşunumuzu yaratəmalıyıq. Bu qoşun ilə azadlığımızi və daxili əmniyyətimizi hifz etəməliyik. İndiyə qədər bu işi Fədai qüvvələri görüblər və fədakarlıq ilə də görüblər. Amma əyər Tehran mürtəce' hökuməti istəyə ki, Azərbaycan azadlığini boğa, onda Azərbaycan Xəlqi o hökuməti əzib və Tehranda Azərbaycanı tanımağa yarar bir hökumət yaratmağa çalışacaqdır. (şiddətli alqışlar)

Bizim qabağımızda iki yol durur, ya gərək müvafiqət olunsun ki, biz azadlıqla iqtisadi, ma'arifi və milli vəzifələrimizi icra edək, əyər bu işi icra etməyə qoymazsalar o vəqt biz özümüz məcburuq Tehrana gedək, oranı alaq, azad və demokrat bir hökumət quraq və öz xəlqimizin milli azadlığini bu yol ilə təəmin edək. Bu bizim  böyük vəzifəmizdir. (gurultulu alqışlar) Burada indiyə qədər iki dəfə nizam vəzifə sabiqəsi olubdur. Biri Rizaxan dövrəsində olmuşdur ki, xəlq onu böyük nifrət ilə qarşılamış və bu iş üləmamızdan bir neçəsinin də tövqif və təbidinə bais olmuşdur.

Çünki xəlq o dəstgaha inana bilmirdi və həqqi də var idi, bir də bu əvaxirdə olmuşdur ki, xəlqi zor ilə nizami aparırdılar, indi şəhərlər-kəndlərimizdə hamı ürəkdən Milli Qoşuna girmək üçün davtələb olub qoca kişilər belə nizama daxil olmaq istəyirlər, burada mənim yanimda Yuquslav mətbu'atının nümayəndəsi oturmuşdur. Onun izharına görə bizim xəlqimiz ilə Yuquslavya millətı arasında bir oxşarlıq vardır. Orada xəlq Alman işğalı dövrəsində marşal Titonun ətrafına toplanıb milli azadlığı yaradıblar. Əgərçi biz o qədər qəhrəmanlıq göstərə bilməmişik vəli həqiqətdə bizim xəlqimiz böyük və qəhrəman bir xəlqdir. Onun heçvəch ilə Tehran, İsfahan və başqa yerlərin əhalisi ilə oxşarışı yoxdur. O, Yuquslav xəlqi kimi öz azadlığı uğrunda mübarizəyə qalxmışdır. O fars dəyil və farslardan fərqlidir. Dünənəki təzahürat nişan verdi ki, xəlqimiz özünü  tanıyıb və öz millətini təşxis veribdir. Azadlığın mə'nasını düşünüb və onun qədir və qimətini dərk eləmişdir.

Geçən gün mən ağayi İpəkçiyan ilə söhbət elirdim, o deyirdi ki, Fədai qüvvələri Zəncana varid olmaq haman Tehran mürtəce'ləri qaçmaq tədarükü görürdülər.

İndi də əyər yüz nəfər Qəzvində tapılsa onların hamısı qaçacaqlar. Mən Tehrandan mütəəddid məktublar almışam. Bu məktublar yazırlar ki, siz hərəkət etmək haman Tehranın daxilində böyük inqilab vicuda gələcəkdir. Mərkəzi Hökumət bizi bu işə vadar edərsə bütün İran xəlqləri əsarətdən xilas olacaqlar. Amma bilməlisiz ki, böyük arzuları qeyri müntəzəm qüvvə ilə əncam vermək olmaz. Bizim gərək topumuz, təyyarəmiz və hər cürə silahımız olsun. Biz evimizin palazını satıb tank, top və təyyarə almalıyıq. İran azadlığı Azərbaycan azadlığından asılıdır.

Xəlqin minlərlə teleqrafına cəvab verməyə hazır olmayan mürtəce' Sədr və Həkiymi hökuməti bizim nehzətimizin sayəsində İsfahanda və iranın başqa şəhərlərində əncümən əyaləti və vilayəti intixabatına hazır oldu. Halbuki, bundan qabaq bu qanun icrasına ayrı qanunların mane' olduğunu söyləiyrdi. Biz iki yol ayricindayız, ya gərək Tehran Hökuməti azadlıq yolu ilə gedə və bizim azadlığımıza mane' olmaya, əyər getməzsə biz onunla getməyəcəyik və əyər mümkün olsa onu yıxıb yerinə bir demokrat rejimi yaradacağız, (alqışlar) biz mümkündür neçə gün müvəqqəti halda çətinlik çəkək və iqtisadi fışar da görək, vəli böyük iş görmək istəyən millət gərək bu kimi fışarlara tablaşsın.

Müharibə mövqeində gördük ki, Rusiyyə milləti və başqa millətlər nə qədər fədakarlıq göstərdilər. Biz onlardan ibrət almalıyıq.

Dünənəki mitinq və ətrafdan gələn teleqrqflar və kağazlar böyük ehsasat nişan verirdi. Azərbaycan xəlqi həmişə öz azadlığına əlaqə nişan vermişdir. Səfəviə nehzətini iki ya uç şeyx vicuda gətirdi. Onda Demokrat Firqəsi də yox idi. Bizim isə münəzzəm qüdrətli bir Firqəmiz olduğu halda daha böyük ordu yaratmağa qadirik. Millətimizin böyük keçmişi vardır və bir daha dünyaya göstərəcəkdir ki, sadiq, səmimi, fədakar, qüdrətli və dəvamlı bir millətdir. O qədirdan və səmimi dir, ona fəqət bir başçi lazim idi və indi o başçi Firqəmiz olmaq üzrə vicuda gəlmişdir. E’tiraf etmək lazimdir ki, Firqə xəlqimizi bu beş ay müddətində çətinliklərdən və əyri-buruq yollardan geçirtmişdir və gələcəkdə də geçirəcəkdir.

Tehran Hökuməti bir gün Fərruxi böyük ixtiyarat və pul ilə göndərdi. Bir gün də Bəyatı. Bəyat ağayi Səracmirin evində bizə deyirdi ki, biz sizin müxtariyətiızi təəmin edirik, biz ona dedik ki, siz bu gün deyirsiz və sabah inkar edəbilərsiz. Bizə isə həqiqi təzmin lazimdir, o isə Milli Xəlq Qoşunu ola bilər.

« Həqiqət isə həmişə topun ağzından çıxar», bir millət həqiqəti fəqət top və gülülə vəsiləsi ilə nişan verəbilər. Ah və naləyə kimsə baxmaz. Bizim hökumətimiz demokratik hökumətdir. Bütün təbəqələrin hökumətidir. Qoy ruhanilər və bütün təbəqələr əl-ələ versinlər və müxtariyətimizi qorusunlar.

Qoy cəvanlar Milli Qoşunda şirkət eləsinlər və qocalar olara libas, paltar və corab göndərsinlər. Biz bu yoldan xeyir görəbilərik, necəki Milli Hökumət qurulan gün və'də verdik ki, xəlqimizin mal, can və namusunu hifz edəcgiz. Hətta dükanların qabağında yatacağımızı dar və'də verdik, hamı bilir ki, verdiyimiz və'dəyə mərdlik ilə əməl etmişik.

İndi də xəlqin malını və namusunu hifz eləməyə qovl veririk və sözümüzün üstündə duracağız. Biz iftixar ilə deyə bilərik bunu, xəlq bizim arxamızdadır. Kəndlinin və kargərlərin hamısı, şəhərin mütəvəssit təbəqəsi, bəlkə də ali təbəqəsi ümumiyətlə bizim dalımızdadır.

Xəlq birleşəcəkdir, biz buna inanırıq. Burada gərək qanun hökm sürsün və qanunu hifz etmək üçün də top və tüfəng lazimdir. Odur ki, gərək milləti Milli Qoşun sıralarına girməyə təşviq edək. Biz demirik ki, qabaqda müharibə var və müharibə olmayacaq amma əyər müharibə etmək istəsələr, biz bir nəfər qalana qədər mövəfəqiyyət yolunda çalışacağız.

İndi də fikr elirəm ki, müharibə olmayacaqdır, amma biz özümüzü gərək hazırlayaq, dalı çəkilmək yoxdur. Əyər bizim azadlığımıza təcavüz olsa hamımız gedib savaşacağıq, hamımız gərək özümüzü hazırlayaq ta heçəks bizim azadlığımıza və həqqimizə təcavüz etməyə cəsarət etməsin. Odur ki, ağalardan xahiş edirəm ki, hərəks öz yerində bir mübəllığ olsun, xəlqi başa salsın ta Milli Qoşun yaransın. Qoşun küçədən keçndə xəlq onu gül dəstələri ilə istiqbal eləsin.

Qoy vətən azadlığı yolunda fədakarlığa hazır olan cəvanlarımızın başlarına güllər tökülsün. Qoşunda gərək qanun uzundən olsun və bütün qanuni yaşa çatmış olanlar nizama getsin, Qoy hamı nizami libas geysin.

Mən özüm də geyəcəyəm. Qoy hamı bilsin dünyada bir millət var ki, onun bütün əfradi arvat və kişi öz azadlığını müdafiə etmək üçün silah götürmüşdür. Hökumət ilə xəlq arasında ixtilaf olmamalıdır.

Gərək xəlq özü hökumətin hifz etsin. Biz mümkündür iştibah edək vəli bu iştibahları duzəldəcəyiz. Qoy ruznamədə, telefonda, teleqrafda bizim iştibahlarımızi desinlər ta düzəldək. Biz baş ucalığı ilə dediklrimizi əncam vermişik, indi bizim düşmənlərimiz bizi neçə nəfər macəracu adlandıranlar belə bizə bir irad tapa bilmişərlər. Onlar fəqət kiçik bahanalar tuturlar. Məsələn dil məsələsini bizə bir günah bilirlər. O ağalar bunu bilməlidirlər ki, Azərbaycanlı Fars dəyil və özünə məxsus dili vardır. Zor ilə də onu Fars eləmək olmaz. Biz çox böyük müvəffəqiyyətlər qazanmışıq, bizim işlərimiz qabaqdan gedəcək. Ölkəmiz istər isə təbii sərvətdən çox zəngin bir öləkdir. Coğrafiayi nüqteyi nəzərdən ticarəti yollar üstündə vaqe’ olmüş bir mərkəzdir. Ölkədə daxili ayrı seçgilik aradan gedib, vahid, müttəhid bir xəlq əmələ gəlmişdir. Bu birliyi hifz etmək üçün yenə də təkərar edirəm qoşun lazimdir. Qoy biz evimizin fərşini, əsbabini satmalı olsaq əsləhə alaq və Milli Qoşunumuzu vicuda gətirək, azadlığımızi saxlayaq. Yeri gələrsə tehrana gedib azadlıq əleyhinə mübarizə edən irtica’in ocağini dağıdaq, tehranlılar üçün də Demokratik Hökumət quraq. (alqışlar)

Ağayi Piəvəridən sonra Azərbaycan ticarətinin ağsaqqallarından ağayi Hacı Əliəkbər Sədəqiyqni hazıranı təbərik edib, bütün xəlqin bu böyük işi xoşvəqtlik ilə istiqbala hazır olduğunu, söylədilər.

Ağayi Sədəqiyanıdan sonra ağayi Badəkan Mərkəzi Komitəsi sədr müavininə söz veridi.

Ağayi Badəkan: ağayani möhtərəm ağayi Pişəvərinin o qəvi nitqindən sonra mən özümə həq vermirəm ki, danışam, amma mən istəyirəm deyəm ki, mövlayi müttəqqiyan Əli-ibn Əbitalib əleyhilsəlam buyurur: Əlhəyat təhti zəlal əlsiof. Dirilik qılıncların sayəsində dir. Necəki ağayi Pişəvəri buyurdular həmişə burada nizam vəzifəyə çağırış olanda görurduz ki, ajanlar gedirdilər xəlqi evindən

çəkib gətirirdilər. Bunu da mürtəce’lər də gördukər ki, dünən on beş min nəfərdən çox adam gəlmişdilər ki, istəyirdilər davtələb yazılsınlar.

Bizə pişnahadlar gəlibdir ki, qocalar davtələb olurlar, ya xəlqdən pişnahad gəlibdir və mən burada rəsmən pişnahad edirəm ki, hamı nizami paltar geysin və idarəsinə, iş başına getsin. Ona binaən mən ümidvaram və əminəm ki, Azərbaycan xəlqi öz azadlığini hifz etməkdən ötrü nə tək nizama getməyə bəlkə ölməyə də hazırdır. Habelə ağayian tüccar və üləma tərəfindən də bu xüsusda böyük əlaqə görsənir və ağayi Pişəvərinin buyurduğu kimi əminəm ki, gələcəkdə böyük vəhdt-milli əmələ gələcəkdir. İndiki böhran müvəqqəti dir.

Bu, rejimi dəyişdirmək sayəsində dir. Bu kimi mövqə'lərdə iqtisadi rabitələr qırılar, böhran əmələ gələr. Odur ki, biz gərək buna dözək və əl-ələ verək və gələcəkdə bu günki təbəqələr asayiş ilə yaşasın. Biz heç bir təbəqəyə imtiyaz qayil dəyilik. (alqışlar)

Ağayi Badəkandan sonra Sərdar Milli Səttarxanın əxəvisi ağayi Hacı Əzimxan belə dedilər:

Mən bu vəqtimdə hazırəm tüfəng götürəm və hər yerə buyursalar gedəm. Biz ölənəcək millətə xidmət edəcəyik. Biz millətin və o kəndli qardaşların nökəriyik. (şiddətli alqışalar)

Milli Məclisin rəisi müavini, ağayi Rəfii (Hac Nizamiddövlə) qısa bir nitqdə dedilər ki:

Bəndə kəmal iftixar ilə bu Firqə və Hökumətə varid olmağa müvəffəq oldüm. Mən əvvəlindən hiss elədim və tamam əməl və qərain də nişan verir ki, mənim anladığım kamilən dürüstdür. Mən də məllak təbəqəsi və öz tərəfimdən bunu təbrik edirəm. Mən mütəəssifəm ki, öz sinnim icazə vermir amma nəvələrim var ki, bu feyzi dərk edəcəklər.

Ağayi Badəkandan sonra ağayi Qulixan Borçalu Qara Papaq eli tərəfindən azərbaycan azadlığini dilfa' etmək yolunda o elin hazır olduğunu bəyan etdilər.

Bu mövqə'də Milli Qoşuna ad yazdırmağa gələnlərin adlarını səbt etməyə başlandi. Maarif Vəzirimiz ağayi Biriya mürəttəb sütunlarla mühəvvətə də mütəvəqqif olan davtələblər üçün mühəyyic bir nitq irad etdilər.

Məclis saat 11-də sona yetişdi

Bu gündən e’tibarən bir tərəfdən cəvanlar dəstə-dəstə milli vəzifəyə yazılır o biri tərəfdən onları təşkil etməyə məmur əfsərlərimiz onları qəbul edərək vahidlərə və əvvəldən təhiyə edilmiş nəqşə üzrə Milli Qoşun təşkilatını vicuda gətirirlər.

Yeri gəlmişkən bunu da qeyd etməliyik, Milli Qoşunumuz təşkilində əfsər məsələsi çox böyük əhəmmiyətə haiz idi. Ərfə'in xainanə siyasəti nəticəsində üçüncü ləşgərin əfsərləri öz dərəcə və məqamlarını əldən verməк qorxusundan Azərbaycanı tərk edib getmişlərdi. Qalanların da sayı o qədər az idi ki, onların vasitəsi ilə qoşun təşkil etmək mümkün ola bilməzdi.

Bu mövqə'də «İran Arteşi» təşkilatının fəsadi və Ərfə'in apardığı xainanə siyasət üzündən təngə gəlib fərara məcbur olan İran əfsərləri, nehzətimizin möhkəmliyini və irəli getəməsini eşidib dəstə-dəstə bizə mülhəqq olurdular.

Hələ Fədai hərəkəti başlanan günlərdə bu əfsərlərdən böyük istifadələr görünmüşdü. Ümumiyətlə bizim tərəfə pənahəndə olan əfsərlər İran arteşinin ən fə`al, ən səmimi və ən fədakar kadr və səfi təşkil edən yaxşı təhsil görmüş cəvanlar idi.

Bunlar məxsusən siyasi məfkurə və azadixahanə ruhiyəyə malik idilər. Ona görə bizim Milli Qoşunumuzun təşkilində ürəkdən çalışmağa başladılar.

Bununla belə əfsər azlığı şədid bir surətdə ehsas olunurdu. Bu ehtiyaci rəf' etmək üçün tə'cili bir surətdə hərbi məktəb yaradılıb Fədai cərəyanında yararlıq göstərən savadlı cəvanların təhsilinə iqdam olundu. Digər tərəfdən uzun müddət qoşunda xidmət edən guruhbanlara əfsərlik vəzifəsi tapşırılmaqla, əfsər məsələsi də sadə bir surətdə rəf' edilmiş oldu.

Qoşunun libas və ləvazimatı isə Milli Hökumətin karxana və sənaye'ə olan əlaqəsi sayəsində çox tez bir surətdə təhiyə edilə bidi.

Bu iş o qədər sür'ət ilə əncam tapdi ki, qoşun işi ilə məşğul olan əfsərlər özləri də heyrətdə qalldılar. Zira dünən kənddən çarıq ilə gələn kəndli balası, bu gün qoşun paltari geyib neçə ay tə'lim görmüş bir qoşun fərdi kimi rəsmi geçidlərdə iştirak etməklə özünün iste'dadını büruza verdi.

# Maarif Sahəsində

Maarif sahəsində də Firqə böyük qədəmlər götürməyə müvəffəq oldu. 12-şəhərivər e`lamiyyəsində dil barəsində meydana atılan şüarları Milli Hökumətimiz haman təşkilinin əvvəlindən artıq fədakarlıq ilə icra etməyə başladi.

Bütün idarə və mədrəsələrimizədə fəqət öz Milli Dilimiz rəsmi olaraq qəbul edidi. Belə bir fürsəti ürək döyüntüsü ilə gözləyən xəlq, hökumətin əmrini canu-dil ilə istiqbal etdi.

Xəlqimizin mübarizə orqanı olan Azərbaycan Ruznaməsi dil və maarif uğrunda böyük yararlıq göstərdi. Onun səfhələri şa’irlər və yazıçılarımız üçün geniş qələm meydanı olmaqla yeni yazıçi və şa’irlər meydana çıxıb özlərinin iste'dad və hünərlərini göstərməyə imkan tapdılar, məxsusən Milli nehzətimizin nəticəsində yüksələn ümumi ruhiyə şa’ir və yazıçılarımıza böyük ilham mənbəi olub onları yazıb yaratmağa vadar etdiyi qeyd etmək lazimdir. Şa’irlərimizin keçən şəharivərdən indiki şəharivərə qədər yazdıqları cürat ilə demək olar ki, əlli il müddətində yazdıqlarından daha artıq ola bilər. Bir də söz yazinın və şe’rin çoxluğunda dəyidir, şe’rin dəyəri onda təcəssüm edilən ruhiyə də aranılır ki, bu cəhətdən bir illik ədəbyatımız fövqəladə ğəni və sərvətli dir. Sabiqəli şa’irlərimizdən Əli Fitrət, E’timad, Məhzun, Sahir və sayirləri deyəbilərik ömürlərində yazıb intişar verdikləri şe’rlərin münasbətilə o qədər şöhrət və hörmət qazana bilməmişlərdi ki, bu bir ilin müddətində qazanmışlar. Cəvan şa’irlərimiz isə deyəbilərik ki, öz şöhrət və yaradışlarını fəqət Milli nehzətimizdən ilham almışlardır. Azər Oğlu, Əli Tudə, Mədinə Gülügün, Məhəmməd Əli Dirəfşi və qeyriləri fəqət nehzətimizin şa’irləri hesab oluna bilərlər. Bunların nehzətdən əvvəl yazdıqları əş`ar nehzət zəmanı yazdıqları ilə qabil müqayisə belə ola bilməz. Bunların hamısından əlavə Milli Dilimizədə meydana çıxan ruznaməmizdir. İndi bizim öz dilimizədə 8 ruznamə çıxır. Bunlardan əlavə aylıq məcəllələrimizin də əsasi qoyulmuşdur. Ümid edirik tez bir zəmanda onlar da öz intişarları ilə gözlərimizi işıqlandıracaqlar. Ədəby cəhətdən bir qədər zəiflik varsa dar lakin onun dar pəşəngləri tək-tək nəzərə çarpmamış dəyidir. Bu bir ill nehzət zəmanında fəqət Azərbaycan ruznaməsində 255-qit’ə şe’r çap edilmişdir ki. Bu Azərbaycanda görünməmiş bir işdir.

Siyasi mətbu’ata gəldikdə deyəbilərik ki, çox böyük qədəmlər götürə bilmişik. Bu xüsusda ağayi Pişəvərinin siyasi mövzularda və ümumi işlərimiz həqqində yazdığı məqalələrin böyük təsiri olmuşdur. Ağayi Pişəvərinin Farsi dilində olduğu kimi Azərbaycan dilində məxsus səbki vardır , bu səbk fövqalə'adə sadə və rəvan olduğu qədərdə havy olduğu zərbavlmsllər, kinayələr, məntiqi cəvvablar və əsaslı dəlillər ilə oxucunu düşündürdükcə iqna' edir və onun ruhunda dərin bir təsir buraxmaqla, ona nə qədər müxalif olur olsun, məqaləni qurtardıqda razi qalmaya bilməz. Bu isə bizim cəvan yazıçılarımıza sərmşq olmüş yazımızın sadə və təbiiliyini təəmin etmişdir. Burada ağayi Pişəvərinin Tehran ruznamələrinin birinə verdiyy diş sındıran cəvabı nümunə üçün dərc edirik:

# Ölmək Var Dönmək Yoxdur

Xəlqimizin Milli Azadlıq yolunda götürdüyü böyük qədəmin həqiqi mə'nasını dərk etməkdən aciz olan Tehran azadixahları, iki əsaslı məsələdə bizə öz əqidələrincə böyük irad tapmışlar. Bunlardan biri Azərbaycan dili, ikincisi isə azərbaycanlıların Milləti dir. Bu iradi biz özlərini azadixah adlandıran Fars mütəəssiblərinin hamısından eşitmişik və cəvabımız da çox sadə olmuşdur. Azərbaycanlı Fars dəyil və farsi dilini də azərbaycanlının əksəri başa düşəbilmir. Güc ilə o dili azərbaycanlılara təhəmil mümkün olabilməmiş və olmayacaqdır.

Azərbaycanda elə bir ev tapılmaz ki, onun əhalisi azərbaycanlı olsun amma Azərbaycan dilindən başqa bir dil ilə danışmağa rəğbət göstərsin. Mərhum Hacı İmam Cümə Xoyi qırx il tehranda yaşadığı halda özünün təkiyə kəlami olan «pi oğlan» sözünü tərk edib ona münasib bir Fars sözü işlədə bilməmişdi. Bu isə tehranlılar arasında zərb-ələməsəl dir. Tehranın özündə Hacı İmam Cümə kimilərin sayı yüzmından əlavə dir və bunların hamısı öz aralarında Azəbaycan Dili ilə danışmağı sevər və ondan ləzzət aparArlar. Azərbaycanlı yüz il xaricdə qalarsa əxlaq, ruhiyə və tərz təfəkkür cəhətdən azərbaycanlıdır. O öz yurdunu , öz ana və baba ocağını sevər və onu yad etməyə iftixar edər.

Azərbaycana dilsuzluq edən Fars azadixahlarına demək gərəkdir ki, sizlər əyər vəhşətə salıb tehrana çəkdigiz azərbaycanlıların ürəyinə girə bilsiz orada azərbaycana olan eşqi və məhəbbəti gördükdə heyrət edərsiz.

Çünki sizdə öz yurduza məhəbbət və əlaqə yoxdur. Azərbaycanlı heç bir cəhətdən sizə bənzəmədiyi kimi vətən məhəbbəti, ana eşqındə də sizlərə oxşamaz. Siz onu tanıya bilməzsiniz. Çünki mahiyyətində olan qurur-millidən sizlərdə əsər yoxdur. Doğrudur Azərbaycan demokrasi nehzəti başlanan zəmana dək özünün milləti həqqində az danışmışdır, vəli əməldə həmişə o özünü müstəqil bir millət hesab edib, cəhət və səbəbsiz əziz olan Farslara yabançi gözüylə baxıb. Onların təht-hakimiyətində yaşamağı özünə ar bilmişdir.

Gedin tehranın cənubi məhəllələrində və kargərlər yaşayan küçələrdə bir qədər dərindən təhqiqat edin! Azərbaycanın müxtəlif guşələrindən bir parça çörək qazanmaq üçün mühacirət edib, olarda fəqir və yoxsul halda yaşayan zəhmətkeş və qəhrəman insanların halı ilə aşina olun. Sonra Onları həman məhəllələrin qəhvəxanalarında tiryak mənqəllərinin başında insan qiyafəsini itirmiş səfillər və ya Kərəc suyunun kənarında kəsafət mücəssəməsi olan sirabi qazanlarının ətrafında çumbatma vurub əraq zəhirmar edən fokullulariz ilə müqayisə edin. Onda anlarsız ki, azərbaycanlı niyə özünü sizdən hesab etmir və nə səbəbə biz onu bir millət tanıyıb özünü idarə etməyə həqli bilirik.

Tehranda müntəşir olan Keyhan ruznaməsi özünün «Pəyam bə Pişəvri» ünvanı altında mənə xət yazmış olduğu məqaləyə şəxsim xüsusunda əhəmiyət qail olmayıb və mən şəxsən xüdsitalıq ilə işim olmadığından onun həqqimdə yazdığı müsbət sözlərə elə qiymət verən dəyiləm. Ona görə o xüsusda bəhs etmək istəmirəm. Əslən Farslar, Azərbaycanlıları öz yanlarında anlamaz və qaba hesab edər, hətta özlərinə yaraşan adlar ilə də onları adlandırmaqdan xəcalət çəkməzlər. «Keyhan»-da məqalə yazan ağa dar o xəyal ilə mənim başımı yarıb ətəyimə qoz tökmək istəmişdir. Qoy riyakarlıq, iki özlülük tehranlılara qallsın. Biz açıq danışaq və onların hiyləgərliyi bizi aldatmasın. Pişəvriyə pəiam göndərməyin faydasi yoxdur. Azərbaycanda vicuda gələn böyük nehzəti Pişəvri vicuda gətirməmişdir. Bu xəlqin ruhundan, ürəyindən qopan böyük nə'rənin əsəridir. Pişəvri və onun məsləkdaşları isə xəlqi sevib onun səadətini arzu etdiklərinə görə bu nehzətdən kənarda dura bilməzdilər. Pişəvri sadə bir yazıçi dir. Leikən o həmişə fikirlərini xəlqdən aldığı üçün xəlqin ehtiyaclarını düşünüb, onun dərdlərini anlayanlardan olmuş. Onun səadətini özünə məqsud və hədəf qərar vermişdir.

Keyhan ruznaməsinin yazıçısı ağayi Novşadın iştibahi bundadır ki, o Pişəvrinin azərbaycanın mili azadlığına qarışmasını, mürtəce'lər ilə apardığı mübarizədə gördüyü  xəsarət ya mürtəce'lərin onun şəxsi həqqində işlədikləri xəyanətində axtarır. Bu Pişəvrini təhqir etmək deməkdir. Pişəvri və onun kimi xəlq xadimləri siyasi mübarizələrdə özlərinin şəxsi ehsasatlarını dənxalət verməzlər, bu çuq kiçik və cahil adamların işidir.

Mən Pəhləvinin on bir illik zindanı ilə Məclis mürtəce'lərinin e'tibarnamə əleyhinə işlətdikləri məsxərəamiz uşaqlığı çoxdan unutmuşam. Biz indi böyük bir iş ilə məşğuluq. Keçmişi xatırlamağa belə vəqtimiz ola bilmir. Hətta o qara günlərdə belə mən şəxsi intiqam hisi və xüsusi ədavət ilə yaşamamışam və bunu iftixar ilə yaza bilərəm. Vicdanım bu xüsusda rahat və asudə dir. Zahiri azadixahların xəlqimizin mili mübarizəsinə şəxsi rəng verməsinə, öz arşını ilə ölçmək deyərlər. Bizim mübarizəmiz şəxsi dəyidir və kimsədən şəxsi intiqam çəkmək istəmirik. Siyasətdə intiqam ilə məşğul olmaq olmaz, söhbət Pişəvrinin şəxsi əxlaqi üstündə dəyidir. Nahaq yerə bizi tətəmi' etməyə çalışan Tehran yazıçılarına bu kimi yazıları oxuduqda acıyırıq. Onların ruhlarının zəifliyinə yazığımız gəlir.

Məsələn Keyhan yazır: «Siz Azərbaycan Dili və Millətindən sərfənzər etsəniz, bir Kuçikxan, bir Səttarxan , bir Xiyabani ola bilərsiz.». Mən böyük simaların adını həmişə ehtiram ilə zikr etmişəm. Leykən onlara hərgiz təqlid etmək arzusunda dəyiləm. Çünki mən şəxsi ad üçün çalışmıram, mən Azərbaycan Demokrat Firqəsinin aadi bir üzvüyəm və arzu edirəm xəlqimizin nehzəti firqəmizin adına təmam olsun və mən də Firqənin böyük adilə iftixar edim. Taza, tehranın Səttarxan, Xiyabani, Kuçikxan və Məhəmməd Təğixan kimi fədakarlara verdiyi padaş arzu edilməlı bir padaş dəyidir. Lenin və Mustfa kəmal olma fikiri isə əbədən məndə ola bilməz. Çünki Lenin kimi şəxslər hər bir mühitdə doğa bilməzlər, Ata Türk isə başqa bir şəraitdə meydana çıxmışdır.

«Gəlin bu kiçik dayərədən ki, öz dövrənizdə çəkmişsiz ayağınızi kənara qoyun, bu müməyyizlik ki, Azərbaycan ilə iranın sayir nüqtələri arasında çəkmisiz aradan götüruz ta bir Kuçikxan ya Səttarxan ya Xiyabani və ya Lenin və ya Ata Türək olasız,». Bunu Tehran azadixahlarından birisi yazır. Bu subut edir ki, onlar çox aciz və çox zəbün adamlardır, öz iradə və quvvələrinə e'timadları da yoxdur. Xaricdən bir nicat verici axtarırlar. Bir millət üçün bundan böyük bədbəxtlik ola bilməz. Dünən Rizaxandan nicat gözləyənlər bu gün Piəvəridən azərbaycanın dövrəsinə çəkilən dayərəni pozub özləri üçün azadlıq vicuda gətirmək tələb edirlər. Bu beçaralıqdır, bu elə bədbəxtlikdir ki, diri və aqıl millətlər onu eşitməkdən nifrət edərlər. Pişəvri isə özünün məsxərə hala düşdügündən xəcalət çəkir.

Doğrudur Pişəvri Azərbaycan Demokrat Firqəsinin ağsaqqallarından hesab olunur və Azərbaycan Məclis Milisi ona e'timad edib Mili Hökumətin başında qoymuşdur. Leykən o heçvəqt xüdsər və mütləqülinan dəyidir. O Firqə və Millətin bir sərbazıdır. O birincisinin dəsturu, ikincisinin arzusu üzrə hərəkət edir.

Beçara tehranlılar görükür xəlq və millətin qüdrətini hələ də dərk edə bilməmişlər. Onlar elə xəyal edirlər ki, Pişəvrinin şöhrəti və ya Azərbaycan xəlqinin ona olan e'timadi, onun qabaqdan təhiyə etdiyi nəqşə üzərilə vicuda gəlmişdir. Ya inki Pişəvrini aparılan mübarizə də qabağa çəkən onun qabağa düşmək mənzurundan irəli gəlmişdir.

Burada Azərbaycan xəlqinin zəkavəti və ruh yükəkliyi aşıkara çıxır. Azərbaycanlı hərgiz hazır olmaz tək bir şəxsdən özü üçün nicat və azadlıq gözləsin və ona xitab edərək sərhədləri aç, bizə Səttarxan və Mustafa Kəmal ol, desin. Tehranlı belə sözləri deməkdən utanmaz. Hətta onu birincilik qazanan ğəztəsində yazıb intişar verməyə də cəsarət edər. Bunlar anlamaq istəmirlər ki, bizim qüdrət və gücümüz mübarizənin mili xasiyətində dir. Azərbaycan xəlqini birləşdirib və onları Demokrat Firqəsinə bağlayan ancaq Firqəmizin meydana atdığı milli şüarları dir.

Biz bütün İran namina az danışmamışıq. Həyazb-Tudənin Tehrana göndərdiyi saysız-hesabsız teleqrqflar hənuz unudulmamışdır. Bunlar biyhudə sözlərdir. Tehran azadlıq verəbilməz, taza o azadlığı aldıqdan sonra millətimizin mili əsarəti baqi qalmasını biz düşünməmiş dəyilik. 7-yaşında taza dil açan körpə balaların başını biganə dil tə'lim etmək vasitəsilə əzib, çürüdüb, fasıd etməyə biz azadlıq deyəbilmrik. Beş milionluq bir xəlqi zor ilə yabançi bir xəlqin hakimiyətinə tabe etmək azadlıq dəyidir. Qərnlər boyu qəhrəmananə mübarizə aparan bir cəmiyətin milliyyətini, uç nəfərin xoşuna gəlməkdən ötrü inkar etmək insanlığa yaramaz. Başladığımız böyük hərəkətin mili rəng və milli xasiyətini dəyişdirmək istəyənlər xəlqimizin silahını əlindən almağa çalışırlar. Bunların azadixah maskaları bizi iğfal edəbilməz. Azadixah adamlar bu millətin başqa bir millətə üstündə hakimiyət

sürməsinı tələb edəbilməzlər. Azadixahlıq halva dəyidir. Azadixah insanlar gərək həq və həqiqəti inkar etməsinlər. Həq və həqiqət isə azərbaycanlıların milli dil, milli adab və rüsumi, milli əxlaq, milli iste'dad və milli tarixləridir.

Tehran azadixahları bizim millətimizi inkar etməklə qaba və xəşin istibdad ruhuna malik olub və mürtəcelərdən daha mürtəce olduqlarını isbat edirlər. Azərbaycan xəlqi isə özünün qüdrətini milli birlik və milli azadlıqda tapmışdır.

İndi Azərbaycan milli bir ölkədir. Onun qəhrəman xəlqi özünü idarə etməyə layiq olduqlarını bütün dünyaya isbat etmişdir. Təbriz mərkəz mürtəce'lərinin xainanə siyasətinə baxmayaraq hər cəhətdən tehrandan irəlidə dir.

Əmniyyət, asayiş, xəlqinin qeydinə qalmaq, ucuzluq, işsizlik ilə mübarizə, iqtisadi, siyasi və fərhəngi tədbirlərimiz xəlqi gələcəkə gündən-günə artıq ümidvar etməkde dir. Tehran Hökumətinin qələmrövündə isə dərin və qəti naümidlik hökm sürməkdedir, Məyus bir millət inqiraza məhkumdur. Ümidvar millət isə hərcür müşgülata qalib gəlib yaşar və arzularını icra etmək yolunda heç bir fədakarlıqdan ayaqgeri qoymaz.

İndi biz hərgün, hərsaat irəli gedirik. Tehran isə mürtəce'lərin və özlərini azadixah göstərməyə çalışan boşboğazların qara sayəsində fəlakətə sürüklənir.

Biz mübarizəni axıra qədər aparmağa and içmişik.

Ölmək var, dönəmək yoxdur!

**«Pişəvəri»**

***

Maarif aləmində öz dilimizdə nəşr olunan məktəb kitabları və binasını qoyduğumuz Milli Darülfununumuz, Firqə tarixinə qızıl xət ilə qeyd edilməlidir. Bununla biz ilftixar edəbilərik 12 Şəhrivər e`lamıhsını həyata geçirmişik.

# Nehzətimiz Və Dünya Siyasəti

Nehzətimizin dairəsi genişləyib əhəmiyət kəsb etdikcə dünya diplomatları və dünya azadixahlarının ona nisbət maraq və təvəccehi artmağa başladi, nəhayət iş o yerə gəlib çatdi ki, Azərbaycan məsələsi beynəlmiləl şəkil alaraq dünya mətbu’atının gündəlik mövzülarının birincisini təşkil verdi. Bütün dünya radiolari, müxtəlif dillərdə ölkəmizin adını və nehzətimizin cərəyanın söyləməkde bir-birinə sibqət etməyə çalışdılar.

Bunun əlbəttə cür-bəcür illətləri ola bilərdi. Amma bə’ziləri ondan Şoralar İttifaqi əleyhinə istifadə etməyə çalışırdılar. Bizim əqidəmizə görə bu ğədaranə və xainanə siyasət idi. Onlar bizim daxili düşmənlərimizdən müdafiə etmək məqsədilə məsələni bu şəkilə salmağa can atırdılar. Halbuki Azərbaycan nehzəti İran üçün tam mə’naasilə daxili bir iş idi. İran xəlqi bu nehzətdən böyük ümidlər gözlədiyindən daxili və xarici mürtəce’lər onu bu iftiralar ilə boğmağa çalışırdılar. Bə'zi düşmənlərimizdə bizim böyük milli hərəkətimizə gülünc olaraq təcziyə nami verməklə bütün cəmaəti bizim əleyhimizə təhrik etmək istəyirdilər.

Halbuki, daxili müxtariyət məsələsi təcziyə demək dəyildi. Firqəmiz bu məsələni 12-Şəhrivər e`lamiyyəsində möhkəm dəlillər ilə şərh verib, belə bir ehtimalın və tövcihin qabağını almışdı. Hətta bizim nəzərimizdə «federatıv» üsulu da təcziyə demək dəyildir. Necəki Şəhrivər müraciətnaməsində göstərilibdir, əyər fəderativ təcziyə deyilsəidi, oylə isə Amerika Cümhuriyyətləri İttifaqi, Suvis məmləkəti, təcziyə edilib mərkəziyətdən düşmüş məmləkətlər hesab olunmalı idilər. Milli məhəli müxtariyət, dil məsələsi ya əncümən əyalətiyə verilən geniş ixtiyarart müddəilərimizin iftira-amiz iddi’alarının xılafına olaraq bir məmləkətin təcziyəsi dəyil və doğrudan doğruya bütün xəlqin dövlət təşkilatında dəxalətini təmin etdiyi üçün məmləkətdə möhkəm və sarsılmaz bir vəhdət vicuda gəlməsinə səbəb olan ən əsaslı və təcrübədən geçmiş dövləti bir təşkilatdır. Başqa cür təsəvvüri belə mahaldır. Nə etəməli ki, mili-demokratik nehzətləri, şərqdə müstəmirə əlaqəsi olan böyük dövlətlərin diplomatları görmək istəmirlər. Əyər bu hərəkətin azərbaycanda, Azərbaycan hüdudlarında qalmasına inanmış olsaidılar şayəd o vəlvələni ortaya salmazdılar, nə etəməli ki, nehzətlərin bir məmləkətin sərhədi daxilində məhdud qalmayacağını onlar da gün kimi aşikar görməkdedirlər. Ona görə əllərində olan hədsiz-hesabsız vəsilələrdən istifadə edərək bizim üçün həyat-mümat məsələsi olan milli hərəkətimizi boğub ortadan aparmağa çalışırdılar. İş getdikcə mətbu’at və radiolardan təcavüz edib, rəsmi beynəlmiləli yığıncaqlara yetişdi, xarici imperialistlərin qablarını yalamaqda imtahan verən «Təqizadə» və «Əla» kimi ciblərini doldurmuş xainlər maskalarını yırtıb iranın daxili işi olan nehzət mövzuunu xarici ölkələrin müdaxiləsi ilə həll etmək istədilər.

Bu isə iranın istiqlal və təmamiyətini rəxnədar etmək və iranın əhalisini əcnəbilərin himayəsi altına tapşırmaq demək idi. Bu işin bu yerə gəlib çatması Azərbaycan xəlqini əsəbiləşdiridiyi qədər də onların gözlərini açdı və onlara anlatdı ki, İran Heyət Hakiməsini təşkil edən tüfeyli ünsürlər, öz

hakimiyətlərinin pozulmasını hiss etdikdə məmləkət və milləti də məhv və nabud etməkdən çəkinməzlər. Əla və TəqizadəninLəndən və Vaşinqtonda gördükləri işin mə'nası bu idi.

Azərbaycan xəlqi bu əməldən çox acı təcrübələr aldı, Tehran mətbu'ati isə bir neçə mütərəqqi ruznamədən başqa məsələnin iç üzünü açıb xəlqə göstərməkdən xuddarlıq etdilər. Onları xəlqimiz ürəyindən qalxan demokratik hərəkət mər'ub etmişdi. Yəəni bə'zi mürtəce' və satqın Tehran mətbuati da Təqizadələr və Əlalar kimi əcnəbi boyunduruğu altına girməyi, xəlq hakimiyətinə və millət azadlığına tərcih veriridilər. Bizim Firqəmiz gözəl düşünürdü ki, İran azad olmadığı təqdirdə Azərbaycan azadlığı təmin oluna bilməz, çünki Firqə əvvəl gündən İran daxilində olmaq şərtilə milli nehzəti vicuda gətirmişdi. Ona görə mürtəce' hökumətlərin yerini tutan Qəvamülsəltənə kabinəsinin barışma də'vətini qəbul etdi. Bu, ayağa qalxmış xəlq tərəfindən güzəşt hesab olunsa da lazimi bir güzəşt idi. Çünki əvvələn bu vasitə ilə yabancıların İran istiqlalını boğmaq ümidləri puça çıxdı. Bu nehzətimizi təcziyə və sayir iftiralar ilə ləkədar etməyə can atan xain və parazit ünsürlərin silahları da əllərindən alınıb, bütün İran cəmaətinin qabağını tutan pərdə yırtılıb tar-mar olmaqla nehzətimiz bütün İran üçün Milli Demokratik bir şəkil aldı.

Qəvamülsəltənə hökuməti ilə başladığımız müvafiqətnamənin İran tarixində böyük qiyməti vardır. Bu vasitə ilə dir ki, Azərbaycan nehzəti İran azadlığının zamini nami almaq iftixarını kəsb edə bildi. Bu vasitə ilə dir ki, birədən fil yaratmağa çalışan imperialst nökərlərinin sözü qurtarıb, öz işlərinin dalınca getməyə məcbur oldular.

Dünyada iki tərəfli olmayan bir hadisə yoxdur, bu əslə görə dünya mürtəce'lərinin əleyhimizə qaldırdıqları həya-hunun da müfid tərəfi vardır. Bu həya-hu nəticəsində bütün dünya bizi tanıdı. Dil, adab-rüsum və milli xüsusiyata malik olduğumuzu dərk etdi. Azərbaycan adı böyüdü, düşmənlikdən xəlqimiz də böyük istifadə edə bildi.

İş həmişə belədir. Diri millət, hüşyar millət fədakarlığa hazır olan millət hər bir təsadüfdən istifadə edə bilər. Farsların bir sözü vardır, deyirlər ki, «Ədü şəvədd səbəbi xeyr əgər xoda xahəd». Bu söz doğrudur, bizim düşmənlərimiz düşmənlik edərkən biz onların düşmənliklərindən faydalı nəticə aldıq.

Bu məsələyə heç də kiçik baxmaq olmaz, Fars mütəəssibləri həmişə çalışırdılar dünyaya bidirsinlər ki, azərbaycanlıların özlərinə məxsus dil, ədəbiyat və xüsusiyətləri yoxdur. Böyük nehzətimiz bu axmaqcasına olan təbliğata son qoydu. Hətta bizə siyasi səbəblərə görə müsbət nəzərlə baxmaq istəməyən Amerika və İngilis mətbuatının mühüm qisməti hiss edib anladı ki, Fars

mütəəssiblərinin iddi’ası doğru dəyildir. Azərbaycan xəlqinin özünə məxsus dili vardır, bu dil Fars dilinin bir şövbəsi olmayıb təmamilə ayrı bir dil dir.

Habelə azərbaycanlıların tərz təfəkkür və adab-maaşirəti heçvəch ilə Farslar ilə cür gəlməz. Bu xəlq tərəqqi edib dünyanın müasir xəlqlərinə yetişmək üçün öz dili, öz maarifi, öz adab və rüsumi üzərilə irəli getməlidir.

# Topraq Məsələsi

Bizim Milli nehzətimizin verdiyi böyük səmərələrdən birisi də topraq məsələsinin düzgün həll edilməsi dir. Bu məsələ İran xəlqləri üçün həll edilməsi lazim olan müşgül məsələlərdən idi. Firqəmiz 12- Şəhrivər müraciətnaməsində verdiyi və'dələri layiqincə əncam verdi.

Xalisə kənd və yerlərin istisnasız məccani olaraq kəndlilər və əkinçilər arasında bölunməsi və Azərbaycan xəlqinin əleyhinə çalışan böyük maliklərin yerlərinin də əllərindən alınması böyük iş idi. Ondan daha böyük malik ilə rə’iyyət arasında olan bəhrə məsələsinin bir dəfəlik həll edilib, qəti bir çərçivə arasına alınması hesab oluna bilər. Bu iş nə tək Azərbaycanda bəlkə iranın bütün vilayətlərində iqtisad və təkamül cəhətindən böyük təbəddülat vicuda gətirəcəkdir. Tez ya gec gərək indi olsun.

Onsuz görülən işlərin heç cürə faydası ola bilməzdi. Yer bölgüsü və malik ilə rə’iyyətin hüdudunu tə’yin edən qanunlar Milli nehzətimizə iqtisadi təməl və maddi əsas verdi. Ona görə biz bu mövzuu firqəmizin ən böyük, ən əsaslı və ən qiymətli müvəffəqiyyətlərindən hesab edirik.

Bu xüsusda şərh və bəst vermək zənnimizcə artıqdır, çünki xəlqimizin əksəriyyətini təşkil ver kəndlilər öz xüsusi zindəganlıqlarından, onun məənasını dərk etdiklərindən firqəmizin əmri ilə ölümə hazır olduqlarını göstərdilər. Bununla belə topraq məsələsi ilə əlaqədar olan bir xarici ruznamə müxbirinin bu xüsusda yazdığı məqaləsi təbliğatçılarımız üçün bir mə’lumat mənbəi olmaq qəsdi ilə burada dərc olunur:

# İran Azərbaycanı Milli Hökümətinin Kənd Təsərrüfatı Siyasəti Və Tədbirləri

İran Azərbaycanı əhalısının beşdə dörd hissəsindən çoxu kənddə yaşayır. Əhalının şəhərlərdə yaşayan qalan hissəsinin mühüm bir qisməti də bilavasitə torpağa bağlıdır, bağçılıq, bostançılıqla geçinir. Burada sənaye çox geridə dir və məmləkətin həyatinda mühüm bir rol oynaya bilmir. Ona görə də kənd təsərrüfat məsələsi İran Azərbaycanı xəlqinin həyatinda mühüm bir yer tutur.

Azərbaycanın olduqca münbit və zəngin torpaqları, bol suyu, mö'tədil iqlimi kənd təsərrüfatının gəlirli bir mənbə olmasını təəmin etmişdir. İran Azərbaycanı kəndələrinin yetişdirdiyi bol taxıl, meyvə , bəslədikləri mal- qaranın məhsulu nə inki xəlqin ehtiyacını təəmin edir, hətta Azərbaycan, Tehran və onun başqa vilayətləri üçün də bir azuqə mənbəii rolunu oynayır.

Buranın kənd təsərrüfat məhsulları (buğda, tütün, kişmiş, quru meyvə, dəri, yun, gön və sayirə) iranın xarici ticarətinin əsasını təşkil edir. Bu səbəbdən dir ki, iranda ağalıq etmiş sülalələr, xüsusilə Rizaşah höküməti İran Azərbaycanı kənd təsərrüfatını özü üçün əsas gəlir mənbəi etməyə çalışmış və Azərbaycan kəndlilərinin fədakar əməyi və torpağın bərəkəti sayəsində bol və ucuz məhsul əldə etmişdir. Lakin İran höküməti burada kənd təsərrüfati üçün heç bir iş görməmişdi. Bircə onu deməkkifayət edər ki, İran Azərbaycanı kəndliləri nə inki kombayn və traktorun nə olduğunu bilmirlər, burada hətta ən adi kənd təsərrüfati aləti sayılan dəmirmala, dəmirəkotan hələ işlədilmir, torpaq gübrələnmir, bostançılıq və maldarlıq sahələrində də heç bir yeni üsul intibaq edilmir, mal- qaraya baytarlıq köməyi göstərilmirdi. Kənd təsərrüfatında yeganə mühüm alət, ağacxış idi. Qoşqu qüvvəsi olaraq ancaq öküzdən istifadə edilirdi.

Azərbaycan qəzeti 96- cı nömrəsində bu xüsusda belə yazır:

Bizim ölkəmizədə fəlahətin üsulu aydın dir. Vaqıən insan utanır desin ki, indiki dünyada burada Nuh əyyamından qalmış xış, gavahən, öküz ilə yer sürülür. Kəndlilərin tərz həyatları insanlığa layiq olan bir vəziyətdə dəyil. Tehran Höküməti məsulları xəlqləri dalıda və iste`mara hazır bir vəziyətə salmaq üçün Adam əsrindən miras qalan fəlahət sistemindən əl çəkmir.

Tehranın müstəmləkəyə çevrilmiş olduğu İran Azərbaycanı kənd təsərrüfatında, su məsələsi də xüsusi əhəmiyyətə malikdir. Meşələrin azlığı, hətta yoxluğu, burada quraqlığa səbəb olur və əkin yerləri, bağlar hətta üzümlüklər həmişə suvarılmaq tələb edir. Burada su həyat mənbəi dir.

Azərbaycanın həmişə başı qarlı Savalan, Səhənd və başqa dağlarından müxtəlif istiqamətlərə axan Qızılüzən, Qarasu (cənubda və şimalda) Acıçay, Qoturçay, Ağçay kimi çaylar və Araz nəhri buranın kənd təsərrüfatında həll edicı rollar oynayır. Bu çayların axdığı vadilərdə gözəl bağlar, zəmilər, pambığ və çuğundur tarlaları vardır. Buna baxmayaraq suvarma işi çox ilbtidai və çox bərbad şəkildə dir.

Kənd təsərrüfatının geridə qalmasının və kəndlilərin acınacaqlı vəziyətdə yaşamasının mühüm səbəblərindən biri və bəlkə də əsası, topraq üzərində hakimiyyət, topraqdan istifadə şərtlərinin olduqca ağır olması və vergilərin ağırlığı idi. Təkcə onu demək olar ki, Qızılüzən çayından və onun qollarından su alan zəngin və münbit Zəncan mahalı topraqlarının böyük bir qismətinə ancaq bir nəfər böyük mürtəce’ mülkədar ağalıq edirdi. Tehran mürtəce’ hökümətindən bilavasitə kömək alan və onun müstəbidd üsullarına arxalanan Azərbaycan xəlqinin bu düşməni, qəsb etmiş olduğu bu topraqlarda işləyən kəndliləri məcbur edirdi ki, məhsolun beşdə dörd hissəsini versinlər.

Toprağın mühüm bir hissəsində Rizaşah və onun əlaltılarının, dövlətin əlində idi. Xalisə adlanan dövlət yerləri toprağın ən münbit, ən sulu qismətləri idi.

Urumiyə və Xoy kimi bir sıra yerlərdə də dövlət və ayrı mülkədarlar toprağın bir qismətini də tacirlərə satmişdilar.

Bilavasitə kəndliyə məxsus olan sahə, İran Azərbaycanı toprağynın on fayzını təşkil edirdi. İran Azərbaycanı kəndistanında uzun zəmandan bəri hökm sorən bu vəziyət ölkədə ağır bir fəlakət, həyati yoxsulluq və işsizlik üçün mənbə təşkil edirdi. Minlərlə Azərbacan kəndlisi bir tikə çörək qazanmaq üçün qonşu ölkələrə və iranın bir çox vilayətlərinə dağılmağa məcbur olurdu. Bu gün Tehranda, Sarıda, İsfahanda və sayir şəhərlərdəki fabrika və zavodlarda xalça e’malatxanalarında, irandaki İngilis nəft mə’dənlərində, Şimşək kömür mə’dənlərində və yol inşaatında xeyli Azərbaycan kəndlisi işləməyə məcburdur. İran Azərbaycanının özündə də (Təbriz, Urumiyə, Ərdəbil və başqa şəhərlərdə) bir tikə çörək dalısınca şəhərə axışan xeyli kəndliyə rast gəlmək olar.

Heç də təsadüfi dəyildir ki, İran azərbaycanında təşkil edilmiş Azərbaycan Demokrat partiasının və onun rəhbərliyi ilə yaranmış Milli Hökümətin məramnamə və müraciətnamələrində kənd təsərrüfati məsələsi mühüm yer tutur.

İstər partianın və istərsə hökümətin məramnaməsində İran Azərbaycanı xəlqinin rifah və səadətinin torpaqla bağlı olduğu məsələsi çox düzgün qoyulmuşdur. Partia və Hökümət məmləkətin tərəqqisi üçün ilk növbədə torpaqsız kəndliyə torpaq verilməsi, kəndlilərin arasında işsizliyin aradan qaldırılması məsələsinin bugun təxirə salınmaz vəzifə kimi iləri sürmüşdür.

Bu şərəfli vəzifəni yerinə yetirmək üçün İran Azərbaycanı Milli Hökümәti bir sıra düzgün tədbirlərə əl atmalı idi. Burada kənd təsərrüfatının əsas cəhəti topraq məsələsi, onun kəndliyə verilməsi məsələsi dir .

Kəndliyə torpaq hansı mənbədən verilməli?

İstər partianın və istər isə hökümətin məramnaməsində xüsusi malikiyyətin toxunulmazlığı təəmin edilir. Hökümət məramənaməsinin 17- cı maddəsində bu həqdə deyilir:

«Azərbaycan Milli Hökümətinin bütün sahələr üçün xüsusi malikiyyəti qəbul edib məmləkətin və xəlq iqtisadiyyatının tərəqqisinə və xəlqin rifah halına səbəb ola bilən hər cür xüsusi iqdamata kömək edəcəkdir.»

Məsələ belə bir şəkildə qoyolarkən hökümət nə etəməli idi? Tam demokrasi əsaslar üzərində qurulan Milli Hökümət bunun çarəsini tapmaqda çətinlik çəkmədi. Milli Hökümət kəndlini torpaq sahibi etmək üçün ilk növbədə iki mühüm mənbəə müraciə etəməli oldu: Xalisə (dövlət) və düşmən ünsürlərinin torpaqlarına.

Hələ Milli Hökümət təşkil edilmemişdən əvvəl Azərbaycan Demokrat Partiasi İran Azərbaycanı xəlqinin birleşmə və öz hüquqları uğrunda mübarizəyə çağıran müraciətnaməsində yazılmişdi:

Demokrat Firqəsinin əqidəsinə görə xalisə yerləri və Azərbaycanı tərk edib qaçan və Azərbaycan xəlqinin zəhmətlərinin məhsolunu Tehranda və sayir şəhərlərdə məsrəf edən ərbabların yerləri (əgər onlar tezliklə Azərbaycana qayıtmasalar) qeyd və şərtsiz olaraq kəndlilərin ixtiyarına verilməlidir.

İran Azərbaycanı kəndlisinə nicat yolu göstərən bu müraciətnamədə iləri sürülən maddəsində deyilir:

«İşsizliyin qarşısını almaq üçün xalisə yerlərini fövriyyıtlə təqsim etmək, həmçinin Azərbaycanı tərk edib onun xaricində Milli Müxtariyyətimizin əleyhinə təbliğat aparanların da yerlərini zəbt edib kəndlilərin ixtiyarına qoymaq ilə yersiz kəndliləri ayaqqlandırmalıdır.»

Burada göründüüü kimi Milli Hökümət topraq məsələsini çox adilanə bir yol ilə həll etməyə çalışır. Bu ciddi məramnamənin yerinə yetirilməsinə artıq başlanılmişdir. Tehran Höküməti tərəfindən qəsb edilmiş «xalisə» yerləri Azərbaycan xəlqinin mali e'lan edilmişdir.

Milli Hökümət eyn zəmanda azərbaycanın xaricində yaşayan və öz xəlqi ilə heç bir əlaqəsi olmayan silahli quldur dəstələri duzələdib xəlq Hökümətinə qarşı çıxan mülkədarların torpaqlarını milliləşdirməyə başlamişdir. Bu sahədə görülən ilk böyük tədbirlərdən biri Zəncan mülkədari Zülfqari həqqində Milli Hökümətin çıxardığı qərardır. Yuxarıda qeyd etdiyimiz kimi, Zülfqari böyük bir mülkədar dir. Mə'lum olduğu üzrə azərbaycanda yaşayan mülkədarların çox böyük əksəriyəti öz ana yurduna, millətinə, onun namus və şərəf işinə, başladığı müqəddəs mübarizəyə sadiq olaraq xəlq ilə əl- ələ verib Milli Hökümətini qüvvətləndirir. Hökümət beləl0rinə qarşı məramnamədə göstərildiyi kimi hərəkət edir. Belə adamların malikiyyət həqqi dövlət tərəfindən müdafiə edilir.

Topraq sahiblərinin çoxu hökümət və xəlq işinə hərtərəfli yardım göstərdikləri bir zamanda Zülfqarilər «...öz feodalitəsini mühafizə etmək üçün və xəlqi qul halında saxlamaqdan ötrü Milli Hökümətin əleyhinə müsəlləh surətdə qiyam edib mürtəce' Mərkəz Höküməti ilə rabitə saxlayıb və qətl və qarətə .....» (Azərbaycan qəzeti, nümrə: 90) əl atırlar. Milli Hökümət Azəraycan Demokrat Partiasının və özünün məramnaməsinə sadiq qalaraq Zülfqari həqqində xüsusi bir qərar qəbul etmişdir. Bu qərarda Milli Hökümət Zülfqarini Azərbaycan millətinin düşməni e'lan edir. Həmin qərarın üçüncü maddəsində deyilir:

«3- Zülfqarinin bütün əmlaki və toprağı zəbt olunub xəlqin mali e'lan edilsin.

4- Milli Dövlətin Zəncan idarələri Zülfqarinin torpaqlarını kəndlilər arasında bölmək işinə iqdam etsin. Bu barədə xüsusi heyətlər düzələdib guzarışlər versin.» (Azərbaycan qəzeti).

İran Azərbaycanı Milli Hökümətinin başçısı seyid Cə'fər Piyşəvəri bu münasibət ilə Zəncan kəndlilərinə göndərdiyi xüsusi bir məktubda yazır: «Azərbaycan Milli Höküməti xəlqimizin və xüsusilə əkinçi və zəhmətkeşlərin zindəganlığını yaxşı bir surətdə təəmin etmək üçün böyük nəqşələr və ciddi tədbirlər götürüb və götürməkde dir.

Milli Dövlət çalışacaq maarif, səhiyyə, iş və çörək hamı üçün fərahəm olsun, hərəks çəkdiyi zəhmət müqabilində əcr və müzd aparsın, artıq pul verilməiəcək ki, xəlqimizin zəhmətinin bəhrəsini bə'zi tüfeyli süfət şəxslər aparıb azərbaycanın xaricində eyş-nüş etməklə millətimizin azadlığı əleyhinə təbliğat və təhrikat eləsin.

Kəndliləri torpaq ilə təəmin etmək üçün Milli Hökümətin bir tədbiri də xəlqə və Milli Dövlətə sadiq olan mülkədar torpaqlarının bir qismini hər iki tərəf üçün əlverişli bir qiymətlə onlardan alıb kəndlilərə vermək və kəndlilər tərəfindən istifadə ediləcək torpaq bəhrəsini mülkədar və kəndli arasında adilanə bölməkdir.

Əgər bu vəqtə qədər mövcud qanunlara görə mülkədar torpağını becərən kəndli bəhrənin beşdə dövrdünü ona verməyə və yalnız beşdə birini özünə götürməyə məcbur olurdusa, indi artıq belə olmayacaqdır. Milli Hökümət sə'y edir ki, belə torpaqların bəhrəsi kəndli və mülkədar arasında adilanə bölünsün. Bu tədbir Milli Məclis tərəfindən təsdiq edilmiş, dövlət məramənaməsinin 11-cı maddəsinə təmamilə uyğun gəlir. Bu maddə də deyilir: Kəndli ilə ərbab arasında tövlid olan ixtilafati rəf' etmək üçün mütəqabil rizayət şərti ilə ciddi qanun layıhəsini tənzim edib bu yol ilə kəndli və ərbab məsələsini həll və təsfiyə eləmək.

Hökümət bu məsələni həyata geçirmək üçün məramnamədə yazıldığı kimi hər iki tərəfin mütəqabil razylığını əldə etəmyini lazim bilmiş və ona görə də kəndli və mulkədarlardan ibarət bir komision duzələtmişdir. Bu komision əməli işə başlamişdir.

İran azərbaycanı kənd təsərrüfatında mühüm yer tutan bir sahə də maldarlıqdır. Burada Qaradağ, Çaldıran, Savalan, Ərdəbil, Xalxal, Mərağa ətrafındaki yaylaqlarda min hektarlarla zəngin çəmənliklər, otlaqlar vardır. Bu maldralığın inkişafi üçün çox zəngin şərait yaradır. İran azərbaycanında indi təxminən yeddi miliona qədər qoyun və geçi, yeddi yüz əlli minə yaxın qərəmal, yüz iyirmi minə yaxın at və xeyli dəvə vardır. Maldarlıq xüsusilə Ərdəbil və Qaradağ mahallarında xeyli inkişaf etmişdir. Lakin bu rəqəmlər böyük və geniş imkanlara malik olan İran azərbaycanı üçün olduqca azdır.

Kənd təsərrüfat vəzirliyi indi heyvanların cinslərini yaxşılaşdırmaq və onların sayısını artırmaq işındə ciddi fikir verməyə də başlamişdir. İran Azərbaycanında tütün və qənd çuğunduru da təsərrüfatda mühüm yer tutur.

Mərağa, Azərşəhr və Üşnuda yetişən tütün iranın təsərrüfatında görkəmli rol oynayır. Bu tütündən hazır olan «Üşnu» adlı papırus bütün iranda məşhurdur. Buna baxmayaraq tütün çox ilbtidai üsullarla yetişdirilir və olduqca az məhsul verirdi. İran Azərbaycanının gözəl bucaqlarından olan Ciğaty vadisində də yaxşı qənd çuğunduru yetişir və Miyandab qənd zavodunun xam malını təşkil edir. Geniş imkanlarına baxmayaraq bu sahə də geridə qalmişdir.

İran Azərbaycanında eyn zəmanda bağçılıq və üzümçülük də böyük əhəmiyyətə malikdir. Əsrlərdən bəridir ki, İran Azərbaycanının kişmiş, püstə və badamı, ərik, tut və iydəsi dünya bazarlarında şöhrət qazanmişdir. Bundan başqa burada xiyar, alma, çahftalı və əncir də yetişir. Mərənd, Ürumiyə, Təbriz və Mərağa ətrafında geniş üzüm və meyvə bağları vardır. Lakin çox zəman xəstəlik və başqa səbəblər üzündən, üzümlüklər və bağlar məhv olub gedir ya da ümumiyyətlə çox az məhsul verirlər.

İndi artıq İran Azərbaycanının sənayeini və xarici ticarətini öz əlinə almış Milli Hökümət bu sahəyə ciddi fikir verməyə başlamişdir və kənd təsərrüfatının qarşısında duran əsas bir məsələni də həll etməyə girişmişdir ki, bu da kənd təsərrüfati üçün mütəxəssislər hazırlamaqdan ibarətdir. Əvvəllər burada belə mütəxəssislər yetişdirən heç bir orta və alı məktəb yox idi, indi isə Milli Hökümət İran Azərbaycanında darülfünun təşkili və onun yanında kənd təsərrüfati fakultəsi yaratmağa başlamişdir. Bu fakultədə baytarlıq, taxıl, bağçılıq, tütün və başqa sahələr üzrə mütəxəssislər yetişəcəkdir.

**«A. Azəri»**

# Məclis Millinin Fəaliyyəti

Xəlqimizin həq və ixtiyarını təəmin etmək üçün aparılan mərdana mübarizə nəticəsində hamıya mə’lum olduğu kimi 21-Azərdə qiyam məənaasi ilə demokratik əsaslar üzərində Milli Məclisimiz təşkil oldu. Bu məclis (ilə) darəlşövrayi-milli arasında, həmm təşkilat və həmm tərz əməl cəhətindən böyük tövfir var idi. Darəlşövrayi-Milli həmişə ümum nümayəndələri iştiraki ilə təşikil olduğu üçün orada daha artıq danışığa və təbliğata əhəmmiyyət verilir, işin sür'ətilə pişrəfti nəzərə alınmır, nəticədə dövlət təşkilati fələc hala düşərək yerindən tərpnə bilmir və onun təqdim etdiyi ləvayeh aylar ilə komisionlarda yatıb qalır. Bə'zən onların müzakirəsinə belə imkan tapa bilmir. Bizim Məclis Millimizin fəaliyyəti isə çox sadə idi. Əvvələn bütün nümayəndələrin vəqtləri mərkəzdə tələf olmamaq üçün hər üç ayda bir ümumi iclasa də’vət olunurdular.

Bu vasitə ilə ümumi və əsası məsələlərə yetişir, dövlətin guzarışınə qulaq asıb ona yeni dəsturlar verir, idarələrin gördükləri işləri nəzərdən geçirib onların rəislərinə düzgün yol göstərir, və imtahan üçün qəbul edilən qanun layihələrin müzakirə və təsvib etdikdən sonra gələcək üç ay tə`til zəmani üçün heyət-rəyasətə lazimi tapşırıqlar verməklə işlərin sür'əti üçün zəminə hazırlayırdı. Uç ay tə`til müddətində məclisin vəzayifinə əncam verib, dövlət ilə sıxı rabitə saxlayır və onun göndərdiyi layıhələri səri' bir surətdə müzakirə edərək sınamaqdan ötrü övdət verir.

Bu əsl üstündədir ki, bizim Milli Məclisimiz, mərkəzi qüvvətimizin sədr müavini və firqəmizin banılərindən sayılan ağayi Hacımirzə Əli Şəbistərinin təht rəyasətində 21- Azərdə işə başlayıb böyük fəaliyyət bürüza verə bilmişdir. Məclis Millinin heyət rəyasəti ümumiyyətlə mətin və biqərəz əşxasdan təşkil olduğu üçün, Milli Hökümət ilə Məclis arasında həmişə hüsn təfaəhüm olmuş, Məclis Hökümət Millinin işlərinin qabağa getməsində böyük müsaidət göstərmişdir. Məxsusən ağayi

Şəbistərinin fövqəladə huşi, təb'i və zəkavəti heyət rəyasətinın fəaliyyətində artıq dərəcə müəssir olmuş. Bu səbəbə e'tiraf etmək lazim gəlir ki, məclisdə Firqə rəhbərliyi ciddi bir surətdə nəzərləri cəlb edə bilmişdir.

Ümumitlə firqəmiz ilə Hökümət Milli və Məclis Millimiz arasında olan möhkəm rabitə və əsaslı birlik nehzətimizin irəlilənməsində artıq dərəcə təsir bağışlamişdir. Firqəmizin mərkəzi komitəsinin xəlq Hakimiyyəti yolunda götürdüyü qədəmlər, məclisimizin xət hərəkətinin düzgünlüyü, məxsusən heyət rəyasətın biytərəf və biyqərzanə bir surətdə yorulmaqsızın fəaliyyətində olmasına mədyundur. Bu isə ağayi Şəbistərinin hüsn niyyəti və sağlam düşüncəsi sayəsində meydana çıxa bildi.

***

«Məclis Millimizin ümumi iclasları isə həmişə firqəmizin əfkar və amalını tə'qib etmək yolunda böyük iyman və e'timad bürüza vermişdir. 22-Azərdə ümumi iclasın Hökümət başçısının istədiyi rəy-e'timada verdiyi cəvab, Milli tariximizin ən müşə`şə' iftixaratından sayılmalıdır. O gün hökümət təşkilinə müvəffəq olan baş vəzirimiz Təbriz padıganının fərmandehi sərtib Dirəxşani ilə apardığı müzakirə bir nəticəyə yetişmədigini gördükdə məclisə gəlib açıq və aydın surətdə mövzuu nümayəndələrin nəzərinə yetirib, işin silah gücü ilə həll edilmək ehtimalını ireli sürüb belə bir ehtimalın vüqui münasbtilə oradan rəy e'timad istədi. Onun cəvabında bütün nümayəndələr bir tək vicud kimi ayağa qalxıb «hamımız Milli Hökümətimizin bayrağı altında silah götürüb müharibə etməyə hazırıq, qoy öz qurduğumuz xəlq Hökümәti bizdən e'timad əvəzində canlarımızı qurban verəməyi istəsin, onu azadlıq yolunda verməkdən müzayiqə edən dəyilik» dedilər. Bu quru taaruf deyildi. Başda məclis rəisi ağayi Şəbistəri olmaq üzrə nümayəndələr ümumiyyətlə ayağa qalxıb silah götürmək üçün firqəmizin mərkəzi komitəsinə gəlib orada baş vəzir və məclis rəisinin sərtib Dirəxşani ilə yeni təcdid etdikləri müzakirənin nəticəsinə müntəzir oldular. Bu tarixlərdə misli çox nadir ittifaq düşəbilən bir hadisə dir.

Doğrudur Məhəmməd Əlı mirza İran Məclis Şövrayi-Mllisini topa bağladıqda nümayındələrdən bir neçəsi orda qalıb şəhid oldular, lakin olardan ələ silah alıb müharibə etmək fədakarlığını tarix nişan vermir. Bizim Milli Mclisimiz bu fədakarlıq nəticəsində doğrudan doğruya Fdailər Mclisi olduğunu isbat etdi Bundan əlavə məclisimizin böyük iftixaratından birisi də orada Fdaı təşkilatlarına rəhbərlik edənlərdən nümayəndə sifətilə də iştirak edən var idi. Ağayi Qulm Danişiyan, Cəfər Kaviyan, Kəbiri və qeyrləri müstəqimən cibhələrdən intixab olunub gəlmişlərdi. Firqəmiz də belə bir məclis vicuda gətirməklə özünün yaradıcılığını bütün dünyaya isbat etməklə və millətimizin iste'dad və qabiliyyətini də bürüza verməyə səbəb olmuşdu. Bizdə Məclis Milli sabiqəsi yox idi, Milli Hökümət daxi biysabiqə idi. Bunların hamısı Firqə rəhbərliyinin ilbtikari nəticəsində meydana çıxan

böyük təşkilatlardır ki, tarix onların barəsində heç vəqt sakit qala bilməz. Bu müəssisələrin yaradılması gələcəkdə bütün İran xəlqi, bəlkə şərq məmləkətləri üçün sərməşq olmağa layiq işlərdən dir. Firqəmiz bu təşkilatları yaratmaqla geçmiş hədəfsiz və təşkilatsız qiyamların təkərarına xatimə verib, azadixahlar üçün müvəffəqiyyət qazanmaq yolunda yeni bir cığır açdı ki, bu özlüyündə şayan iftixar bir işdi.

# Firqənin Təşkilat İşləri

İyirmibir Azərdə ağayi Piyşəvəri, ağayi Badəkanın müavinəti ilə şəxsən təşkilat qurmaq işi ilə məşğul olurdu. Bu vəqt təşkilata təvəcceh etmək imkanı artıq idi. Ondan ötrü ki, Firqə kadrlarının ondan başqa işləri yox idi. Ona görə işlər çox sür'ətlə pişrəft edib, üç ay müddətində Azərbaycanın bütün şəhər və kəndlərində Firqə təşkilati yaradılıb ciddi bir surətdə fəaliyyət edirdi. Bu sazimanların fəaliyyəti nəticəsində idi ki, bütün Azərbaycan xəlqi Firqə bayrağı altına toplanıb böyük nehzəti və onun müsəlləh qüvvəsi olan Fədai dəstələrini vicuda gətirdilər.

Bu üç ay ərzində istər mərkəzi komitə istər yerli Firqə ocaqları təşkilat və təbliğat sahəsində böyük işlər görməyə müvəffəq oldular. Belə ki, Hökümət firqənin rəhbərliyi altına gələn zəman bütün dövlət idarələrini nəzarət altına almağa hətta idarə etmək üçün Firqə sıralarından kifayət edəcək qədərdə çoxlu müccərəb və inanılmış işçi verilə bildi.

Bu isə üç aydan artıq tarixə malik olmayan bir təşkilat üçün böyük müvəffəqiyyət hesab olunurdu. Əgərəki o gün dövlət idarələrinə göndərilən əşxasın arasında uzun müddət siyasi mübarizə aparıb siyasi firqələrdə fəaliyyət göstərən mücərrəb yoldaşlarımız da az dəyil idilər. Bununla bərabər onları tapıb e'timadlarını cəlb etmək, məsuliyyətli işlərə qoymaq özü özlüyündə böyük müvəffəqiyyət hesab oluna bilərdi.

21-Azərdən sonra Firqə kadrlarının dövlət idarələrinə göndərilədiyinə görə təşkilatın içərisində o cəhətdən çox müşgülat meydana çıxdı. Məxsusən mərkəzi komitənin məsuliyyəti ağırlaşdığı halda işçi işçilərinin mühüm bir hissəsi istər- istəməz dövlət işlərinə məşğul olduqları üçün Firqə işlərinə lazimincə yetişə bilmədilər.

Bu tərəfdən böyük müvəffəqiyyətlərimizi görən xəlq axın- axın təşkilata varid olmağa başladı. Bunları münəzzəm surətdə təşkilat altına alıb kadrsız idarə etmək çox müşgül bir iş idi. Bu işlərin

hamısı firqənin sədr müavini ağayi Badəkanın öhdəsinə mühəvvəl olduğundan onun vəzifəsi fövqəladə bir surətdə ağırlaşmişdi. Buna baxmayaraq o özünün yorulmaz bunyəsinə və qüvvətli iradəsinə dayaıb bu ağır vəzifəni qəhrəmanlara yaraşan ciddiyyət və himmət ilə əncam verməyə müvəffəq oldu.

Ağayi Badəkan altı ay təmam mərkəzi komitənin cari işlərini ciddiyyətlə əncam verib oradan dövlət işlərinə aparılan kadrların yerinə taza kadrlar təhiyə etməklə təşkilatın dəvam və bəqasını təəmin etdi. Bu işdə Təbriz şəhər təşkilatının cəvan sədr müavini ağayi Vilainin fəaliyyəti də təqdirə şayandır. Bundan əlavə, başqa yerlərdə daxi yazılan Firqə təşkilatçılarının öz növbələrində böyük fəaliyyətlər ibraz etmişlər ki, yeri gəldikcə onların da fəaliyyətləri təqdir edilməlidir.

Yuxarıda söylədiyimiz kimi bu nehzəti vicuda gətirib onu düzgün yola aparmaq üçün Firqə arasında iş bölgüsünün fövqəladə təəsiri oldu. Firqənin ümumi siyasətinə ağayi Piyşəvəri rəhbərlik etdiyi halda onun daxili işlərini ağayi Badəkan və Məclis Milli kimi mühüm təşkilati ağayi Şəbistəri, Həmkarlar İttifaqını ağayi Biriya və sair  təşkilatları mərkəzi komitənin başqa üzvləri öhdədar olub müvəffəqiyyətlə əncam verirlərdi. Firqəmizin tarixində bu işin artıq dərəcədə əhəmmiyyəti olduğunu qeyd etmək lazimdir.

Firqə başçıları öhdələrinə düşən ağır vəzifələrinə baxmayaraq Firqə təşkilati əbədən unudulmamış, vəqti vəqtində ümumi iclaslar, geniş yığıncaqlar də’vət olunub bütün Firqə əfradi firqənin siyasəti ilə aşina olmuş və bu vasitə ilə təşkilatda olan firqəçilər bir ailənin əfradi kimi əl-ələ verərək böyük nehzəti vicuda gətirib onun istənilən hədəfə yetirməyə kəmal iftixar ilə müvəffəq olmuşdur.

Firqəmizdə birliyə artıq dərəcədə əhəmmiyyət verilmiş tək-tək əfradın xırda və xüsusi rəncişlərinə baxmayaraq əfrad ağır dəqiqələrdə qardaş kimi çalışıb fədakarlığa hazır olduqlarını sübuta yetirmişlər. Əgər bə'zi özünü bəyənən adamlar firqənin ümumi siyasətinə müxalif gözü ilə baxmış olsalar da işin sür'ətlə ireli getəməsi, Firqə əfradynın fədakarlığı onlara «otbjektiv» niyyətlərini icra etmək imkanını verməmiş, onları Firqə içərisində ikitirəlik salıb ondan xüsusi istifadə edə bilmək arzularını ürəklərində qalmasına məhkum etmişdir.

Firqənin həqiqi rəhbərlərinin biqərəzanə bir surətdə canfəşanlığı olmasa idi qət'ən bu böyük müvəffəqiyyətləri əldə edə bilməiəcək idik. Ona görə biz rəhbərlərimizdən həmişə birlik, səmimiyyət, sədaqət, fədakarlıq və biqərzlik tələb edirik. Məxsusən istəyirik ki, bu vəqtə tək olduğu kimi birliyimiz əbədi və payidar olub Firqə içərisinə ixtilaf salmaq ilə nehzətimizi pozmaq fikirinə düşən alçaqların pis niyyətlərinə imkan verilməsin. Biz başçılarımızdan bunu tələb edirik.

Birlik, birlik, yenə də birlik lazimdir!

# Firqəmiz Və Kargər Təbəqəsi

Firqəmiz fəaliyyətə başlarkən Həmkarlar İttifaqi təşkilatından ciddi köməkliklər almişdir. Firqə rəhbərliyi ilə fəaliyyət edən bu təşkilat, məxsusən Təbriz şəhərində nehzətimizin qabağa getməsində böyük fəaliyyət göstərmişdir. Firqəmizin kargərlər kütləsinin təşkilati, müvəffəqiyyətimizi təəmin edən mühüm amillərdən ən mühümy ola bilmişdir.

Firqəmiz xəlq təşkilati olduğu üçün zəhmətkeş təbəqəsinə artıq dərəcə əhəmmiyyət verib onların həyatının yaxşılaşması uğrunda böyük və ciddi qədəmlər götürməyə müvəffəq olmuşdur. Məxsusən ağayi Piyşəvəri Milli Hökümətimiz və Milli Nehzətimizi idarə edirkən ən çox əhəmmiyyət verdiyi məsələ karxanaların işə düşəməsi və onların tə`tilinin qabağını almaq məsələsi olmuşdur.

Bu vasitə ilə yüzlərcə kargərlərin həyatını təhdid edən işsizliyə mərdana bir surətdə mübarizə aparmişdir. Pəşmiynə karxanasının işə salınması, Bustan və İran karxanalarının işlərinə yaxından nəzarət etmək üçün onların idarələrində müstəqim bir surətdə kargərlər itihadiyyəsi tərəfindən məxsus nümayəndələr tə'yini, işsizlik mübarizəsində ən ciddi qədəmlərdən hesab olunmalıdır. Ağayi Piyşəvəri firqənin siyasətini düşünərək minlərdən ziyadə kargər ailəsinə çörək vermək üçün bu karxanaları bir an nəzərdən uzaq tutmamış, minlərcə ağır siyasi məsələlər ilə üz-üzə gəldiyi halda vəqtin mühüm qismətini onlarla sərf etmişdir. Bu isə firqənin kargərlər təbəqəsinə olan əlaqəsinin böyük bir dəlili dir.

Bundan əlavə zindəganlığın vəsaylinin gündən-günə aşağı düşəməsi və bazarın kasadlığına baxmayaraq Firqə, kargər müzdünün aşağı düşməsinə imkan verməmiş, altı ay dəvam edən Milli Hökümət dövründə bir nəfər də olsun böyük karxanalardan kargər ixraci ittifaq düşməmişdir. Bəlkə Bustanın işə düşməsi və yeni toxuculuq karxanasının təsisi sayəsində mindən ziyadə işçilər üçün fəaliyyət və çörək qazanmaq mənbəi təhiyə edilmişdir. Bunlardan əlavə şəhərin abadlaşması, taza təsisat, habelə yol işləri, nizam-vəzifə mədrəsələri kimi yeni işlərin başlanması sayəsində minlərcə cəvan və yaşlı kargərlərə iş düşüb bu vasitə ilə zəhmətkeş təbəqəsinin həyatını təhdid edən işsizliyin qabağı alınmişdir. Nəhayət kargər ilə karfərma arasında meydana çıxa bilən ixtilafların qabağını almaq üçün bu iki təbəqənin vəzifə və ixtiyaratını müəyyən edən iş qanuni təhiyə və təsvib

olunduqdan sonra mövqei icraya qoyulmuşdur ki, indiki şəraitdə kargər üçün böyük müvəffəqiyyət hesab oluna bilir.

Əgər gündən-günə artmaqda olan işsizliyi və kasadlığı nəzərə alsaq o vəqt firqəmizin kargər təbəqəsinə etdiyi xədəmatın böyüklüyü təmam məənasi ilə nəzərdə müccəssəm olacaqdır.

Nəhayət deməк lazimdir ki, Azərbaycan Demokrat Firqəsi, Həmkarlar İttifaqına rəhbərlik etməklə həmişə kargər təbəqəsinin ciddi rəhbəri olub, onun mənafeini hifz etmək yolunda heç bir fədakarlıqdan çəkinməmişdir. Demək olur ki, Həmkarlar İtifaqaynın sədri ağayi Biriya geçən Şəhrivər ayinda bu təşkilatın Demokrat Firqəsinin rəhbərliyini qəbul etəməsini rəsmən və kətbən e`lam etdikdə iştibah etməmişdir. Firqə apardığı ağır mübarizədə, kargəri birincı səfdə gördüyü kimi onun mənafeini hifz etəməyi də özünün ən birincı vəzifələrindən hesab etmiş və edəcəkdir. Əlbəttə kargər təbəqəsi və onun rəhbərləri də çox gözəl bilirlər ki, əgər firqənin düzgün rəhbərliyi olmasaydı, Azərbaycan xəlqinin ən məzlum təbəqəsini təşkil edən kargərlər də azad olub istədikləri kimi dərdsərsiz öz tələblərini əldə edə bilməyəcəkəlridi. Bu nüqti-nəzərdən demək olar ki, Azərbaycan kargərləri Demokrat Firqəsinin rəhbərliyi sayəsində iki azadlığa nail oldular: Birincisi ümum Azərbaycan xəlqi kimi Milli Azadlıq, ikincisi ümum kargərlərin mənafe'ini təəmin etmək vasitəsi ilə sinfi azadlıqdır ki, hər ikisi də kargər sinifinin mübarizə tarixində cəli xətlər ilə yazılacaqdır.

# Milli Hökümət Xəlqə Hesab Verirkən

Milli Hökümət firqəmizin rəhbərliyi altında işlədiyi üçün onun göstərdiyi xarüqüladə fəaliyyətinin iftixari da firqəmizə aiddir.

Bizim yuxarıda qeyd etdiyimiz kimi Milli Hökümət gördüyü işlər nə tək azərbaycanda bəlkə iranda sabiqəsiz idi. Ona görə çox bir tez zəmanda firqəmizin və nehzətimizin nüfuzu sərhədlərimizdən geçib irandan xarici ölkələrdə səs salmaqla, dünyada binəlmiləli bir məsələ şəkili aldı.

Bu kitabça tə'cili surətdə yazıldığı üçün bu sahə də görülən işləri şərh verməkdən sərfənzər edib, hökümət başçısı ağayi Piyşəvrinin Azərbaycan Məclis Millisinin ikincı ümumi iclasında verdiyi guzarişi (raport) eynən buraya nəql etməyi kafi hesab edirik:

Milli Məclisin İkincı Ümumi İclasının 2- ci Cəlsəsində Olunmuş Danışıqlar

# Ağayi Piyşəvərinin Azərbaycan Milli Hökümətinin İndiyə Qədər Gördüyü İşlər Həqqində Verdiyi Guzarış

Cmə günü Fərvərdin ayının 16-da saat doqquz yarımda Azərbaycan Məclis Millisinin ikinci iclasi nümayəndələrin hüzuru və ağayi Şəbistərinin rəyasəti ilə təşkil oldu, bu cəlsə də Dövlət Heyəti də hazir idi.

**Ağayi Şəbistəri:** Mən ikincı dövrə iclasiyənin 2-ci cəlsəsini rəsmən artıq e`lam edirəm. Ağayi Məhəmməd Əziyma dünənəki cəlsənin surət cəlsəsini müxtəsərən raport verəcəkdir. Ağayi Məhəmməd Əziyma birincı cəlsənin surət cəlsəsini müxtəsər vəchilə oxudu.

**Ağayi Şəbistəri:** Birincı cəlsə də oxunan proqram mucibincə ağayi Piyşəvəri Azərbaycan Dövlət Heyətinin indiyə qədər gördükləri işləri barəsində bir raport verəcəkdir.

**Ağayi Piyşəvəri:** Mən elə fikir edirəm ki, deyəcəyiim sözlər çox müfəssəl ola bilməz, çünki dövlətin bütün gördükləri işlər xəlqin iltilai ilə, məxsusən Məclis Milli üzvlərinin nəzarəti ilə olmuşdur. Ona görə mənim deyəcəyiim sözlər güman edirəm ki, nümayəndələr üçün taza sözlər olmayacaqdır və fəqət bunlar müxtəsər surətdə təzəkkür kimi ola bilər. Siz çox gözəl bilirsinz ki, bizim Milli Dövlətimiz mübarizədə doğulub, Dövlət və Məclis müsəlsəllərin və tüfənglərin və başqa əsləhələrin gurultusu altında təşkil tapıbdır. Bizim vəzirlərimiz və dövlət işçilərimiz azadixahlardan seçilib dövlət işlərinə varid olmüşlarsa da, lakin kifayət qədər mücərrəb dəyildilər. İstibdadi dövlətdən pis yadigarlar və mənfur irslər, oğurluq, ixtilas, tənbəllik və dövlət məqamatından su-istifadə etmək və dəvayirin bərbadlığından başqa bir şey qalmamişdi. İşçilərdən bir iddəsi fəqət maaşlarını təəmin edib, günlərini geçirib, saat saymaq və ondan sonra xüsusi işlərinin dalınca getməkdən başqa fikirləri yox idi. Mən onları sərzəniş etmək istəmirəm, çünki təşkilatın iqtizasi o idi, beş nəfər, üç nəfər sadiq adam olsaydı da ya işdən çəkilirdi ya işdə qalırdısa mühit ilə saziş etməyə məcbur olurdu və beləliklə bir cür imrar maaş edirdi. Milli Dövlət təşkilində idarələrin vəz'i bu idi. Hətta mən sabiq ustandarlıq binasına getdikdə istifadə etmək üçün bir kağaz tapa bilmədim, xüsusən o vəqt ki, ustandar böyük ixtiyaratla gəlmişdi ki, Azərbaycan nehzət millisini yatırtsın, Farslar demişkən «Dəre bağe səsbz» nişan versin.

Biz höküməti ələ aldığımızda vəziyət çox ağır idi, mən indi hələ mali cəhətdən deyirəm, hər halda hökügməti ələ aldığımız zaman biz proqrqm ilə işə başladıq və o proqrami təsvib üçün məclisə gətirdik. Biz qabağimizda qoyduğumuz proqrqm İran dövlətinin adi proqramlari nəziyri deyildi.

Bu proqram Milli bir proqram idi , biz bilirdik ki, bu dövlət müəyyən bir müddətdə bu işləri görəcək. Mən belə güman edirəm ki, o proqram nümayəndələrin nəzərində dir. Proqramda birincı məsələ Milli Hökümətin quruluşudur. Milli Hökümət belə qurulmalı idi ki, xəlq hiss etsin ki, bu Hökümət onun qurduğu hökümətdir və onda yaxın dəxaləti vardır. Bu iş sözdə çox asan görünsə də, leikən əməldə çox çətindir. Çünki geçən hökümət xəlqi dövlətdən ayrı olmağa adət vermişdir. Dövlət xəlqin başı üstündə bir yumuruq kimi olub, millət isə əzab və fışar altında dövlət çərxlərini dolandırmalı idi. Millətin dövləti ümuratda dəxaləti yox idi. Biz bu adəti dyişməli idik, dövlət millətin səadətini təəmin etəməli idi.

Biz proqramda göstərmişik ki, bu necə olmalıdır. Bu işçilərin şəxsən demokrat olmaları ilə əncam tapa bilməz, bəlkə əməldə belə olmalı idi ki, xəlqin istədiyi əmələ gəlsin. Biz təşkilat üzərilə dövləti təşkil verib vilayət və bölük əncümənləri vasitəsi ilə idarə işlərində maliyyə və səhiyyə işlərində xəlqə nəzarət etməyə imkan verdik.

İkincisi bələdiyyələr məsələsidir. Geçən dövrədə şəhridari əncümənləri dövlət təşkilatına təbdil olub, bələdiyyə rəisi dövlət tərəfindən tə'yin olurdu. Zahirsazlıq üçün ona əncümən adi qoymuşdular. Biz xəlqi müstəqim surətdə bu əncüməni seçib və bələdiyyə işlərində dəxalət etməsinə imkan verdik. Əlbəttə bu taza bir işdir. Bir millət lazimdir ki, düzgün surətdə çalışsın və biz qəti surətdə bunu edəbiləcəyik. Mən yadıma gəlir ki, (-ağayi Yekani buradadır ya xeyr?) geçən il bayramdan qabaq «Xoya» getmişdim. Bələdiyyə süpürlərinin paltarı yox idi və aylıq da almamişdilar, istəyirdilər şəhərin küçələrində olan ağacların başını kəsib və satmaqla onların aylıqlarını təəmin etsinlər, mən indi başucalıqla deyə bilərəm ki, bələdiyyənin işi o qədər yaxşılaşıb, nə inki hüquqlarını da verirlər bəlkə şəhərin içərisində də islahat başlanıbdır.

Mərağa şəhəri iranın məşhur şəhəri hesab olunmayıb, demək olar, mütəvəssit şəhərlərindəndir və mütərəqqi şəhər dəyildir. Bununla bərabər Mərağada bələdiyyə əncüməni mali vəziyətin yaxşılığına istinadən təsmim tutub ki, bir dövlət teatrısı bina etsin. Bu çox əhəmmiyyətli bir işdir, çünki İran hökütməti indiyə qədər hətta Tehranda dövlət teatrısı əmələ gətirə bilməyibdir. Lakin indi xəlq, əncüməni öz evi və öz ailəsi bilir. Miyandabda bələdiyyə Urupa üsulu ilə böyük bir hamam düzəltmək istəyir. Bu fikir biz və məclis onlara verməmişik, xəlq özü ehsas edir ki, burada hamam məsələsi müşgüldür, gərək müasir bir şəkildə bu məsələni islah və həll etmək. Əlbəttə bu kimi işlər

asan işlər dəyildir, belə bir hamam neçə min tümənə, şayəd 80-90 min tümənə başaglən bir işdir. Bu da Miyandab üçün böyük bir puldur.

Təbrizdə bələdiyyəni təhvil alanda oranın sandığında pul yox idi. Lakin indi biz bacara biləcəyik ki, yaxın zəmanda Təbrizdə su lüləkeşliyi əmələ gətirib və xiyabanlarımızı asfalt edək. Biz onların vəsilələrini də almışıq. Təbriz birincı İran şəhəridir ki, onda su lüləkeşliyi olur. Mən demək istəyirəm ki, hökümətin xəlqə yaxınlaşmasının nəticəsi və mənfəəti budur. Hələ Azərbaycanda əncümənlər məsələsi tazadır, lakin buna baxmayaraq çox az bir yer vardır ki, orada əncümən təşkil verməyə müvəffəq olmamışıq. Çünki indi bilirsiniz ki qışdır, soyuqdur, gedib-gəlmə vəsilələri də yoxdur. Hələ indi də Əhərdən nümayəndələr gələndə şayəd at vəsiləsi ilə gəlibdir, indi əncümən təşkilati qurulub və tərhi də vicuda gəlibdir. Onu yavaş-yavaş münəzzəm hala salmaq lazimdir. Mən fikir edirəm ki, üç-dörd ay bundan artıq iş görmək olmaz və əlbəttə möhtərəm nümayəndələrin və dövlət işçylərinin fəaliyyətini və hüsn niyyəti üzərində bu nəticələr əldə edilibdir, ondan sonra bəxşdarlıq və fərmandarlıqdır. Əlbəttə onu bu tezlikdə müntəzəm bir şəkilə salmaq olmazdi. Dövlət məmurlarının içərisində hənuz aşina olmayamlarımız az dəyildir. Mən, mənimlə həmkarlıq edən vəzirlərə mükərrər demişəm ki, biz divanxana qurmuruq, bəlkə idarələrimiz qanuni icra etmək üçündür. Fərmandarlarımız da gərək qanunun naziri və mücrisi olsunlar. Amma bu cür adamlar ki, bunu layiqincə başa düşsünlər çox azdır. Çünki köhnələr başa düşmürlər, tazalar da idarə işlərinə aşina dəyillər. Ona görə də idarələrdə bəəzi yerlərdə köhnə adamlar və bəəzi yerlərdə də taza adamlar layiqincə məqsudumuzu icra edə bilmirlər. Bizim ümidimiz budur ki, gələn dövrədə bəxşdar, dehdar və kədxudaları öz idealımız üzərilə tərbiyət edib və iş başına qoyacayıq, bəəzi mütərəqqi yerlərdə dövlət işçiləri tərbiyət etmək üçün müəssisələr açılır, lakin indi bu işdən ötrü bizdə müşgülat çoxdur. Buna görə dir ki, indi biz inandığımız adamı iş başına qoyuruq. Çox yerlərdə görürsən ki, o işçilər bir para işlərdə vəzirə müraciət etmək yerinə firqəyə müraciə edir, ya inki firqəyə müraciə etmək yerinə hökümətə müraciə edir.

Mürur zəman lazimdir ki, biz idarə işçilərimizi başa salaq ki, Demokrat Firqəsi siyasi bir rəhbərdir, gərək onun dediyi sözə qulaq asaq və lakin Hökümət işi başqa bir işdir və gərək bu ikisi qarışılmasın. Məsələn çox vəqt olur ki, bir işçi mənə mərbut olmayan işlərdə on dana teleqraf biri-birinin dalınca mənə göndərir. Mən məzəmmət etmirəm və demək istəyirəm ki, xəlq hənuz Milli Hökümətin həqiqi məənasına pey aparmayıbdır. Gərək xəlqi mürur zəmanla hazırlamaq və onları tərbiyə etmək. Əlbəttə məsəldə münaqişə yoxdur, bu iş bir vəhşi atı tutub minmək və ya işə salmaq kimi dir. Adamı ata təşbeh etmək olmaz, amma mən bunu demək istəyirəm ki, gərək taza adamları işə alışdıraq. Amma bu bir gün və ya iki gündə olan bir iş dəyildir. Siyasi cəhətdən əlavə, tə’lim və tərbiyət məsələsinin də burada dəxaləti vardır. Biz min cür çətinliklərə baxmayaraq bu az zəmanda

yenə də bir qədər işçi tərbiyət edə bilmişik. Biz ümid edirik ki, onlar tez bir zəmanda demokratik vəziyətə aşina olacaqlar, çünki niyyət xalis olub, xəlqə xidmət etmək fikiri olursa, əvvəl dəfədə onlar iştibah etsələr də, onlar axırda həqiqəti tapacaqlar.

Hökümət quruluşundan sonra əncümən təşkili, bəxşdarları və fərmandarları ictimai adamlar tərbiyət etmək ilə yavaş-yavaş xəlqi Milli Hökümətə yaxınlaşdıra biləcək.

Bununla əlaqədar olan məsələlərdən birisi də əmniyyət məsələsidir. Biz əvvəlindən demişdik ki, var qüvvəmizlə çalışacayıq ki, xəlqin mali, cani, namusi hifz olsun, çünki əmniyyət olmadıqda bizim heç bir tədbirimiz nəticə verməyəcək idi. Buna görə Milli Hökümət təşkilində hamımız çalışdıq ki, əmniyyət olduğu kimi təəmin olsun, mən kənarlarda kəndlilərlə danışırdım, hətta çoxusu məni tanımırdı ki, kiməm və əmnitdən razılıq edirdilər. Hətta mərağada bir para adamlar deyirdilər ki, dastanlarda deyilən kimi əmniyyət o qədər yaxşı olmuşdur ki, gərək gecələr dükanları açıq qəviaq ta xəlq görsün ki, bu iş əfsanə dəyildir, bəlkə həqiqətdir. Biz Milli Höküməti əsas əmniyyət üçün qurmuşuq və əmniyyətlə isbat edə bilərik ki, düşmənlərimizin əvvəldə bizə dedikləri sözlər ki, Azərbaycan nehzətini əmələ gətirənlər oğrudurlar, canidirlər, yalançıdırlar, biz bunu da isbat etdik və əməldə də göstərdik ki, əmniyyət icad etmək və xəlqi rahatlığa çatdırmaq olar.

Əlbəttə nəvaqis çoxdur, tək-tək fədailərimiz Firqə üzvlərimiz və idarələrimizədə bir para nüqsanlar vardır. Qoy bəəzi yoldaşlarımız bilsin ki, hər kəs öz günahının cəvabını şəxsən verməlidir.

Biz Əhərdə iyirmi bəlkə qırx il quldurluq eləin Səmədxan və Əbdullaxanları mücazat etdik, xəlq bizi alqışladı, bildi ki, Milli Hökümət onun rahatlığı üçün çalışır, seyid Ziya ruznamələri Qarnı- yırtıq Kazıma şəhid rah azadi adı qoydularsa xəlq onlara güldü.

Milli Hökümətimizədə bu cür adamlara həyat ola bilməz. Gərək onlar qanun müqabilində çox möhkəm bir surətdə mühakimə olsunlar. Hər kəs öz cürmünün mücazatını gərək çəksin. Ayri bir adam onun mücazatını çəkəbilməz, oğul dədənin cürmü ilə mücazat olmaz. Biz birini mücrüm olduğu surətdə mücazat ediriksə lakin oğlunu tərbiyə etəməliyik.

Gərək məclis nümayəndələri vilayəti və bölük əncümənləri vasitəsi ilə onlara bildirsin ki, Milli Hökümətdə bir adamın bir şahisini qanunsuz almaq olmaz. Biz azadlıq və xəlq düşmənlərinin mallarını müsadirə edirdik. Əlbəttə azadlıq əleyhinə olan adamlar gərək mətrud olsunlar, lakin bu qanun mucibincə və müəyyən olunmuş komision vasitəsi ilə əməl olunur və onların malları müsadirə və dövlət üçün yardım olur və əlbəttə bu mallar nə Həsən, nə Hüsen, nə Cə’fər, nə Təğiyə dəyil bəlkə xəlq yolunda məsrəf olmalıdır.

Mümkündür ittifaq düşsün ki, tək-tək adamlar müsadirə olunan mallardan istifadə etmiş olsunlar, lakin bu çox nadirdir. O işləri görənlər şədid surətdə mücazat olmalıdırlar, onların dostluğu ayı dostluğudur və bizə düşmənlikdir. Gərək kamilən təəmin-qəzai olsun, tək-tək adamlarda belə işlər görmüş olsalar da gərək Məclis Millidə onların qabağı alınsın. Qoy xəlq azad yaşasın, xəlq nə qədər azad yaşarsa daha artıq hökümətimizin dalında durar. Lakin belə olmadıqda təşkilatımız tezliklə aradan gedər. Biz gərək xəlqin e'timadını özümüzə cəlb edək ki, xəlq heç təsəvvür etməsin ki, Demokrat Firqəsində və Milli Hökümət idarələrində pis iş görən adam ola bilər, bu fəlsəfələr havadan dəyil min illərlə imtahan olunubdur, hər yerdə qanun var yaşayış var, hər yerdə zülm var istərsə orada olan dövlətin ünvani demokrat istərsə mürtəce' adı ilə adlansın, insanlar səadətə yetişə bilməzlər, Milli Hökümət bu işə böyük əhəmmiyyət verir.

Bizim Milli Dövlətimiz əmniyyət cəhətindən çox işlər görüb. Fikir edirəm ki, şəhər əmniyyəti və ətrafdaki əmniyyət az-çox yaxşılaşıbdır. Keçən hökümətlərdə xəlqin əksəriyyətini təşkil verən kəndlilər üçün heç cür cani və mali təzmin yox idi, bunlar nə tək oğru və quldurlar bəlkə dövlət məmurları və jandarmlar tərəfindən də təziyiq olunurdular.

Milli Hökümət zəmanında heçvəqt bir məmur qanunsuz birinin evinə gedə bilməz, belə işlər görünursə get-gedə qabağı alınacaqdır.

Geçən zəman kəndlilər bir təmiz paltarlı görürdüsə özünü gizlətmək istəyirdi. Lakin indi belə dəyil. Onlar başlarını yuxarı tuturlar. İndi kamil əmniyyət olunubdu. İndi qaçaq-quldurluğun qabağı alınıbdır.

Düşmən nə qədər çalışırsa ki, bizimlə Kürdustan xəlqinin münasibatını bulandırsın, leikən biz bunun qabağını alırıq və həqqən Kürdustan Firqəçiləri də dostluğa çalışırlar. Bizimlə Kürdlər arasında ixtilaf salmağa çalışanların pis hərəkətləri də mə'lum oldu ki, «Ərfə'» əlilə olub. Bir iddə Marağada və Çardoluda Kürd paltarında təchiz olunmuşdur və bə'dən Miyanada və Marağa hüdudu arasında 300-nəfər bizim əleyhimizə təchiz olunmuşdur, biz tezliklə onları aradan aparıb az zəmanda fədailərimizin xidməti sayəsində sadə bir surətdə onları bərtərəf etməyə müvəffəq olduq və bu azərbaycanda görünməyən əhəmmiyyətli bir işlərdəndir. İndi Əhər və Marağa ətrafında Milli Dövlətə nisbət müxalif heç bir hərəkət yoxdur. Ərdəbil və Germi mahallarında bəəzi antiriklər olmuşdu, biz onu da aradan aparmışıq. xəlqin günahsız uşağının başını kəsən hökümətə heç kim tərəfdar olmaz. Ədalət və qanun düzgün surətdə icra olunmalıdır.

Sonra mən istəyirdim bunu deyəm ki, dövlət quruluşundan sonra əmniyyət məsələsində xəlqimiz köhnə jandarmları aradan aparıb və qanuni nəzmiyyə təşkilati vicuda gətirmişik. Ümidvarıq

ki, bir-iki aya qədər nəzmiyyənin bu təşkilati çox münəzzəm bir hala düşəcək və jandarm təşkilatından əsər qalmayacaqdır.

Sonra iqtisad və maliyyə mövzuudur. Milli Hökümət vicuda gəldikdən üç ay qabaq biz sadə bir tədbirlər görmüş idik ki, Hökümət dyişdikdə borca ya əanə yığmağa məcbur olmayaq. Geçən inqilablarda çox ittifaq düşmüşdü ki, inqilabi əmələ gətirənlər məcbur olmüşdular mütəmməvillərdən böyük əanələr yığsınlar. Biz bankları tutmalı idik, lakin biz əgər bir az əcələ edəydik mümkün idi ki, 21-Azərdə Milli təşkilatımızı qurmağa müvəffəq ola bilməyəidik. Çünki Tehran çalışırdı ki, bizi təhrik və əsəbani etsin və iş bitməmişdən bizi boğsun. Ona görə də biz bankları tez tuta bilmədik və bir həftə 21-Azərə qalmış tutduq.

Biz bankları işğal edəndən sonra mə'lum oldu ki, Tehran Höküməti anlamazlıqdan ya əmdi surətdə uzun müddətdən bəri Təbriz bankına bir şahı da olsa pul göndərməmişdir, bəlkə əvəzində həvalə göndərmişdir. Təbriz bankı da özü əskinas çap etmir ki, dövlət işçilərinə versin, bəlkə tacirlər və başqa adamlar banka e'tibar edib qoyduqları pulları dövlət işçilərinə xərc edirdi. Buradan çıxan maliyatlar Tehrana göndərilib və 14- milion tümən pərdaxti Tehrandan ancaq həvalə göndərilibdir.

Banki təhvil aldığımız zəman iki milion iki yüz tümən dövlət bankında və yarım milion da ayrı banklarda var idi. Müqabilində 15-milion tümən xəlqə borclu idi. Bundan başqa biz məcbur idik ki, əqəllən dövlət işçilərinin Azər hüququnu verək və bu hüquq da 3-miliondan artıq olurdu, demək gərək maliyat yığıb onlara və xəlqin borclarına verə idik. Milli Hökümət hər şeidən artıq iqtisada, pula baxıbdır.

İndi demək olar ki, dünyada pul məsələsi insan bədənində olan qan kimi dir. Bir ictimada pul olmazsa mümkündür ki o ictima süqut etsin. Buna görə də biz pul barəsində aşağıda göstərəcəyim ciddi təbirləri götürdük.

Əvvələn biz qədağan etdik ki: Banklar müvəqqəti halda adamlara pul versinlər, çünki bir para adamlar banklardan pul alıb Tehrana apardılar və iki milion mövcud olan pul da bu tərtib ilə kifayət etəmzdi. Əvvəldə belə nəzərə gəlirdi ki bazarda böyük böhran əmələ gələcəkdir. Mən işdə mütaliə etmişəm, mənimlə işləyən vəzirlər biirlər ki, mən əvvəl bank, maliyyə, iqtisad və sonra başqa işlərə baxıram. İndi ola bilir ki, özləri buna e'tiraf etməsinlər lakin bizim bu işimiz ba`is oldu ki, azərbaycanda tacirlər vərşikəst olmadılar. Əlhəmdövlillah bizdə vərşikəst olan yoxdur. Biz əgər o vəqt iki milion tüməni paylasaydıq, xəlq banka tökülüb bir hərc-mərc əmələ gəlirdi. Lakin tədbirlərimiz nəticəsində iki milion mövcud əvəzində indi biz iki miliondan yuxarı və bəlkə də 3-milion xəlqə tələbləri babətindən vermişik. Maliyatdan yüzdə iyirmi beş Tehrana vermək əvəzinə onu

tələbkarlara veririk. Biz bir milion pəsəndaz babətindən xəlqə vermişik. Əlbəttə bu mürur zəmanla olubdur, indi biz hiss edirik ki, mali vəziyətimiz yaxşılaşır. İndi bələdiyyə idarələrində bir inqilab kimi vicuda gəlibdir. Əlbəttə bu inqilab fəqət dövlətin mali tədbirləri vəsiləsi ilə olunan bir işdir. İndi bələdiyyə vəziyəti də düzəlir və bütün azərbaycanda yavaş-yavaş bələdiyyələr fəlakət halından qurtarırlar.

Bəs deməк ki, mali tədbirlərimiz bankları və başqa idari işlrimizi də diriltdi.

Gəlirdən vergi maliyatına gəldikdə, bu maliyat düzgün qurulsaydı adilanə bir iş idi. Müharibə zəmanında bir nəfər malı alırdı, sabah on bərabər qiymitinə satırdı. Dünyada mali işdə işləyənlər belə məsləhət görmüş idilər ki, da'va zəmanında bu qanuni qoysunlar və bir adam ki, bir gündə, cüzi bir maamilədə 10- min tüməni dövlətə verməli olsun ki, dövlət qüvvətlənsin, məəmurlarına və başqa idari işlərinə xərc olsun.

Əlbəttə ticarətdə yüzdə doqquz yüz adilanə dəyildir. Taza gəlirdən vergi maliyati qanuni qoyulanda doktor Milisponun nəzəri şayəd əvvəl dərəcədə düzgün idi, lakin Tehran məclisini təşkil verənlər böyük tacirlər və mütəməvillərdən idilər ki, böyük maliyatlar əlaqə tuturdu. Buna görə onlar işkallar çıxartdılar və maliyatın nəqşəsini bir ayrı yola saldılar ki, nəticədə qarma-qarışıq bir şəkilə düşdü və belə oldu ki, tacirlər dəftərlərini dəyişdilər və bir ticarətxanadan mühüm ticarətxana vicuda gətirdilər. Burada böyük tacirlərimiz vardır ki, böyük qazancları olmuşdu və indi and içirlər ki, ayidatımız yoxdur. Lakin əməldə hamı bilir və görənür ki, onların nə qədər ayidatlari var imiş. Buna görə maliyat idarələri də çox maliyat visul edə bilmirdilər. Təşxis verilən maliyatın qabağına bir sıfır qoyurdular ta bəlkə bir şey visul edə bilsinlər və beləliklə hərc-mərc tövlid olurdu.

Mə’lumdur ki, Milli Hökümət təşkil tapdıqda bizim mali mütəxəssislərimiz yox idi ki, maliyati təşxis verməк üçün bir komision seçilsin. Tehran məclisi sərvətmənd adamlardan təşkil olunduğuna görə orada elə bir üsul götürmüşdülər ki, illərlə maliyat visul etmək olmazdı. Məsələn əgər bir adam təşxis verilən maliyata e’tiraz etsə idi, gərək ali komısionda ona rəsidəlik olaydı ki, bu komision da Tehranda dir. Beləliklə böyük tacirlər və böyük maliyatlara şamıl olanlar ki, özləri bu qanunu geçirmişdilər neçə illər idi ki, bu qanundan istifadə edib maliyatlarını təəxirə salırdılar.

Biz müntəzir ola bilməz idik ki, Tehran ali komisionu illər boyu  e’tirazlara baxmayaraq maliyat komisionunu süründürsün və bizi iqtisadi fışara salsın. Buna görə bu işi məhəlli şəraitə uyğun bir tərzdə icra etməyə qərar verdik. Adilanə surətdə biz bir qədər maliyat visoluna da müvəffəq olduq ki, maliyat icrasına e’tirazları olanlar o məhkəməyə müraciə etsinlər və bu məhkəmədə rəsidəlik

olunduqdan sonra, artıq maliyat alınmış olsa sahiblərinə qaytarılsın. Biz beləliklə Tehran hökümətinin maliyat visolunda öz əlilə yaratdığı işkalı ortadan götürmüş olduq.

Biz qeyri müstəqim işlərlə qoyunçuların qabağını almaq, qənd-şəkərin qiymətini adilanə bir hala salmaqla iqtisad işinə kömək etdik və bu malların qiymətini mütəadil bir şəkilə saldıq. Bu işimizin hətta Tehranın bazarında da şədid təəsiri oldu.

Əlbəttə bu mallardan çıxan sərmayanı ayrı yerə xərc edə bilməzdik. Çünki onda mövcudi pul da aradan gedib, dövlətə zərər olardı. Məsələn gərək idi ki, çay alınıb yerinə qoyulaydı.

Biz qələt qanun-istixdami aradan apardıq. Geçən zəmanda qələt qanun-istixdam üsuli ilə məsələn bir nəfər zabıt böyük bir hüquq alırdı. Müqabilində bir nəfər təhsil etmiş iki yüz tümən hüquqla istixdam olunurdu. Ona görə biz ləyaqətli olmayan adamların hüquqların azaltdıq və öz yoldaşlarımıza da dedik ki, az hüquq alsınlar. Əlbəttə müharibə zəmanında qoyulan hüquqlar indi ola bilməz və bu iş də qeyri adilanə dəyildir. Çünki səth-zindəganlıq aşağı gəlirdi. Məsələn bir adamın otuz tümən hüququ və yetmiş tümən mədəd xərc və fövqəladəsi idi, indi ki, səth-zindəganlıq aşağı düşüb və yüzdə qırx cinslər aşağı gəlir, demək olar ki, bizim bu işimiz kamilən adilanə dir. İndi məsələn Təbrizdə yağın qiməti 25 tüməndir, dər-surətiki, geçən illərdə altmış tümən idi. İki qıralıq yumurta indi 12-şahıya satılır. İndi hər parça ki bazarda məsələn on tümənə satılırdı dövlət mağazlarında 3-tümənə satılır. Biz da'va zəmanının hüququnu versə idik onda həm adilanə olmazdı həm də xəlqi soymağa məcbur idik, həm də səth-zindəganlıq yuxarı gedərdi.

Sonra böyük bədbəxtlik ki, iranın başında vardır bu dur ki, işçini işə görə qoymurdylar və qədimdən Suedlilər və Beljiklilər necə üsul qoymuşlarsa elə də qalırdı. Məsələn bizim idarələrimizədə 10 nəfər adama 12 nəfər peşxidmət işləyir. Sizin nəzərizə belə gəlməsin ki, peşxidmətin hüququ az olub, dövlət büdcəsində elə təəsiri yoxdur. Lakin Azərbaycan dəvairində peşxidmətlərin iddəsi iki mindən ziyadə dir. Ayda onların hüquqi iki yüzmin tümən olur. Biz bu pulla yaxşı qoşun saxlaya bilərik. Əlbəttə məqsudumuz peşxidmətlərilə müxalifət etmək dəyildir. Lakin idanin hər bir kiçik işi ilə bir şö’bə ayırmaq ki, bu şö’bələr ilin başında şayəd yüzmin tümənlik dövlətə nəf'i yoxdur, lakin demək olar ki, işqüranlar qabaqcadan bunu fikir etməyiblər.

Biz birincı dəfə təmam idari təşkilati dəyişə bilməzdik. Buna görə də bir az işçilərin iddəsini təxfif verdik və bir qədərdə əvvəl üç ayda o adamın hüquqların da ki, vicudu zaid dir azaltdıq. İndi isə bekarlığın qabağını saxlamaq məcburiyyətindəyik. Bu adamlara başqa yerlərdə müfid işlər verəcəyik. Bununla bərabər naçarıq ki, onları bir müddət də idarələrdə saxlayıb küçələrə tökməkdən pərhiz edək.

Bu ilki büdcəmizdə bir nəfər də idarə işçisini idarədən çıxarılmasına yol verməmişik. Bərəks bəəzi taza müəssisələr təşkil etməklə işçilərimizin iddəsini artırmışıq.

İndi hesab bizim əlimizdə vardır, büdcəmiz də tənzim olunubdur. Hamınız bilirsiniz ki, İran dövləti neçə ildir ki, kamil bir büdcə təsvib edə bilməmişdir, ancaq bir aylıq və iki aylıq naqis büdcə məclisə gətirmişdir. Lakin biz bu dövrədə kamil büdcəmizi Məclis Millimizə gətirmişik. Hələ bu gərək bundan da tez məclisə verilə idi, lakin təxirinə səbəb bir para illətlər vardır ki, onları sizə göstərəcəyəm.

Biz gəlirdən vergi maliyatını dəyişdirdik, çünki bilirdik ki, indi geçən illər kimi istifadə etmək olmaz və adi bir halda bundan istifadə etmək çətindir və ancaq güclü tacirlər bazarda istifadə edə bilərlər. Biz bu üç ayin içində mali cəhətdən işlərə müsəllət olduqca yüzmin tümən fəqət Miyana və Zəncan dəmir yol idarəsinə verdik. Bunu verməsə idik də olmazdı. İndi bu cəhətdən Milli Hökümətin vəziyət-malisi yaxşıdır.

Tədbirin birisi də budur ki, bir milion xəzanə qəbizi çap etmişik. Bundan ötrüdür ki, cinsi ucuz verək. Məsələn on tümən cins müqabilində doqquz tümən alınır. Bunun faydası budur ki, əvvələn xəlqdən bir milion tümən borc etməyə məcbur olmadıq, əlbəttə bu pul borc olsaydı istehlak olunacaq idi. Böyük miqdar da gərək faiz verilə idi. Bundan başqa cins də satdıq və bu bir milion ilin axırına qədər neçə dəfə dolanar və neçə bərabər olar.

Bu gün ki ayin on altısıy dir mali cəhətdən daha vəhşətimiz yoxdur. Biz bilirik ki, pulumuz var. Bu böyük bir müvəffəqiyyətdir ki, büdcəmizi tənzim etmişik və kəsr-büdcəmiz də yoxdur. Bu iş hətta Avrupa dövlətlərində də çox çətindir. Bizim büdcəmiz keçmiş dövlətin tərəfindən yazılan büdcədən də neçə qat artıqdır. Büdcəmizdə min nəfər artıq işçi istixdam etmişik, biz idarə işçilərini saxlırıq ta iş tapıldıqda onlara başqa iş verək. Əlbəttə bu iş mali siyasətimizin düzgünlüyü nəticəsində dir.

**Ağayi Şəbistəri:** On beş dəqiqə tənəffüs verilir.

Tənəffüsdən sora:

**Ağayi Şəbistəri:** Ağayi Piyşəvəri öz bəyanatına idamə versinlər!

**Ağayi Piyşəvəri:** Bu məsələdən sonra fikirimizi məşğul edən iqtisad məsələsidir. Biz hələ fikir edirdik ki, Milli Hökümət təşkilindən sonra azərbaycanda böyük ehtikarlər başlanıb, mümkündür ki, azuqə az olandan sonra müxaliflərimizin təbliğatlarının nəticəsində vəhşətə düşmümş tacirlər xaricə azuqə aparlar və özlərinə sərmaya edələr. Bu qorxu Hökümət Millidən qabaq da var idi. Ona görə biz həmişə şəhərin azuqəsini kontrol edirdək. Firqənin inanılmışları iqtisad işlərini neçə müddət təəmin

edirdilər. Firqənin təşkilat yolu ilə Dirəxşaninin şəhər anbarlarından nizamiyyyə azuqə intiqal verilməsinin qabağı alınmasına çalışırdıq. Biz bilirdik ki, siyasi narazılıqlar, böhranlar əğləb çörək məsələsindən dir.

Biz çalışdıq azuqənin yolunu azərbaycandan xaricə məsdud edək. Bilirdik ki, bu iş bəəzi əşxasa zərərlidir. Lakin qoy beş nəfər- on nəfər zərər görsün, əhalı vəhşətə düşməsin və Milli Hökümətdən bahalıq görməsin. Necəki dedim bu işdən biz yaxşı nəticə aldıq, çörək və sair şeilər ucuzlandı, lakin tehranda əksinə oldu, hətta dedilər ki, Azərbaycan azuqə vermir, aclıq olur. Dərsurtik, bu fəriadlarla o birisi tərəfdən çalışırdı ki, mali böhranlar bizi boğsun və pullarımızı çəkib aparsın. Mütəvəhhiş olan varı adamlar pulları aparırdılar, bizi fışarda qoymaq istəyirdilər. Bu iş səbəb oldu ki, bazarda cinslər daha ucuz olsun. xəlqin əksəriyyəti ucuzluqdan razi olurdu, idarə işçiləri, zəhmətkeş və kargərlər razi qalırdılar. Bu uzun müddət dəvam edə bilməzdi. Məhsolun bahalığı pis olduğu kimi, həddən artıq ucuzluğu da belə zərərlidir. Gərək kəndli öz işinə ürəyi qızsın və məhsolunu adilanə qimətdə sata bilsin. Biz cür-bəcür bunun qabağın aldıq.

Birincisi sadirata əvariz tə’yin etmək məsələsi idi, çünki cins azərbaycandan xaricə getsə idi, birdən səri' surətdə bahalıq tövlid olurdu. Buna görə çoxlu müzakirədən sonra inqilabi bir tədbir götürdük və belə qərar verdik ki, sadirat müqabilində əvariz alınsın. Azərbaycandan gedən cinslər bir miqdar kirayə və bir miqdar da nəf' üstünə gəlir və beləliklə bu cinslər həmişə tehranda ucuz olur.

Biz əvvəl xüşgəbarın sadir olmasına icazə verdik. Əvvəldə biz sadirata icazə vermirdik, lakin indi vermişik. Bununla bərabər yenə layiqi qədər sadir olunmur. Demək olar ki, bu vəziyət dünya vəziyətinə bağlıdır. Gələcəkdə biz qiymətli cislərimizi sadir etməyə yol tapacayıq. Ümumiyyətlə demək olar ki, İran dövlətinin xarici və ticarəti siyasəti yoxdur. Tehran Höküməti xaricdən gələn malların qabağını almaq və öz mallarına dünyada bazar tapmaq bacarmır. İndi məsələn tikili paltar və otomobil sel kimi İran bazarına tökülür, dəstə-dəstə tacirləri vərşiksət edir. Xaricdən gələn köhnə paltarları geymək bizə təhqir və tövhindir. Biz onları geyə bilmərik, İran Höküməti özü bilər nə edərsə etsin. Lakin biz öz qiymətli cinslərimizi sadir edib və əvəzində bizə lazim olan şeilərdən məsələn lastik, şəhərlərimizin abadlığı üçün lülə, asfalt və başqa şeilər varid edəcəyik. İran Dövləti özünə lazim olan şeyləri ehtiyacı qədər varid edə bilmirdi və bilmir. Çünki Tehran işləri oğrular əlində dir. Bir tacir yüzmin tümən verir varidat icazəsi alır, beləliklə mən deyəbilərəm ki, biz xarici ticarət məsələsində də müsəllət olmüşuq.

Ümid edirəm belə bir möhkəm iqtisadi sistemə malik olan bir Hökümət tərəqqi edər və hər bir müşgülata fayıq gəlir. Müharibə zəmani təchiyzat və silah qayıran karxanalar, indi hamısı ticarətdən ötrü işləyir, bu xətərnakdır. Bunlar xəlqin qanını soracaq. İndi bunun nəticəsində bizim

sənətkarlarımızdan mühüm bir hissəsi bekar qalmağa məcbur olmuşdur. Əgər möhkəm iqtisadi tədbirlər görə bilməzsək sənətkarlarımız aradan gedər. Bekarlıq dünyanı təhdid edən bir böyük bəladır. Bundan böyük etisablar, böyük iqtisadi böhranlar əmələ gəlir. Əlbəttə ölkənin dövrəsinə həsar çəkmək olmaz. Lakin varidat və sadirat işlərinə belə tərtib vermək olar ki, istədiyimiz şeyi alıb və istəmədiyimizi almayaq. Necəki, Sovet ölkəsində beş illik nəqşələr üzrə bu çətinlikləri aradan aparırlar.

Geçən dövrədə bizdə ehsaiyyə mövzui çox pis şəkildə idi. Məsələn bəəzi evlərə neçə dana artıq sicil tapılırdı. Hələ indi də vardır. İndi biz düzgün ehsaiyyə təhiyə edirik. Bilirik ki, məsələn xaricdən gətirilən kibritə ehtiyacımız yoxdur və bəlkə karxanalarımızda təhiyə edilən artıq kibrtə gərək bazar tapaq. Birdə bunu bilməliyik ki, Milli Hökümət divanxana dəyil, onun vəzifəsi xəlqin həyatini təəmin etmək üçün yollar tapmaqdan ibarətdir. Böhran selinin qabağını almaq bu vəzifənin gündəlik iycabatından ən mühümmü hesab oluna bilir. Biz çalışırıq ki, ticarət sahəsində öz məhsulumuzu xaricə yetirəbilək və o şey ki ticarətimizə zərərlidir, onun varid olmasından cilovgirlik edək. Biz bu yolda çox müvəffəqiyyətlərə nail olmuşuq, lakin hələ bəəzi şeilərdə həddəksər istifadəni edə bilmirik. Mümkündür ki, bir nəfər 3-4 otomobili olsun və biyürzə olsun  və onlardan heçgünə istifadə edə bilməsin , lakin 3-4 qatıri olan bir adam eliyə bilə o qatırlardan kifayət qədər istifadə edib, əvvələki şəxsdən qabağa düşsün. Ağayi Rəsuli ilə Miyandab qənd karxanasına getdikdə, İran irtica'i hökümətinin heçvəqt özünün əlində olan imkanlardan xəlqin asayişi üçün lazimi istifadə fikirində olmadığını yenə də gördüm, gördüm ki, 7-dana traktor işsiz və istifadəsiz halda saxlanıbdır. Bildiyimizə görə hər traktor iki hektar yer şürə bilər, mən gördüm ki, bu təraktorları kamionu çaydan çıxarmaq üçün saxlayıblar, halbuki, bu təraktorlar hər birisi 20-min tümənə başa gəlir və böyük bir sərvətdir.

Biz gərək çalışaq ki iqtisadi imkanlardan yaxşı istifadə olunsun. Məsələn çox yerdə çaylar vardır ki, əgər sədd bağlana onlardan böyük istifadələr oluna bilər. Biz gərək sən'əti fəlahət əmələ gətirək. Məsələn pambığ, barama, kətan, qənd çuğunduru yetiərək. Bizim iqtisadi və ticarəti işçimiz az dir. Əğləb dövlət məmurları firqəvi və siyasi işçi dirlər, gərək mürur zəmanla bu işçilər iqtisadi və ticarəti işlərə aşina ola bilsinlər, bizim iqtisadi tədbirlərimizdən ən mühümmi yer bölgüsüdür. Bu vasitə ilə bir milion kəndli yer sahibi olacaqlar.

Əlbəttə bu tezliklə o yerlərdən kifayət qədər istifadə etmək olmaz . Lakin biz inanırıq ki, dövlət fəlahət bankını qüvvətləndirib, dörd-beş ildən sonra fəlahət məhsullarımızın yüz qat artmasına imkan verəcəkdir. Yer bölgüsü barəsində indi olabilər ki, hampa və qara arasında ixtilaf olsun, lakin yerli məəmurlara dəstur verilir ki, onları biri-birilə yaxınlaşdırmağa çalışsınlar ta biri-birinə kömək etsinlər ki, qara ayağa qalxsın və hampa ilə də ixtilaf çıxmasın.

Azərbaycanda yer çoxdur və Azərbaycan cəmaəti də zəhmətkeş və çalışqan bir cəmaətdir. Xalisə yerlərin bölunməsi və yer bölgüsü çox böyük iqtisadi kömək olacaqdır və bundan belə Mazəndaran və başqa yerlərdə olan azərbaycanlılar vətənlərinə qayıdıb, ziraət işinə baxacaqlar. Əlbəttə bu işin siyasi nəticəsi də çox böyükdür. Siyasət ilə iqtisad bir-birinə mərbutdur. Əgər bir hökümət iqtisadi cəhətcə qüvvətlənsə siyasi cəhətcə də qüvvətlənir.

Tehran Höküməti xəlqi qüvvətləndirməkdən qorxur. Mən fikir edirəm ki, xəlqi ac saxlamaqda təəmmüd var idi. Bizim hökümətimiz xəlq höküməti olduğuna görə gərək biz xəlqi ayaqlandıraq. Məsələn gərək belə ola ki, bir nəfər xəlq qoşunları sırasına getdikdə ailəsindən nigaran qalmasın. Leikən ac olduqda o gərək gecə-gündüz maaş fikirində olsun və belə adamdan Fədai və nizami çıxmaz.

Başqa iqtisadi mövzu da sənaye məsələsi dir. Milli Hökümət qurulmadan əvvəl bizim mühüm karxanalarımız tə`til və ya inki tə`til olmaq xətində idi. Biz dörd ayda onların işə saləmasını təəmin etdik. İndi hamısı işləyir. Bu bir mənfəət və mühüm bir işdir. Bu yaxın zəmanda bu karxanalar edə biləcəklər ki, belə parça versinlər ki, mühüm qismət libasımızı təəmin etsin. Bu karxanalar xəyanət və oğurluq nəticəsində batmişdilar. Məsələn yünü beş tümənə alıb və karxanaya on beş tümənə satmişdilar, xəlq səhmlərini bir tümən qızıl pula alımişdilar. Lakin Milli Hökümət qurulmadan qabaq iki qıran pul onlara veririrdilər. İndi o xəyatləri görənlər qaçırlar lakin mücazatdan qaça bilməiəcəklər. Hacı Qulam Corabçi və başqaları öz gördüyü pis işlərin padaşını görəcəklər. Milli Hökümət təşkilindən sonra məsələ sadə bir vəchlə həll olundu.

İndi karxanalarda 400-nəfər işçi 800-nəfərin gördüyü işi görməkde müvəffəq olur. İndi həm keyfiyət həm də miqdar cəhətincə geçən zəmandan çox artıq məhsul gətirirlər. Bu məsələ eyn zəmanda siyasi bir məsələ dir. Sərbazlarımız çox yaxşı tə'limat alırlar, lakin paltarları yox idi. İndi biz onlara paltar verməyə müvəffəq olmüşuq. Biz çalışırıq ki, birinci dərəcədə sən'əti maşın işinə və sonra ikincı dərəcədə əl işlərinə baxaq, amma bu ağır işdir. Dövlət gərək bu çətinliklərə faiq gəlsin və biz faiq gələcəyik.

Bekarların məsələsi bizim üçün ağır yükdür. Biz gərək bunu aradan götürək. Biz buna da tədbirlər görmüşük, yollarımız ki, indi çox pis haldadır, onları düzələtmək üçün iqdam olunur. Məsələn Astara-Ərdəbil, Sayınqala- Myandab, Zəncan-Miyana və Miyana-Təbriz yolları düzəlməlidir, və bu surətdə neçə min əmələ işləyə bilər.

Bağçılıq və ziraət zəmani gəlib çatıbdır. Kəndlilər öz ziraətlərinə gedəcəklər. Bundan başqa bələdiyyə də şəhərin abad olması üçün bir çox əmələ işlədə bilir.

Bizim arzumuz budur ki, işsizlik aradan getsin, bir də çalışırıq ki, işsizlərin siyahısını tutaq. İndi işsizlik dad-fəriadi çoxdur, lakin hələ elə bir ehsaiyyə əldə yoxdur. Bə'zi adamlar vardir ki, ancaq miz başında oturmaq istəyirlər və ayrı işi görməyə hazır dəyillər. Bunlar parazitdirlər. Əlbəttə həqiqi işsizlər vardır ki, karxanalar bağlı olmaq nəticəsində vəziyətləri yaxşı dəyildir.

Başqa məsələlər də ümumiyyətlə Milli Hökümətin dəvam və bəqasi üçündür. Milli Hökümət təəsis olduqda şüarımız əyalət və vilayət əncümənləri ətrafında idi. Lakin əməldə gördük ki, bu Milli həyatimızı təəmin edə bilməiəcəkdir. Biz məcbur olduq ki, Milli Məclis və Milli Hökümət yaraldaq. İndi gərək bu Milli Təşkilati saxlayaq. Çünki bu təşkilat xəlqin ehtiyaci  və istədiyi üzərinə əmələ gəlibdir. xəlq Milli Höküməti özunünkü bilir və onu saxlamağı özünə borc bilir. Əvvəldə bir para muğriz adamlar dedilər ki, güya biz İran Azərbaycanını Şövra Azərbaycanına yapışdırmaq istəyirik ya inki Demokrat Firqəsi Azərbaycanı Sovet hökümətinə satıbdır, lakin biz göstərdik ki, onlar hamısı yalandır. Əməldə də onu isbat etdik. İndi qızıl ordu buradan gedir. Hamı bilir ki, qızıl ordunun vürudi səbəb oldu ki, istibdad höküməti yıxıldı. Buna görə gərək ondan təşəkkür edək ki, Rizaxanın istibdadi onun gələməsilə yıxıldı. Bu da qızıl ordunun bizə olan böyük xidməti dir ki, Milli əsarəti sındırdı. Hələ mən demirəm ki, əgər Almanlar qalib olub azərbaycana gəlsə idilər burada hətta bir evdə qalmazdı. Qızıl ordu İstalinqırad, Moskva, Leninqrad da istibdad qüvvəsini sındırmaqla dünya xəlqləri ilə bərabər xəlqimizin azadlığını təəmin elədi və ölkəmiz qan dəryasına dönməkdən xilas oldu və indi bu ordu gedəndə gərək alqışlarla onu yola salaq. Biz bu müddətdə gördük ki, qızıl ordu çox nəcabət, mətanət və əxlaqla rəftar etdi. Onların rəftar və əxlaqi hamıya sərmşq oldu. Fikir edin əgər arteş-şahənşahi! olsaydı nə işlər çıxardardı! Və bir şəhərə qızıl ordu kimi daxil olsaydı xəlqin başına nə kimi fəlakətlər gətirərdi?

Qızıl ordunun getməsi bizim üçün nagəhani dəyildir. Biz çox gözəl bilirdik ki, o ordu topraq almaq və ya şəhər işğal etməkdən ötrü sərhədlərimizi geçməmişdir. Onun məqsədi dünyani əsarət altına almaq istəyən faşizmin iranda olan asarını rişədən kəsmək idi və buna da iftixarla müvəffəq olubdur. İran xəlqi məxsusən Azərbaycan cəmaəti o ordunun mə'nəvi köməkliyinə həmişə minnətdar qalacaqdır. Biz arzu edirik ki, qızıl ordu həmişə dünya demokratlığının nigəhbanlıq vəzifəsini öhdəsində saxlasın.

Qızıl ordunun getməsini biz mürtəce'lər kimi istiqbal etmirik. Biz onu ehtiram və izzət ilə yola salırıq, irtica' isə onun getməsində özünün əl-qolunun açılmasını axtarır. Biz açıq deyirik ki, qızıl ordunun getəməsilə mürtəce'lər çox da ümidvar olmasınlar. Azərbaycan xəlqi aldığı azadlığı saxlamağa qadir dir. Qızıl ordunun getməsi bizim millətimizin iradəsi ilə əldə edilən azadlığı xələldar etməiəcəkdir. İndi Milli Hökümətimizi gərək saxlayaq. Azərbaycan xəlqi hətta çox az cəmiyəti olsa da azadlıqdan dilfa' edəcəkdir. Buna görə mən sizdən rəy–e'timad istəyirəm, (vəkillər: biz rəy-e'timad

yox canimiz və malımızı da verəcəyik) biz indiyə qədər Milli Azadlığımızı saxlamışıq, bunun birincı zamini Firqə təşkilatımızdır. İndi təbrizdə çox az bir ev vardır ki, ev əhlindən heç olmazsa bir nəfər Demokrat Firqəsindən olmasın, gərək o firqənin rəhbərliyinə e'tiraf edək. Bunun ikincı zamini də bizim Fədailərimizdir. Onlar az bir müddətdə qiyam etdilər və indi də azadlığımızın zamini dirlər. Bizim fədailərimizin tarixi çox yaxın bir tarixdir, məsnui təşkilat dəyildir və onun təşkil tapması geçən hökümətin fişarları nəticəsində olub və indisə bunlar Milli Hökümətimizin dalında durmağa hazırdırlar. Onlar Zəncanda Zülfqari, Ərdəbildə, Əhərdə və başqa yerlərdə olan müxalif dəstələrini əzdilər. İndi biz fədailərimizə imkan verəcəyik ki, kotan və xış dalısında işləyə-işləyə eyn zəmanda tüfəngi əllərindən yerə qoymasınlar. Ta Azərbaycan var Fədai var, çünki o azadlığı qurubdur. Lakin bu təşkilati saxlamaq bir tək fədailərlə olmaz, bizim münəzzəm qoşunumuz da gərək olsun . Biz az bir zəmanda münəzzəm və qüdrətli bir qoşun təşkil etmişik, əgər indi bir nəqsi olsa da tezliklə düzəldəcəyik. Qoşunu və fədaisi olmayan bir Millət heç vəqt azadlığı hifz edə bilməz. Biz hər bir şeidən kəsək, fədailrimizi və qoşunlarımızı qüvvətləndirək.

# Məşrutə Qəhrəmanlarının Mücəssəmələri

Məşrutə qəhrəmanlarının mücəssəmələrinin Təbriz şəhərinin ən alı xiyabanlarında nəsb edilməsi, firqəmizin gördüyü böyük tarixi işlərdən hesab olunur. Məxsusən sərdar Milli Səttarxanın heykəlinin Rizaxan mücəssəməsinin yerində qurulması fövqəladə ciddi və mühüm bir qədəm idi.

Sonrada tarixi bir gündə məşrutə inqilabının qırx birincı ildönümü münasibətilə Salar Milli mücəssəməsinin əncümən əyaləti meydanında bərpa edilməsi, o qədəmi təkmil etdi. Bu iki böyük məşrutəçinin təcdid nami ilə firqəmiz fədakar məşrutəçilərin xeyr-xəlf varisi olduğunu isbat etməklə Firqə əfradına və ümum xəlqə azadlıq yolunda canfəşanlıq edən böyük şəxsiyyətlərin tarixdə tutduqları məqami bildirib, Firqə içərisində rəhbərlərə nisbət əlaqə və məhəbbət yaradılmasını sərəmşq verdi.

Bəşər öz tarixini vicuda gətirdigini kimsə inkar edə bilmədiyi kimi, bu tarixdə şəxsiyyətlərin rolunu da inkar etmək həqiqəti danmaq deməkdir. Başçıların düzgün düşünüb cərəyana düzgün xət-seyr və yol göstərəmələri işin gedişinə artıq dərəcədə müəssir vaqe ola bilər.

Robespierin iştibahları Napolon diktatorluğunu meydana çıxarmaqda böyük Fəransa inqilabını təbii məcrasından döndərdi. Bər-əks böyük İstalinin sağlam düşüncə və düzgün xət-hərəkəti Oktiyabr İnqilabının yanlış məcraya çəkməyə can atan müxaliflərin hazırladıqları öldürücü xətərdən nicat verdi.

Əgər Rizaxan meydana çıxdığı vəqt iranda gündən-günə genişlənməkde olan milli nehzətinin başında düzgün düşüncəli şəxsiyyətlər olsaydi və bu şəxsiyyətlər hər birini əzib bədnam etmək həvəsində bir şəxsin rəhbərliyi altında hərəkət etmiş olsa idilər, Rizaxan 20- il təmam iranda xəlqi əsarət altında saxlaya bilməzdi.

Əgər məşrutə nehzətində Səttarxan daxi başqa məşrutə başçıları kimi mər'ub olub silahını təslim etmiş olsaydı, şayəd qırx il bundan qabaq məşrutə bəsati yığışılıb ortadan getmişdi. Demək şəxsiyyətlərin tarixdə böyük rolu vardır. Və həm onların məəna və təəsiri çox böyükdür. Bizim firqəmizin pişrəfti də çürümüş və zərərli əfkara bir dəfəlik son qoyub özü üçün şaxıs yəəni rəhbər intixab etməsidir. Bu o demək dəyildir ki, Firqə üzvləri və sayir rəhbərlər az iş görmüşlər ya onlara ehtiram lazim dəyildir. Əlbəttə bütün Firqə başçıları hər kəs öz etdiyi xidmət və göstərdiyi fədakarlıq müqabilində hörmət, və sitayişə layiqdir. Lakin bununla belə Firqə rəhbərlərinin rolunu inkar etməklə firqənin başını əzib lidersiz bir cəmiyət halına salmağa imkan vermək olmaz. Dünyada heç bir cəmiyət başçısız, lidersiz işi qabaqdan apara bilməmişdir. Bu cəhətdən dir ki, biz məşrutə inqilabının böyük başçısı olan Sərdar Millinin adını əbədiləşdirməyə iqdam etdik. Salar Milli isə əlbəttə öz növbəsində inqilaba böyük xidmət etdiyi üçün onun adının da əbədilşməsi lazim idi. Bu mövzui daha aydın bir surətdə açıb göstərmək üçün sərdar Milli mücəssəməsi nəsb olunan tarixdə Azəraycan ruznaməsində yazılan məənalı bir məqaləni buraya dərc edirik.

# Unudulmaz Tarixi Bir Gün

Azərbaycanda demokrat firqəsi təşkil tapdıqdan sonra azərbaycanın mərkəzi olan Təbriz şəhəri çox mühüm və tarixi hadisələrin şahidi olmuşdur. Bu hadisələr tək Azərbaycan xəlqinin siyasi həyatinda dəyil bütün İran və şərq ölkələrinin tarixində parlaq bir yer tutacaqdır.

Azərbaycan Demokrat Firqəsi az bir müddətdə geçmiş çürük rejimin izlərini təmamilə aradan aparıb, yeni demokrasi bir üsul və xəlqimiz üçün xoşbəxt bir həyat yaratdı. Cumə günü Ordibehişt ayının 27-də demokrasi hərəkatımız tarixində yeni parlaq bir səhifə açıldı. Tarixlər boyu öz qəhrəmanlıq və rəşadətini isbat etmiş olan xəlqimiz birincı dəfə olaraq yaxın şərq ölkələrində həqiqi demokrasiyə layiq olan şərəfli bir iş əncam verdi. Bu iş qan tökən şahların, xəlqin arzu və ümidlərin at ayaqları altında payəmal edən hökmranların, millətlərin əsarətindən qəhqəhə ilə gülən zalım insanların geçmişdə olduğu kimi sitayiş etməyindən ibarət dəyildir. Bu iş qəzəbkarların parlaq süngülərinin, zəhərli xəncərlərinin mədihəsi dəyildir.

Bu xəlqimizin nifrətini qazanan,, 20-il İran Millətlərini siyasi rüşd və təkamüldən, ictimai həyatdan məhrum edib, millətimizin qanının qimətinə əldə etdiyimiz məşərutiyyəti tə`til edən Rizaxanın mənhus mücəssəməsini millətin qarşısında sərnigün edib, onun yerində nəsb olunmuş odlar ölkəsinin qəhrəman oğlu, tarixi bir simanın, böyük Səttarxanın mücəssəməsinin iftitahi idi. xəlqimiz bu şərəfli iqdamla isbat etdi ki, geçmiş nifrətli rejimin yadigarları bundan sonra təmamilə aradan gedib və onun yerində millətimizin alovlu mübarizələrdə əldə etdiyi azadlıq və demokrasi qanunları hökmsürənlik edəcəkdir.

Bu tarixi gün unudulmaz bir gündür!

Qoy İran Millətləri bilsinlər ki, Azərbaycan Milləti o çürümüş fasıd dəstgaha nifrətlə baxır. Qoy xam xəyal edən mürtəce’lər bilsinlər ki, daha bundan sonra heçvəch ilə həqiqi azadlıq üsullarına müğayir olan mənhus əsərlər bu ölkədə qalmayıb və daha o geçmiş dövrə tazalanmayacaqdır.

xəlqimiz bundan sonra yad işğalçılara fəqət yoxluq tələb edir, bundan sonra millətlərin azadlığını ayaqları altına salıb və onların millətin təhqir edən ünsürlər daha heçvəch ilə öz mövqeiyyətlərin hifz etməyə imkan tapmayacaqlar.

Yaşasın xəlqimizin sarsılmaz iradəsi!

Yaşasın bütün İran azadlığını təmsil edən Azərbaycanın qəhrəman xəlqi!

12-Şəhrivər münasbtilə mücəssəmələr mövzuuna aid daha artıq mə’lumat almaq istəyən təbliğatçılar ağayi Piyşəvərinin bu münasbtilə söylədiyi aşağıdakı sözlərindən istifadə edə bilərlər.

# Möhtərəm Həmvətənlər!

Bu gün birincı dəfə olaraq Təbrizin və Azərbaycanın həyatinda tarixi bir səhifə açılır. Azərbaycan xəlqi 20-il millətin hüququnu aradan aparan, 20- il məşrutiyyəti tə`til edən, 20-il irani tərəqqi və təkamüldən geri qoyan bir qəsbkarın heykəlini aşağı endirib və onun yerində İran məşrutəsinin əsasını qoyan Azərbaycan  xəlqinin qəhrəman və rəşid oğlunun mücəssəməsini paydar edir (gurultulu alqışlar).

Biz bununla o 20-illik faciənin bəsatini qoyan adamlara bildirdik ki, onların xainanə siyasətləri məşrutiyyəti daha bundan artıq tə`til etməyə imkan tapmaiacaqdır. Azərbaycan xəlqi rəşid və qəhrəman oğullarının qanı bahasına məşrutiyyəti alıb və o məşrutiyyət yaşayacaqdır (gurultulu alqışlar). Biz bu mücəssəmənin qarşısında and içirik ki, məşrutiyyəti və azadlığı bütün İran üzərində həyata geçirib və iranın məzlum xəlqlərinin həqiqi azadlıqların təəmin edək (alqışlar). Biz son qətrə qanımız qalana qədər bu yolda fədakarlıq edəcəyik, biz məxsusən bu mücəssəməni ondan ötrü bu gün nəsb etdik ki, hələ də irtica’ tərəfdarları xəyal edirlər ki, əgər silah ilə azərbaycanın azadlığını aradan apara bilməsələr, hiylə və neyrəng ilə apara bilərlər. Qoy onlar bilsinlər ki, Azərbaycan xəlqi öz azadlığın və İran xəlqinin  azadlığın möhtərəm sayıb və onu saxlamağı isə özü təzmin etmişdir. Biz nə təkcə azərbaycanda bəlkə bütün iranda azadlığı həyata geçirəcəyik. Biz indiki hörümcək toru kimi İran xəlqini tora salıb və onları sıxan mənhus rejimi aradan aparıb və onun əvəzində xəlqə azadlıq və səadət verəcəyik.

Tehranda o çürük başlar, fasid beyinlər bilməlidirlər ki, nə vəqtə qədər o qorxulu zülm və əsarət nişanəsi olan mücəssəmələr aradan getməyibdir, nə vəqtə qədər onlar millətin əlilə götürülüb sərnigün olmayıbdır, iranda azadlıq ola bilməz, Tehran Höküməti Azərbaycan ilə yanşa bilməz. Tehran həqiqi azadlıq və demokrasi üsulları ilə idarə olunan surətdə Azərbaycan ilə yanşacaqdır. Azərbaycan özünü heçvəqtində mürtəce’lərə təslim etməiəcəkdir. Bunu bir dəfəlik hamı bilib qulağında saxlamalıdır.

Təsadüfən burada olan İran mətbu’atının görkəmli nümayəndələrindən ağayi Məleki və Əmidi Nurinin hüzurları mənim xatirimə qətirdi ki, neçə il bundan qabaq ağayi Məleki yazırdı ki, xəlqi əsarətdə saxlaya və hüququn payəmal edən bu Rizaxan mücəssəmələri nə vəqtə qədər bu halda durubdursa, bizim azadlığımız təəmin olmayacaqdır. Bu düzdür, o mücəssəmələr tikan kimi xəlqin ürəyinə batır. Mən xahiş edirəm ki, ağayi Məleki Tehranda desinlər ki, «Do səd goftə çon nim kerdar nist!» iki yüz sözün bir əməlcə qiməti yoxdur. Biz dedik və dediyimizi əməl etdik, xəlqin arzuların bilib və onları həyata geçirdik. Əziz yoldaşımız ağayi Pənbei dediyi kimi qoy xəlq üçün xoxu-xortdan olan və xəlqin ürəyini sıxan mücəssəmələr götürülsün və İran xəlqi bizdən sərəmşq alıb bu çürük

mücəssəmələrin yerində İran azadlığının və məşrutəsinin yolunda şəhid olanların, Məlik-Ələmütəkəllimin, Sur İsrafil, Mirza Riza Kirmani və sayirlərinin mücəssəmələrini qoysunlar.

İranda əvvəl dəfə zülm-əsarət nişanəsi olan Rizaxan mücəssəməsini götürmək və yerində azadlıq və qəhrəmanlıq nümunəsi olan Səttarxan mücəssəməsini qoymaq iftixarı Azərbaycan xəlqi və onun rəhbəri olan Azərbaycan Demokrat Firqəsinə nəsib oldu. Mən iftixar edirəm ki, bu mücəssəməni açıram.

Ağayi Piyşəvəri gurultulu alqışlar içərisində mücəssəmənin yanına gedib və mücəssəmənin pərdəsini götürdü. Bu mövqe'də urra və muzik səsi Sərdar Bağının mühəvvətəsində təninəndaz olaraq bu tarixi gündə tamaşaçılar Azərbaycan xəlqinin qəhrəman oğlu Səttarxanın heykəlini geçmiş rejimin yadigarı olan Rizaxanın mənhus mücəssəməsinin yerində tamaşa etdilər.

Ağayi Piyşəvəri nitqini qurtardıqdan sonra Səttarxanın mücəssəməsinin qarşısında rejə verildi. O nitqin təkmilində Salar Milli mücəssəməsi nəsbi münasibtilə ayrı nitqlərin təfsili də şayan diqqətdir.

# Söz Yox, Əməl Göstərmək Lazimdir

Məşrutə inqilabi Azərbaycan xəlqinin qəhrəmanlarının məzhəri olaraq bu il xəlqimizin tam qalibiyyət şəraitində geçdi. Xüsusile məşrutə nehzətinin ikincı qəhrəmani Baqirxanın mücəssəməsinin iftitahi bizə geçmiş şanlı tariximizi xatırladaraq, böyük babalarımızın İran azadlığı uğrunda etdiyi fədakarlıqlarını xəlqimizin nəzərində mucəssəm etdi.

Azərbaycan xəlqi 21-Azər nehzətinin əsərində, İran üzərində dərin bir dəyişəklik əmələ gətirməyə imkan taparaq 41-ildən artıq tə`til olunmuş məşrutiyyət qanunlarını yenidən həyata geçirdi.

xəlqimizin qiyami sayəsində mürtəce’lər dalı oturub və Tehran Höküməti azadixah bir rəviyyə tutmağa başladı. Gördüyümüz kimi bu son zəmanda az-çox demokratik nehzətlər, hökümət tərəfindən təqviyət olunan kimi nəzərə gəldi. Buna görə dir ki, biz əvvəldən özümüzü, ağayi Qəvamülsəltənə hökümətinə xoşbin nişan verdik. Ağayi Qəvamülsəltənə çox çətin məsələləri qardaş qanı tökülmədən , müsalimət yolu ilə həll etməyə müvəffəq oldu. Lakin hələ də Qəvamülsəltənə dövləti iranda, İran millətinin intizarı olduğu kimi iranlıların tələbatını layiqincə təamin edə bilməyibdir. Ağayi

Qəvamülsəltənənin hököməti də indiyə kimi millət düşmənləri olan irticai parazitlərin nüfuzundan kənarda qalmamişdir.

İntixabatın bu qədər yubandırılması İran xəlqlərinin zərərinə olaraq, onlarda hökümətə qarşı nifrət törtməyə bais olur. Bu da deməк olar ki, İran azadlığınının müxalifi olan şəxslərin nüfuzu təəsirində dir.

İndi də görünür ki, danışılan sözlər yalnız danışıqdır və onların barəsində heç bir əməl görsənməyir. İran xəlqləri indiyə kimi iş başına gəlmiş dövlətlərin bu kimi əməllərindən son dərəcə incikdir və daha heç kəsdə oturub gözətləməyə və səbir etməyə taqət qalmayıbdır.

Millət söz yox, daha doğrusu həqiqi demokrasi tələb edir!

Azərbaycan xəlqi geçmiş tarixdan acı təcrübələr görmüş və siyasi şüura malik olan bir xəlqdir. Məşərutıt qanunlarını nəqz edən mürtəce’ ünsürlər, indi əgər yenə də xam xəyallar bəsləyib və 21-Azər nehzətimizi də iğfal siyasəti ilə nəticəsiz qoymaq fikirində olsalar, bir dəfəlik bilməlidirlər ki, Azərbaycan xəlqi bundan sonra heç kəsə aldanmayacaqdır.

xəlqimiz öz tarixi mübarizələrini xatırladıqca öz qüdrətini düşünür, etdiyi mübarizələrdən nəticə almaq istəyir. Azərbaycan İran üzərində həqiqi azadlığın təəminini əməlan tələb edib, indi də etməkde dir. xəlqimiz mürtəce’lərə daha bundan sonra fəaliyyət etmək üçün imkan verməyib və öz azadlığını aldığı kimi onu saxlamağa qadir olub, bütün İran üzərində İran xəlqinin azadlığının təəmin olması uğrunda hər cür fədakarlığa həmişə hazırdır.

# Müvafiqətnamə Və Nehzətimizin Yeni Dövri

Mə’lum olduğu üzrə Milli nehzətimizin əsərində, İran xəlqini fəlakətə sövq edən heyət hakimə binasında böyük rəxnə və təzəlzül əmələ gəldi və nəticədə irticai məclis məcbur oldu ki, fəqət bir səs artıq olmaq üzrə ağayi Qəvamülsəltənənin kabınəsini iş başına gətirsin. Bu isə zahirdə azadixah təbəqəyə böyük bir güzəşt idi. Ağayi Qəvamülsəltənənin nehzətimizə nisbət tərəfdar olmasa da, bitərəf olduğu məşhur idi. Ona görə Tehran bu şöhrətdən istifadə edərək öz məğlubbiyyətini örtüb-basdırmaq məqsədi ilə sülhə və barışığa təşəbbus etdi.

Qardaş qanını tökmədən 12-Şəhrivər müraciətnaməsində tələb etdiklrimizi təhsil etmək üçün biz də bu təsadüfi şadlıqla istiqbal etdik. Ağayi Qəvam iş başına gəlib–gəlməz iki mühüm məsələni həll etməyə iqdam etdi. Onlardan biri «Said», «Sədr» və «Həkiymi» kabınələri və «Seyid Ziya» bandının böyük azadixah qonşumuz Şuralar İttifaqi ilə İran arasında tövlid etdikləri ədavət və sui-təfahümi ortadan qalldırmağa, ikincisi isə bizim həq sözlərimizi eşidib məşəru təqazalarımzı əncam verməklə yaxınlaşmaqda olan vətəndaş müharibəsinin qarşısını almaq idi.

Biz birincı məsələdə burada bəhs etməyə lüzüm görmürük. İkincı məsələnin həlli üçün ağayi Qəvam şəxsən iqdam edərək firqənin başçısı ağayi Piyşəvəri başda olmaq üzrə bir heyət Tehrana getməsinə icazə verdi. Bu heyətin Tehrana getəməsi nehzətimizin tarixində böyük bir məslə olduğu üçün onlar böyük nümayiş və təntnə ilə müşayiət (olub) Tehran, bəlkə bütün dünya bu məsələdən maraqlanmağa başladı. Hər kəs onu öz istədiyi kimi təfsir edirdi. Hətta Azərbaycanın daxilində daxi nigarançılıq hiss olunurdu. Ağayi Piyşəvərinin şəxsən Tehrana getəməsi gözlənilməyən bir iş idi. Bu vasitə ilə firqəmiz sülh və müsaliməti hifz etmək üçün hər bir fədakarlığa hazır olduğunu isbat etdi.

xəlqin əfkarından bir nümunə olmaq üzrə Azərbaycan ruznaməsində «Riza Azəri» imzasi ilə bir məqalənin xülasəsini buraya dərc edirik:

# Azərbaycanda Parlayan Azadlıq Günəşi Bütün İrani Işıqlandıracaqdır

Millətimizin həqiqi nümayəndələri Tehranda on beş gün müəttəlçılıqdan sonra bir nəticə almadan Təbrizə qayıtmağa məcbur oldular. Azərbaycan milləti rəşid bir millət olduğu kimi eyn zəmanda mərd, alicnab və səmimi dir, qəlbi təmiz və vicdani pakdır. Kimsəyə qarşı kin və ədavət bəsləməz, lakin tarixlərin göstərdiyi kimi onun Milli namusu olan yurduna təcavüz edənlərdən intiqam almaqda çox amansız və rəhmsizdir.

Belə bir gözəl və alı xislətlərə malik olan millətimiz Tehranın uzatdığı əli rədd eləmədi.

Böyük rəhbərimizin başçılığına, inqilabımızın dəyərli şəxsiyyətlərindən mürəkkəb bir heyəti, ixtiyar tam ilə Tehrana göndərdi. Tehranda irtica’in kök saldığında, oradan nəticə alınmayacağı mə’lum idi. Lakin İranli qardaşlarımıza və bütün dünyaya göstərmək və isbat etmək istədik ki,

qorxmaz və cəsur Azərbaycan milləti hər ehtimala qarşı hazır olduğu halda belə müsalimət əhlidir. Cəhətsiz və səbəbsiz yerə fəqət irtica' canavarının iştahasi və meyli yerinə gəlməkdən ötrü, qardaş qanının axmasından nifrəti vardır.

Yoxsa biz aldığımız müsəlləm həqqimiz olan azadlığa Tehrandan icazə istəyəcək dəyildik və Tehranında bizdə ona qaytarılacaq bir həqqi yox idi. Amma iki məqsədlə Tehrana gedildi. Birincisi: Məşrutiyyət inqilabında imtahan verdiyimiz kimi, bu azadlıq inqilabımızda da səmimiyyətimizi aləmə göstərmək istədik. İstədik ki, uzun illərdən bəri istibdad, zülm və sitəm altında əzilən, gözləri bizdə və ruhları bizim ilə olan bütün məzlum iranlı və Tehranlı qardaşlarımıza sabit edək ki, azadlığı yalnız biz özümüz üçün almamışıq və özümüzə inhisar etməmişik. Bir evdə iki hava ola bilməz. Bunun üçün də möhtərəm nümayəndələrimiz millətimizin arzusunu yerinə yetirməkdən ötrü təmam İran millətinin nümayəndəsi kimi müzakirəyə başladı. Məzlum qardaşlarımızı yaddan çıxartmadıqlarını əmələn sübut etdilər. Azadlıq yolunda indiyə qədər verdiyimiz şəhidlərin müqəddəs qanları ilə bütün iranın da azadlıq fərmani yazılmişdir. Əsirlər boyu qardaşcasına bir yerdə yaşadığımız sayir iranlı qardaşlarımız da gərək azadlıq ne'mətindən bəhrəmənd olsunlar.

İkinci məsələ isə Azərbaycan milləti, illər boyu gördüyü dəhşətli zülm və işkəncədən və onun nəticəsində etdiyi mükərrər qiyamlar və inqilablardan sonra sülh və səfaya ehtiyac hiss etməsidir. Biz kimsə ilə ədavətimiz olmadığı kimi mürtəce'lərin və düşmənlərimizin yalan və iftira və böhtanlar uydurduqları kimi də, təczyə fikiri belə indiyə qədər qəlbimizdən xütur etməmişdir.

Bizim bu müqəddəs qiyamımızı, şücaət və fədakarlığını inkar etməklə, onu töüəyən etmək istəyirdilər.

Bizim qüdrət mənbəimiz həq və həqiqət, təkiyəmiz də silahımızla rəşadətimizdir.

Bizim istədiyimiz yalnız İran hüdudu daxilində öz ana yurdumuzda indiki kimi demokrasi üsuli üzərinə azad yaşamaqdır.

Təmam dünya millətlərinin qəbul etdiyi Atlantik bəyaniyyəsinin mürəkkəbi hənuz qurumamişdir. Hamıya mə'lumdur ki, onun sərahətli və əsaslı maddələrindən birisi də budur ki, hər millət öz ölkəsində arzu etdiyi tərzdə və istədiyi şəkildə yaşamağa həqqi və ixtiyari vardır.

Dediyimiz kimi asudəlik və müsalimət dövrəsinə qalvuşmaq istəyirik ta ki, ölkəmizin ictimai, iqtisadi bünyəsinə illər boyu , xüsusilə Rizaxan dövrəsində varid olan ağır yaraları öz əlimizlə sağaltmaq imkani əldə edə bilək. Yoxsa bu getdiyimiz həq yolunda çoxdan müvəffəq olmüşuq və müvəffəqiyyətimizin əbədiliyi də iki mühüm həqiqət üzərinə əsaslanır. Birincisi budur ki, bütün

Azərbaycan milləti, kiçikdən böyüyə, arvatdan kişiyə qədər, azadlığımızdan son nəfəsə qədər difa' etməklə, o yolda qızara-qızara ölməyə təsmim tutmuşuq. Millətimizin şüarı, rəhbərimizin dediyi, ilk və son sözümüz budur.

Ölmək var, dönəmək yoxdur!

İkinci həqiqət isə bütün müttəfiq millətlərin qəbul və imza etdiyi və yuxarıda şərh verilən Atlantik bəyaniyyəsidir ki, ümum millətlər özlərini istədikləri kimi idarə etməyə möhkəm və mətin bir həq qail olmüşlardır.

Ona əlavə olaraq Azərbaycan mədrəsələrində yalnız Azərbaycan dilində təhsil olunmasının Tehran hökuməti tərəfindən öz bəyniyyəsində qəbul etməsidir. Bu o deməkdir ki, bizim millətimizi və müşəxxəs bir millət olduğumuz həqiqətini, rəsmi surətdə təsdiq etməyə məcbur olmuşdur. O halda indiki şəraitdə və Atlantik bəyaniyyəsinə əsaslanaraq hansı millət olursa öz idarəsi və demokrasi üsulu ilə özünü idarə etməyə kim mane' ola bilər?

Biz bilirik ki, hər millət yalnız öz ləyaqəti sahəsində azadlığa malik ola bilər və buna görə də hər zaddan əvvəl öz Milli qüdrətimizə dayanaraq azadlığımızı saxlayacayıq. Bizim millətimizi və dilimizi rəsmən təsdiq edən Tehran Hököməti, nümayəndələrimiz ilə Tehrandaki müzakirələr əsnasında göstərdiyi inad heyrətli və tə'ccüblü dəyildirmi?

Tehrana və dünyaya aydındır ki, müvəffəqqiyyət əvvəldən axırə qədər bizimdir, çünki getdiyimiz yol həq və həqiqət yoludur. Bütün Azərbaycan millətində nifrət hissi oyadıran bir qəziyyəni burada qeyd etməkdən geçəbilməyəcəyik. Tehrandaki, müzakirələr əsnasında, Tehran siyasətmədarlarından (!) birisi möhtərəm nümayəndələrimizə: «Sizdəki vali ola bilən bir adam yoxdur» , deyə cəhalətlə Milli qururumuza toxunduqda, əgərçi rəhbərimizdən çox yağlı və diş sındıran cəvab almişdir, amma Azərbaycan milləti də öz növbəsində bu nəzakətsiz gobud sözü cəvabsız qoya bilməz:

Ağayi siyasətmədar!... Oxuduğun ya oxumadığın tarixlərə müraciə eləsən, görəsən ki, biz ilə sizin siyasi müqəddəratımızı bir-birinə rəbt edən Səfəvi padşahları zəmanından bu günə qədər iranı idarə edənlərin də Azərbaycan millətinin içindən yetişmiş adamlar olmuşdur.

Hətta bu gün də yaxşı ya pis, istər iranın daxilində istərsə xaricində həssas postları idarə edənlərin çoxları yenə də Azərbaycan millətindən dir.

Beş ay kimi bir qısa müddətdən bəri qurulan Milli Hökümətimizin düzgün və ləyaqətli idari məəmurları ana yurdumuzu bir evlad məhəbbətilə və millətimizə xass olan sədaqət və ləyaqətlə idarə etdiklərini bütün dünya görməkde dir. Bunu inkar edənlərə cəhalət və inad gözü deyilməzmi?

**«Riza Azəri»**

***

Tehran ilə danışıq çox çətin şərait altında ildamə tapdy. Hökümət başçıları bizim Milli nehzətimizin məənasını və xəlqin bu nehzətdə şirkətini dərk edəbilmədikləri üçün məsələni çox səhl tələqqyi edirdilər. Şayəd təcahül edib ümumiyyətlə nehzəti qiymətdən salmaq istəyirdilər.

Ağayi Piyşəvəri şəxsən nehzətə başçılıq etdiyi üçün, onun bu sühulətlə kiçilməsinə, qanı soyuqluqla baxa bilməzdi.

Ağayi Padəgan və sayir nümayəndələr şəxsən nehzətin yaradılmasında can qoyduqları üçün, Tehranın bizim nehzətimizə kiçik göz ilə baxmasına heçvəch ilə razi ola bilməzdilər. Ona görə danışıqlar on beş gün tul çəkdi. Nəhayət nəticə alınmadan gedən heyət Təbrizə müraciət etəməli oldu.

Danışığın təfsil və cərəyanını möhtərəm oxucuların və mübəlliğlərin dəstirəsində qoymaq məqsədi ilə ağayi Piyşəvərinin Tehrandan müraciət etdikdən sonra söylədiyi nitqi Tehranda aparılan danışığa aid qəsəmtilə, heyətin müntəşir etdiyi e`lamiyənin eynləri burada qeyd olunmalıdır.

# Azərbaycan Nümayəndələrinin Tehran Höküməti İlə Apardıqları Müzakirələr Barəsində E`lamiyyə

İran baş vəziri ağayi Qəvamülsəltənənin də’vətinə görə, tarix 25/2/8 –də Azərbaycan Milli Hökümətinin baş vəziri ağayi Piyşəvərinin rəyasəti altında, bir heyət Azərbaycan məsələsini müsalimət yolu ilə həll edib, qardaş qanı tökülmədən cilovgirlıq etmək üçün Tehrana getdi.

Bu heyət Tehran Hökümətinin səlahiyyətdar məqamatı və nümayəndələri ilə danışığa girişib və bir müvafiqətnamə bağlamalı və bu müvafiqətnamə göndərilmiş heyətə verilmiş e’tibarnamənin mucibincə, Azərbaycan Milli Məclisinin və aqay Qəvamülsəltənənin dövləti tərəfindən təsvib olduqdan sonra, rəsmiyyət tapmalıdır.

Düşnəbə günü 25/2/9 – saat 5-dən e'tibarən, Azərbaycan nümayəndələrinin heyəti ilə ağayan Müstəşarüldövlə, Lənkərani və İpəkçiyadan ibarət olan Tehran Hökümətinin nümayəndələri arasında danışıqların birincı cəlsəsi, ümumi məsələlər barəsində axıra yetişdi. Həmin günün sabahi ikinci cəlsədə, Tehran Hökümətinin nümayəndələr heyəti ağayi Qəvamülsəltənənin dövlətinin 25/2/1 – tarixli iblağiyyəsini göstərib, danışıqlardan ötrü mü'ərriflik etdilər. İbblağiyyənin mətni bu qərar ilə dir:

# «Dövlətin Azərbaycan Barəsində İblağiyyəsi»

«İndiki dövlətin təşkil tapdığı gündən Azərbaycan işləri, xüsusi bir təvəcceh cəlb edərək, o əziz həmmvətənlərimizin niyyətlərini mütaliə edəndən sonra vəzirlər heyəti təsmim tutdu ki, qanun əsası və ayrı vəz' olunmuş qanunlar mücriyyə qüvvəsinə icazə verdiyi hüdudda, o əyalətin əhalisinin arzuları təəmin olunub və onları qardaşlıq və vəhdətə də'vət etsin. Buna görə heyət-dövlətin bu barədə sadir olunmuş təsvibənaməsi ümumun ilttila'ından ötrü nəşr olunur,

1325- qəmərinin rəbiəlsani ayinda təsvib olunmuş qanunda, qanunəsasinin mütəmmiminin 29/90/91 /92/93–cı əsllərinin mucibincə, əyaləti və vilayəti əncümənlərə verilmiş ixtiyarat, Azərbaycanda aşağıdaki qərar ilə təshih və təid olunur.

1- Fəlahət, ticarət, sən'ət, məhəlli həml və nəql, maarif, səhiyyə, nəzmiyyə, ədliyyə və müddəyülümumluq dayirələrinin rəisləri və maliyyə naziri əyaləti vilayəti əncümənlər vəsiləsilə seçilib və müqərrəratın mucibincə onların rəsmi hökmləri dövlət tərəfindən həranda sadir olacaqdır.

2- Valı əyaləti əncümənin nəzərini cəlb etməklə dövlət tərəfindən tə'yin olub və nizami və jandarmeri qüvvələri fərmandehlərinin intisabi dövlət tərəfindən əmələ gələcəkdir.

3- Azərbaycan rəsmi dili iranın o biri nahiyələri kimi Fars dilidir. Məhəlli idarələrin və ədliyyə dayirələrinin dəftəri işləri Farsi və Azərbaycan (Türki) dillərində olur. Amma dərs mədrəsələrdə beş (5) ilbtidai kilaslarda Azərbaycan dilində olacaqdır.

4- Maliyati ayidləri və ölkənin büdcəsini tə'yin edən vəqt, dövlət Azərbaycan şəhərlərinin abadlığını səhiyyə və maarif işlərinin islahının lüzumunu nəzərdə tutacaqdır.

5- Dəmokratik təşkilatların və itihadiyyələrin fəaliyyəti, azərbaycanda iranın o biri yerləri kimi azaddır.

6- Azərbaycanın əhalisinə və demokrasi üçün işçilərinə, kefçmişdə demokratik nehzətində iştirak etəmələri üçün heç bir sıxıntı əmələ gəlməyəcəkdir.

7- Azərbaycan nümayəndələr iddəsinin o əyalətin həqiqi cəmiyətinin tənasübü ilə artmasına müvafiqət olunur və 15-cı təqniyniyyə dövrəsi təşkil tapdıqda, bu barədə lazimi pişnahadlar məclisə təqdim olunacaqdır ki, təsvib olduqdan sonra həman dövrə üçün vəkillərin qalmışı intixab olunsun.»

**«Baş Vəzir Qəvamülsəltənə»**

Azərbaycan nümayəndələr heyəti isə öz nəzərlərinin bir qisməti 33- maddədə Tehran Hökümətinin nümayəndələr heyətinə pişnahad etdilər ta öz hökümətinin nəzərinə çatdırsınlar.

Azərbaycan nümayəndələr heyəti bu 33-maddənin zimnində, Azərbaycanda indiki vəziyətin saxlanılmasını və demokrasi əsaslarının bütün İran üzərində möhkəmlşməsi və genişlnməsini aşağıdaki qərar üzrə tələb etdilər:

Azərbaycan məsələsinin müsalimət və sülh yolu ilə həll və mövcud olan ixtilafların rəf' olması və bütün İran üzərində demokrasi əsaslarının möhkəmlşməsi üçün tarix 25/2/9 - dən Tehran mərkəzi hökümətinin səlahiyyətdar nümayəndələri aqayan Sadeq-Sadeq (Müstəşarüldövlə), Fərmanfərmaiyan, İpəkçiyan, Lənkərani, Sepehr(Müvərrüxüldövlə) və Müzzəffər Fiyruz arasında bir tərəfdən, Azərbaycan millətinin muxtar nümayəndələri ağayan Piyşəvəri, Sadiq Badəkan, doktor Cəhanşahli, Firidun İbrahimi, Sadiq Dilməqani və ağayi Məhəmməd Hüseynxan Seyf Qalzi Azərbaycan Kürdüstanının nümayəndəsi o biri tərəfdən danışıq əmələ gəldi. Yuxarıda qeyd olunmuş nümayəndələr öz nəqssiz və iradsız e'tibarlarını mübadilə etdikdən sonra aşağıdaki maddələrin barəsində müvafiqət etdilər:

1- Keçmiş müstəbidd hökümətin ləşgəri və kişvəri məəmurlarının fişarı, azadlıq və demokrasi düşmənlərinin təhrikati nəticəsində 1324-cı ilin Şəhrivər ayynın 12- də vicuda gəlmiş nehzət mütərəqqi demokratik və irani həqiqi istiqlaliyyət və təmamiyyətin zamini olan bir nehzət tanılır.

2- Azərbaycan ki, keçmiş 3 və 4-cü üstanlar və Xəmsə vilayətınə şamildir, müəyyən ərazi bir vahid surətdə Xudmuxtar Hökümət adi ilə İran məmləkətinin cüzvi və mərkəzi isə Təbriz şəhəridir.

Təbsirə- Azərbaycan Kürdüstanının mərkəzi Mahabad şəhəridir.

3- Azərbaycanın pulu və bayrağı, iranda rayic olan pul və İran bayrağıdır. Məmləkətdə cari olan qanunlar Azərbaycan xəlqinin ixtiyarati və azadlığı ilə muğayirəti olmayan şərt ilə Azərbaycanda cari olacaqdır.

4- Axırıncı iki maddəni nəzərdə tutmaqla, Azərbaycan daxili işlərini idarə və nəzarət etmək və büdcə təsvibindən ötrü «Heyət Milli» adında bir heyət, demokratik üsul və məxsus nizamnamə üzrə intixab olacaqdır.

5- Bütün ləşgəri və kişvəri idarə rəislərinin intixabi, Azərbaycan Heyət Millisi öhdəsinə dir. Bu məəmurlar ki, Heyət Milli tərəfindən intixab olandan sonra mərkəzi hökümətə mü'ərriflik olacaqlar, ümdə qanunların icrasında Mərkəzi Hökümət və Heyət Milli təsmimlərinin icrasında, Meyət Milliyə tabe` olacaqdır.

6- Azərbaycan Heyət Millisi bütün ləşgəri və kişvəri məəmurların nəsb, təğyir və təbdilində muxtardır. Bu cür təğyir- təbdillər mərkəzi hökümətin də iltila'ına yetiriləcəkdir.

7- Azərbaycanda Heyət Millidən əlavə mahal, bölük və vilayəti əncümənlər də, demokrasi üsul üzrə yəəni müstəqim, ümumi rəy ilə (istər arvat, istər kişi və istərsə qoşun əfradi) seçilib və bu əncümənlər öz əməl heytələri, yəəni vilayət, mahal, bölüklərdə işlərin qabağa getməsinə nəzarət edəcəklər.

8- Fədailər və Milli Qoşun təşkilati olduğu kimi qalmalı və öz məəmuriyyət və vəzifələrini azadlıq və demokrasi üsulundan müdafiə etmək və mərbut sərhədləri hifz etmək üçün Azərbaycan Heyət Millisinə tabe` olacaqdır.

9- İndiyə tək Azərbaycan Milli Höküməti tərəfindən verilən kişvəri və ləşgəri dərəcələr və tərfi'lər rəsmiyyətə tanılır. Kiçik əfsərlərin tərfi'ati və dərəcələri müstəqim halda Azərbaycan Milli Qoşun fərmandehliyi tərəfindən veriləcək. Vəli ərşəd afsərlərin və jeneralların dərəcələri Azərbaycan Milli Qoşunları fərmandehinin pişnahadi və Heyət Millinin təsvibi üzrə veriləcəkdir.

10- Azərbaycan dövləti idarələrində və Heyət Millidə, yazılar Azərbaycan dilində və Azərbaycan Kürdüstanında Kürd dilində olacaqdır. Leikən Fars dili iranın dövləti dili olduğu üçün mərkəzi dövlət ilə Azərbaycan və Azərbaycan Kürdüstanı idarələri və heyət Millisi arasında yazılan Fars dilində olmasının işəkalı olmayacaqdır.

11- Dərs və təhsilat Azərbaycanda ibtidai mədrəsələrdə Azərbaycan dilində və Azərbaycan və Fars ya Kürd və Fars dillərində olacaqdır.

12- Azərbaycan Milli Məclisi indiyə tək təsvib etdiyi qanunlar ki, Azərbaycan Milli Hökuməti tərəfindən icra edilib, Azərbaycan Heyət Millisi tərəfindən nəqz olmayınca öz e'tibarında qalacaqdır. (Bu maddə Azərbaycan Kürdüstani xüsusunda da sidq edir).

13- Xalisəcat, azadlıq və məşrutiyyət düşmənlərinin yerləri və varlarının Azərbaycanda və ha belə Azərbaycan Kürdüstanındaki kəndlilər arasında bölunməsi rəsmiyyətə tanılır və heç vəqt nəqz edilib və qaytarılmayacaqdır.

14- Tiryak, alkol, ixtilas və rişvə və fəhşa və sayir əxlaqi fəsadlarla mübarizə təsvib olunmuş qanunlar üzrə dəvam edəcəkdir.

15- Heyət Milli təsvib etmədən hər cür luks və təccəmmülu məta`lar və habelə Azərbaycan daxilində əmələ gələn məta`ları varid etmək qadağandır.

16- Hər cür maliyat və əvarizlər, Heyət Milli təsvib etmiş bir sistem üsuluna visul olmalıdır və dövləti aidlərin artması üçün, indiyə dək Azərbaycan Məclis Millisində təsvib olub və Azərbaycan Milli Hökuməti tərəfindən icra edilən qanunlar öz e'tibarlarında qalacaqdır.

17- Azərbaicana və Azərbaycan Kürdüstanına həq verilir ki, öz cəmiyətləri nisbəticə ki, təqəribən bütün İran cəmiyətinin uçdə birini təşkil verirlər, vəkil seçib və Məclis Şövrayi Milliyə göndərsinlər. Azərbaycan və Kürdüstan nüzzar əncüməni tərəfindən sadir və onların Heyət Millisinin təsvibinə yetmiş e'tibarnamə, məclis Şövrayi Millidə rədd edilə bilməz.

18- İranın bütün nüqtələrində intixabat bir şəkildə olmaq üçün dövlət mütəəhhid olur ki, 15- cı il intixabat dövrəsində İran Məclis Şövrayi Millisi, Azərbaycan Milli Hökuməti qadınlar və cəvanlar və qoşun işçilərinə verdiyi həqqi möhtərəm sayıb və bütün iranda ümumiyyət versin.

19- Məclis Şövrayi Millinin intixabati bütün iranda həddəksər on gün birincı intixabat e`lamiyyəsindən sonra başlanıb və həddəksər bir həftənin müddətində xatimə tapacaqdır.

20- Azərbaycan və Kürdüstan maliyatının yüzdə iyirmi beşi (25 %) mərkəzə veriləcəkdir. Vəli bu il Azərbaycan və Kürd xəlqinin demokrasi və azadlığı əldə etmək üçün ağır xərclərə mütəhəmmil olduqlarına görə bu məbləği verməkdən maaf olacaqlar.

21- Mərkəzi dövlət öhdədar olur ki, tezliklə Tehran ilə Təbriz arsındaki dəmir yolu ki, qabaqcadan Miyanaya dək yetişibdir, Təbrizə çatdırsın.

22- Dövlət heç bir surətdə ləşgəri və kişvəri məəmurların əzl və habelə dəyişməsində dəxalət etməyə həqli dəyil.

23- Azərbaycan və Kürdüstan Heyət Millisi gərək maarif, fəlahət və hifzavlshə əslahatını azadanə həyata keçirsin.

24- Azərbaycan və Kürdüstan təbi'y sərvət və mə'dənləri yalnız Azərbaycan və Kürdüstanın ehtiyacatını rəf' etməyə təxsis verilir və o nahəyaələrin karxanalarının idarəsi öz öhdələrinə qoyolur.

25- lazimi mövqə'lərdə xüsusi və şəxsy karxanaların nəzarəti Azərbaycan və Kürdüstan Höküməti və heyət millisi ilə olacaqdır.

26- Azərbaycanda və Kürdüstanda bütün mətbu'atın nəşri Milli Heyətlərinın təsvibi ilə olacaqdır. Teatr və sinama və radio, Azərbaycan və Kürd dillərində olunacaqdır. Bu sayir dillər barəsində də mücaz və qabil icradır.

27- Bütün sən'əti, fəlahəti, milli və dövləti bankların idarə edilməsi Azərbaycanda və Kürdüstanda Heyət Millilərin öhdəsinə dir.

28- Bütün maliyati aidat və əvariz, Azərbaycan və Kürdüstan məhəlli xəzanədarlıqlarında toplanıb və müstəqimən lazimi məsrəfə yetişəcəkdir.

29- Mərkəzi dövlət mütəəhid olur ki, Azərbaycan xəlqinin mütalibatın fövriyyətlə bank millidən pərdaxt etsin və bu bankın intiqal vermiş sərəmayalarını dübarə qaytarsın.

30- Mərkəzi dövlət mütəəhid olur 3-cü və 4-cü ustanların və Xəmsə vilayətinın azadlıq düşmənlərinin əli altında olan Tikab, Saqqız, Bicar, Sərdəşt kimi yerlərini təxlyə, Azərbaycan və Kürdüstanın səlahiyyətdar məqamatına təhvil versin.

31- Mərkəzi dövlət mütəəhid olur ki, illər boyu millətin hüququna təcavüz edən və qanli faciələr törədən jandarmeri təşkilatını ləğv edib və onun müqabilində qəzai dəstgahın zabiti olan nəzmiyyə təşkilatına bütün qəsəbələrdə və mahal və bölüklərdə vüs'ət versin.

32- Mərkəzi dövlət mütəəhid olur ki, əyaləti, bölük və mahal əncümənlərini indi Azərbaycanda olduğu kimi demokrasi üsul üzrə bütün iranda təşkil versin.

33- Bələdiyyə təşkilatları bütün iranda, dövlət xadimləri dəxalət etmədən demokrasi üsul üzrə bütün iranda qurulmalıdır.

**Sesəşnbə günü 1325 / 2 / 10 saat 8- də** ağayan Müverrixüldövlə Sepehr, piyşə və hünər və ticarət vəziri və ağayi Qəvamülsəltənənin siyasi müavini ağayi Müzəffər Fiyruz özlərini səlahiyyətdar nümayəndə mü'ərriflik etdilər, 33-maddə onlara da göstərildi. O günün sabahi, ağayi Piyşəvəri və ağayi Qəvamülsəltənə arasında iki fəqərə xüsusi mülaqat və müzakirə əmələ gəldi və bu müzakiratın tə'qibində aşağıdaki iblağiyyə Azərbaycan nümayəndələri heyəti tərəfindən təhiyə və ağayi Qəvamülsəltənənin dövlətinə verildi. İblağiyyənin mətni budur:

Ağayi Qəvamülsəltənənin hüsn niyyəti və sadir etdiyi bəyniyyə əsərində mərkəzi dövlət nümayəndələri və Azərbaycan nümayəndələri heyəti arasında təbadül əfkar və dərin mütaliədən sonra belə nəticə ələ gəldi ki, Azərbaycan demokratik nehzəti, Azərbaycanı irandan təcziyə etmək qəsdilə yox bəlkə məşrutiyyət və demokrasi əsaslarını iranda təsbit və təqviyət etməkdən ötrü əmələ gəlmişdir. Hər cür süitəfahüm və qardaş qanı tökməkdən cilovgirlıq etməkdən ötrü, təvafuq hasil oldu ki, mərkəzi Hökümət və Azərbaycan xəlqi arasında ixtilaf yoxdur. Fər'i məsələləri həll etməkdən ötrü Azərbaycan nümayəndələrindən bir heyət Tehranda olacaqdır ta mərkəzi dövlət nümayəndələri ilə işləri bir tərzdə ki, məşrutiyyət və demokrasi üsuluna, xüsusilə Azərbaycan xəlqinin azadlığına ltmə yetirməsin, həll və təsfiyə edələr. Bütün məsələlərin həll və mərkəzi dövlət ilə idari rabitələrin yaranması, ağayi Qəvamülsəltənənin heyət dövləti Azərbaycan Məclisinin (ki, fe'lən əyaləti əncümən yerinə dir) və Məclis Şövrayi Millinin təsvibinə bağlıdır.

Üçüncü mülaqatda ağayi Piyşəvəri və ağayi Qəvamülsəltənənin arasında yer bölgüsünə mərbut olan maddə xüsusunda ixtilaf nəzər üz verdi. Bu məsələ ba`is oldu ki, iki gün müzakiratda vəqfə olsun. Ondan sonra ağayi Qəvamülsəltənənin dövləti, müzakirati başlamaqdan ötrü, o islahati ki, iblağiyyədə mənzur edə bilərdi, səlahiyyətdar nümayəndələrinin təvəssütü ilə bu qərar üzrə Azərbaycan nümayəndələri heyətinə verdi. İblağiyyənin mətni budur:

1- Azərbaycan əyaləti şövrasi, Milli Məclis əvəzinə.

2- Azərbaycan heyət müdirəsi, vəzirlər heyəti əvəzinə.

3- Azərbaycan idarələri rəisi, məhəlli vəzirlər əvəzinə.

1- Dövlətin eyni maddəsi qəbul olunur vəli maliyyə rəisi məhəlli məəmurlardan olmalı, maliyyə naziri isə dövlət tərəfindən tə'yin edilməlidir.

2- Valı (ustandar), Azərbaycan əyaləti şövrasının pişnahadi ilə tə'yin olunub, hökm dövlət tərəfindən sadir olacaqdır. Yolların əmniyyəti hifz və nəzmiyyə təşkilati və icra məəmurlarına kömək etməkdən ötrü, müsəlləh bir qüvvə nigəhban adilə təşkil olunur. Bu qüvvənin fərmandehi əyaləti şövra tərəfindən tə'yin və hökm sadir olmaqdan ötrü vizart kişvərə pişnahad olunur. Ləşgəri qüvvələr, məhəlli nizam vəzifə əfradından ibarət olacaqdır. Sərhədləri hifz etmək bu təşkilatın öhdəsinə olub və lazim olan mərkəzlərdə saxlovları olacaqdır. Bu qüvvələrin fərmandehləri saleh və təhsilat görmüş məhəlli əfsərlərdən, heyət müdirə tərəfindən tə'yin və onların hökmləri mərkəzdən sadir olur və külliyeyi lazim olan güzarişlər fərmandehlik tərəfindən mərkəzə verilir.

3- Dövlətin üçüncü maddəsi eynən təsvib olunur.

4- Məmləkəti qanunlar üzrə visul olan maliyatların yüzdə yetmiş beş fayizi, məhəlli idarələr müstəxdimlərinin və nigəhban qüvvəsinin hüququnu pərdaxt etməkdən ötrü əyaləti şövra nəzarəti altında məsrəf olacaqdır.

Əyaləti şövra ammülmənfəə məsrəflərdən ötrü visul olan maliyati ümumi maliyatın yüzdə on fayizindən artıq olmamaq şərti ilə bəəzi əvariz vəz' və məsrəf edə bilər.

5- Dövlət maddəsinin eyni təsvib olunur.

Azərbaycan nümayəndələri heyəti bu pişnahadi 1, 6, 8, 10-cu maddələrdə münə'kis olan islahatla qəbul və dövlətə verdi.

# (Azərbaycan Nümayəndələri Heyətinin Pişnahadi)

Azərbaycan məsələsini müsalimət yolu ilə həll etmək və demokrasi üsulunu iranda möhkəmləndirmək üçün tarix 25/2/8- dən İran dövlətinin rəsmi nümayəndələri və Azərbaycan nümayəndələri heyəti arasında müzakirə əmələ gəlib, dərin mütaliə və təbadul əfkardan sonra belə nəticə alındı ki, Azərbaycanın demokratik nehzəti Azərbaycanı İrandan təczyə etmək qəsdilə olmamış bəlkə demokrasi və məşrutiyyət üsulların iranda möhkəmləndirmək və qüvvətləndirəmdən ötrü olmuşdur. İran dövlətinin rəsmi nümayəndələri və Azərbaycan nümayəndələri heyəti aşağıda qeyd olan maddələrdə müvafiq nəzər hasil etdilər:

1- Azərbaycan əyaləti geçmiş 3-cü və 4-cü ustanlara və Xəmsə vilayətinə şamildir.

2- Bundan sonra Məclis Milli istilahi əvəzinə əyaləti şövra və vəzirlər heyəti əvəzinə heyət müdirə və vəzirlər əvəzinə məhəlli idarələr rəisi istilahi işlədiləcəkdir.

3- Azərbaycan valisi iyaləti şövranın pişnahadi ilə tə'yin olub və hökm dövlət tərəfindən sadir olacaqdır.

4- Dövləti idarələr, banklar və məhakim rəisləri, müddəiyülümumlar və həml və nəql idarələri rəisləri, əyaləti şövra tərəfindən intixab və rəsmi hökmlər dövlət tərəfindən sadir olacaqdır.

Təbsirə: Maliyyə naziri dövlət tərəfindən tə'yin olacaqdır.

5- Yolların əmniyyəti hifz və nəzmiyyə təşkilati və icra məəmurlarına kömək etməkdən ötrü nigəhban adıyla müsəlləh bir qüvvə təşkil olunur. Bu qüvvənin fərmandehi əyalət şövrasi tərəfindən tə'yin və hökm sadir olmaqdan ötrü daxilə vəzirliyinə pişnahad olunur.

Ləşgəri qüvvələr məhəlli nizam vəzifə əfradından təşkil tapır və sərhədlərin hifzi bu təşkilatın öhdəsinə olur. Bu təşkilatın saxlovlarının fərmandehləri Azərbaycan heyət müdiyrəsi vasitəsi ilə məhəlli saleh əfsərlərdən tə'yin və onların hökmləri mərkəzdən sadir olacaqdır və külliyeyi lazimi guzarişlər fərmandeh həng tərəfindən mərkəzə veriləcəkdir.

6- İbtidai mədrəsələrdə təhsil Azərbaycan dilində və mütəvəssitə mədrəsələrdə isə dərslər hər iki Azərbaycan və Fars dillərində olacaqdır. Məhəlli idarələrdə dəftəri işlər və ədliyyə və o biri işləri, Fars və Azərbaycan dillərində surət tapacaqdır.

7- Məmləkət qanunları mucibincə, alınan maliyatın yüzdə 75- fayizi idarə müstəxdimlərinin hüquqlarına və nigəhban təşkilatına və başqa islahata, əyalət şövrasının nəzarəti altında məsrəf olunacaq.

Əyalət şövrasi visul olunan ümumi maliyatın yüzdə 10- fayızından təcavüz etməmək şərtilə, bəəzi əvariz vəz' və məsrəf edə bilər.

8- Azərbaycanda demokratik nehzəti tərəfindən əmələ gəlmiş bütün iqtisadi, ictimai, mali və yer islahati rəsmiyyətə tanılır.

9- Azərbaycanın həqiqi cəm'itynin tənasübü ilə Azərbaycan nümayəndələrinin artırılmasına müvafiqət olunur. 15-ci qanungüzarlıq dövrəsi təşkil tapdıqda, bu barədə lazimi pişnahad məclisə təqdim olunacaqdır ki, yeni təsvib olunan iddə həman dövrə üçün intixab olunsun.

10- Dövlət təəhüd edir məclis şövrayi millinin intixabat qanununda təcdid nəzər edib və taza qanuni indiki mütərəqqi şərait və həqiqi demokrasi üsuli əsasında (ümumi, müstəqim, gizli, müsavi və mütənasib) tənzim edərək təsvib üçün məclis şövrayi milliyə təqdim etsin.

11- Bu qərardad İran Heyəti Dövləti və Azərbaycan Milli Məclisinin təsvibinə çatdıqdan sonra rəsmi olacaqdır.

12- Bu qərardadın maddələri Azərbaycan Kürdüstanına da şamildir. Bu pişnahad taza danışıqların məbnasi oldu. Aqayian Piyşəvəri və Qəvamülsəltənə arasında 4- cü muzakiratdan sonra demək olar ki, iki tərəf arasında təvafüq nəzər əmələ gəlib və qərar oldu ki, ağayi Qəvamülsəltənənin siyasi müavini ağayi Müzəffər Fiyruzun iştiraki ilə yeni bir layıhə tənzim olunsun. Pəncşənbə günü 25/2/19 – saat 23-də baş vəzirin siyasi müavini ağayi Müzəffər Fiyruz aşağıdaki layıyhəni hazırlayaraq Azərbaycan nümayəndələri heyətinə göstərdi.

# Layihənin Mətni

Son zəmanlarda Azərbaycanda əmələ gələn demokratik nehzət nəticəsində ki, onun məqsədi bütün İran ölkəsində demokrasi və azadlıq üsulunu möhkəmləndirmək olmuşdur, dövlət və Azərbaycan nümayəndələri arasında danışıq başlanmış və Azərbaycan nümayəndələri dövlətin 7- maddədən ibarət olan ilblağiyyəsini qəbul edərək təbadül əfkar nəticəsində təvafüq nəzər əldə edildi. Aşağıdaki maddələr ki, 7- maddənin mükəmmili ünvanilə tənzim olub qəbul və icra edilsin.

1- İblağiyyənin birincı maddəsində mali naziri kəliməsi maliyyə rəisi kəliməsinə çevrilməklə iqtisad və ticarət işləri idarəsinin rəisi artırmaqla eynən qəbul olunur.

2- Azərbaycan valisi Azərbaycan əyalət əncümənini pişnahadi üzrə, dövlət təsvibi ilə tə’yin olunacaqdır.

3- Son zəmanlarda Azərbaycanda əmələ gələn dəyişikliklərə əsaslanaraq, dövlət Azərbaycanda Milli Məclis adi ilə intixab və yardılmış təşkilati Azərbaycan əyalət əncüməni kimi tanıyacaq və 15- cı məclis təşkil tapdıqda, dövlət tərəfindən pişnahad olunan yeni əyalət və vilayət əncümənləri qanuni təsvib edildikdən sonra, təsvib olunmuş qanun üzrə Azərbaycan əyalətinin yeni əyaləti əncüməni seçgiləri tezliklə başlanacaqdır.

4- Əyalət əncümənin qərar və təsmimlərini icra etmək və işlərin gedişatının yaxşılığını təəmin etmək və xüsusilə alınan maliyatın (75 %) yetmiş beş fayızinin düzgün xərc olunmasına nəzarət etmək üçün, valı dəvair rəisləri və əyalət əncümənin heyət rəisəsindən mürəkkəb əyalət şövrasi təşkil taparaq, əncümənin təsmimlərini həyata geçirəcəkdir.

5- Azərbaycan nehzəti nəticəsində nizam vəzifə əfradından çağrılan yerli qüvvələrin təklifini tə’yin etmək üçün müvafiqət oldu cənab ağayi Qəvamülsəltənə dövləti və Azərbaycan əyalət əncüməni nümayəndələrindən məhəldə bir komision təşkil tapıb və onun həll yolunu təsvibdən ötrü mərkəzi dövlət və əyalət əncümənə pişnahad edəcəkdir.

6- Azərbaycanın mali vəziyəti xüsusunda müvafiqət oldu, Azərbaycanın gəlirinin (75%) yetmiş beş fayizi yerli xərclərə ixtisas verilsin və 25% - də İran ölkəsinin ümumi məxaricini təəmin etmək üçün mərkəzə göndərilsin.

Təbsirə: Post və teleqraf və dəmir yolu və Urumiyyə gölünün gəmiçilik idarələrinin xərc və gəlirləri müstəsna və onların xərc və gəlirləri dövlət öhdəsinə və ona münhəsir olacaqdır. Belə tövzih verilir ki, Azərbaycan əyalət və vilayət əncümənləri və dövlət idarələrinin təlqrafları məccani olaraq müxabirə olunacaq.

7- Dövlət qəbul edir ki, cari il ərzində Miyana dəmir yolunu Təbrizə çatdırsın. Bu iş tez bir zəmanda həyata keçirilsin. Bu işin əncami üçün Azərbaycan kargər və mütəxəssislərinın təqəddüm həqləri olması aydındır.

8- Əsası şosə yolların çəkməsi və tə'mir etəməsi dövlət öhdəsinə və fər'i yolları əyalət əncümənə mərbutdur.

9- Nizam vəzifədən ayrı olaraq Fədai adi ilə təşkil tapan davtələb qüvvələr, kəndlər nəzmiyyəsinə təbdil olunur və onun rəisi Azərbaycan əyalət əncümənin intixabi və dövlət təsvibi ilə tə’yin olunacaq.

10- Azərbaycan demokratik nehzəti nəticəsində, Azərbaycan kəndliləri arasında bölunən yerlərdən dövlət xalisəsinə mərbut olanların bölunməsilə dövlət üsulən müvafiqdir və tə’əhhüd edir ki, təsvib üçün birincı fürsətdə onun layihəsini Məclis Şövrayi Milliyə pişnahad edərək, dövlət xalisələrin məmləkətin başqa nüqtələrində yaşayan kəndçilər arasında bölunməsi o layihədə pişbinlik etsin. Adərbaycan nehzəti nəticəsində əmələn və əvəzsiz olaraq əkinçilər arasında bölunən başqa yerlər barəsində, malikləri qane etməkdən ötrü, o mülklərin tə'viz tərtibini Məclis Şövray Milliyə pişnahad edəcəkdir.

11- Dövlət iblağiyyəsinin 3-cü maddəsi mucibincə qərara alındı ki, A\ərbaycanda Fars dili rəsmi və dövləti dildir, idarələrin və ədliyyənin dəftəri işləri və mühakimələr Azərbaycan və Fars dövləti dillərində olur, 5- kilasa qədər tədris Azərbaycan dilində olacaqdır və müvafiqət oldu ki, 5- kilasdan yuxarı maarif vizartinin proqrami üzrə məktəblərdə dərs Azərbaycan və Fars dillərində olsun.

12- Dövlət tə'əhhüd edir, 5- ci məclis açıldıqda, intixabat qanuninin layihəsi ki, azadlıq və demokrasi əsasları üzrə yəəni ümumi, gizli, müstəqim, mütənasib və mütsavi ki, qadınlara da şamil ola, Məclis Şövrayi Milliyə təqdim və onun təsvibini fövriyyətlə dərxast edə.

13- Dövlət müvəzzəfdir ki, bələdiyyə əncümənlərinin seçgi qanunini demokrasi üsuli ilə (ümumi, gizli, mütənasib, müstəqil və müsavi) ki, bütün bələdiyyə əncümənlərinin istiqlalın təəmin edə, çox tezliklə əncümən məclisə təqdim etsin. Bu layihə təsvib oluna qədər Azərbaycan şəhərlərinin əncümənləri rəsmiyyətlə qalacaqdır.

14- Azərbaycanda , əqəlliyyətdə vaqe' olan millətlər, Kürd, Ermny, Asuri – bu müvafiqətnamənin 11- ci maddəsi üzrə ibtidai məktəbdə 5- ci kilasa qədər öz ana dillərində dərs oxuyacaqlar.

15- Azərbaycan əyaləti sabiq 3 və 4-cü ustanlara və Xəmsə vilayətınə şamildir.

16- Bu müvafiqətnamənin qərarlarının icrasi, cənab ağayi Qəvamülsəltənənin heyət dövləti və Azərbaycan Məclis Millisinin (ki, bu müvafiqətnamə təsvib olduqdan sonra 2- ci maddə mucibincə əncümən əyaləti adlanacaqdır, təsvibinə mövkul olacaqdır).

Qərar idi ki, cümə günü səhər saat 10-da heyət dövlətin fövqəvladə cəlsəsi təşkil tapıb və Azərbaycan nümayəndə heyətindən də bu cəlsə də hazır olsunlar. Bu fövqəladə iclas Azərbaycan nümayəndələri şirkət etmədən saat 11- dən ila saat üç yarıma qədər müzakirə və mübahisə əmələ gəldi, nəticə də Azərbaycan nümayəndələri heyəti etdiyi pişnahadi ki, nümayəndə heyətinin çoxlu güzəştindən hekayət edirdi, ağayi Qəvamülsəltənənin kabinəsində olan müxalif və qeyri mütəcanis ünsürlərin dəsisəbazlığı nəticəsində əksəriyyət rəy ilə rədd oldu, və dövlətin təsmimi əvvəl ağayan Fərmanfərmaiyan və İpəkçiyan, sonra ağayi Müzəffər Fiyruz təvəssüti ilə nümayəndə heyətinə iblağ oldu ki, heyət dövlət təsmim tutub ki, 25/2/1- tarixli 7-maddədən ibarət olan iblağiyyənin maddələrindən qırağa çıxmayıb və onda heç bir təfsir verməsin. Bu tərtib ilə Azərbaycan nümayəndələri heyəti Tehran hököməti rəsmi məqamatı arasında olan müzakiratdan heç bir nəticə alınmamış və müzakiratda vəqfə hasil oldu. Azərbaycan nümayəndələri 25/2/23- də Təbrizə

qayıtdılar. Tehran Hökümətinin rəsmi və müvafiq məqamatının izhar etdiyinə görə müzakirənin dayanmasının illət və amillərinin birisi də qeyri məsul məqamat və ünsürlərin fövqəladə nüfuzu idi ki, müxtəlif yollarla dövlət heyətinin içərisində və xaricində e'mal olunurdu.

Aydın dir ki, onların əsasi hədəfi demokrat nehzətinin inkişafının və həqiqi azadlığın bütün İran üzərində qabağın almaq idi.

İranın baş vəziri ağayi Qəvamülsəltənə və onun bəəzi həmkarlarının hüsn niyyətini nəzərdə tutmaqla təsəvvür edirik ki, hələ iş- işdən geçməyib və hələ ümid etmək olar ki, Azərbaycan məsələsinin sülh yolu ilə həll edilməsi və qardaş qanı tökülmədən cilovgirlik etmək üçün başlanan müzakirələrə, Tehranda bəəzi mürtəce' və İran millətinin azadlığının düşməni olan ünsürlərin dəsisəsi nəticəsində mütəvəqqif oldu, yenidən başlasın. Çünki biz Azərbaycan nehzətini bütün İran səadəti və azadlığı və orada vicuda gələn demokrasi bir üsulun zamini bilirik. Azərbaycan nehzəti bütün İran azadixahlarının ümidi dir və biləxrə müvəffəq olacaqdır ki, azadlığı və demokrasi üsulun bütün iranda inkişaf etdirib və ümumiyyət versin. Vəli mütəəssifanə görünür ki, Tehranın mürtəce' heyət hakiməsi, jandarm və nizami sütunlarını bizim sərhədimizə toplayır və kəlləsində bir para nəqşələr becərir ki, heç vəchilə iranın səlahına dəyildir.

Biz onu istəyirik ki, bizimlə Tehran arasında olan ixtilaflar sülh yolu ilə həll olsun, biz bu nəzəriyəni e`lam etdikdə aşikar deyirik ki, əgər jandarm ya nizami qüvvələri tərəfindən bizim ölkəmizə nisbət kiçik bir təcavüz və təərrüz olursa, var qüvvəmizlə difa' edəcəyik. Azərbaycan milləti öz azadlığından difa' etmək üçün axır nəfərə tək fədakarlığa hazırdır. Biz inanırıq ki, bu müqəddəs hədəfə yetişmək və həqiqi azadlığı və demokrasi üsulunu bütün iranda bərqərar etmək üçün, ümum İran azadixahları da biz ilə bir səfdə mübarizəyə hazırdırlar. Təsəvvür edirik ki, şəxs-ağayi Qəvamülsəltənədə olan hüsn niyyət əsərində, iş bu yerə çatmasın.

**Azərbaycan Milli Hökümətinin Baş Vəziri- Seyid Cə'fər Piyşəvəri**

**Təbriz 23 Ordibehişt 1325**

# Ağayi Piyşəvərinin Azərbaycan Xəlqinin Səlahiyyətdarşəxsiyyətlərinin Konfransında Etdiyi Bəyanat

Biz Tehrana varid olduqda jandarm və sayir müstəhfizlərin çəngindən xilas olub özlərini bizə yaxınlaşdıran əşxasın simasında və hərəkətində bunu aşikar surətdə gördük. Təyyarə meydanına gəlib çıxmağa müvəffəq olan Tehran azadixahlarının şüarları bizim ruhumuzu titrədirdi:

Siz bizə nicat verdiz, siz İran xəlqini əsarətdən xilas etdiz, amandı iştibah etməyin! Azadlığımız sizin düzgün hərəkət etməyinizə bağlıdır.

Yaşasın Azərbaycanın qəhrəman xəlqi!

Yaşasın azadlığımızın məş’əldarı olan Azərbaycan azadixahları!

Bu şüarlar Azərbaycan xəlqinin başlarının ucalmasına, onların tək özünü idarə etmək dəyil, bəlkə, bütün İran xəlqinə nicat vermək iste’dadına malik olduğunu bir daha isbat etmiş oldu. Hələ nehzətimiz başlanan gündən Tehran və sayir İran şəhərlərində müntəşir olan ruznamələrin «Gəlin bizə də nicat verin!» şüarlarını biz hənuz unutmamışıq. Mən mütəəssifəm burada İran zəmamdarlarından birinin sözünü deməyə məcbur oluram. Danışığımızın ciddi və şirin bir yerində söz Azərbaycan valisinin tə’yini ətrafına gəldı. Ağayi zəmamdar «sizdə ki vali olabılən bir adam yoxdur» dedı. Mənim ona verdiyim cəvabi yəqin edirəm siz çox gözəl hiss edirsiz, onu təkrar etməyə ehtiyac yoxdur. Bununla istəyirəm Tehran Hökümətinin nə kimi adamlar əlində olduğunu göstərəm və istəyirəm biləsiz ki, şayəd o zəmamdar səhvən bu sözü deməmişdir, onun düşüncəsi və anlağı bundan yuxarı ola bilməz. Tehran cəmaəti isə bu kimi zəmamdarları öz başından kənar etməyə qadir dəyildir. Bu kimilərin bizə: «Siz başladığız böyük işləri yarımçılıq qoyub, gəlin bizim boyunduruğumuzun altına girin»! Deməsi, aya böyük həqsizlik dəyildir? Çün biz iranın mərkəzi hesab olunuruq, ona görə də əşrəf məxluqatıq, demək ən sadə bir insanın ruhunu üsyana vadar etməyə kifayət etəmzmi?

Bununla belə məşhur riyazidan və alimin sözünü təkrar edib demək lazimdir ki, «Ba vicudi in yer dolanır» yəəni Azərbaycan xəlqi mütəməddin, fədakar və layiq bir millətdir, o özünü idarə etdiyi kimi bütün İran xəlqinin azadlığının ələmdarıdır.

Söz, bizim Tehran ilə danışdığımız barəsində idi. Bildiyiniz kimi Sədr və Həkiymi kabinələri kəklik kimi başlarını qara quylayıb dünyadan xəbərləri olmadıqları üçün milli nehzətimizi silah gücü ilə dayandırmaq fikirində idilər. Onların nəzərində Azərbaycan xəlqi Zülfüqari, Kor Mircavad, Əbülqasım Cəvan, Əmir Nüsərt və Sadiq Müctehidi kimi xəlq düşmənlərindən ibarət idi. Ona görə bizim həq sözlərimizi eşitmək əvəzində onların barmağı ilə rəqs edib, bizim içərimizdə üsyan tövlid etmək kimi əhməqanə ümid üzərində hərəkət edirdilər. Nəhayət fədailərimizin zərb şəsti onların arzularını puça çıxardı. Biləxərə Tehran anladı ki, zor ilə Azərbaycan xəlqinin iradəsini sındırmaq olmaz. Nəhayət ona görə irtica’ ərkanında müxtəsər təzəlzül əmələ gəldı, nəhayət azadiyxah

ünsürlərin köməyi ilə Həkiymi höküməti yıxılıb çox az bir əksəriyyətlə irticai məclis Qəvamülsəltənə kabinəsin vicuda gətirdi. Quamavlsltnə kabinəsi zor və güc siyasətini dəyişdirib sülh yolu ilə cəvab verməli olduğundan onun rəsmi də’vətini qəbul edib Məclis Milli və Milli Hökümətimizin dəsturu ilə istədiyimizi sülh və müsalimət yolu ilə əldə etmək üçün tehrana getdik.

Bunu gərək hamı bilsin ki, biz tehrandan yeni bir şey tələb etmirdik. Çünki biz istədiyimizi almağa müvəffəq olmüşuq, qarşımızda duran məsələ adamlarımızı qan tökmədən saxlamaq məsələsidir. Bir də biz istədiklərimizi İran hüdudunda həyata keçirməyi hədəf qərar verdiyimizi də unutmamışdıq. Bilirsiz ki, hənuz indıyə qədər biz xaricə və cəng vizarətxanaları təşkil etməmişik. Qoşunlarımız xəlq qoşunları adlanır. Xəlq qoşununun vəziyfə və məqsədi rəsmi dövlət qoşunundan təmamilə başqadır, xəlq qoşunu daxili əmniyyət və milli azadlığımızı tə’min etmək məqsədi ilə təşkil edilən bir qüvvədir. Pulumuz, bayrağımız və ünvanımız isə biləxərə ümum İran əsasındadır, binabərin bu vəziyət uzun müddət dəvam edə bilməzdi, biləxərə gərək mərkəzi hökümət ilə təklifimiz mə’lum olaydı. Bu təklifi mu'iyən etmək üçün ağayi Qəvamülsəltənənin sülh əlini rədd etməyib tehrana getdik, hətta mən özüm şədid məriz olduğuma baxmayaraq məsələnin daha tez həll olunması məqsədi ilə səmimi yoldaşlarımın və təbiblərin tövsiyəsinə baxmayaraq şəxsən ağayi Qəvamın də’vətini qəbul edib heyət ilə bərabər müsafirət etdim. İstər xüsusi görüşlərimizdə, istərsə rəsmi görüşlərdə biz xəlqimizin asayiş və sülh yolu ilə ixtilafati həll etməyə hazır olduğunu söylədik. Ağayi Qəvamülsəltənə və sayir dövlət nümayəndələri ümumiyyətlə bizim fikirimizə müvafiqət izhar edirdilər, lakin əməldə dövlətin 7-maddədən ibarət olan təsvibnaməsindən təcavüz etməyə hazır olmaq istəmirdilər. Siz əlbəttə nümayəndələr heyətinin müzakirələr həqqində verdiyi rəsmi e`lamiyyəni eşitmisiz. Bizim gizli siyasətimiz olmadığına görə müzakirənin təfsilini dünyaya e`lam etdik və bildirdik ki, Tehran Hököməti bizdən məğlub bir qüvvə kimi qeyd şərtsiz təslim olmaq tələb edir. Bu isə gülünc vəziyət meydana çıxarırdı. Biz dedik vəqti ki, dövlət təsvibnaməsi ayeyi asimani kimi təğyirnapəzir imiş, bu israr ilə bizi tehrana də’vət etmək nəyə görə idi?

Tehran rəsmi məqamatının sözləri Təbrizdə ağayi Bəyat tərəfindən danışılan sözlərin eyni idi, onlar həmişə olduğu kimi qanun əsasidən və üsuldan bəhs edib səfsətə ilə mövzui ört - basdır etməyə çalışırdılar.

Biz əvvəl gün dedik biz diplomat dəyilik, vəli qanun əsasi və sayir qanunlardan özümüzə görə iltila'imiz vardır. Biz indiyə qədər qanun əsasının əsas məsələlərinin məsəkut qalmasını da bilirik, biz qanun əsasının Rizaxanın diktatorluğu üçün təğyir verilməsindən bixəbər dəyilik. Biz irani bürümüş biqanunluqların sərmənşəyini də bilirik, biz amrikadan gəlməmişik, iranlıyıq və iranda qanunların nə şəkildə icra edildiyindən xəbərimiz vardır. İndi də iranda kimlərin hökümət etdiyini və İran millətinin bu əşxasa olan nəzərini də bilirik. Gəlin sadə danışaq, Azərbaycan xəlqi bir gün istibdad əleyhinə

qiyam edib qanun əsasını vicuda gətirdi və Milli Hökümət binasını qurduu. Tehran mürtəce’ləri isə yarım qərn müddətində onu məsəkut qoyub cürbəcür vasitələr ilə xəlqi hakimiyətdən məhrum etdilər. İndi isə Azərbaycan ikinci hərəkəti ilə o həqqi diriltmək istəyir, fəqət buna cəvab vermək lazimdir. Xalisə yerlərinin bölunməsi və dövlət yerlərinin qasiblər əlindən alınıb və əkinçilər arasında təqsimini qanun əsasi mən' etməmişdir. Qanun xəlqin iradəsidir. Azərbaycan kəndlisi artıq öz həqqini almışdır, öz iradəsi ilə bu kəndləri bölmüşdür. Dövlət isə bütün İran Azərbaycan ilə həmrəng olmaq üçün bu işi bütün əyalət və vilayətlərdə əməli etməlidir.

Biz hətta ixtilafi rəf' etmək üçün böyük güzəştlərə hazır olub dedik: Ancaq bizə imkan verin Azərbaycan xəlqi öz əyalət əncüməni vasitəsilə dövlət idarələrinin mə’murlarını və əyalətin valisini dövlətə pişnahad etsin və bunların hökmi mərkəzi dövlət tərəfindən sadir olsun və bunlar sadə bir söz ilə desək Azərbaycani idarə etsinlər.

Tehran höküməti tək Məlik Mədəni, tək Emir Nüsərt, tək Səmsam Bəxtiyari üçün qayil olan bu həqqi Azərbaycanlılar üçün qayil olmaq istəmədi. Qanun əsasiyə muğayir olan idareyi külle jandarmerini belə bizə qanuni müəssisə adlandırıb onun vəhşət tövlid edən nifuzunu Azərbaycana qaytarmaq istədi. Xəlq qoşunlarını adi nizam vəziyfə hesab edib onun fərmandehlərini də tehrandan göndərmək kimi pişnahadları meydana sürdü.

Biz çox gözəl bilirdik ki, Azərbaycan xəlqi Şəhrivərin üçündə özlərinin həqiyqi simalarını göstərən afsər paltarı geymiş yalançı pəhləvanlara nə cür baxır və yenə də bilirdik ki, Səttarxan evladı tehranın tiriaki sərhənglərinin mə'şuqələrinin buxçasını hamama daşımağa artıq təhəmmül edə bilməz. Ona görə də onların bu xüsusda etdikləri pişnahadı rədd edib dedik: Dövlət tərəfindən bir neçə nəfər azərbaycana gəlsin, burada məsələ tərəfeynin rizayəti ilə həll edilsin və bir də biz Tehran hökümətinə bildirdik ki, Azərbaycan qoşunu xəlq qoşunu və azadlıq qoşunudur. Onu İran xəlqinin azadlığını məhv etməyə məcbur etmək olmaz. Xəlqimiz öz qoşununu idarə etməkdən aciz dəyildir. Əgər Tehran doğrudan da azərbaycanlını iranlı bilirsə bizim pişnahad etdiyimiz əşxası qoşunun fərmandehliyinə tə’yin etsin. Bu isə onların xoşuna gələn dəyil idi, onlar irani tehrandan ibarət bilir və iranda hakimiyyəti fəqət beş üç nəfərə münhəsir hesab edirlər.

Bir də bizə fərmandehi külle quvanın və bə’zi qeyriməsül məqamatın bu işə razı ola bilməyəcəyini andırmaq istədilər.

Biz fərmandehi külle quva məsələsini məşrutə əsasi mucibincə təfsir edirik. Bizcə fərmandehi külle quva fəqət Məclis Şövrayi Millinin xaricilərə e’lan etmək istədiyi hərbi fərmani imza edər. Onun cari işlərə qarışası qeyri məsül olduğuna görə azadlıq və məşrutə qanununa muğayirdir.

Rizaxan həmin fərmandehlik ixtiyarından istifadə edib iranda azadlığın rişəsini kəsdi və irani bildiyimiz kimi fəlakətlərə sövq elədı. İndi də fərmandehi külle qüvayi mütləq yaratmaq İran xəlqinin, İran azadlığının xilafınadır və qeyri məsül məqamlar əgər bu işdə israr edərlər isə iranda böyük hadisələr vicuda gələr və mə'lum dəyil bu tamah qeyri məsül məqamatın nəf'inə tamam ola bilə.

Zahirdə sadə görünən saziş məsələsini bu nəhv ilə səfsətəyə döndərib bizi onbeş gün tehranda məətəl etdikdən sonra nəticəsiz azərbaycana qayıtmağa məcbur etdilər.

Sözün qisasi budur ki, Tehran hey'ət hakiməsi bizim başladığımız böyük işləri təmamilə ortadan aparıb, beş ay bundan əvvəlləki kimi şəhərlərimizi köhnə qəbristanlara, zəlalət və fışardan taza xilas olmüş xəlqimizi, jandarmlar, oğru, müxənnəs və cani mə'murların ayaqları altına salmağa çalışırlar. Sözün canı da burasındadır ki, qanun əsasi və sayir qanunları da bədbəxtanə bu məqsəd üçün alət qərar vermişdilər.

Bir də məsələ tək Azərbaycan məsələsi dəyildir, söz bütün iranda azadlıq, demokratlıq üsulunun yayılması üstündədir. Tehran hey'ət hakiməsini və Tehran böyük feodal və yer sahiblərini qorxuya salan da burasıdır. Onlar qanun əsasi ünvani altında bütün xəlqin hüququnu məhv etməyə çalışırlar.

Biz çox sadə adamlarıq, leykən sadəliyimiz o qədər dəyildir ki, kasanın altında gizlədilən yarım kasanı görəbilməyək. Biz diplomat dəyilik, lakin xoruzın quyruğunu görməkdən izimiz yoxdur.

Dava hamısı Molla Nəsərəddinin yorqanı, yəəni kəndlinin aldığı topraq və xəlqin aldığı hakimiyyət üstündə dir.

Bunu irtica' ünsürlərinin boşqablarının dibini yalayan Tehran irticai mətbu'atının zuvza çəkməsinə baxmayaraq bütün İran xəlqi düşünüb anlamışdır, söz azərbaycanın irandan ayrilması barəsində dəyildir, bunu iddia edn də yoxdur. Biz hərgiz bu iddiani irəli sürməmişik. Söz məşrutənin, demokrasi üsulunun iranda icra edilməsi və bizim başladığımız böyük islahat proqramının bütün məmləkət hüdudunda həyata keçirilməsi üstündədir...

Bizim artıq ayri yolumuz yoxdur, başladığımız islahati poza bilmərik, Tehran isə bütün İran xəlqinin həqqi hakimiyyətini təsdiq edib məmləkəti fəlakət və hərc - mərcdən nicat vermək yolunda ciddi qədəmlər götürməlidir.

Ağayi Qəvamülsəltənə gərək bilsin ki, dünya dəyişib, hətta iranda yeni nəsil vicuda gəlmişdir.

Bu nəsili yarım qərn bundan irəliki tərztəfəkkür və üsul ilə idarə etmək olmaz. Bir də hiss olunurdu ki, hey'ət vüzəra arasında təvafüq nəzər yoxdur. Əslən vəzirlərin əksəri təsadüfi adamlardır ki, şəxs ağayi Qəvamülsəltənə xüsusi və dustanə münasibat mülahizəsilə kabinəyə də'vət etmişdir.

Bunların da hər birisinin başı bir yerə bağlıdır, hətta şayiat var idi ki, bə'zi taza ərsəyə gəlmiş «qoca» dərbar xanımlarının da dövlət ə'zasına tə'sirləri vardır.

Tehran vaqiən məxuf, vaqiən xətərnak, vaqiən irani fəlakətə və İran xəlqini aclığa, beçaralığa, gədalığa sövq edən bir mərkəze fəsaddır.

Biz ciddən sülh və sazişə və iranın təmamiyyət ərzisinə talib və tərəfdar olduğumuz halda tehrandan bir nicat gözləyə bilmərik. Ağayi Qəvamülsəltənənin kabinəsi dəvamlı bir kabinə o vəqt ola bilərdi ki, Azərbaycan xəlqi ilə kənara gəleydi, mütəəssifanə bu günə qədər bu xüsusda ciddi bir qədəm götürməyə müvəffəq olabilməmişdir.

Bizim hüsn zənn və fədakarlığımız, kabinə üçün böyük bir şans idi ki, mütəəssifanə ağayi Qəvam ondan hənuz istifadə edə bilmir.

İstəyirəm sizi inandıram ki, kabinə əzasından bə'zisinin xüsusi və şəxsi nəzərləri ağayi Qəvamülsəltənənin rəftarında belə dərin bir tə'sir bağışlamışdır. Məsələn şayəd vəzirlərdən bir parası bizdə tiriak qanununun icrası səbəbilə azərbaycanlılara qanlı və ğəddar düşmən kəsilmiş onun nəzəri ağayi Qəvamülsəltənənin rəftarında münəkis olmuşdur.

Mütəəssifanə ağayi Qəvamülsəltənənin Azərbaycan məsələsi həqqində sadır etdiyi iblağiyyəni təcziyə etməyə fürsət yoxdur. Bu rəsmi sənəddə bizi heyrətə salan nəft və intixabat mövzuunun ortalığa çəkiləməsi və həqiqətdə onların girov saxlanılmasıdır.

Əvvəllən nəft məsələsi sadə iqtisadi və xarici siyasətə aid bir məsələdir. Bunu Azərbaycan məsələsinə qarışdırmaq heç bir məntiq ilə düz gəlmir.

Biləxərə Azərbaycan məsələsinin daxili bir məsələ olduğunu hətta ağayi Qəvamülsəltənə özü də təsdiq və e'lan etmişdir.

İntixabatın e'lani və onun ümum iranda azad bir surətdə əmələ gəlməsinə kimsə mane dəyildir. Məgər inəki təsevvür edək dövlət keçmiş səhnələri təkrar etmək istəyir.

Məsələn istəyir ki, azərbaycanda hər yerdə olduğu kimi pul, güc, təhdid vət tətmi' ilə bir iddə oğru, xain, mürtəce', millət nümayəndəsi naminə məclis kürsülərii işğal etsinlər.

Əgər məqsəd bu isə azərbaycanlı belə bir məclisə nifrət və inzicar ilə baxar və ağayi Qəvamın İttihad Cəmahir Şovrəvi müqabilində etdiyi tə'əhhüdə həmin bu məclisin böyük əngəl olabilməsini hətta onun özü də inkar edə bilməz. Bunların hamısını nəzərə alaraq biz dövlətə məsləhət görürük ki, Azərbaycan xəlqi ilə sadə və səmimi surətdə danışığa başlayıb onlardan o güzəştləri tələb etməsin ki, onun qəbuli bu xəlq üçün ölüm - dirim məsələsidir. Buna azərbaycanlı heç bir vəchilə hazır ola bilməz və olmayacaqdır.

Bunların hamısı ilə bərabər, işın sülh yolu ilə həll edilməsindən hənuz mə'yus dəyilik və bizim tərəfimizdən indiki aramişi pozmaq üçün qədəm götürülməyəcəkdir. Hətta sərhədlərimizə göndərilən sərbaz və jandarm dəstələri də bizi təhrik edə bilməz. Qorxmaq məsələsinə gəldikdə güman edirəm bütün Tehran mürtəce'ləri və Kor Mmircavad və Əmir Nüsərt və sayir fərari xəlq düşmənləri məsələn, Zülfüqari ilə bərabər bu işi təcrübədən keçirmişlərdir. Biz Həkiymi və Sədr kabinəsi zəmani dediyimiz sözü yenə də təkrar edirik:

Azərbaycana silah ilə gəlmək od ilə oynamaq deməkdir! Biz ağayi Qəvami ondan aqil bilirik ki, öz əlilə bu həriqi müştə'il etməyə iqdam etsin, əgər bu iş qabağa gələrsə xəlqimiz, elimiz və cəmaətimiz, arvatlı - kişili bir tən vahid kimi ayağa qalxacaq və topərağımıza uzanan xain və murdar əlləri həmişəlik qət' edəcəkdir!

**Yaşasın Azərbaycan Xəlqinin Milli Birliyi!**

**Yaşasın bu Birliyi vicuda gətirən Firqəmiz!**

**Yaşasın İran xəlqlərinin üzünə azadlıq qapusu açan qəhrəman Fədai və rəşid Qoşunlarımız!**

***

Çarşənbə günü axşam saat 8- də Azərbaycan dövlət teatrısı salonunda müxtəlif təbəqələrin iştiraki ilə böyük təntnəli bir konfrans təşkil tapdı.

Azərbaycan Demokrat Firqəsinin Sədry Azərbaycan Milli Hökümətinin Baş Vəziri və xəlqimizin sevimli rəhbəri ağayi Piyşəvəri Azərbaycan nümayəndələri heyətinin Tehran hökümət ilə apardığı müzakirələr xüsusunda təfsilən danışdılar.

Ağayi Piyşəvərinin bəyanati ehsasatla qarşılanıb və hazırlar tərəfindən dəfələrlə alqışlandı.

Sonra ağayi Piyşəvərinin bəyanati Fars dilində verildı. Nəhayət konfransda iştirak edənlər ağayi Piyşəvərinin guzariş və mə’ruzəsini eşitdikdən sonra bu qət’naməni ümumiyyətlə təsvib etdilər.

# Qət’namə

Çarşənbə günü Ordibehişt ayının 25-də axşam saat səkəkiz təmamda, Təbriz dövlət teatrısı binasında müxtəlif təbəqələrindən təşkil olunmuş ümumi konfransda, Azərbaycan xəlqinin tehrana göndərilən nümayəndələrinin rəyisi və Azərbaycan Demokrat Firqəsinin Sədri ağayi Piyşəvərinin tehranda aparılan müzakirənin güzarişini eşidərək aşağıdaki qərara gəldik:

Nümayəndə heyətinin Tehran Höküməti və məxsusən şəxs ağayi Qəvamülsəltənə ilə apardığı danışıqlarda izhar etdiyi nəzəriyyəsini bir rəy ilə təsvib edib onların Azərbaycan xəlqinin azadlığını və milli mənafe'ini şəhamtlə difa' etdiklərini təqdir və təmcid edirik.

Biz Azərbaycan Xəlqi ümid edirik ki, Tehran Höküməti ilə aparılan danışıqlar Azərbaycan məsələsini sülh yolu ilə həll edəcəkdir.

Bizim nümayəndələrimiz Tehran hökümətindən olan adilanə dərxastları bir daha Azərbaycan xəlqinin sülhtələb bir xəlq olduğunu isbat etdı. Azərbaycan xəlqi, bütün İran millətinin həqiyqi demokrasi və azadlığını hifz etməklə bərabər İran daxilində olmağa və onun həqiyqi istiqlalını hifz etməklə bərabər özünün azadlığını hifz edəcəkdir.

Əgər Tehran hökümətin bə'zi mürtəce’ ənasürün təhriki nəticəsində Azərbaycan millətini bir daha öz əsarəti altına almaq və ya xəlqimizin azadlığına təcavüz etmək istərsə biz Azərbaycan Xəlqi vahid bir tən kimi axirinci qətərə qanımız qalana qədər mübarizəyə hazırıq.

***

Ağayi Piyşəvərinin yuxarıda yazdığımız tarixi nitqi beş dəqiqə fasilə ilə bütün dünya radıolarinda təkrar edildı. Bununla Tehran hökümətinin gizli saxlamağa çalışdığı müzakirat təmamilə aşikara çıxdı. Ağayi Piyşəvərinin nitqindən sonra istərsə bütün dünya bildı ki, Tehran höküməti nehzətimizin ən əsasli səmərəsi olan topraq reformunu qəbul etməmiş, ağayi Piyşəvərinin riyasəti

altında göndərdiyimiz heyət, Tehran hökümətinin onları saxlamaq üçün israr ilə göstərdiyi təşəbbuslərə baxmayaraq Təbrizə müraciət etmişdir.

Bununla belə firqə suitəfahümə yol verməmək niyyəti ilə müzükirati təcdid etmək üçün hazır olduğunu müxtəlif vasitələr ilə Tehran hökümətinə bildirmiş, lakin heç vəqt Azərbaycan xəlqinin nehzət nəticəsində əldə etdiyi ixtiyaratın pozulmasına imkan verməyəcəyini də inkar etməmişdir. Nəhayət Xurdad ayının 23- də mərkəzi dövlət baş vəzirinin siyasi müavini ağayi Müzəffər Firuzun riyasəti altında azərbaycana bir heyət göndərildı. İki gün şiddətli mübahisədən sonra tehranda natəmam qalan müvafiqətnamə aşağıdakı təfsir üzrə təkmil və imza edildı.

Mərkəzi dövlətin 12- Ordibehişt tarixli e`lamiyyəsi nümayəndələrimiz tehrandan müraciət edərkən müntəşir etdikləri e`lamiyyə zimnində qeyd edilmişdir. Burada onun təkərarından sərfnzər edib 25/3/33 tarixdə onun təkmilində imza edilən müvafiqətnaməni eynən buraya dərc edirik.

# Dövlət Və Azərbaycan Nümayəndələri Arasında Müvafiqət Olunmuş Qərardadın Mətni

Dövlət və Azərbaycan nümayəndələri arasında olan müzükiratın tə'qibində və dövlətin iki Ordibehişt 1325 tarixli, 7 maddədən ibarət və həmin nümayəndələr tərəfindən qəbul edilmiş iblağiyyəni nəzərə almaq və təbadül əfkar nəticəsində təvafüq nəzər hasil oldu ki, aşağıdakı maddələr tövzih və mükəmmil ünvani ilə tənzim olunub və icrayə qoyulsun:

1- Ci maddə: Dövlət iblağiyyəsinin birinci maddəsi barəsində müvafiqət hasil oldu ki, bu cümlə ona artırılsın: Maliyyə reisi də əyaləti əncümnin pişnahadı və dövlətin təsvibi ilə tə’yin olacaqdır.

2- Ci maddə: Çün dövlət iblağiyyəsinin ikinci maddəsində müqərrər olmuşdur ustandar, əncümən əyalətinin nəzərini cəlb etmək şərti ilə, dövlət tərəfindən tə’yin olacaqdır, bu əslin icrası üçün müvafiqət hasil oldu ki, vəzarət kişvər, ustandarı əyaləti əncümnin pişnahad etdiyi neçə nəfərin arasından intixab edib və təsvib üçün dövlətə pişnahad etsin.

3- Cü maddə: azərbaycanda olan axır təhəvvülatı nəzərə alaraq, dövlət indiki Məclis Milini Əyaləti Əncümən mənziləsində tanıyacaqdır. 15-ci məclis təşkil tapıb dövlət tərəfindən pişnahad

olunan yeni əyaləti və vilayəti əncümən qanunu təsvib edildikdən sonra, Azərbaycan Əyaləti Əncüməninin intixabı, təsvib olmüş qanun üzrə tezliklə başlanacaqdır.

4- Cü maddə: Azərbaycan təhəvvülü və nehzəti nəticəsində nizam vəziyfə əfradından ehzar olunan qoşun ki, bu qərardadın imzasilə İran aretşi cüzündə olur və bu qoşun və fərmandehlərinin təklifini tə'yin etməkdən ötrü müvafiqət hasil oldu cənab ağayi Qəvamülsəltənə Dövləti və Azərbaycan Əyaləti Əncümni nümayəndələrindən ibarət bir komision təşkil tapıb və bu komision məsələni həll etmək yolunu tezliklə təsvib olmaqdan ötrü, pişnahad etsin.

5- Ci maddə: Müvafiqət hasil oldu ki, azərbaycanın əvayidindən yüzdə 75 fayizi məhəlli məxaric üçün ixtisas verilib və yüzdə 25 fayizi də İran məmləkətinin ümum məxarici üçün mərkəzə göndərilsin.

Təbsirə 1- Post və teleqraf, gömrük və dəmir yol və Urumiyə dəri açəsinin keştiranlıq məxarici və əvayidi küllən dövlət öhdəsinə və dövlətə münhəsir olacaqdır və zimnən qeyd edilir ki, əyaləti və vilayəti əncümənlər və dövləti dəvayirin teleqrafi məccanən müxabirə olunacaqdır.

Təbsirə 2- Əsasi şosə yollarının saxtmanı və tə'miri dövlətin və fər'i, məhəlli yolların ehdası və tə'miri isə əyaləti əncümnin öhdəsində olur.

Təbsirə 3- Azərbaycan əhalisinin İran məşərutiyyətinə etdiyi böyük xidmətləri və azərbaycanın ğəyur xəlqinin azadlıq və demokrasi qurmaq yolunda fədakarlığından qədirdanlıq və həqşünaslıq etməkdən ötrü dövlət qəbul edir ki, azərbaycanın gömrüki ayidatının yüzdə 25 fayizi Azərbaycan daraülfünününin məsarifini təmin etməkdən ötrü ixtisas verilsin.

6- Cı maddə: Dövlət qəbul edir ki, Miyana ilə Təbriz arasındaki dəmir yol xətinin çəkilməsinə tezliklə başlayıb və sür'ətlə əncam versin. Mə'lumdur ki, bu işdə Azərbaycan kargərləri və mütəxəssisləri müqəddəm tutulacaqdır.

7- Ci maddə: Nizam vəzifədən başqa «Fədai» adilə təşkil tapan davtələb qoşunlar jandarməriyə təbdil olunurlar və bu intizami qüvvələrin təklifini tə'yin etmək və həmçinin onun fərmandehlərinin tə'yini üçün müvafiqət hasil oldu ki, cənab ağayi Qəvamülsəltənə dövləti və Azərbaycan əyaləti əncümni nümayəndələrindən ibarət bir komision məhəldə təşkil tapıb və tezliklə bu məsələni həll etmək yolunu təsvibdən ötrü pişnahad etsin.

Təbsirə - Çün axır illərdə bə'zi namünasib əməllər nətiycəsində əmniyyə və jandarmeri adı İran ümumi əfkari müqabilində, xüsusilə azərbaycanda müxalif və namünasib ehsasat tövlid edibdir və çün axır vəqtlərdə dövlət reisi şəxsən bu təşkilatın fərmandehliyini öhdəsinə alıb və bu idarədə islahat və

nasaleh ünsürlərdən təsfiyə intizari gedir, buna görə müvafiqət olundu ki jandarmeriyə nisbət ümumi ehsasat, xüsusilə Azərbaycan əhalisinin ehsasati dövlət reisinə yetirilsin ta bu təşkilatın adını dəyişmək və onun üçün münasib bir ad intixab etməkdən ötrü lazimi qərarlar alsınlar.

8 - Ci maddə: Azərbaycan dəmokratik nehzətinin nəticəsində kəndçilər arasında bölunən yerlərin xüsusunda, o qismət ki dövləti xalisəcata mərbutdur, dövlət bütün məmləkətdə olan xalisələrin kəndçilər arasında bölunməsilə üsulən müvafiq olduğu üçün bu işın icrasını mane'siz bilir və bu məsələyə mərbut olan layihəni, birinci fürsətdə təsvib olmaqdan ötrü Məclis şövrayi Milliyə pişnahad edəcəkdir. Azərbaycanın əxir təhəvvülatı nəticəsində kəndçilər arasında bölunən başqa yerlər barəsində müvafiqət hasil oldu ki, maliklərin xəsarətlərin cübran etmək və ya onların əmlakının təvizindən ötrü cənab ağayi Qəvamülsəltənə dövləti və Azərbaycan Əyaləti Əncümni nümayəndələrindən ibarət bir komision təşkil tapıb və bu komision məsələnin rah həllini təsvibdən ötrü pişnahad etsin.

9- Cu maddə: Dövlət müvafiqət edir ki, 15- ci məclis açılan kimi azadlıq və demokrasi üsulu üzrə, yə'ni ümumi, gizli, müstəqim, mütənasib, bərabər və qadınlar da şamil olmaq şərtilə tənzim olunan intixabat qanuni layihəsini məclisə təqdim edib və onun təsvibini fövriyyətlə istəsin və həmçinin dövlət qəbul edir Azərbaycan və ölkənin başqa nüqtələri nümayəndələrinin sayını, əhalisinin tənasübi ilə artırmaqdan ötrü 15-ci məclis açılan günü qanuni layihəni pişnahad edib iki fövriyyətlə onun təsvibini istəsin ta təsvibdən sonra, intixabat vəsiləsi ilə həman nüqtələrin nümayəndələrinin kəsrini tə'yin və məclisə göndrsinlər.

10- Cu maddə: Azərbaycan əyaləti 3 və 4- cü ustanlardan ibarət olacaqdır.

11- Ci maddə: Dövlət müvafiqət edir ki, Azərbaycan işlərinin yaxşı qabağa getməsi üçün ustandar, idarə reysləri və əyaləti əncümnin heyət rəisəsindən ibarət bir idari şövra düzəlsin və bu şövra əyaləti əncüməninin nəzarəti altında vəzifəsini əncam versin.

12- Ci maddə: İki Ordibehişt 1325 tarixli dövlət iblağiyyəsinin 3-cü maddəsinə, mütəvəssitə və ali mədrəsələrin təklifini tə'yin etmək ləhazından mübhəm olduğu üçün, bu cümlə izafə olunur: «Mütəvəssitə və ali mədrəsələrdə tədris Farsi və Azərbaycani dillərində, vizarət fərhəng tərəfindən olunan islah, zəman və məkan şərayiti və demokratik üsullarla müvafiq və uyğun bir surətdə tənzim olunan proqram üzrə əməli olacaqdır.»

13- Cü maddə: Dövlət müvafiqət edir ki, azərbaycanda olan Kürdlər də bu müvafiqətnamənin məzayasından istifadə edib və dövlət iblağiyyəsinin 3-cü maddəsi üzrə 5-ci ibtidayi kilasına qədər öz dillərində tədris etsinlər.

Təbsirə - azərbaycanda olan Asuri və Erməni kimi əqəlliyyətlərin də həqləri olacaqdır ki, 5-ci kilasa qədər öz ana dillərində tədris etsinlər.

14- Cü maddə: Dövlət nəzərdə tutubdur ki, bütün İran üçün demokrasi üsulu üzrə, yə’ni ümumi və gizli, müstəqim və mütəsavi rəy ilə tənzim olunan şəhər əncümənləri qanununu təsvib olmaqdan ötrü, 15-ci məclisə pişnahad etsin. Bu qanun təsvib olan kimi, Azərbaycan və bütün İran nüqtələrində şəhər əncümənlərinin seçgisinə başlanacaqdır. Bu qanun təsvib olana dək və taza seçgilər əncam tapana qədər azərbaycanda olan indiki şəhər əncümənləri öz vəzifələrinə idamə verəcəklər.

15- Ci maddə: Bu müvafiqətnamə iki nüsxə də tənzim və mübadilə olub, dövlət heyəti və Azərbaycan əyaləti əncüməninin təsvibindən sonra icraya qoyulur.

**Təbriz şəhəri 23 xurdad 1325- il**

**Piyşəvəri - Müzəffər Firuz**

Müvafiqətnamə xüsusunda Firqənin nəzərini də bildirmək üçün ağayi Piyşəvərinin iki nitqini burada nəql etməliyik:

# Azərbaycan Demokrat Firqəsinin Sədri Və Azərbaycan Xəlqinin Sevimli Rəhbəri Ağayi Piyşəvərinin Dünən Gecə Radio Müqabilində Söylədiyi Tarixi Nitqi

Əziz həmvətənlər, möhtərəm azadixahlar!

Tehranda aparılan danışıqların nəticəsini oradan müraciət etdikdən sonra müfəssəl surətdə sizin nəzərinizə yetişdirdim. O gündən indi 35- gün geçir. Bu müddətdə Tehran mühitində zahiri də olsa, nəzəri cəlb etməyə bilən çoxlu təbddülat vicuda gəlmiş, ağayi Qəvamülsəltənə naminə intişar verilən mütəəddid bəyaniyələr vasitəsi ilə irticai ünsürlərə qarsı şədid mübarizə e’lan edilmişdir. Nəticədə kabinənin içərisində yer tutub onun izmihlal və məhvinə çalışan irticai ünsürlər mər'üb olmaqla dövlət rəisinin bizimlə yaxınlaşmaq üçün əl-qolu açılmağa başlamışdır.

Beləliklə fasid və zərərli ünsürlərin meydan-fəaliyyətini müvəqqəti olsa da məhdud edən dövlət rəyisi Azərbaycan xəlqinin başladığı böyük islahat nəqşələrindən ən əsasi olan topraq məsələsini

kəndli və zəhmətkeşlər nəf'inə irəli çəkməklə bizim mühitimizdə dərin təəsir icad etdiyi üçün yeni danışıqların daha səmiymanə bir surətdə başlanıb daha tez bir zəmanda müsbət nəticə ilə qurtarmasını imkan vermişdir.

Yuxarıda işarə etdiyim danışıqlarda izhar etdiyim cümləəri məxsusən təkrar edirəm:

Dava hamısı Molla Nəsərəldinin yorqanı, yəəni kəndlinin aldığı topraq üstündədir. Xalisə yerlərinin dehqan və əkinçi arasında bölunməsini qanun əsasi mən' etməmişdir. Azərbaycan kəndlisi öz iradəsi ilə bu yerləri bölmüşdür, dövlət isə bütün İran, Azərbaycan ilə həmrəng olmaq üçün bu işi əyalət və vilayətlərdə əməli etməlidir.

Bu cümlələr aydın bir surətdə göstərir ki, o vəqt bizim fikirimizi işğal edib, suizənnimizə səbəb olan ən mühüm məsələ həman kənd və topraq məsələsi imiş. Bu gün e’tiraf etmək lazimdir ki, bu böyük və bu əsasi məsələnin həlli üçün ağayi Qəvamülsəltənə çox ciddi bir qədəm götürməyə müvəffəq olmüş və bu vasitə ilə arada olan fasilə azalmağa başlamış, ortada ciddi bir hüsn təfahüm zəminəsi təhiyyə edilmişdir. Əgər dövlət tərəfindən edilən ayrı güzəştlər olmasa idi belə, yenə biz bu böyük iş xatirəsinə ürəyimizi sıxıb fikirimizi narahat edən suizənni, mühitimizdən uzaqlaşdırmalı idik. Xoşbəxtanə birinci qədəmi cürət ilə götürməyə müvəffəq olan mücərrəb dövlət rəyisi ikinci böyük qədəm ilə onu daha da möhkəmləndirməyə müvəffəq oldu. O isə bizim dilimizə olan ehtiram və onun təkmili üçün meydana sürdüyümüz təqazanın səmimiyyətlə qəbulu idi.

Ağayi Qəvamülsəltənə ömründə heç bir iş görməmiş olsa belə bu bir iş ona nisbət Azərbaycan xəlqinin qəlbində dərin bir ehtiram hissi tövlid edəcək. Milli mədrəsələrimiz durduqca onun adı da firqəmizin və xəlqimizin qəhrəman başçıları kimi gələcək nəsillərimizin dilində təkrar ediləcəkdir.

Doğrudur xəlqimiz, fədailərimiz, qəhrəman firqəmiz bu həqqi özünün möhkəm iradəsi və təzəlzülnapəzir imani və xəta etməyən silahi vasitəsilə təhsil etmişdir. Bununla belə ağayi Qəvamülsəltənənin bu xüsusda kömək və müsa'idəti fövqəladə dəyərli olmuşdur.

Əgər Tehran mühitini zəhərləyən fasid mütəəssiblərin göylərə ucaltdıqları həyhuni nəzərə alarsaq, o vəqt ağayi Qəvamülsəltənənin dəqiq və müdəbbir bir dövlət başçısı olduğu daha bərcəstə bir surətdə meydana çıxar.

Hamınız çox gözəl bilirsiniz ki, azərbaycnlılar üçün dil məsələsi həyat və mümat məsələsidir. Lakin iranlılığı Farslığa qarışdıran cahillər bunu düşünmək istəməyib Azərbaycanlıların qəlbini dillərinin zəhərli xəncəri ilə məcəruh etməyə çalışmış və çalışırlar. Biz hənuz unutmamışıq ki, doqquz ay bundan əvvəl e`lamiyəmizdə dil azadlığı barəsində meydana sürdüyümüz şüar münasibətilə bu

axmaq mütəəssiblər nə əndazə də hyahu salmış və nə adlar ilə bizi töhmətləndirib meydandan çıxarmağa can atmaqda idilər.

Bu gün başımızı uca tutub iftixar ilə deyə bilərik ki, xəlqimizin möhkəm iman və sarsılmaz iradəsi sayəsində o tilismi sındırıb, dilimizin nə tək ilbtidayi mədrəsələrdə bəlkə orta və ali elmi ocaqlarda belə rəsmi olaraq tədrisinə yol açmış, idarələrimizdə dövlət dili olan Farsi dili ilə ana dilimizin yanaşı işlədilməsinə rəsiyyət verməyə müvəffəq olmüşuq. Əlbəttə bu böyük işın iftixari əsasən firqəmizə və xəlqimizə ayid dir. Lakin unutmaq olmaz ki ağayi Qəvamülsəltənənin hüsn niyyəti, mövqə' şünaslığı və quru təəssübdən uzaq olub həqiqəti olduğu kimi görməyə olan qüdrəti bu məsələnin həllində fövqəladə müəssir olmuşdur.

Üçüncü böyük müvəffəqiyyətimiz azərbaycanda dövlət məəmurlarının öz tərəfimizdən intixab edilməsidir. Bu yolda xəlqimiz uzun müddət mübarizə etmişdir.

Şəhərlərimizin xərabazar halda qalması, el və xəlqimizin fərhəng və behdaşt və sadə yaşayış vəsailindən məhrumiyyəti, qətə'n bu səbəbdəndir ki, tehrandan gələn məəmurların bizə ürəyi yanmayıb fəqət ciblərini doldurub geri qayıtmaq məqsədləri olmuşdur. Bundan sonra buna mətlub rəsm qətə'n ortadan gədəcək, xəlqimiz özünün intixab etdiyi əncümənlər vasitəsilə öz sərniviştini tə’yin etmək və öz idarə işçilərinin fəaliyyətini nəzarət altına almaq, öz gücü ilə fərhəng, behdaşt, iqtisad və maliyyə işlərini düzgün əsas üzərində qoymağa imkan tapacaqdır. Bu müvəffəqiyyətin mə’nası olduqca dərin və olduqca böyükdür.

Həqiqət halda, aldığımız bu həqq, hənuz elə də kamil hesab ediləbilmir və apardığımız şədid mübarizənin ərzişi də bundan böyükdür. Bununla belə mühit zəmani və məkani nəzərə alarsaq görərik ki, çox böyük iş görmüşük və ağayi Qəvamülsəltənə höküməti isə bu hədd əqəll həqqi bizə qayil olmaqala gözlənilən böyük vətəndaş müharibəsinin qabağını almış və bu vasitə ilə azərbaycana və ümum irana dəyərli bir xidmət göstərmişdir.

Mən cüziyata varid olmaq istəmirəm, laybüdd siz dövlətin intişar verdiyi 7 maddədən ibarət olan iblağiyyəsini və bizim onun təkmilində imza etdiyimiz müvafiqətnaməni hamınız oxumusunuz. 9- ay apardığmız mübarizə əlbəttə ağır, şədid və taqətfərsa olmuşdur.

Xahiş edirəm bu yolda şəhid olan qəhrəman fədailərin ehtiramına ayağa qalxıb bir dəqiqə sükut edəsiniz!

E’tiraf etməliyik ki, doqquz aylıq mübarizəmiz fövqəladə ağır və çətin olmuşdur. Verdiyimiz qurbanlar isə bizi şədid bir surətdə mütəəssir edir, leykən əldə etdiyimiz müvəffəqiyyətlər daha

qiymətlidir. Elə qiymətlidir ki, onların mə'nasını düşündükdə çəkdiyimiz zəhmətlərin acısı yadımızdan çıxır. Azadlıq şühədasının ruhumuzda qoyuqları təəsir yüngülleşir və tarixi xatirələr hali alır.

Bir də mənim zənnimcə büdcə azadlığı diqqətə şayandır. Biz çox gözəl bilirik ki, pul olmazsa heç bir işi qabaqdan aparmaq olmaz. Bu vəqtə dək azərbaycanın gəliri mərkəzə gedib, orada əgər müxtəlis və oğrulardan artıq qalsa idi qeyri zəruri işlərə məsrəf olunurdu. Bundan sonra gəlirimizin yüzdə yetmiş beşi (75 %) öz daxili işlərimizə məsrəf ediləcəkdir. Gəlirimiz əlbəttə çox böyük dəyildir. Leikən sənaye' və fəlahəti tərrəqqi verməklə biz onu çox səri' bir surətdə artırmağa müvəffəq olacayıq.

Bu vasitə ilə dir ki, biz ümid edirik başladığımız bu böyük islahata əncam verib xəlqimizi fəlakət və bədbəxtlikdən qurtarıb səadətmənd və müasir bir xəlq halına salmağa müvəffəq olacağız.

Təkərar edirəm çəkdiyimiz zəhmətlər nə qədər ağır və taqətfərsa olsa belə aldığımız nəticə ondan daha böyükdür. Məxsusən o cəhətdən böyükdür ki, biz bu nəticəni davasız və qan tökülmədən əldə edəbilmişik.

İndi müxaliflərimizin, mürtəce'lərin arasında cür- bəcür danışıqlar və dedı- qudu vardır. Bə'ziləri deyə bilir ki, ağayi Qəvamülsəltənə demokratları aldatmış, bəəzisi də çalışırlar isbat etsinlər ki, ağayi Qəvamülsəltənə ələ aldığı höküməti saxlamaq üçün demokratların ətəyinə düşmüş azərbaycana pənah gətirmişdir.

Biz bu kimi sözlərə əbədən əhəmmiyyət verməməliyik, nə ağayi Qəvamülsəltənə bizim başımıza börk qoymuş nə də biz onu aldatmaq fikirində olmüşuq. Bunlar hamısı boş sözlərdir. Hətta bizim imzaladığımız mütəqabil müvafiqətnaməni təslimə tə'bir edənlər olmuşdur, bəlkə bə'ziləri də qompuz göstərmək üçün azərbaycanı fəth etdiklərini iddi'a edə bilir. Biz öz növbəmizdə bu sözlərə gülüb onları söyləyənləri məsxərə edirik.

Burada heçəks - heçəksə təslim olmamış və kimsə də azərbaycanı təsxir etməmişdir. Biz də ağayi Qəvamülsəltənə ilə bərabər təşxis vermişik ki, xəlqin qəlbindən qalxan böyük dəmokratik nehzətimiz o vəqt nəticə verə bilir ki, bütün irana sirayət edərək qanuni şəkil alsın. İmzaladığımız müvafiqətnamənin bundan başqa bir tə'bir və təfsiri ola bilməz.

Xarici siyasətdə isə bizim mərkəzi dövlət ilə sazişimiz azadlıq düşmənlərini xəl' silah etdı. Artıq iste`mar siyasətinin kiçik və böyük amilləri Azərbaycan nehzətini bahana edib İran istiqlalına kəc baxa bilməyəcəklər.

Axırdə bir neçə kəlimə Xəmsə və Zəncan məsələsi həqqində danışmağa məcburam. Hamınız bilirsiniz ki, bu vilayətın əhalisi dil və adab və rüsum cəhətindən təmamilə azərbaycanlıdırlar. Hətta axır vəqtlərə qədər oranın hakimi təbrizdən tə'yin olunardı. Bundan əlavə milli nehzətimiz başlanan zəman Zəncan bizim müdaxiləmiz olmadan qiyam edib jandarm cəlladların və Xəmsə cəmaətini illər boyu zülm və əsarət altında saxlayıb onların qanını soran Zülfüqari və onun quyruqlarını oradan qovub çıxarmaqla nehzətimizin pişrəftinə səbəb olmüş, azərbaycanın ayri  nüqtələrindən daha böyük fədakarlıqla irtica' qüvvələrinin ölkəmizdə rixnə tapmasının qabağını almağa çalışmışdır.

Bizə mə'lum dəyil nə səbəbə dövlət nümayəndələri Xəmsənin azərbaycandan ayrilmasında israr edirlər. Hənuz bilmirik ağayi Qəvamülsəltənə hansı amillərin təəsirində Zəncan əhalisinin bu məşru' həqdən məhrum etməyə təsmim tutmuşdur.

Hər halda biz danışıq zəmani bu xüsusda uzun- uzadı münaqişəyə və mübahisəyə mə'ruz olduqdan sonra ümumi iş xatirəsi üçün ağayi Müzəffər Fiyruzun müvafiqətnamədə mənim adıma yazdığı rəsmi məktuba istinadən müvəqqəti olsada Xəmsəyə təbrizdən hakim tə'yin edilməyəcəyinə imkan verdik.

Ağay Müzəffər Fiyruz aqayi Qəvamülsəltənənin siyasi müavini Zəncanda dəmokratik nehzətində şirkət edənlərin hər növ' təərrüzlərdən məsun olmaları və oranın əmniyyətini təəmin etmək üçün yerli fədailərdən istifadə olunması, həmçinin Zülfüqari və Yəmini və Əsləhədarbaşı kimi xəlq düşmənlərinin Xəmsəyə yol verilməyib onların hər növ' təhrikatının qabağı alınmasını kətbən və rəsmən tə'əhhüd etmişdir.

Əlbəttə bizim nüqteyi nəzərimizcə bu kafi dəyildir. Mən teleqrafxanaya toplanan Zəncan əhalisnə əmniyyəti hifz edib və nehzətimizi idarə edənlərin hüsn niyyətinə inanmalarını tövsiyə etdim. Biz bütün iranda azadlıq və əmniyyətin dəvam və bəqası yolunda mübarizə etdiyimizə görə Xəmsə və Zəncanda qabağa çıxa bilən hadisələrə biz biytərəfanə bir göz ilə baxa bilməyəcəyiz. Ona görə də danışıq hər nəhv ilə qurtarır- qurtarsın, Xəmsə və Zəncanda olan firqə təşkilatımız güni- gündən fəaliyyəti artırıb baş qalldıra bilən irticai ünsürlər ilə əsasli bir surətdə mübarizə edəcəkdir.

Xəmsə demokratların incitmək üçün (!) uzadılan əllər kimin tərəfindən olur-olsun abədı olaraq kəsiləcəkdir.

Biz hənuz məəyus dəyilik, ümid edirik ağayi Qəvamülsəltənə bu xüsusda bir qədər mütaliədən sonra rəyini dəyişməyə müvəffəq olacaqdır.

Bu olmasa da madam ki, bizim dilimiz, ehsasatımız və adab və rüsum, biləxərə sərniviştimiz birdir heç müvəqqəti tədbir bizi bir-birimizdən ayırmağa səbəb olmayacaqdır. Möhtərəm həmvətənlər!.. Bu sözləri danışmaqdan mənim məqsudum xüdsitalıq, həmasəquluq dəyildir. İndı bizim söz və ibarətpərdazlıq ilə məşğul olmağa vəqtimiz yoxdur. Mən hal qəziyyəni olduğu kimi sizə şərh verməklə gələcək vəzifəmizi aydınlaşdırmaq imkanını zənn edirəm əldə edə bildim.

Gələcək vəziyfə, aldıqlarımızı saxlamaq və ondan xəlqimizin səadəti üçün istifadə etməkdir.

Bu məqsədə çatmaq üçün qabağımızda duran ən mühüm vəziyfə Məclis Şövrayi Milli intixabatının azadixahlar nəf'inə əncam tapmasıdır. Bu işdə müvəffəqiyyət tapa bilməzsə mən demirəm qazandıqlarımızı saxlaya bilmrik, lakin işimiz çox çətin olar. Onda naçar olarıq yenə də silahi ələ alıb və vuruşma və çarpışma ilə məqsədimizi əldə edək. Deməк məsələ hənuz xatimə tapmamış, fəqət mübarizənin şəkili dəyişmişdir. Bu mübarizədə hanki tərəfin fəaliyyəti- tədbiri daha artıq, təşkilati daha münəzzəm isə qələbə onunla olacaqdır. Zənn edirəm firqə və xəlqimiz bu işdə imtahan vermiş olduğunda, müvəffəqiyyətimizə şübhə yeri qallmır.

Bununla belə yenə də fəaliyyət, yenə də gözü açıqlıq, yenə də fədakarlıq lazimdir. Mütəssifanə söz çox, vəqt isə az dir. Bununla kifayətlənib bütün İran azadixahlarına birlik, müvəffəqiyyət arzu etməklə onun ələmdari olan Azərbaycan Xəlqinə əbədi səadət təmənna edərək sadə bir dil ilə deyirəm:

Məhv olsun onun azadlığını məhdud etmək istəyən xain və mürtəce’ iste`mar nökərləri!

Yaşasın Azərbaycan!

# Fədailər Atası Və Azərbaycan Milli Hökümətinin Baş Vəziri Ağayi Piyşəvərinin Azərbaycan Məclis Millisinin Axirinci İclasındakı Nitqin Xülasəsi

Möhtərəm ağalar! Mənim bu günkü danışığım elə fikir edirəm ki, xəlqimizin mübarizə tarixində bir səfhəni qurtarıb ikinci bir səfhənin başlanması tarixidir. O vəqt ki, siz mənə e’timad edib milli nehzətimizi idarə etmək üçün vəzirlər hey’ətini intixab və məclisə mü'ərriflik etəmyi mənə tapışırdız, o vəqt azərbaycanda dövlət naminə heç bir şei yox idi. Dövlət təşkili və vizarətxana idarə etmək bizim

hamımız üçün sabiqəsiz bir iş idi, mən azərbaycanda dəmokratik nehzətində iştirak edənlərdən və xəlqimizin səadəti yolunda çalışan adamlardan bir nəfər tapa bilmədim ki, onun vəzirlik sabiqəsi olsun. Ona görə firqənin göstərişi ilə cavan adamları intixab edib onları vəzir məqamına yetirmək üçün məclisə pişnahad etdim.

Firqəmizin geniş və münəzzəm təşkilati və mübarizə meydanında aldığımız təcrübələr bizə imkan verdi fikir edək ki, vəzir olmaq əşrafiyyətdən və uzun müddət idarələrdə çalışmaqdan asılı dəyildir. Ona görə mülahizə və mühafizəkarlığı kənara qoyub cəsuranə qədəm götürməkdən pərhiz etmədik, mən vəzirlər hey’ətinə də’vət etdiyimiz əşxasın demokratlığına və azadixahlığına inanmışdım, buna binaən onları irəli çəkib və məmləkətin sərniviştini onlara tapışırmaqdan qorxmadım. Bu, görülməmiş bir iş olduğu üçün tehranda və başqa yerlərdə nəzərə bə'id gələbilərdı. Lakin biz buna e’tina etməyib höküməti təşkil verdik. Unutmamalıdır ki, bu hökümət mə'muli bir hökümət dəyildı. O, həqiqətdə bir inqilabi komitəyə bənzəyirdi. Adətən inqilab mövqeində imkan olmür ki, mə'muli bir dövlət təşkilati iş başına gəlsin, ona görə də inqilabçılar işi idarə etmək və qanuni dövlət zəminəsi düzəltmək məqsədi ilə mə'mulən müvəqqəti bir inqilabi komitə intixab edərlər. Amma biz bunu etmədik. Buna görə Milli Hökümətimiz inqilabi komitə dəyildı. O, Məclis Milli tərəfindən intixab olunduğuna görə inqilabi olduğu halda qanuni bir hökümət idi.

Tarixin cür bəcür mö'cüzələri vardır. Bir vəqt olur ki, tarix elə bir müəssisə vicuda gətirir ki, onun dünyada heç sabiqəsi ola bilmir. Məsələn Rusiyyədə böyük Oktobr inqilabının nəticəsində elə bir hökümət meydana çıxdı ki, dünyada onun sabiqəsi və nəziri yox idi. O, fəhlə, kəndli ittifaqını təəmin edən bir hökümt idi. Fəransa inqilabi da özünə məxsus hökümət şəklini vicuda gətirdi. Bizim bu Milli Hökümətimizin nəziri isə tarixdə demək olar ki, çox azdır. Bizim hökümətimizin gördüyü işlər və həyata keçirdiyi tədbirlər qanuni yol ilə olmuşdur. Lakin inqilabi təşkilatda və təhəvvül zəmanında bu kimi sazman çox az görülmüşdür.

Buna da səbəb firqəmizin düzgün rəhbərliyidir, məclis daxı firqəmizin rəhbərliyi altında təşkil olunduğu üçün bu işi görmək nisbtən səhulət ilə mümkun oldu. Bundan əlavə həmişə Məclis ilə Firqə və dövlət arasında möhkəm təvafüq nəzər və səmimiyyət var idi. Məsələn Heyət Dövlət gecə saat 4 də iclas edirdi və Məclis də bir saat ondan sonra o iclasın pişnahad etdiyi layihəni təsvibə yetirib həman gün o qanun icra olunurdu. Xəlq isə bu işdə böyük ehsasat nişan verdı, bizim işlərimizin səri' bir surətdə pişrəft etməsinin əsasi səbəblərindən birisi də budur. Bu mənim heç yadımdan çıxmaz ki, 21-Azər günü mən 20-dənən ziyadə mühüm işlər həllində təsmim tutub bərq-asa surətdə onları əncam verməyə müvəffəq olmüşdüm. O gün ağayi Biyriya ilə bərabər dolandığım yerləri o mənə söylədikdə özüm də heyrətə qalıram. Məclis Millimiz açılandan birneçə saat əvvəl onun nizamənaməsini yazıb, sonra məclisi iftitah edərək nizamnamənin təmam maddələri ətrafında izahat verib təsvibə yetirdikdən

sonra həmin gün məclisin heyət rəiysəsini nizamnamə üzrə intixab etdik. Nəhayət Milli Dövləti qurub onun bərnaməsini tənzim edərək məclisə təqdim etməklə işə başladıq. O gün hənuz bütün azərbaycanda irtica'in barmaqğı ilə oynayan qüvvələr mövcud idi. Məsələn Təbriz, Urumiyə, Ərdəbil, Şahindəj və qeyr yerlərdə qoşun saxlovları biz ilə dəst və pəncə nərm etməyə hazırlanırdılar. O gün ki, məclis və dövlət təşkili ilə məşğul idik dava və cəng qorxusu hər an şiddət tapırdı və Məclis Milli eşikdə guruldayan müsəlsəl və tüfəng səsləri altında öz fəaliyyətinə idamə verirdı. Əgər unutmamış olsaz sərtip Dirəxşani ilə aparılan danışıqların bünbəstə yetişdiyi cəhətdən sizdən müharibə etmək məqsədi ilə rəəy-e'timad istədim və sizlər hamınız ayağa qalxıb və azadlığımızdan müdafiə etmək üçün silah tələb etdiz. Bunlar hamısı dastanlarda və qəhrəmanlıq əfsanələrində yazılan işlərdir, ağıl buna inana bilməz. Mən bu sözləri ağzıma alıb danışanlardan dəyiləm. Lakin, məclisin axır dövrəsi olduğu üçün istəyirdim gördüyümüz işlər tarixdə səbt olunsun. Qoy tarix yazsın ki, qan tökülmənin qabağını almaq üçün bu qədər ağır işlər gördüyüm halda mən alti saat təmam sərtip Dirəxşani ilə danışıq aparmağa məcbur olub biləxərə xəlqin arzusunun əncam verməyə müvəffəqiyyət tapdım. Mən özümdən tə'rif etmək istəmirəm, bu mənim şəxsimə aid dəyildir, mən bir nəfər Fədayi kimi tapışırılan vəzifələri əncam vermişəm. Bu, bəlkə xəlqimizin qüdrəti və firqəmizin fəaliyyətindən bir nümunə ola bilər. Bunlar xəlqimizin və firqəmizin qüdrətini, vəhdtini və fəaliyyətini isbat edir. Bu iş ki. azərbaycanda başlanıb bütün iranda azadlıq və demokrasi üsulunun bərpası üçün möhkəm bir paya olmuşdur. Yüzlərcə dəlillər vardır ki, bu iş bütün iranda tövsi'ə tapacaqdır.

Bu isə ancaq o kimi qəhrəmananə fəaliyyətin məhsulu və nəticəsidir. O gün bütün firqəmiz ayağa qalxmişdı. Ona görə də biz onun arzularını həyata keçirmək üçün heyrətavər bir qüdrətə malik olduğumuzu hifz edib mö'cuzələr yaratmağa nail ola bilərdik və biz bildiyiniz kimi 21- Azərdə yazdığımız bərnamə üzərində işə başladıq. Bir günün ərzində köhnə höküməti yıxdıq və yeni təşkilat vicuda gətirdik. İndı isə o bərnamədən çox böyük məsafədə irəli getməyə müvəffəq olmüşuq. İcra etdiyimiz bərnamədən əlavə az zəmanın içərisində beş böyük bina tikdirməyi qərara almışıq ki, bunların da hər birisi bir million tümənə başa gələcəkdir və onlara başlamaqla təmam işsizləriməzə iş tapıla biləcəkdir. Əgər yadınızda dirsa bir vaxt azərbaycana üç yüz min tümən ətiyəyi mülukanə verilmişdir ki, heç kəs bilmədı o haraya xərcləndi. Amma indi isə biz yuxarıda dediyimiz saxtımanları vicuda gətirmək üçün 5- million tümən onlara təxsis vermişik.

Bu yolları biz firqəmizin fəaliyyəti sayəsində və xəlqimizin iradəsinin gücü əsərində topraqların altından çəkib çıxarmışıq. Biz heç bir kəsin nəzərində olmayan sərvəti ortaya çıxardıq. Bu fəqət xəlqimizin iradəsinin tövlidi olan firqə və hökümətimizin gücü idi. Bu isbat edir ki, xəlq gərək öz işlərini özü intixab elədiyi şəxslərə tapşırsın.

Tehran dövləti bizə pul qoymamışdı. Biz hökümәti әlә alan mövqe'dә bankda iki milion tümәn pul var idi ki, dövlәt idarәlәrin hüququnu tә'min etmәk üçün hәman Azәr ayinda biz iki o miqdarda pul tәhiyә etmәk mәcburiyyәtindә qaldıq. O vaxt mürtәce'lәr bizim üstümüzә mәtbu'at vә әslәhә vasitәsilә hәmlә etmәkdә idi. Biz mәcbur idik ki, aldığımız azadlığı vә qurduuğumuz hökümәti saxlayaq. Biz hökümәti müdafiә etmәkdәn ötrü üç ay fәqәt fәdailәrin qüdrәtindәn istifadә etdik. Bilәxәrә münәzzәm arteş müqabilindә tәk fәdailәr gücünә müqavimәt mümkun olmazdı. Naçar idik ki, Milli Qoşun tәşkil verәk. Bundan ötrü dә pul lazim idi. Әvvәllәrdә müşgülata tәsadüf etdik. Vәli çox tez bir zәmanda işә müsәllәt olub pul tәhiyyәsi işkalını da ortadan apardıq. Bunların hamısı ilә bәrabәr mübarizә bizim üçün çox çәtin idi. Hökümәt iki tәmayülün arasında qalmışdı. Bunlardan biri sağlar vә ikincisi sollar idi. Әgәr әvvәl tәbәqә yәәni mütәmәkkin vә varlılara artıq tәmayül göstәrseidik, o vaxt kargәr vә әkinçilәr bizdәn rәnciydә olardılar. Bәrә'ks әgәr kargәr vә әkinçilәrin tәrәfini saxlasaydıq varlılar bizimlә mübarizәyә çıxıb bir iddә yoxsullarsa onlara alәt olardılar. Ona görә orta bir xәt hәrәkәt intixab edib hәr iki tәrәfin mәnafe'ynin hifz olunmasına çalışdıq. Sağ vә sol hizbinin hәr ikisi bizim siyasәtimizә inanıb onu qәbul etdı vә nәhayәt, onların hәr ikisinә dә sabit oldu ki, Milli Hökümәtin götürdüyü orta xәt hәrәkәt daha düzgün imiş. Mәxsusәn kәndli әmәldә gördü ki, Demokrat Firqәsindәn sivay ona yaxın vә ürәyi yanan yoxdur.

Milli hökümәt yeganә müәssisәdir ki, kәndli vә zәhmәtkeşlәrin istәklәrini yerinә yetirmәyә çalışır. Biz nә zare'in hәqqini malikә vә nә dә malikin hәqqini zare'ә satdıq. Biz fәqәt xәlqin malı olan xalisә yerlәrin hәqiyqi sahibi olan әkinçilәrin arasında böldük. Biz malikiyyәt әsasını möhkәm saxladıq vә maliklәri inandırdıq ki, onların hәqlәrini payәmal etmәk xәyalinda dәyilik. Biz bir dәqiqә belә rahat durmamışıq. Hәmişә iş görüb işın pişrәfti üçün tәşkilat yaratmışıq. Hәr bir sahәdә böyük qәdәmlәr götürmәyә mәxsusәn xәlqimizin әxlaqında böyük tәğyirat әmәlә gәtirmәyә sәbәb olmuşuq. Xalqımız mәdәnileşmiş vә alicәnab bir xәlq olmuşdur. Mәsәlәn, mitinqlәr vә ictimalarda anlaqlı vә mәtanәtli bir intizam hiss olunur. Hәtta xırda uşaqlar ki, tozun torpağın içindә bir birilә savaşmaqla vaxt geçirirdilәr, onlar da indi islah olunub münәzzәm surәtdә dәstәlәr tәşkil edir, müfid işlәr ilә mәşğul olurlar.

Yuxarıda dedim ki, Milli Hökümәt bir müvәqqәti inqilabi komitә idi. Lakin ayri nüqtyi nәzәrdәn bu hökümәti tam mә'nası ilә qanuni, rәsmi vә dәmokratik bir hökümәt tanımalıyıq. Çünki biz әvvәlinci qәdәmdә Mәclis Millinin verdiyi qanun üzrә rәftar etmәyә әhәmmiyyәt verib bir qәdәm dә olsun qanundan kәnara çıxmaq istәmәdik vә heç bir nәfәrin dә olsun hәqqinin zaye` olmasına çalışmadıq vә hәmişә sә'y etdik ki, tәdbirlәrimiz sülh vә sәfa yolu ilә hәyata geçsin. Bu nüqteyinәzәrdәn Milli Hökümәt inqilabi komitә dәyil idi. O fәqәt qanuni bir hökümәt idi...

Belə bir hökümətin nəziri tarixdə az ittifaq düşə bilər və demək olar ki, bu, tarixin elə mö'cüzələrindəndir ki, fəqət inqilab mövqe'ində nagəhani olaraq tapılıb xəlqi heyrətə qərq edər. Azərbaycanın xaricində yaşayan əşxasa bizim işlərimiz çox tə'cili gəlirdı. Biz özümüz işin içində olduğumuz üçün gördüyümüz işlər gözümüzə elə böyük görsənmir, lakin bunlar xaricdən baxanları heyrətə salır. Bir az müddət içərisində boş əlilə böyük işlər meydana çıxarmışıq. Məsələn Milli Bank, Daraülfunun, Radio təşkilati, şəhərin lüləkeşliyi, Milli Qoşun və bu kimi ümumun mənfəətini təəmin edən böyük işlər fəqət xarüqüladə himmət və fədakarlıq nəticəsində ola bilər.

Maarif, fəlahət və səhiyyə xüsusunda danışmaq istəmirəm, çünki vəzirlər bu barədə lazimi qədər izahat verdilər. Bizim işlərimiz ibtikar üzrə olmuşdur və onların heç biri Tehran işlərinə bənzəmir. Bizim məclisimiz Tehran məclisinə oxşamır. Mən və mənim yoldaşlarım heç birimiz sabiqdə vəzir olmamışıq. İndi ki, ağayi Şəbistəri məclisə rəislik edir o onun fəqət öz ibtikarıdır.

Bunlar hamısı xəlqimizin ibtikari sayəsində vicuda gəlmişdir. Bizim gördüyümüz işlərin nəticəsinin İranın ayrı yerlərində də inikası var. İndi Tehran bizim işlərimizi təqlid edir. azərbaycanda yer bölgüsü həyata geçirildiyi üçün bütün iranda da əməli olacaqdır.

İndi iranın ayrı nüqtələrinin xəlqləri azərbaycanda görülən işlərin arzusunu çəkirlər. Əgər onlar istəyir ki, bizim nail olduğumuz müvəffəqiyyətlərə nail olsunlar gərək böyük zəhmətlər sərf etsinlər. Əgər onlar istəsələr azərbaycanda olan cərəyanla özlərini həmahəng etsinlər və burada görülən islahati öz yerlərində əməli etsinlər, gərək onları əhatə edən gəndablardan kəsafətləri mürtəfe' etsinlər.

Yəəni Təbrizdə Amerika müxbirləri mənimlə müsahibə edərkən onlara dedim əgər mənə imkan olsaydı mən Azərbaycan nehzətinin həqiqi mahiyyətini və Azərbaycan xəlqinin pak və hərarətli ehsasatını bütün Urupaya və Amerikaya gedib oranın sakinlərinə bildirərdim. Biləxərə Şovralar İttifaqının düzgün siyasəti sayəsində mürtəce'lərin oxu daşa dəydı. Azərbaycan nehzətini Şovralar İttifaqının hesabına yaza bilmədilər. Mən bu axır vəqtlərdə təmas etdiyim xarici diplomatların hərəkat və rəftarını gördükdə bu əqidəyə gəldim ki, müstəmlikə sahibi olan dövlətlər içərisində həqiqət yoxdur. Onlar istəyirlər neçə millionluq bir xəlqi öz mənfəətlərinin və şum məqsədlərinin qurbani etsinlər. Onların məqsədləri fəqət qazanmaq, qazanmaq, qazanmaqdır.

Belə bir zəhəralud və tufanli dəryada Milli Hökümət müvəffəq oldu öz xəlqinin mənafe'ini və həqqini təşxis verib onu hifz etsin. Biz o fitnəkar töhmətlərin qabağında möhkəm dayandıq. Xarici siyasət meydanında ciddi və əsasli qədəmlər götürüb aqilanə və düzgün tədbirlər görməyə müvəffəq olduq. Biz burada bir az tünd getsəydik uduzmuş olardıq. Ona görə də nəhayət dərəcədə mətanət ilə rəftar etdik.

Biz İran istiqlaliyyətinə xidmət edib onu təəmin etmişik. Bizim nehzətimizin qüdrəti çox böyükdür. Ona görə biz eləyə bildik ki, istədiklrimizi əldə edək. Mərkəzi hökuməti qorxudan şey fəqət Azərbaycan nehzəti idi. Hətta bizim əleyhimizə 9 ay ciddi mübarizə aparan şəxslər indi bizim demokratik nehzətimizi təhsin edirlər və onun bütün irana yayılmasına çalışırlar. Bu da bizim aqilanə siyasət və düzgün iqdamatımızın əsərində olmuşdur.

Bizim qurduğumuz hökumət müqəddəs və pak siyasət üzərində əsaslanmışdır. Xəlqin asayiş və əmniyyəti də onun nəticəsində əmələ gəlmişdir.

İranın istiqlaliyyətinin hifz olunmasından ötrü gərək iranın başqa nüqtələrində yaşyan xəlqlər də azərbaycanlıların işindən nümunə götürsünlər. Bizim nehzətimiz qurtarmayıb bəlkə mübarizəmizin şəkili dəyişilibdir. Ona görə də hərks bu sazişdən su-istifadə xəyalinda olub və fikir edə ki, gərək xəlqə zor desin, bu kimi əşxasla ciddən mübarizə olunacaqdır. Onlar qanun və xəlq mücazatından qaçabilməzlər. Biz bütün İran əhalisini inqilaba də'vət etmək istəmirik. Bəlkə məmləkətdə demokrasi üsulunu əmələn icra etməyə çağırırıq.

# Bir Qədər Də İranın Ümumi Vəziyətindən Danışmaq Lazimdir

Bizim milli nehzətimizin başlanğıcında Tehran ruznamələri şeytənət nüqteyinəzər ilə yazırdılar ki, əgər Tehran zərbaycana yaxşı baxsaydı və ora adil hakim göndərsəydi Azərbaycan nehzəti qabağa çıxmazdı. Lakin işın həqiqəti belə deyil. Nehzətimiz fəqət Azərbaycan xəlqinin iradəsi və imani üzərində vicuda gəlmişdir.

Azərbaycanlıların özlərinə görə dili, adab və rüsumu, tarixi, milliyyəti və xüsusiyyəti vardır.

Azərbaycan xəlqini Xüzistanlıya, Xorasanlıya, və başqalarına bənzətmək olmaz. O ümumiyyətdə iranlı olduğu kimi xüsusiyyətdə də Azərbaycanlıdır. O siyasət ki, Xüzistanda icra edilir burada ola bilməz. Azərbaycanlı qərnlər boyu azad yaşamaq istəyirdi, Azərbaycan xəlqi istəiyrdi ki, öz sərniviştində dəxalti olsun. İran Tehrandan ibarət dəyil. Gərək Tehran siyasətində bütün iranın tə'siri ola. Azərbaycan hər şəkil ilə olursa olsun öz xüsusiyyətini hifz edəcəkdir. Alti yaşlı Azərbaycan

balasının ağzına özgə bir dili, cəbrən soxmaq olmaz. Dava çörək və yaxşı hakim davası dəyildir. Demək milli nehzətimiz daha dərin və əmiq səbəblərdən meydana çıxmışdır.

Bu nehzət fəqət azərbaycanlılıq təəssübü əsərində vicuda gəlməmişdir. Bunu ayrı dona geydirmək və ayrı cür tə'bir etmək səfahətdır. Bilirsiz ki, muharibənin nəticəsində iranda istibdad hökuməti yıxıldı və ondan sonra zahirdə demokrasi bir hökümət əmələ gəldi. Lakin ona heç demokrasi demək olmazdı. Onun iş başına gələməsilə dövlət dəstgahında heç bir dəyişiklik əmələ gələmədı. Biz bu zahiri demokrasi hey'ət hakiməyə itminan edə bilməzdik, ondan ötrü ki, 13-cü məclis ə'zasının hamısı və 14-cü məclisə seçilənlərin əksəriyyəti onlar idi ki, Rizaxan özü onlara qabaqki məclislərdə yer vermişdir.

Həqiqətdə iranda Rizaxandan sonra heç bir təğiyrat əmələ gələməmişdi. Fəqət istibdadın şəkili dəyişmişdir. Vaqe'də Rizaxanın yerini ondan daha kiçik, daha həris olan Süheylilər və Tədəyyünlər, Həkiymilər, Saidlər və Sədrüləşraflar tutmuşdular.

Beləliklədə iranda xəlq azadlığı üçün böyük bir xətər hiss olunurdu. Qorxu gündən günə artırdı.

Çünki müharibə qurtarandan sonra müttəfiqlər irandan xaric olacaq idilər. Onlar iranda olarkən mürtəce'lər bir qədər zahiri gözəlməyə məcbur olurdular. Beləliklə iranda iki qüvvə arasında kəsgin mübarizə gedirdi. Bu iki qüvvədən biri qalmalı idi. Xəlq qüvvələri günügündən zəiflənirdi.

İrtica'i qüvvələrin əlində hökümət və pul və silah olduğuna görə onlar qüvvət tapırdılar. Onlar yerlərdə kəndliləri incitməyə, azadiyxah ruznamələri tovqif etməyə, ittihadiyyə və azadiyxah təşkilatları bağlamağa başlamışdılar.

Belə bir zəmanda İran xəlqinin azadlığının ortadan getməsi üçün bir yol fikir etmək lazim idi. Azadlıq mübarizəsi həyat və mümat mübarizəsi idi. O vaxt biz yoldaşlarımızla fikirleşib və hərcürə söhbət edirdik nəticə ələglmirdi.

Nəhayət, biz gördük ki, danışmaq ilə bir nəticə əldə etmək olmaz. Gərək gücün qabağına güc ilə çıxmaq. Ona görə də 12- Şəhrivərdə az iddə ilə cəsuranə qədəm götürüb qabağa çıxdıq və azərbaycanda azadlığı həyata keçirməklə bütün iranda azadlığın tə'min olunmasını nəzərdə tutduq. O vaxt biz aşikar surətdə yazmışdıq ki, bütün İran azadlığını tə'min etmək üçün azərbaycanda böyük bir nehzət yaratmaq lazimdir.

İran irticai Azərbaycan xəlqinin əlilə yıxılmalıdır. Ona görə bugun deyirik ki, Azərbaycan İran azadlığının zaminidir. Əgər bundan sonra mürtəce'lər qüvvə tapıb imza etdiyimiz müvafiqətnamənin tək bir maddəsinə əl vursalar yenə ayağa qalxıb onu müdafiə edəcəyik.

Biz bir də irtica' boyunduruğu altına girməyəcəyik. Gərək irtica'in qabağı alınsın. Bizim e`lamiyyəmiz nəşr olunan günədək irtica' teleqraf və ictimadan qorxmayıb xəlqin sözünə əhəmmiyyət vermirdı. Bizim e`lamiyyəmiz əvvəl dəfə onların kürkünə birə saldısa da ona əhəmmiyyət verməyib dedilər ki, bu e`lamiyyə də deyilmiş sözlərdən biridir.

Biz bu mövqe'dən istifadə edib firqə təşkilatını bərqasa bir surətdə vicuda gətirib məhəlli hHzb Tudə təşkilati ilə birləşib vahid qüdrətli bir firqə vicuda gətirdik. Mərağa, Sarab, Miyana və Zəncanda fədailərimizin tüfənglərinin səsi eşidilən günədək mürtəce' hökümətlər bizim e`lamiyyələrimizin həqiyqi qüdrətini dərk edə bilməmişlərdı. O vaxtdan bəri  Azərbaycan qüdrətli bir amil tanındı.

Mürtəce'lər əvvəlcə istəyirdilər cürbəcür yollar ilə bizim təşkilatımızın və nehzətimizin qabağını alsınlar. Ona görə də azərbaycana Katuziyan, Zəngənə və Vərəhram kimi satqınları göndərmişdilər. Vəli nəticədə ümidləri kəsildi və sabit oldu ki, xəlq nehzətini aradan aparmaq olmaz.

Təcrübə onlar üçün yəəsavər oldu, sübut etdı ki, bu nehzət Azərbaycan xəlqinin qəlbindən qopan bir tufan imiş. Bizim mübarizəmiz irtica'in zülm və əsarətindən qurtarmaq mübarizəsi idi. Bu mübarizədə millət bizim arxamızda dayanmışdı. Eyn zəmanda İran azadixahları da Azərbaycan nehzətini düşünüb və onu təqviyət edirdilər. Burada irtica' əl-ayağını itirib xaricilərə mütəvəssil olmağa başladı və istədi ki, bizim nehzətimizin rəngin dəyişdirib hay-küy ilə onu aradan aparsınlar. Lakin xəlqimizin möhkəm iman və əqidəsi onlara faiq gəldı. Ona görə də məcbur oldular, fəqət bir rəəy əksəriyyəti ilə ağayi Qəvamülsəltənəni hökümət başına gətirsinlər və onun vasitəsilə azərbaycanın demokratik nehzəti ilə hesablaşsınlar. Bu, güzəşt dəyil idi. Bəlkə onlar məcbur idilər. Mürtəce'lər bilirdilər ki, ağayi Qəvamülsəltənə uzun-uzadı təcrübəsinin sayəsində eləyə biləcək Azərbaycan ilə razılaşmağa yol tapsın. Əlbəttə ağayi Qəvamülsəltənənin iş başına gələməsi bizim üçün müvəffəqiyyət idi. Lakin onun kabinəsində yenə də İran mürtəce'ləri birləşmişdı. Onları kabinəyə də'vət etməyə ağayi Qəvam məcbur idi. Bu işi görəməsəydi əksəriyyət qazana bilməzdı. Bu da ağayi Qəvamülsəltənənin ustadlığına dəlil ola bilər idi. İran məclisində irticai hədəflərdən başqa bir də xüsusi hədəflər vardır ki, hər kəs çalışar öz adamlarını iş başına gətirsin.

Ağayi Qəvam nümayəndələrin ruhiyəsinə bəld olduğu üçün bundan istifadə etməyə müvəffəq oldu. Ondan başqa ayrı cür bir yol yox idi.

Əlbəttə ağayi Qəvamülsəltənə gələcəkdə o adamlardan yaxasını qurtaracaqdır. Bu işi görməzsə təkiyə etmək istədiyi azadixahların e'timadını cəlb edə bilməyəcəkdir. Bu kabinə Kirilovun mə'ruf balıq, ördək və xərçəngin əraba çəkmək hekayəsini xatirə gətirir. Bununla belə kabinə hərəksdən təşkil olursa olsun Azərbaycan nehzətinin təkamülü əsərlərində meydana çıxmış və bizim ilə

hesablaşmaq məcburiyyətində qalmışdır. Hətta kabinədə elə adamlar vardır ki, Azərbaycan dili ondan ötrü ölümdən bədtərdir. Bavücud-in o, bu dilin azərbaycanda tədris və inkişafına əngəl törədə bilməmişdir.

İndi biz nə inki ibtidayi məktəblərdə hətta mütəvəssitə və ali məktəblərimizdə də öz ana dilimzdə təhsil etmək həqqini almağa müvəffəq olmüşuq. Bundan başqa əsas məsələlərdən biri də torpaq məsələsidir. Biz 12- Şəhrivər bəyannaməsində fəqət xalisə və xəlq düşmənləri yerlərinin əkinçilər arasında bölunməsini irəli sürmuşdük. İndi mübarizə nəticəsində bu sahədə daha artıq müvəffəqiyyət qazanmışıq və Tehran isə bizim dalımızca gəlməyə məcbur olmuşdur.

Əlbəttə onları bu işlərə vadar edən bizim qüdrətli nehzətimiz və düzgün siyasətimizdir. Bununla da irtica'ın ərkanına böyük rəxnə düşmüşdür. Bu vasitə ilə 40 il təmam məşrutə inqilabının nəhalının üstündə qalan ağır daş bir az da olsun kənara çəkildı. Məşrutə inqilabi ondan ötrü idi ki, xəlq hakimiyyəti öz əlinə alsın. Lakin daxili və xarici mürtəce'lər onu boğmuşdu. Hakimiyyət müstəbidd şahın əlindən müstəbidd adamların əlinə düşmüşdü. Bizim nehzətimiz 40 il rakid qalmış məşrutə nehzətini diriltdı. İndi əlbəttə irtica' təmamilə ölüb aradan getməyibdir. Bəlkə onlar 15-ci məclisdə yenə də nüfuz tapmaq istəyirlər. Onlar firqə təşkilatımızdan qorxurlar. Bizim nehzətimiz iranda böyük bir zəminə hazırladı. Azərbaycan nehzəti böyük bir firqəyə və xəlqə təkiyə edibdir ki, bu da böyük bir amildir. Ayri  bir amil gündən günə azadiyxah təşkilatların güclnməsi və torpaq bölgüsü nəticəsində İran kəndlilərinin nəzərinin cəlb etməsi və onları nehzətimizə tərəfdar halına salmasıdır. Dediyim kimi tarixin mö'cüzələrindən biri də Qəvamülsəltənə hökümətinin təşkili ilə bizim xəlq qoşunlarımızın təşkilinin bir vəqtə təsadüf etməsidir.

# Bir Neçə Kəlimə Də Müvafiqətnamə Həqqində Demək Lazimdir

Sizə təqdim etdiyimiz müvafiqətnamə bu sadəliklə meydana çıxmamışdır. Onun hər bir maddəsində mükərrər həllaclıq olunmuşdur. Milli Hökümət özünü xəlqin və tarixin qabağında məsul görürdü ki, işi səhl tutmamış var qüvvəsilə xəlqin hüququndan müdafiə etmişdir. İcazə verin bağlanan müvafiqətnaməni oxumaqdan qabaq onun zamin icrasi barəsində bir neçə söz deyim. Əvvələn bunu bilməlisiz ki, biz bu işi başlayan zəman zamin icra ola bilən heç bir qüdrətə malik dəyildik.

O vaxt biz heç növ’ vahiməyə yol verməyib istədiyimizi almağa müvvəffəq olduq. İndi də onu saxlaya biləcəyimizə imanımız vardır. Bir də bu müvafiqətnamənin birinci zamin-icrası xəlqimiz və Milli Məclisimiz dir. Bu məclisimiz həmişə aldıqlarımızın zamin icrası olacaqdır. Azərbaycan həmişə öz məclisinin dalınca gedəcəkdir.

Xəlqimiz və məclisimizin zamin icrası isə firqəmizdir. Firqə heçvəch ilə mürtəce’lərə imkan verməyəcək ki, aldıqlarımızı ortadan aparsınlar. Məclisimizi yaradan firqəmiz onun da zamin icrasıdır. Digər zamin icramız azərbaycanın xaricində və İran daxilindəki azadiyxah qüvvələrdir. Onlar bilirlər ki, biz olmasaq onları aradan aparacaqlar. Onlar bizdən himayət edib və bizdən də köməklik gözləyirlər. Bu isə qüvvətli bir zamin icradır.

Azərbaycan azadlığının digər bir zamin icrası gələcək Məclis Şovrayi Milli dir. Ona görə gərək biz elə nümayəndələr intixab edək ki, onlar xəlq tərəfdarları olsunlar. Şübhəsiz ki, biz ona da nail olacağız.

Biz gərək gələcək məclisi elə hala qoyaq ki, o azadlığın mərkəz siqli olabilsın. Hərgah biz müvəffəq olaq ki, azərbaycandan və iranın başqa nüqtələrindən azadiyxah ünsürlər məclisə intixab olunsun onda irtica’in qüvvəsini sındırıb iranda azadlığı əbdi surətdə tə’min etmiş olarıq.

İndi bizim qarşımızda iki yol var, ya gərək məclisdə əksəriyyəti vicuda gətirək və ya gərək öz qüvvəmizlə aldıqlarımızı hifz edək. Əgər istəyələr ki, aldıqlarımıza əl uzadalar onda xəlqimiz öz gücü ilə istədiklərini alacaqdır.

Mən öz firqəmiz və təşkilatımızın gücünə inanmışam. Bizim firqəmiz məşrutə kötüyü üstündə göyərmiş bir nəhaldır. Mən fikir edirəm ki, azərbaycandan gedən nümayəndələrin hamısı azadiyxah olacaqlar. Buna heç şübhə yoxdur ki, firqəmiz imanlı adamları namzəd edəcək. Xəlqimiz artıq düşünüb və bilir ki, azərbaycanlıların mənafe'ini hifz edən yeganə bir qüvvə varsa o da Azərbaycan Demokrat Firqəsidir. Gərək xəlqimizin içində ittihad, iman və qardaşlıq olsun. İrtica’i fikirlərin zamin icrası da bizim bir-birlərimizə ədəm e’timad və ədəm ittihadımız olabılər. Biz gərək var qüvvəmizlə ittihadımızın pozulmasına yol verməyək. Hər o adam ki, azərbaycanlıların ittihad və ittifaqına zidd olsa, birəhmanə olaraq aradan aparılacaqdır. Bu müvafiqətnamə bizim mübarizəmizin nəticəsində əldə edilibdir. Bununla da bizim mübarizə tariximizdə yeni bir səhifə açılır. Nehzətimiz aldıqlarını burada səbt edir və mübarizəmizin ikinci dövrəsinə qədəm qoyur.

***

Sonra ağayi Piyşəvəri mərkəzi dövlətin 7 maddəli iblağiyyəsini və 15 maddədən ibarət olan müvafiqətnaməni oxuyaraq hər maddənin ətrafında müfəssəl surətdə şərh verdilər.

# Yeni Dövr , Yeni Şüarlar

Tehran ilə müvafiqətnamə bağlandıqdan sonra firqəmiz yeni bir dövrəyə qədəm qoydu. Bu dövrə qarşımızda duran vəzifələrə görə firqənin xət-hərəkətini dəyişdirmək lazim gəldı. Əgərçi müvafiqətnamə vasitəsilə bütün məsələlər həll olunmamışdır, məxsusən intizamat qüvvəsi və qoşun təşkilati məsələsi bilatəklif halda dir və bu sətirləri yazan gün həman məsələləri qət'i surətdə həll etmək üçün Tehrana, Azərbaycan Əyaləti Əncüməni rəisinin təht-riyastində bir heyət göndərilmişdir, bununla belə mübarizəmizin gedişində böyük bir dönüş hiss olunmaqdadır.

Bu dönüş münasbətilə firqə öz xət hərəkətinə təğyir verib şüarlarını dəyişdirmişdir. Dünənə qədər biz Azərbaycan xəlqini əsarət altında saxlayan istibdad və irtica' qüvvələrini əzib ortadan çıxarmaqla, öz hakimiyyətimizi, millətimizi, özümüzün milli dil və milli xüsusiyyata malik bir millət olduğumuzu sübut etməyə və bu həqqi inkar edib nehzətimizə qarşı duranları silah gücü ilə yolumuzun üstündən götürməyə çalışır, eyn zəmanda xəlqimizin səadətini təəmin etmək üçün böyük islahat nəqşələri təhiyyə və onu fövriyytlə şuru edirdik.

Firqənin düzgün rəhbərliyi sayəsində ayağa qalxmış xəlq isə aclığa, susuzluğa və məhrumiyyətə baxmayaraq firqəmizin şüarlarını əməli etmək uğrunda hər cür fədakarlığa hazır olduğunu əmələn isbat etməkde idi. Bu isə bizə müstəqil bir surətdə hərəkət etmək üçün geniş fəaliyyət meydani və böyük imkanlar yarada bilərdı. Bu gün isə şərayit dəyişmişdir. İndi aldığımız həqqi və isbat etdiyimiz millətimizi saxlamaqla xəlqin səadəti üçün başladığımız islahata idamə vermək vəzifəsi meydana çıxmışdır. Bunu isə firqə yaradıb müsəlləh fədai dəstələri təşkil etmək, jandarm və irticai qoşun dəstələrini sürüb Azərbaycan torpağından çıxartmaqdan daha çətin bir məsələ dir. Bu işdə qani soyuqluq, möhkəm əzm və iradə, təşkilati intizama salmaq, firqə əfradı və xəlqin ruhiyəsini hifz etmək kimi ağır və müşgül məsələlər meydana çıxır. Dünənə qədər hakimiyyət yolunda mübarizə etdiyimiz üçün ehsasati təhrik olunmuş xəlq asanlıq ilə ardımızca gəlirdı. Bu gün onu gətirmək üçün münəzzəm təşkilat və əsasli təbliğata ehtiyac vardır. O indi gərək düşüncə və bilik üzərində irəli çəkilsin, ehsasat ani işlərdə faydali ola bilər. Uzun və tədriyci mübarizələrin silahi isə bilik və təşkilatdır.

Ona görə dir ki, firqə təşkilatının əhəmmiyyəti meydana çıxır. Ona görə dir ki, xəlqin anlaqlı və düşüncəli təbəqəsi dövlət təşkilatından ziyadə firqə ətrafında daha artıq düşünüb onun işlərinin gedişinə daha artıq təvəcöh edir.

Firqəmizin başçısı mükərrər demişdir ki, biz sədr məşərutiyyət azadixahlarının səhvlərini bir daha təkrar etməyəcəyiz. Bu böyük simalar, çox mə'lumatli rəhbərlər az dəyil idi. Onların göstərdikləri istiqamət və nişan verdikləri qəhrəmanlıqlar da çox böyükdür . Vəli onların əldə etdikləri azadlığı saxlamaq üçün düşünəbilməmələri səhv və iştibah hesab olunur. Ağayi Piyşəvərinin həmişə israr ilə təkrar etdiyi məsələ budur. O həmin cəhətdən dir ki, öz nitqlərində və yazılarında firqə üzvlərinə əldə edilən böyük müvəffəqiyyətlərə güvənib sabahi unutmamalarını həmişə tapşırıbdır, «Azadlığı almaq kafi dəyil onu saxlamaq, ondan xəlqin səadəti üçün istifadə etmək şərtdir!» şüarını təkrar edir. Böyük məşrutəçilər məşrutəni aldılar vəli onun saxlaması üçün bir tədbir geçirməyib, bir təşkilat vicuda gətirmədilər. Ağayi Piyşəvəri bunu onlar üçün böyük səhv hesab edir və bunun təkrar olunmamasını tapşırır. Və firqəmiz isə bu məsələyə təvəccöh etdiyi üçündür ki, təşkilatımızı gündən günə qüvvətləndirmək və xəlqi onun ətrafına toplamaq məsələsinə hər bir işdən artıq əhəmmiyyət verir.

Hərgah poladdan möhkəm intizam və birliyə malik olan firqə təşkilatımız olmazsa müvəffəqiyyətlərimiz məşrutəçilərin müvəffəqiyyətləri kimi müvəqqəti olub irticai ünsürlər ayaqlanaraq onu öz istifadələri üçün yeni bir vasitə olmaq dərəcəsinə tənəzzül verə biləcəklər.

Bu xətəri hiss etdiyi üçündür ki, firqəmizin sədri bütün firqə üzvlərini, bütün xəlqi və bütün azadixahları firqəyə təvəccöh göstərməyə, firqənin dalınca getməyə, firqə işlərini hər bir ayrı işə tərcih verməyə də'vət etmişdir.

Hər bir namusli azərbaycanlı istər kişi, istər arvat, istər qoca, istər cəvan kim olursa olsun birinci növbədə özünü Demokrat Firqəsinin fədayisi və sərbazi hesab etməlidir.

O hər işə iqdam etdikdə düşünməlidir ki, bu işə firqə nə cür baxır və bu işın bizim gündəlik şüarımız ilə nə kimi əlaqə və təmassı ola bilər.

Belə olmazsa alınan azadlığı saxlamaq, ondan xəlqin səadəti üçün istifadə etmək olmaz.

Hənuz xəlq firqəmizə inanır. Ondan öz atiyəsi üçün böyük ümidlər gözləyir. Hənuz qoca arvatlardan başlayıb kiçik yaşlı qızlara qədər, qoca kişilərdən cəvan uşaqlara kimi hamılıqla sabahın qorxulu naümidliyindən xilas olub firqəmizin ümidilə yaşamaqdadırlar.

Hənuz xəlq ürəyində deyir, bizim firqəmiz var, bizə düzgün rəhbərlik edən böyüklərimiz var. Onlar bizi acından tələf olmağa, fəlakətə düşməyə, yolçuluq və gədalığa məhkum olmağa meydan verməyəcəklər. Xəlq bizə, bizim firqəmizə, bizim başçılarımıza, bizim firqəmizin sədrinə bu nəzər ilə baxır.

Azərbaycan kəndli qızlarının cahazi, Azərbaycan kəndli cəvanlarının dirilik sərəmayası biləxərə Azərbaycan zəhmətkeşlərinin gələcəkdə olan ümid mənbəyi budur.

Buna görə dir ki, xəlq ölkədə olan hər bir dəyişikliyə və hər cür təbəddülata qorxu və ümid ilə baxır. Çünki hamı onun düzgün rəhbərliyinə adət etmiş onun sədaqətinə və qüdrətinə inanmış onu özü üçün ürəyi yanan ata hesab və intixab etmişdir. O hiss edir ki, əgər firqəyə bir tərəfdən sədmə varid olarsa onun şəxsi və ictimai zindəganlığı pozulacaq, bununla da ümum xəlqin gələcəyi məhv olacaqdır.

Bu günə qədər xəlq firqəmizə o göz ilə baxmışdır. Şəhrivərin Azərbaycan xəlqinə verdiyi böyük səadət vasitəsi və böyük ümid çırağı da budur, yəəni firqəmiz dir. İkinci ilə qədəm qoyarkən bu möhkəm paya üstündə işləməli və xəlqin səadəti xəlqin azadlığının əzəmətli binasını həmin əsasın yəəni xəlq e'timadının üzərində qoymalıyıq.

Əlbəttə xəlq bizim qara qaş-gözümüzə aşiq dəyildir. Xəlqin əksəriyyətini təşkil edən kənd və şəhər zəhmətkeşləri bizi şəkil və surətimizə görə bəyənməmişdir. Bizim gördüyümüz işlər, göstərdiyimiz iste'dad və bürüza verdiyimiz həqiqətdir ki, onların bizə olan məhəbbətini tövlid etmişdir. Bu məhəbbəti əbədiləşdirmək üçün indi daha artıq fəaliyyət göstərmək və daha artıq iste'dad büruza vermək lazimdir.

On iki Şəhrivər müraciətənaməsini yazarkən, firqəmizin rəhbəri  ağayi Piyşəvəri fəqət iki nəfər yəəni ağayi Şəbistəri  və ağayi Bdəkan ilə razılaşmış və bu gün firqəmizə rəhbərlik edən bu üç fədai, əlbirlikdə işə başlamışlar. İndı isə ağayi Piyşəvəri iki yüz minə baliğ olan firqənin sədri hesab olunur. Ağayi Şəbistəri  isə xəlqin mübarizəsi nəticəsində əldə edin əyaləti əncüməninin başında durur. Ağayi Bəkan isə hər iki rəisin müavinət məqamını dərk etməklə  firqə rəhbərliyi və əncümnin fəaliyyətində böyük vəzifələr əncam verir.

İndi firqəmiz içərisində yüzlərcə qəhrəman rəhbərlər meydana çıxmışdı.

Bir illik mübarizənin nəticəsində dünənə qədər adı-sanı xəlqə məchul olan sadə insanlar arasında ləyaqətli hərbi əfsərlər də yetişdirilmişdir: Jeneral Danişiyan, jeneral Kəbiyri, jeneral Kaviyan, sərhəng Aram, sərhəng Caviydan, sərhəng Quli Sübhi, və sayir fədai başçıları bu gün böyük

ləyaqət və yararlıq göstərməklə nə tək Azərbaycan, bəlkə bütün iranda öz ləyaqət və iste'dadları sayəsində şöhrət qazanmış və xəlqimizin dayaqları olmaq məqamına gəlmişlər.

İndi bizim firqə təşkilatlarımızın başında ciddi və fədakar cəvanlarımız vardır ki, bir il bundan əvvəl onların vicudı müsmir- səmər (yəəni fayda verici bir vicud) hesab oluna bilməzdi.

Biz ağayi Piyşəvərinin dediyi kimi çox iş görmüşük, ağıla gəlməyən müvəffəqiyyətlərə nail olmuşuq, lakin bu heç də kafi dəyildir. İndi vəzifəmiz daha ağır və işimiz daha çətindir.

Biz gərək aldıqlarımızın saxlanılması vəsaylini təəmin edək və başladığımız islahatın idaməsi üçün qanuni yollar tapaq. Xəlqimizin azadlıq və səadətini təəmin etmək üçün ətrafımızda olan kəsif mühitin təmizlənməsi vəsilələrini təhiyə edək. Bu isə daha ağır və işimiz daha müşgül bir işdir.

Əgər bina olsaydı İran mürtəce' ünsürləri təht-hakimiyyətində qalsın, o halda bizim müvəffəqiyyətlərimizin əlimizdə qalmasına heçvəchilə ümid bağlamaq olmaz . Biz bu işi daimən nəzərdə tutmalıyıq, ona görə ikinci ildə fəaliyyətimizi Azərbaycan daxilində məhdud etməyib ümum İran azadixahlarının apardıqları ağır və şədid mübarizə də iştirak etməliyik.

Bir illik mübarizə bizim üçün İran xəlqi arasında böyük nüfuz, şöhrət və e'tibar vicuda gətirmişdir. Bundan istifadə edib İran irtica'ini sərəniqun etmək yolunda böyük qədəmlər götürməliyik. İndi bütün İran azadixahları bizə qardaşlıq əli uzadır, biz onların əllərini sıxıb birlikdə mübarizəmizə idamə verməliyik. İran azadixahları e'tiraf edirlər ki, bizim Milli Dəmokratik nehzətimizin əsəri Azərbaycan hüdunda məhdud olmayıb bütün irani işıqlandırmış və bütün İran azadlığını təzmin etmişdir. Bizim qəflətimiz olursa bütün İran azadlığının izmehlalına səbəb ola bilər.

Bu məsələni ağayi Piyşəvəri tehranda olarkən Hizb-Tudə təşkilatının rəhbərlərinə açıq bir surətdə bildirmişdi. Onlar Azərbaycan ilə hökümət arasında movrid-müzakirə olan müvafiqətnamənin bir növ' qurtarıb işınə xatimə verilməsini irəli sürmüşlərdi. Ağayi Piyşəvəri özünə məxsus saf və sadəquluq ilə cəvab vermişdı ki, əziz azadixahlar, siz çox tələsməyin, bizim boynumuzda olan vəzifənin ağırlığını düşünün! Biz əgər yanlış bir xət hərəkət götürüb ciddi bir iştibaha yol verirsək, tək Azərbaycan Demokrat Firqəsi dəyil bütün İran xəlqinin azadlığının ortadan getməsinə bais ola bilirik.

Ağayi Piyşəvəri o gün çox yaxşı hiss etəmişdı ki, bu günə tək Azərbaycan xəlqinin və bəlkə bütün İran xəlqinin səadəti onun imzasına bağlıdır. O siyasət ilə aşina olan ürəklərin döyüntüsünü belə, hiss etməmiş dəyildi. Ona görə on beş günlük danışıq nəticəsində tənzim olunan müvafiqətnaməni imza etmədən Təbrizə müraciət etdı. Öz doğma xəlqini, öz firqə yoldaşlarını müstəqim məşvərət və ittifaqi ilə məsələni həll etmək istədi.

Bizim firqə üzvlərimiz və firqə başçılarımızın hamısı bu məsuliyyəti hiss və dərk etməlidirlər. Milionlarca insanların səadəti bizim düzgün rəftatrımızdan, düzgün düşüməyimizdən və düzgün işləməyimizdən asılıdır.

İndi bir irandır, bir Demokrat Firqəsi

Biz inanırıq ki, firqəmiz ondan gözlənilən böyük vəzifəni şərafətlə əncam verəcək və tarixin qızıl səhifələri də onun adını qəhrəman firqələrin sırasında səbt edəcəkdir.

**(son) Təbriz, 12 Şəhrivər 1325**